AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
Z.M.BÜNYADOV ADINA ŞƏRŞÜNASLIQ İNSTİTUTU

# İRAN İSLAM RESPUBLİKASI

(MƏLUMAT KİTABI)

**Tərtib edəni: SALEH DOSTƏLİYEV**

**BAKI - 2012**

**Elmi redaktoru: prof. G. Baxşəliyeva**

**Redaktorlar: V. Mustafayev,**
*tarix üzrə fəlsəfə doktoru,*
**Ə. Rəhimli (Bije)**
*iqtisadiyyat üzrə fəlsəfə doktoru*

**İran İslam Respublikası** (məlumat kitabı).
Bakı, "Bakı Çap Evi", 2010. 204 səh.

**İSBN 978-9952-581-23-10**

© AMEA Şərqşünaslıq İnstitutu, 2010

## ÖN SÖZ

İran İslam Respublikası bizim cənub qonşumuzdur. Ölkəmiz böyük məsafədə bu ölkə ilə həmsərhəddir. Xalqımızın İran xalqı ilə bir çox bağlılıqları vardır. Bəşər tarixinin müəyyən mərhələlərində İran və Azərbaycan xalqları müştərək tarixə malik olmuş, birgə taleləri yaşamışlar. Xalqlarımızın həmçinin birgə dini bağlılıqları vardır. Onların bir hissəsini bir-birinə qohumluq əlaqələri də birləşdirir.

Onu da qeyd etmək lazımdır ki, İranın ərazisində Azərbaycan xalqının böyük hissəsi yaşayır (təxminən 35 milyona qədər).

Xalqlarımız bir-biri üçün həmişə maraqlı olmuş, bir-birinin həyatının bütün sahələrini öyrənməyə həvəs göstərmişlər. Bu baxımdan Azərbaycan xalqı dost ölkədə baş verən ictimai, siyasi hadisələrə həmişə maraq göstərmiş, İranda gedən iqtisadi inkişafın xüsusiyyətlərini, islam inqilabından sonra mədəni-mənəvi sahələrdə baş vermiş dəyişikliklərin mahiyyətini öyrənmək istəmişdir. Əlbəttə, bu sahələrin hər biri haqqında respublikamızda çoxlu sayda müxtəlif səpkili məqalələr, elmi əsərlər yazılmışdır. Lakin İran İslam Respublikasının ictimai, iqtisadi, siyasi və mədəni həyatının müxtəlif sahələrini əhatə edən, ölkənin coğrafiyası, tarixi, onun siyasi quruluşu, inzibati-siyasi bölgüsü haqqında ayrıca məlumat kitabı hazırlanmamışdır. Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun İran iqtisadiyyatı və tarixi şöbəsində hazırlanmış bu məlumat kitabı ilk təşəbbüslərdən biridir. Kitabda 2005-ci ilə qədər dövrü əhatə edən İranın ictimai, siyasi, iqtisadi və mədəni həyatı haqqında məlumatlar, İranın coğrafiyası və tarixi haqqında qısa oçerklər verilmişdir. Ümidvarıq ki, məlumat kitabı tələbələr və müəllimlər üçün, ümumiyyətlə, İran İslam Respublikası ilə maraqlananlar üçün faydalı olacaqdır.

**Prof. G.B. Baxşəliyeva,**
*Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru*

## İRAN İSLAM RESPUBLİKASININ COĞRAFİYASI

İran İslam Respublikası cənub-qərbi Asiyada yerləşir və İran yaylasının böyük bir hissəsini əhatə edir. Ölkənin ərazisi 1 milyon 648 min kv. km-dir. İranın sahəsi İngiltərə, İspaniya, Fransa, İtaliya, İsveçrə kimi dövlətlərin birlikdə götürülən ərazisinə təxminən bərabərdir. Asiyada bu göstəriciyə görə İran ancaq Çin, Hindistan, Səudiyyə Ərəbistanı və İndoneziyadan geri qalır.

İran şimalda Ermənistan, Azərbaycan, Türkmənistan, şimal-şərqdə Əfqanıstan, cənub-şərqdə Pakistan, cənub-qərbdə, İraq, şimal-qərbdə Türkiyə ilə həmsərhəddir. Onun Ermənistan və Azərbaycan respublikaları ilə sərhədləri Araz çayından və Xəzər dənizindən keçir. Türkmənistan ilə sərhədi Türkmən-Xorasan dağlarından keçir. Əfqanistanla sərhədi Herirud çayı boyunca cənuba doğru davam edərək, Kayen dağlarının şərq qolu və Sistan səhrasından keçir. İranın Pakistanla sərhədi Mələk-Siyah dağlarından başlayaraq sərhəd yaylasının şərq hissəsi, Mekran dağlarının qolu boyunca Ərəbistan dənizi sahillərinə qədər davam edir. Türkiyə ilə sərhədi Ağrıdağ dağ silsiləsindən başlayır və cənubda Kürdüstan dağları boyunca uzanır. İranın İraqla sərhədi dağ və səhra rayonlarından keçərək, cənubda Şəttül-Ərəb çayı boyunca davam edir. Ölkənin cənubda Fars və Oman körfəzlərinə 1880 km məsafədə çıxışı vardır. İranın sərhədlərinin ümumi uzunluğu 8 min km-dir. Bunun üçdə biri dəniz sərhədləridir. Dənizlərə çıxışın olması İranın coğrafi və hərbi-strateji mövqeyinə müsbət təsir göstərir, onun dünya bazarına çıxmasına və digər ölkələrlə iqtisadi əlaqələr yaratması-

na əlverişli  şərait  yaradır. İran körfəzində yerləşən Kiş, Xark və bir sıra digər kiçik adalar  da İrana məxsusdur.

İran dağlıq ölkədir. Dağlar və hündür yaylalar onun ərazisinin 4/5 hissəsini əhatə edirlər. İran  müxtəlif formaları və hündürlükləri olan mürəkkəb relyefə malikdir. Belə ki, əgər Xəzərsahili ovalığı dəniz səviyyəsinddən 28 m aşağıda yerləşirsə, İran yaylasının ayrı-ayrı rayonları dəniz səviyyəsindən  1000 m, yaylanı  əhatə edən dağ zirvələri isə 3000-5000 m hündürlükdə yerləşirlər.

İran yaylası üç tərəfdən dağ silsilələri ilə əhatə olunmuşdur: Şimalda Türkmən-Xorasan və Elbrus dağ silsiləsi, qərbdə və cənubda Zaqros və Mekran dağları, cənub-şərqdə və şərqdə isə Şərqi  İran dağları yerləşirlər.

İran yaylası ön Asiyanın ən quru yaylasıdır. İran yaylasının daxili hissəsini quru çölləri, səhraları və yarımsəhraları olan ərazilər təşkil edirlər. İranın cənub-şərqində yerləşən  Dəşte-Kəbir, yaxud Dəşte-Lut  yer kürəsinin ən bürkülü və ən quraq səhralarından sayılır: Onun sahəsi 350 min kv. km-dir.

İran yaylasının mərkəzi hissəsində Şərqi-İran dağları və Kuhrud dağ silsiləsi yerləşir. Bu dağların ən hündür  zirvələrinin hündürlüyü 2-3 min metrdir.

Elbrus dağ silsiləsi İranda ən hündür dağ silsiləsidir. O qərbdən şərqə tərəf 900 km məsafədə uzanır. Elbrus dağ sisteminin eni 30 km ilə 120 km arasındadır. Burada dərin və dar dərələrlə bir-birindən ayrılan dağ silsilələri vardır. Elbrusun ən yüksək zirvəsi  Dəmavənd dağıdır. Onun hündürlüyü 5604 metrdir. Dağın zirvəsi həmişə qarla örtülüdür. Dəmavənd sönmüş vulkandan əmələ gəlmişdir. Bu dağda hələ də isti və kükürdlü su bulaqlarına rast gəlmək olur.

Elbrusda hündürlüyünə görə ikinci zirvə Aləmkuh dağıdır. Onun hündürlüyü 4805 metrdir.

Xəzər dənizindən şərqdə Türkmən-Xorasan dağ silsiləsi yerləşir. Bu dağlar nisbətən hamar relyefə və alçaq aşırımlara malikdirlər. Bu dağ sistemində üç əsas dağ silsiləsi vardır: Kopetdağ şimal silsiləsi, Aladağ-mərkəzi silsilə və Nişapur-cənub dağ silsiləsi. Bu dağlarda yüksəklik nadir hallarda 3000 metrə çatır. Əsasən 1500-2000 metrə malik yüksəkliklər üstünlük təşkil edirlər. Nişapur silsiləsində ən yüksək zirvə Mirala zirvəsidir. Onun hündürlüyü 3322 metrdir. Kopetdağda isə ən hündür zirvə hündürlüyü 3117 metr olan Həzar-Məscid dağıdır. Nişapur silsiləsinin dağları arasında məhsuldar Cəm-Nişapur vadisi yerləşir. Bu vadi Kuçan-Məshəd rayonundan sonra şimal-şərqi İranda ikinci ən böyük əkinçilik rayonudur.

Şərqdə, Əfqanıstan sərhədi boyunca çox da hündür olmayan Kayen və Pələnqan dağ silsiləsi yerləşir. Bu silsilədə ən uca dağ hündürlüyü 4042 metr olan Teftan dağıdır.

İran yaylasının qərbində Zaqros və şərqində Mekran dağ silsilələri başlayır. Zarqos dağ silsilələri ən yüksək zirvəsi Zərdkuh dağıdır (hünd. 4548 m). Cənub-Şərqə tərəf yüksəklik azaldığından Zaqros silsiləsi Cənubi İran dağları ilə əvəz olunur. Relyefin müxtəlifliyinə görə Cənubi-İran dağları iki hissəyə ayrılır: qərb və şərq. Qərb hissəsi Zaqros dağlarından Minab çayı dərəsinə qədər olan sahəni əhatə edir.

Cənubi-İran dağlarının şərq hissəsi Mekran dağ silsiləsini əmələ gətirir. Bu dağların davamı Pakistan ərazisindədir. Dağlarda orta yüksəklik 2000 metrdir.

Ölkənin şimal-qərb hissəsinin relyefi özünəməxsus mürəkkəbliyi ilə seçilir. Burada Kürdüstan, Talış, Baqrovdağ, Qaradağ, Ağrıdağ silsilələri uzanır. Bu silsilələr arasında çökəkliklər

çoxdur. Bunların ən böyüyündə Urmiya gölü yerləşir. Urmiya gölünün şərq hissəsində Savalan (hünd. 4821 m) və Səhənd (hünd. 3710 m) dağları yerləşir. Şimalda Qaradağ - Ağrıdağ dağ silsiləsi Muğan çölü ilə əvəz olunur. Qərbdə isə hündürlüyü 2000 metr olan Kürdüstan dağlarına qovuşur. İranın ən böyük düzənlikləri əsasən ölkənin kənarlarında yerləşirlər. Bunlardan kənd təsərrüfatı baxımından ən mühümü Xəzərsahili ovalığıdır. Xəzərsahili ovalığının ən ensiz yeri 15 km, ən enli yeri isə 110 km-dir. Bu ovalıq İran ərazisinin təqribən 5%-ni tutur. Lakin bu ərazi Azərbaycan ilə birlikdə İranda əhalinin ən sıx yaşadığı ərazilərdən biri sayılır. İqlimin rütubətliyi və bitki aləminin zənginliyi baxımından İranın ən gözəl yeri hesab edilir. Xəzər dənizinin şərqində, Atrek çayı hövzəsində quru iqlimə malik Qorqan ovalığı yerləşir.

Mesopotamiya ovalığının aşağı hissəsi İran ərazisinə daxildir. Ərazi yerüstü sularla zəngin olsa da, onun geniş hissəsi bataqlıqlaşmış və şoranlıqlar əmələ gətirmişdir. İran və Fars körfəzlərinin sahillərində torpaqlar qeyri-məhsuldardır. Burada həm də su çatışmazlığı mövcuddur.

## FAYDALI QAZINTILAR

İran faydalı qazıntılarla zəngin ölkədir. İranın əsas sərvəti neftdir. Neftin aşkar olunmuş ehtiyatları 8 milyard tondan çoxdur. Neft ehtiyatına görə İran dünyada ilk yerlərdən birini tutur. Ən böyük neft yataqları ölkənin cənub - qərbində yerləşir. Bunlar Ağacari, Qaçsəran, Marun, Bibi-Həkimə, Əhvaz, Nəftesefid, Həftgel, Məscede Soleyman, Zilay, Lali neft yataqlarıdır. Ölkənin mərkəzində yerləşən Qum şəhərinin ətrafı da neft ehtiyatına malik rayon sayılır. Şimalda neft Xəzər dənizi sahillərin-

də və Türkmən Xorasan dağlarının ətəklərində aşkar edilmişdir. Bunların içərisində ən böyükləri Nəftliçər və Nəftçə yataqlarıdır. Ölkənin şimal-şərqində, Kermanşah ətrafında Sərkan neft yatağı aşkar edilmişdir. Fars körfəzi zonası və ölkənin cənub-qərb əraziləri neftlə zəngin olan rayonlardır.

Neftlə yanaşı, İran təbii qaz ehtiyatı ilə də zəngindir. Ən böyük qaz yatağı Pazenan və Sərəxs qaz yataqlarıdır. Ölkənin cənub - qərb hissəsi və Fars körfəzi zonası qazla daha çox zəngin olan rayonlardır. İranın qaz ehtiyatları 14 trilyon kub metrdən çoxdur.

İranın daş kömür ehtiyatları da çoxdur. Əsas yataqlar Kerman, Elbrus və Xorasan rayonlarında yerləşmişdir. 1970-ci illərin əvvəllərində İsfahanda metallurgiya kombinatının istismara verilməsi ilə Kerman daş kömür yatağı xüsusi əhəmiyyət kəsb etmişdir. Elbrusda Abyek, Şəmşək, Rutən, Zirab yataqları sənaye əhəmiyyətli yataqlar hesab edilirlər. Bu yataqların kömürü kaloriliyin yüksəkliyi ilə seçilir. Abyek yatağının kömürü kokslaşma qabiliyyətinə malikdir.

İran müxtəlif növ filizlərlə, ilk növbədə metallurgiyanın inkişafı üçün böyük əhəmiyyət kəsb edən dəmir filizi ilə zəngindir. Dəmir filizi yataqları ölkənin şimal-qərbində və mərkəzi hissəsində yerləşmişdir. Əsas yataqlar Şəmsabad, Bafq, Zəncan, Enarək, Şahrud, Dağan və Kaşan rayonlarında yerləşirlər.

Manqan filizləri yataqları ölkənin şimal-qərbində və Tehran yaxınlığında yerləşir. Bunlardan ən böyüyü Rəbatekərim yatağıdır.

İranda mis filizi də çoxdur. Mis filizinin yataqları Enarək, Zəncan, Abbasabad, İsfahan, Bəndər-Abbas rayonlarında və Türkmən-Xorasan dağlarının cənub ətəklərində yerləşir. Kerman yaxınlığındakı Sərçeşmə yatağı da böyük yataq sayılır.

Qurğuşun-sink filizləri Tehranın şimalında, İsfahanın şimal-şərqində, Kermanın cənubunda və həmçinin Bafq rayonunda aşkar edilmişdir.

Xrom yataqları Kermanın cənubunda, Bəlucistanda və Məşhəd yaxınlığında tapılmışdır. Nikel və kobalt yataqları Enarekin yaxınlığında yerləşir.

İranda atom energetikasının inkişafı ilə əlaqədar olaraq son zamanlarda uran və digər radioaktiv nadir metallar aşkar edilərək onların istehsal edilməsinə başlanılmışdır.

Bu yataqlar əsasən Kerman, Xorasan, İsfahan, Azərbaycan, Yəzd ostanları, həmçinin Elbrus dağlıq rayonunda cəmləşmişdir. Qiymətli metallara aid edilən qızıl və gümüş mədənləri Enarək, Azərbaycan, Xorasan və İsfahanda yerləşmişdir.

İranda həmçinin qeyri-metal sərvətlərindən sayılan kükürd, xörək duzu, kalium duzu, qlauber duzu, selitra, barit, çöl şpatı kimi digər faydalı qazıntılar da vardır.

İran mərmər, qranit, yəşmə daşı, gil, gips, əhəngdaşı kimi tikinti və üzlük materialları ilə də zəngindir. Qiymətli daşlardan sayılan firuzə İranda (Nişapurdan şimal-şərqdə) çox qədim zamanlardan çıxarılır.

## İQLİMİ

İranın əksər hissəsinin iqlimi quru və kontinentaldır. Quru isti yay kifayət qədər soyuq qış ilə əvəz olunur.

Qışda temperaturun kəskin sürətdə aşağı düşməsinə Asiya materikinin daxili rayonlarından gələn soyuq kontinental hava kütləsi təsir göstərir. Yayda ölkənin ərazisi İran yaylası və Türkmən səhralarının üzərində formalaşan kontinental tropik

hava kütlələrinin təsiri altında olur. Küləklərin əsas istiqaməti şimal və şimal-qərb küləkləridir. Şimal - qərbdə və qərbdə yerləşən Zaqros dağlarında isə əsasən qərb küləkləri əsir.

Ölkə ərazisinin böyük hissəsində yağıntının illik miqdarı orta hesabla 240 mm-dir. Halbuki, yer kürəsində bu göstərici 860 mm-dir. Ən çox yağıntı qış və bahar fəsillərində yağır. Bu yağıntılar Atlantik okeanından əsən küləklər vasitəsilə ölkə ərazisinə daxil olur.  Azərbaycanda yerləşən dağların və Elbrus dağlarının qərb və şimal-qərb ətəkləri daha rütubətli hesab edilirlər. İranın ən rütubətli rayonu Xəzər dənizinin sahili hesab edilir. Bu rayon rütubətli subtropik rayon sayılır və yağıntının orta illik miqdarı 1500 mm-dir.

İran yaylasının daxili rayonlarının iqlimi isə çox qurudur. Fars və Oman körfəzlərinin sahillərinin iqlimi quru subtropik və tropikdir. Bu ərazilərdə rütubətin miqdarı azdır və yay çox isti keçir.

Yağıntıların miqdarına və rütubətliliyə görə İran ərazisini beş rayona bölmək olar: 1) Ölkənin şimal qərbində və qərbində yerləşən dağlıq rayonlar. Yağıntının orta illik miqdarı 2000 mm-dir. 2) Xəzər dənizinin cənub-qərb sahilləri. Bu rayon Astaradan Nouşəhrə qədər davam edir. Yağıntının orta illik miqdarı 1000-2000 mm-dir. 3) Xəzər dənizinin sahilindəki Nouşəhrdən Bəndər Türkmənə qədər olan ərazi, həmçinin Elbrusun şimal-qərb ətəkləri, Kürdüstanın və Azərbaycanın dağ rayonları. Yağıntının orta illik miqdarı 700-1000 mm-dir. 4) Behşəhr, Qorqan, Kəvansər və Borucərd rayonları. Yağıntının orta illik miqdarı 500-700 mm-dir. 5) Ölkənin daxili rayonları – Kürdüstan, Azərbaycan və Həmədanın ərazisinin əsas hissələri, mərkəzi ostanın cənub-qərb hissəsi, Fars və Xorasan ostanlarının böyük

hissəsi. Bu ərazilərdə yağıntının orta illik miqdarı 300-500 mm-dir.

İran yaylasının daxili rayonlarında yerləşən səhralara və ölkənin şimal-şərqinə tez-tez soyuq hava kütlələri daxil olur və qışda havanın temperaturunu mənfi 20-25 dərəcəyə endirir.

Ölkənin əksər rayonlarında yayda havanın orta temperaturu müsbət 30-35 dərəcədən artıq olur.

## İRANIN HİDROQRAFİYASI

İranın ərazisi şimalda sahildə kiçik körfəzlər yaradan Xəzər dənizinin suları ilə əhatə olunmuşdur. Bunların ən böyüyü Qorqan körfəzidir. Onun maksimal dərinliyi 15 m-dir. Bu körfəz daha çox köçəri quşların qışlama yeridir. Körfəz balıqlarla zəngindir. Ölkənin cənub və cənub-qərb sahələri Fars və Oman körfəzlərinin suları ilə yuyulur. Fars körfəzinin orta dərinliyi 25 m, maksimal dərinliyi isə 100 m-dir. Fars körfəzinin suları isti və duzludur. Suyun orta temperaturu müsbət 18 dərəcədir. Yayda müsbət 30-35 dərəcəyə qədər yüksəlir. Duzluluğu 40%-dən çoxdur. Körfəz balıq və mirvari ilə zəngindir. Oman körfəzi isə dərindir. Onun dərinliyi Ərəbistan dənizinə çıxışda 3000 m-ə qədərdir. Suyun temperaturu Fars körfəzinə nisbətən çoxdur, duzluluğu isə azdır.

İranda çay şəbəkəsi kifayət qədər inkişaf etməmişdir. Bunun əsas səbəbi çayların az sulu olması və onların əsasən daxili qapalı hövzələrə aid olmalarıdır. Çayların əksəriyyəti yayda quruyur. İran çayları əsasən qrunt suları və atmosfer yağıntıları ilə qidalanır. Ölkənin şimalında çayların əksəriyyəti dağlarda başlayır, qar və buzlaqlardan qidalanır. Qidalanmanın xarakterindən asılı olaraq çaylardakı suyun səviyyəsi tez-tez dəyişir.

Dağlıq rayonlarda yayda qar əriyən zaman çayların səviyyəsi artır. Çayların əksəriyyətində suyun maksimal səviyyəsi qışda yağıntılar olan zaman müşahidə edilir.

İranda göllər azdır. Onların əksəriyyətində suyun miqdarı az və duzludur. Bu göllərin çoxu axarsızdır. İranın ən böyük gölü Azərbaycanda yerləşən Urmiya gölüdür. O, dəniz səviyyəsindən 1275 m hündürlükdə yerləşir. Gölün uzunluğu 130 km, eni 15-50 km-dir. Gölün duzluluğu 220%-dir. Gölün orta dərinliyi 5-6 m, maksimal dərinliyi isə 60 m-dir. Gölün dibi müalicəvi palçıqlarla zəngindir. Tehranın cənubunda böyük duz gölü – Dəryaçeyi Nəmək yerləşir. Ölkənin mərkəzində isə Hamun gölü yerləşir. Əfqanıstanla sərhəddə Səbəri və Nəməksar gölləri yerləşir.

Ölkənin ərazisini altı çay hövzəsinə ayırmaq olar:

1. Şimalda Xəzər dənizi hövzəsi. Bu hövzə ölkə ərazisinin bütün su tutumlu sahəsinin 12%-ni əhatə edir. Araz (uzunluğu 920 km), Qızılüzən ( yaxud Sefidrud, uzunluğu 720 km), Qarasu (yaxud Çalus, uzunluğu 85 km), Qorqan (uzunluğu 300 km), Atrek (uzunluğu 500 km) kimi böyük çayların suları Xəzər dənizinə tökülür. Bu çayların əksəriyyəti öz başlanğıcını Elbrus dağlarından götürürlər. Xəzər dənizi hövzəsi çayları hidroenerji ehtiyatları və qiymətli balıq növləri ilə zəngindirlər.

2. Qərb və cənub-qərbdə Fars və Oman körfəzləri hövzəsi. Bu hövzə İranın su tutumlu ərazisinin 25%-ni əhatə edir. Bu hövzənin iri çayları Karun (850 km), Sətt-əl-ərəb (264 km) Kerxe (Fərat çayının sol qolu), Zöhrə, Helle, Mənd, Minab və s. çaylardır.

3. Urmiya gölü hövzəsi. Su tutumlu sahəsi 3%-dir. Bu gölə Narlı çay, Acı çay, Caqatu, Siminerud çaylarının suları tökülür.

4. Mərkəzi hövzə ölkənin su tutumlu sahəsinin 50 %-ni əhatə edir. Bu hövzənin əsas çayları Kərəc, Rude-şur, Cəcrud, Semnan, Damğan, Təkab, Təhrud, Kür, Zayənderud və s. xırda çaylardır. Bu çayların əksəriyyəti yalnız yuxarı axarlarda bolsulu olurlar. Aşağı axarlarda suyu azalır və şorlaşır. Çaylar İran yaylasının daxili hissələrində yerləşən göllərə tökülürlər və yayda quruyurlar.

5. Əfqanıstan sərhədində yerləşən Şistan duzlu göllər hövzəsi. Su tutumlu sahənin 7 %-ni təşkil edir. Bu hövzənin ən böyük çayı Hilmənd çayıdır.

6. Ölkənin su tutumlu sahəsinin 2 %-ni əhatə edən Qaraqum hövzəsi. Bu hövzəyə Herirud çayı daxildir.

Zəngin su ehtiyatlarına malik olmayan İranın çayları yağıntıların ölkə ərazisində az olması şəraitində suvarma üçün xüsusi təsərrüfat əhəmiyyətinə malikdirlər. Onların ölkə iqtisadiyyatı üçün hidroenerji ehtiyatı kimi əhəmiyyəti böyükdür.

## TORPAQ, BİTKİ VƏ HEYVANLAR ALƏMİ

İranın torpaq örtüyü müxtəlifdir. Lakin onların ümumi xarakterik xüsusiyyəti çınqıllı və duzlu olmasından ibarətdir. Quru səhra iqlimi, ana süxurların çınqıllılığı, duzluluğu və yeraltı suların şor olması məhsuldar torpaq qatı əmələ gətirmir. Ərazinin dağlıq rayonları və düzənliklərində ana süxurların xarakteri də müxtəlifdir. İranda müxtəlif torpaq növləri vardır. Dağ yamaclarında daşlı-çınqıllı, çay vadilərində isə gətirilmə ağır gilli torpaqlar yayılmışdır. Ölkənin torpaq örtüyündə ən başlıca xüsusiyyət onun dağlıq və dağətəyi rayonlarında çınqıllı, geniş ovalıqlar və dağətəyi düzənliklərdə isə duzlu olmasıdır.

Elbrus dağlarının şimal ətəklərində qonur, sarı-kül, həmçinin qırmızı torpaqlar yayılmışdır. Xəzər dənizinə enən çay vadilərində daha çox bataqlıq çəmən torpaqları, sahildə isə lay şəklində qumlu torpaqlar üstünlük təşkil edir. Fars və Oman körfəzlərinin sahillərində quru subtropiklər üçün xarakterik olan qırmızı çöl torpaqları yayılmışdır. Çay vadilərində, dağ ətəklərində, xüsusən dağətəyi çökəklərdə ölkənin əsas əkinçilik fondu olan allüvial torpaqlar geniş yayılmışdır.

Coğrafi mövqe, müxtəlif relyef formaları, torpaq şəraitinin çoxcəhətliliyi, həmçinin bitki örtüyünün inkişaf tarixi İranda rəngarəng floranın əmələ gəlməsinə səbəb olmuşdur. Ölkə ərazisində 6000 növdən çox müxtəlif bitkilər vardır.

Ərazinin çoxunda səhra, yarımsəhra və quru çöl bitkiləri üstünlük təşkil edir.

İranın mərkəzi hissəsinin quraq rayonlarında kol bitkiləri ilə yanaşı, ceyranotu və yovşanın müxtəlif növləri, saksaul və nanə-efemer növlü bitkilər bitir. Səhra və quru çöllərin bitki örtüyündə tikanlı və yarımkol bitkilər üstünlük təşkil edir. Bu növ bitkilərin boyu 1 m-dən artıq olmur. İran yaylası bir sıra mədəni bitkilərin vətənidir. Bu bitkilər çovdar, buğda, badam, püstə, alça və s. bitkilərdir. Vahələrdə yerli əhalinin çox xoşladığı xurma ağacı bitir.

İranda meşə sahələri nisbətən azdır. Meşələr Xəzər sahilində, Elbus və Baqrovdağın yamaclarında, dəniz səviyyəsindən 2500 m hündürlükdə yayılmışdır. Bu meşələrdə qiymətli ağac növləri: şabalıd, enli yarpaq palıd, şərq fıstığı ağacı, vələs, agcaqayın, qarağac, göyrüs, qoz ağacı, şumşad və külli miqdarda xırda ağaclar bitir.

Türkmən – Xorasan dağlarının yamaclarında enliyarpaq meşələr bitir. Zaqros dağları və həmçinin Elbrus dağlarının cə-

nub yamacları boyunca nar, püstə ağacları ilə birlikdə dəniz səviyyəsindən 2000 m yüksəklikdə palıd meşələri, bir qədər hündürdə isə kolluqlar və Alp çəmənlikləri yayılmışdır.

Cənubi Azərbaycanın dağlarında, Araz çayı vadisində seyrək palıd meşələri yayılmışdır. İranın daxili və cənub-şərq hissəsində yerləşən dağlar demək olar ki, tamamilə meşəsiz olub, püstə, dağ badamı və çöl ot bitkiləri ilə örtülmüşdür.

Ölkənin cənubunda palma, banan, bambuk, manqo və s. bitkilər bitir.

Ölkədə 100 növdən artıq məməli, 80 növə yaxın sürünən, 400 növə yaxın quş, 180 növ balığın olması qeydə alınmışdır.

İranın dağlıq rayonlarında arxar, ceyran, cüyür, qafqaz maralı, qulan və s. cütdırnaqlı və təkdırnaqlı heyvanlara rast gəlmək olar. Ölkənin yırtıcı heyvan aləmi də zəngindir. Burada turan pələngi, bars, gepard, qamış pişiyi, leopard, zolaqlı giyena, canavar, qaban, çaqqal və başqa heyvanlara rast gəlmək olar. Səhra və yarımsəhralarda gəmiricilər və sürünənlər çoxdur.

İranın quşlar aləmi də rəngarəngdir. Xəzər dənizinin sahilində durnalar, dovdaqlar, qazlar, ördəklər, qızıl qaz, qu quşu və s. qışlayır. Dağlarda və çöllərdə qartal, berkut və şahinlərə rast gəlmək olar.

İran balıq ehtiyatı ilə də zəngindir. Xəzər dənizində və Xəzərə tökülən çaylarda nərə, uzunburun, ağ balıq, naqqa, suf, xəşəm, kütüm, kefal, durna balığı, və s. vardır. Fars və Oman körfəzlərində siyənək, akula, mişar balıq, sardin, skumbriya və xərçənglər ovlanır. Bu körfəzlərdən çoxlu mirvari və mərcan çıxarılır.

## İRANIN TARİXİ
## (oçerk)

Müasir İranın ərazisi dünya sivilizasiyasının ən qədim ocaqlarından biridir. Mərkəzi Asiya və Uzaq Şərqi Yaxın Şərq və Avropa ilə birləşdirən İran yaylasının coğrafi mövqeyi bu ərazini ən qədim dövrlərdən miqrasiyaların, xalqların yerdəyişmələrinin, müharibə və müxtəlif ictimai-siyasi dəyişikliklərin mərkəzinə çevirmişdir.

İran yaylasında ilk insanların hansı zamandan mövcud olmaları haqqında dəqiq məlumatlar yoxdur. Buna baxmayaraq bəzi tədqiqatçılar belə hesab edirlər ki, ilk insan icmaları İran yaylasına mərkəzi Asiyadan, Qafqazdan, Hindistan yarımadasından, hətta Afrikadan köçmüşlər.

Daş dövrü ilə bağlı arxeoloji tapıntılar İran ərazisində Xorasanda və Kəşəfrud çayının sahillərində aşkar edilmişdir. Bu yerlərdə tapılmış daş alətlərin yaşını bəzi mütəxəssislər 800 min il təxmin edirlər. Daş dövründən daha əvvəlki dövrlərə aid olan tapıntılar Mərkəzi İranda, Şiraz şəhərinin şimal-şərqində tapılmışdır. Həmçinin İranın müxtəlif nöqtələrində ilkin sivilizasiyalara aid müxtəlif abidələr tapılmışdır. Behşəhr şəhəri yaxınlığında yerləşən Kəmərbənd və Hutu mağaralarında aparılmış arxeoloji qazıntılar belə sivilizasiyaların e.ə. 9000 əvvələ aid olduqlarını göstərir. Kermanşah ostanı ərazisində yerləşən Asiyab, Holilan, Sərab, Təxti-Cəmşid yaxınlığındakı Tilbokun, Təbrizin cənub-qərbindəki Yenik Təpə, Dizful şəhərinin cənub-şərqindəki Çağomis, Rey şəhəri yaxınlığındakı Çeşmeyi-əci və Kerman şəhəri ətrafındakı təpələrdə arxeoloji qazıntılar zamanı tapılmış abidələr bu ərazilərdə e.ə. IX-IV əsrlərdə insanların yaşadığını sübut edir.

Şəhri – Suxte (Zabol şəhərinin cənubu), Şuş və Nəfttəpə (Şuş şəhərinin cənub-şərqi), Çerağ Əli Təpə (Gilanın Rudbar əyaləti), Turəng təpə (Gülüstan  ostanının şimal-şərqi), həmçinin Kerman və Mazandaran ostanlarının ərazisində yerləşən təpələrdə tapılan abidələr e.ə. birinci minilliyin əvvəllərinə qədər İran yaylasında sivilizasiyaların mövcudluğunu sübut edir.

İran tarixçilərinin son illərdə apardıqları tədqiqatların nəticələrinə görə İran yaylasında mövcud olmuş ən qədim sivilizasiyalardan biri Silk sivilizasiyası olmuşdur. Kaşan şəhərinin cənub-qərbində tapılmış abidələr göstərir ki, həmin ərazi İranda ibtidai insanların məskunlaşdığı  qədim yerlərdən biri olmuşdur. Silk təpəsinin ən qədim qatında tapılmış abidələr e.ə. 6-cı minilliyin sonu və 5-ci minilliyin əvvəllərinə aiddirlər. Burada yaşı 4000 ilə qədər olan üstü şəkilli dulusçuluq məmulatları aşkar edilmişdir.

İran yaylasının qərb və cənub-qərb rayonları Mesopotamiya ilə  yaxınlığına və onunla olan münasibətlərinə görə İranın başqa ərazilərinə nisbətən daha tez tarixi proseslər mərhələsinə daxil olmuşdar. Mütəxəssislərin bildirdiklərinə görə e.ə. 3-cü minilliyin əvvəllərində Xuzistan çöllərində «ilk elam yazısı» adlandırılan  yazılar icad olunmuşdur. Bu yazının nümunələri Fars əyalətinin Silk, Qudin Təpə yerlərində  Zabolun Şəhri-Suxte məntəqələrində tapılmışdır.

Bir çox tarixçilərin fikrinə əsasən  İran yaylasının qərb hissəsində məskunlaşan ən qədim tayfalar elamı, kası, lullubi və quti tayfaları olmuşlar. Bunlar həm irqi cəhətdən, həm də dil cəhətindən qohum tayfalar olmuşlar.

İran ərazisində ilk dövlət Elam dövləti olmuşdur. Elamlıların vətəni Şuş düzənliyi, Xuzistanda Qarun, Kərxə və Dəz çaylarının vadiləri olmuşdur. Qədim Mesopotamiyanın iqtisa-

diyyatı Zaqros dağlarının təbii ehtiyatlarından asılı olduğuna görə şumerlər və akkadlar Elam torpaqlarına tez-tez hücum edirdilər. Bu hücumların qarşısını almaq üçün e.ə. 3-cü minilliyin ortalarında Elam ərazisində mövcud olan xırda padşahlıqlar Zaqros və Xuzistanın dağlarında yaşayan tayfalarla birləşərək vahid Elam dövləti yaratdılar. Mütəxəssislər Elam dövlətini ilk quldarlıq dövlətlərindən biri hesab edirlər. Elam dövlətinin çiçəklənmə dövrü e.ə. XIII-XII əsrlərə aid edilir. Elam Şumer və Akkad mədəniyyətlərinin güclü təsiri altında olmuşdur.

E.ə. VII əsrin əvvəllərində Elam Midiya tərəfindən işğal edilərək müstəqilliyini itirmişdir.

İran dilli tayfaların İran yaylasına köçməyə başlamaları ilə İran tarixinin sonrakı mərhələsi başlanır.

Tədqiqatçıların bir qisminin fikrincə İran dilli xalqlar hind-avropalı tayfalardan olmuşlar. Onlar başqa hind-avropalı tayfalardan ayrılıqdan sonra e.ə. 2-ci minilliyə qədər Mərkəzi Asiyada yaşamışlar. Bir sıra tədqiqatçılar bildirirlər ki, bu tayfalar İran yaylası ərazisinə e.ə. 1000-800-cü illərdə köçmüşlər.

Tədqiqatçıların bir qismi İran dilli tayfalarının İran yaylasına daxil olmalarını mərkəzi Asiya yolu ilə baş tutduğunu söyləyirlər. Lakin başqa bir fərziyəyə görə bu tayfaların İran yaylası ərazisinə köçmələri Xəzər dənizinin hər iki tərəfindən baş vermiş, İran dilli tayfalardan hesab edilən midiya və fars tayfaları İran yaylası ərazisinə Qafqaz vasitəsi ilə daxil olmuşlar. Hər halda İran dilli tayfaların İran yaylası ərazisinə daxil olmaları ilə bu ərazinin tarixində yeni mərhələ başlamışdır.

E.ə. IX əsrin əvvəllərindən başlayaraq İran dillilər Zaqros dağlarında yaşayan tayfaları sıxışdırmağa başladılar. Onlar qərbə doğru hərəkət etdikcə yerli əhalini yaşadıqları yerlərdən çıxardır və assurilərə qarşı müharibələr aparırdılar. Bu dövrdə,

Assuri mətnlərində Midiya və fars tayfalarının adı çəkilir və onların yaşadıqları torpaqlar Madayi və Parsua adlandırılmağa başlayır.

Üçüncü Assuriya padşahı Şalamnasrın təqvimlərində e.ə. 844-cü ildə farsların, e.ə. 836-cı ildə isə midiyalıların adları çəkilir.

Assuriya padşahı III Tiqlatpalasarın zamanında (e.ə. 744-727) assurilərin şərqə yürüşləri çoxalır və Assuriya Zaqrosda böyük bir ərazini işğal edir. Assurilərin bu hərbi yürüşləri onları midiyalılarla üzləşdirdi.

Midiya dövləti e.ə. VII əsrin sonunda 6 tayfanın birləşməsi ilə İranın şimal-qərbində və cənubi Azərbaycanın ərazisində yaranmışdır.

Midiyalılar və Midiya dövləti haqqında ilk məlumatlara qədim yunan tarixçiləri Heredot və Katsiesin əsərlərində rast gəlinir. Müstəqil Midiya dövləti yunan mənbələrində Faraurtiş adlandırılan padşah zamanında yaranmışdır. O, e.ə. 670-ci ildə farsları özünə tabe etdi və assurilərə qarşı mübarizə aparmaq üçün İran yaylasına Qafqazdan gəlmiş tayfaları özünə birləşdirdi. Assuriyaya qarşı müharibəyə başlamış Faraurtiş Assuriyanın paytaxtı Ninəvanı mühasirəyə aldığı bir vaxtda skiflər arxadan Midiyaya hücum etdilər. Bu hücum zamanı e.ə. 653-cü ildə Faraurtiş öldürüldü və skiflər 28 il müddətinə Midiya torpaqlarında hakim oldular. Atasının əvəzinə taxta çıxmış Xuvxuşta e.ə. 625-ci ildə skifləri Midiya torpaqlarından qovmağa müəssər oldu. Xuvxuşta Midiya dövlətçiliyinin qurucusu hesab edilir. O, orduda yeni qaydalar tətbiq etmiş, orduda piyada və süvari qoşunları yaratmış, əsir alınmış və ölkədə qalmış skiflərdən orduda istifadə etmişdir.

Xuvxuşta və onun müttəfiqi Babilistan padşahı Nabupulassas e.ə. 612-ci ildə Assuriyanın paytaxtı Ninəvanı ələ keçirib, onu darmadağın etdilər. Assuriya imperiyası məhv edilərək, onun torpaqları Midiya və Babilistan arasında bölüşdürüldü.

E.ə. 550-ci ildə Anşon padşahı həxamənşi Kureş üsyan qaldırdı və Midiyanın paytaxtını ələ keçirdi. Midiya dövləti süqut etdi.

Əsl adı həxamənşilər olan, Yunan və Qərb tarixçiləri tərəfindən «Axemenid» adlandırılan və Azərbaycan dilində isə əhəmənilər adlandırılmış bu dövlətin banisi Həxaməneş olmuşdur.

Bu dövlət e.ə. 700-cü ildə Anşonda kiçik yarımüstəqil dövlət kimi yaranmışdı. E.ə. 675-645-ci illərdə padşahlıq etmiş Çişpiş öz ərazilərini genişləndirmiş və indiki İranın mərkəzi və cənub-qərb ərazilərini öz torpaqlarına qatmışdı. Onun ölümündən sonra torpaqlar onun oğlanları Aryaramna və Kureş arasında bölünmüşdü.

Kureşin padşahlığı dövründə (e.ə.550-530-ci illər) həxamənşilər Midiyadan başqa Assuriyanı, Kappadokiyanı, Kiçik Asiyada Egey dənizi sahillərində yerləşən şəhər-dövlətləri, Babilistanı, Suriya və Fələstini zəbt etdilər.

Kureşin oğlu Kambusiya (Kambiz) zamanında Misir zəbt edildi.

Həxamənşilər dövləti özünün ən yüksək yüksəliş dövrünə e.ə. 521-485-ci illərdə padşahlıq etmiş I Dariyuş (Dara) zamanında nail olmuşdur. Bu dövrdə bir sıra siyasi və iqtisadi islahatlar həyata keçirilmiş, vergi sistemi qaydaya salınmış, sikkələr buraxılmışdı. I Daranın (Dariyuşun) Kiçik Asiyada ticarət yollarını ələ keçirmək uğrundakı mübarizəsi onu Yunanıstan dövləti ilə üz-üzə qoydu. Dariyuş zamanında başlanmış İran-Yunan müharibələri müxtəlif vaxtlarda gah bu, gah da digər tərəfin

uğur əldə etməsi ilə e.ə. 449-cu ilə qədər davam etmişdir. E.ə. 449-cu ildə Kalli sülhü imzalandı. Onun şərtlərinə əsasən iranlılar Kiçik Asiyada yunan şəhər-dövlətlərinin müstəqilliyini tanımağa məcbur oldular. Lakin sonralar sülh pozulmuş və həxamənşilər Kiçik Asiyadakı torpaqları yenidən ələ keçirmişlər.

Makedoniya çarı Filipp ilə başlanmış yunan dövlətlərinin birləşməsi prosesi onun oğlu Makedoniyalı Aleksandrın (İskəndərin) hakimiyyəti zamanı (e.ə. 356-323-cü illərdə) həxamənşilər üçün təhlükəli bir həddə çatdı. İskəndər Yunanıstanda öz hakimiyyətini möhkəmləndirdikdən sonra İrana qarşı yürüşlərə başladı. Yunan – İran müharibəsi e.ə. 334-cü ildə başlandı. İran qoşunları ilə müharibələrdə qələbələr əldə edən İskəndərin qoşunları həxamənşilərin torpaqlarını ələ keçirməyə başladılar.

E.ə. 332-ci ildə İskəndərin  qoşunları ilə III Daranın (Dariyuşun) qoşunları arasında Qavqamella kəndi yaxınlığında (indiki İraqın şimalı) son və həlledici döyüş baş verdi. İskəndər bu döyüşdə qalib gəldi. Yunanlar bu döyüşdən sonra Babilistan Şuş, və həxamənşilərin paytaxtı Təxte-cəmşidi (Persopolisi) ələ keçirdilər. Beləliklə Həxamənşilər dövlətinin varlığına son qoyuldu.

Həxamənşilər dövləti süqut etdikdən bir neçə il sonra Makedoniyalı İskəndər e.ə. 323-cü ildə Babilistanda vəfat etdi. Onun yaratdığı böyük dövlət sərkərdələri arasında bölündü. İskəndərin  ölümündən 11 il sonra Babilistan e.ə. 312-ci ildə Makedoniyalı sərkərdələrdən olan Selevkin (yaxud Sulukusun) əlinə keçdi. O, Elam və Midiyanın bir hissəsini işğal etdikdən sonra özünə Nikator (qalib) ləqəbi seçdi. E.ə. 301-ci ildə o, Suriyanı və kiçik Asiyanın böyük bir hissəsini də zəbt etdi. Selevkilər Hind okeanından Egey dənizinə qədər uzanan bir ərazidə ticarət və strateji əhəmiyyətli yollarda şəhər-qalalar salmaqla

yunan qaydalarını yaymaq istəyirdilər. Lakin onlar buna nail olmaqda və ümumiyyətlə işğal etdikləri geniş əraziləri tabelikdə saxlamaqda çətinliklərlə üzləşirdilər. E.ə. 281-ci ildə Selevk Nikatorun ölümündən sonra yerli xalqların müstəqillik uğrunda mübarizələri gücləndi. Belə ki, e.ə. 237-ci ildə şimalda yerləşən Parfiya əyalətinin hakimi Ərşək özünün müstəqilliyini elan etdi. Eyni zamanda Orta Asiyada və indiki Əfqanıstanın ərazisində Yunan-Baktriya (Baxtər) padşahlığı yarandı. İlk dövrdə Parfiya selevkilərin ali hakimiyyətini qəbul etmək məcburiyyətində idi. Lakin Selevkilərin zəifləməsindən və Yunan-Baktriya dövlətinin süqutundan istifadə edən parfiyalılar yeni əraziləri işğal etməklə müstəqilliklərini möhkəmlədilər. Parfiya padşahı I Mehrdad (Mitridad) zamanında (e.ə. 150-139-cu illər) parfiyalılar Midiyanın böyük hissəsini, Farsı və bir çox əraziləri işğal etdilər. Parfiyalıların (yaxud əşkanilərin) e.ə. 129-cu ildə axırıncı selevk padşahı VII Antiox üzərində qələbəsindən sonra selevkilərin İrandakı, o cümlədən Şərqdəki hökmranlığına son qoyuldu.

I Mehrdad (Mitridad) öldükdən sonra parfiyalılar (əskanilər) Şərqdə skiflərin hücumları ilə üzləşdilər.

II Mehrdad zamanında ölkənin daxili və xarici çətinlikləri həll olunmağa başladı. II Mehrdad e.ə. 121-120-ci illərdə Babilistanı tutduqdan sonra Mesopotamiyaya hücum etdi. Sonra şərqə yürüş edərək skifləri məğlub etdi. Herat və Sistanı ələ keçirdi.

Parfiya dövləti öz mövcudluğunun bütün dövrlərində Roma dövləti ilə siyasi rəqabət aparmış və müharibələrlə xarakterizə olunan bu qarşıdurma 300 ildən çox davam etmişdir.

Axırıncı Parfiya (əşkani) padşahı Vərdəğan romalıları məğlub etsə də özünün daxili düşməni sasanilər nəslindən olan Ərdəsir Babəkanın öhdəsindən gələ bilməmiş və eramızın 224-

cü ilində Hürmüzdqan çölündə baş vermiş döyüşdə məğlub olmuşdur. Beləliklə, Parfiya dövləti süqut etdi və İranın tarixində sasanilər dövrü başlandı. Eramızın 224-cü ilində axırıncı Parfiya şahı V Artaban üzərində qələbə çalan Ərdəşir tez bir zamanda Mavərənnəhri, Midiyanı, Atropatenanı, Sakastanı, Xorasanı və digər torpaqları işğal etdi.

Sasanilərin qərbdə əsas düşmənləri Roma imperiyası idi. Sasanilər Suriya, Mesopotamiya və Qafqaza sahib olmaq üçün dəfələrlə romalılarla müharibələr etmişlər. Şimal-şərqdə sasanilər mərkəzi Asiyada yerləşən dövlətlər ilə müharibələr aparırdılar.

Qafqazda isə sasanilərin əsas düşmənləri tez-tez Qafqaza və Atropatenaya (Azərbaycana) hücumlar edən alanlar, xəzərlər və digər xalqlar idilər.

Sasanilər I Şapur zamanında (241-272-ci illər) qüdrətlərinin ən yüksək dərəcəsinə çatdılar. Bu dövrdə Roma üzərində qələbələr əldə edildi.

II Şapurun padşahlığı dövründə (309-379) sasanilər şərqdə güclü Kuşan imperiyasını məğlub etmiş, Roma ilə müharibələri davam etdirmişlər. Eramızın 363-cü ilində baş vermiş müharibədə Roma imperatoru Yulian üzərində qələbə çalmış sasanilər böyük bir əraziyə malik oldular.

II Şapurun varislərindən olan I Yezdigerd zamanında (399-420-ci illər) Roma üzərində qələbələr qazanmaq üçün şərait olsa da o, bunlardan istifadə etməmişdir.

Tarixdə Bəhrami Gür adı ilə məşhur olan I Yezdigerdin oğlu V Bəhramın şahlığı zamanında da (420-438-ci illər) İran Şərqdə və qərbdə aramsız müharibələr aparmışdır.

Sasanilərin hakimiyyəti zamanında atəşpərəstlik, yaxud zərdüştülük İranın dövlət dini elan edildi. Zərdüştlükdən başqa

sasanilərin hakimiyyəti altında olan torpaqlarda xristianlıq, buddizm, yəhudilik, sabitilik və hətta, manixeyçilik dinləri də yayılmışdı.

Piruzun padşahlığı dövründə (459-484) İran hunlara qarşı uğursuz müharibə etmiş və nəticədə Mərv vilayətini əldən vermişdir.

Sasanilərin hakimiyyəti illərində İranda Məzdəkin başçılığı ilə üsyan (5-ci əsrin sonu 6-cı əsrin əvvəli ) baş verdi. Məzdək cəmiyyətdə qeyri-bərabərliyin və ədalətsizliyin əleyhinə çıxış etmiş, patriarxal cəmiyyətin qurulmasına çağırmışdı.

Eramızın 488-ci ilində padşahlıq etməyə başlamış I Qubad kahinləri və əyanları hakimiyyətdən uzaqlaşdırmaq məqsədi ilə Məzdəki müdafiə etməyə başladı. Bu kahinlərin və əyanların müqavimətinə səbəb oldu. Nəticədə o, hakimiyyətdən kənar edilərək 496-cı ildə həbs edildi. 499-cu ildə zindandan qaçan I Qubad hunların vasitəsi ilə hakimiyyəti özünə qaytardı. Hakimiyyəti yenidən ələ keçirmiş I Qubad ona düşmən olan əyanları və kahinləri hakimiyyətdən uzaqlaşdıraraq, onların dövlətdəki nüfuzlarının azaldılmasına nail olmuşdur. Lakin bu zaman onun Məzdəkə qarşı münasibəti dəyişmiş və Məzdək eramızın 529-cu ilində həbs edilərək öldürülmüşdür.

Tarixdə Xosrov Ənuşirvan adı ilə məşhur olan I Xosrovun hakimiyyəti dövründə (531-579-cu illər) məzdəkilərin təqib edilməsi güclənmiş, Bizans ilə müharibələr davam etmişdir. Nəhayət 561-ci ildə Bizans ilə sülh imzalanmış və bu sülh 50 il davam etmişdir.

I Xosrovun hakimiyyəti zamanı bir sıra sosial-iqtisadi və siyasi islahatlar həyata keçirilmişdir. Belə ki, vergilərin yığılmasında yeni üsullar tətbiq edilmiş, idarəetmədə və hərbi quruculuqda islahatlar həyata keçirilmişdir. Bu islahatlar şəhərlərin in-

kişaf etməsinə, kənd təsərrüfatının və sənətkarlığın genişlənməsinə, ümumiyyətlə feodal münasibətlərinin təkmilləşməsinə təkan vermişdir.

I Xosrovun oğlu IV Hörmüzdün zamanında (579-cu il) Bəhram Çubinin başçılığı ilə üsyan baş verdi. Hörmüzdün hakimiyyətindən narazı olan əyanlar onu taxtdan kənarlaşdırıb, əvəzində II Xosrovu, yaxud Xosrov Pərvizi şah elan etdilər. Lakin Bəhram Çubinin hücuma keçmiş ordusundan qorxan yeni şah Bizansa qaçdı və 591-ci ildə Bizans ordusunun köməyi ilə çubin üzərində qələbə çalaraq taxt-tacı özünə qaytardı. Xosrov Pərvizin hakimiyyəti zamanı (590-628) Misir işğal olundu (619-cu il) və Bizans torpaqlarının xeyli hissəsi Sasanilərin əlinə keçdi.

627-ci ildə Bizans ordusunun Sasanilər üzərinə hücumları başladı. Azərbaycan və Mesopotamiya işğal olundu. Sülh bağlamaqdan imtina edən Xosrov paytaxtı Tisfuna (Mədainə) tərəf qaçdı. 628-ci ildə Xosrov Pərviz saray çevrilişi nəticəsində taxtdan salınaraq həbs edildi və zindanda öldürüldü. Oğlanları əvvəlcə Şiruyə, sonra isə II Qubad taxta əyləşdilər. II Qubad Bizansla sülh bağladı. Lakin II Qubadın hakimiyyəti 1 ildən az oldu və o da 628-ci ildə öldürüldü.

4 il davam edən hərc-mərclikdən sonra Xosrov Pərvizin nəvəsi III Yezdigerd şah elan edildi. (632-ci il)

Onun hakimiyyətinin ikinci ilində ölkənin qərb sərhədlərində müsəlman ərəblər peyda olmağa başladılar. Onlarla ilk toqquşma baş verdi. Xeyrə şəhəri 633-cu ildə ərəblər tərəfindən tutuldu. İranlıların ərəblərlə bir neçə aylıq danışıqlarından sonra Kadisiya yaxınlığında eramızın 637-ci ilində İran ordusu ilə ərəb ordusu arasında döyüş baş verdi və Sasani ordusu bu döyüşdə məğlub oldu. Bir qədər sonra Tisfun şəhəri ərəblər tərəfindən tutuldu. Eramızın 642-ci ilində Nəhavənd yaxınlığında

baş vermiş döyüşdə isə sasanilər qəti şəkildə məğlub oldular və III Yəzdigerd ölkənin içərilərinə qaçdı. Bir neçə il qaçqın olan III Yezdigerd 651-ci ildə Mərv şəhərində bir dəyirmanda öldürüldü. Onun ölümü ilə Sasanilər sülaləsinə son qoyuldu. Eyni zamanda fars (İrandilli tayfaların) siyasi hakimiyyəti başa çatdı. İran özünün qədim dünyasını arxada qoyaraq, mövcudluğunun islam dövrünə qədəm qoydu.

İslam dininin banisi və ərəb müsəlman dövlətinin qurucusu Məhəmməd peyğəmbərin vəfatından sonra (632-ci il) hakimiyyətə gəlmiş ilk xəlifələr Əbu Bəkr (632-634), Ömər (634-644) və Osman (644-656) zamanından başlayaraq yeni torpaqların zəbt edilməsi və zəbt olunmuş torpaqlarda islam dininin bərqərar edilməsi ərəb müsəlman dövlətinin siyasətinin tərkib hissəsinə çevrildi. İran ərazisində, Qafqazda, Orta Asiyada yaşayan xalqlar uzun müddət ərəblərə müqavimət göstərdilər. Ərəblər Sasani imperiyasının ərazisini tam işğal etmək üçün on ildən çox vaxt sərf etdilər.

Dehqanların (İran feodallarının), əsir alınmış iranlıların islam dinini qəbul etmələri, həmçinin yeni dövlət aparatının qurulmasında İran məmurlarından istifadə edilməsi artıq ərəb xilafətinin ilk onilliyində, sasanilər zamanında yüksək məqamlara malik olmuş şəxslərin yeni müsəlman dövlətinin siyasi həyatında iştirak etmələrinə yol açdı. İran aristokratiyasının və hakimlərinin ərəblərlə əməkdaşlığı onların sağ qalmalarına, əmlaklarının saxlanmasına və hətta, ictimai və siyasi mövqelərinin qorunmasına səbəb oldu.

Əksəriyyəti iranlılardan ibarət olan məvalilər (İslam dinini qəbul etmiş azad qeyri-ərəblər) xilafətin mərkəzində başlamış siyasi mübarizədə fəal iştirak edirdilər. Belə ki, Suriya hakimi

Müaviyə ilə peyğəmbərin əmisi oğlu və kürəkəni İmam Əli arasında gedən mübarizədə iranlılar Əlinin tərəfində idilər.

Əli, onun yaxınları və tərəfdarları şiəliyi dini və siyasi bir cərəyan kimi formalaşdırdılar. Şiəlik məzhəb kimi İranın Xorasan, Gilan və digər əyalətlərində geniş yayılmağa başladı. Ərəb xilafətində başlamış siyasi mübarizədə Müaviyə İbn Əbu Süfyan qalib gəldi. 661-ci ildə Əli öldürüldükdən sonra Müaviyə ərəb dövlətinin başında durdu və əməvilər sülaləsinin əsasını qoydu.

Əlinin kiçik oğlu Hüseyn 680-cı ildə Kərbəlada öldürüldükdən sonra əməvilərə qarşı mübarizənin mərkəzi İraqın Kufə şəhərindən Xorasana köçdü. Bu mübarizədə əsas rolu yerli əhali oynayırdı. Onların arasında həm ərəblər, həm də iranlılar var idi.

Əməvilərə qarşı mühüm çıxışlardan biri 747-ci ildə Mərv şəhərində baş vermişdir. Bu hakimiyyət uğrunda əməvilərin rəqibi olan abbasilər tərəfindən müdafiə olunan Əbu Müslümün başçılığı ilə olan üsyan idi. Abbasilər Məhəmməd peyğəmbərin əmisi Abbasın nəslindən idilər və hakimiyyət uğrunda mübarizə aparırdılar. Əbu Müslüm məvali idi. Onun əsl adı Behzad idi. Bu üsyan əməvilərin məğlubiyyəti və əməvi sülaləsinin süqutu ilə başa çatdı.

Abbasilərin əməvilər üzərində qələbəsində İranda yaşayan yerli xalqların rolu böyük idi. Bu iranlıların islamın siyasi tarixində oynadıqları ilk mühüm rol idi.

Öz məqsədlərinə çatmış abbasilərin artıq Əbu Müslümə ehtiyacları yox idi. O, aldadılaraq Kufəyə gətirildi və 754-cü ildə öldürüldü.

Əməvilərdən sonra hakimiyyətə gəlmiş abbasilərin dövründə xilafətin ictimai-siyasi quruluşunda müəyyən dəyişikliklər baş verdi. Hər şeydən əvvəl mərkəzi dövlət hakimiyyəti möh-

kəmləndirildi. Vergilərin alınmasında qayda yaradılmasına və məhkəmə sisteminin yaradılmasına xüsusi diqqət yetirildi. Ərəb qəbilə başçıları əməvilər zamanında malik olduqları üstünlük və güzəştlərdən məhrum oldular. Digər xalqlar ərəblərlə bərabər hüquqlar qazandılar. Dövlət idarəçiliyində islahatlar keçirildi.

Abbasilər zamanında ərəblər tərəfindən işğal olunmuş ərazilərdə yaşayan xalqların vəziyyəti daha da ağırlaşdı. Xilafətin müxtəlif bölgələrində işğalçılara qarşı üsyanlar baş qaldırdı.

O dövrdə Xorasan əyalətinin şimalında Əbu Müslümün tərəfdarlarından olan İshaqi Türkün və Müqənnənin başçılığı ilə üsyanlar olmuşdur. Həmçinin Mavərənnəhrdə, Xorasanın özündə, Reydə, Təbəristanda və Azərbaycanda ərəblərə qarşı çıxışlar olmuşdur.

Bu üsyanların ən böyüyü və ən əhəmiyyətlisi Azərbaycanda xürrəmi Babəkin başçılıq etdiyi üsyan idi. Xürrəmi hərəkatının ideoloji mənbəyi əmlak bərabərliyini təbliğ edən Məzdəkin təlimi idi.

Babək uzun illər xilafətin mövcudluğu üçün təhlükə olmuşdur. O, əsl xalq qəhrəmanı, üsyan etmiş xalq kütlələrinin başçısı kimi şöhrət qazanmışdı. Babək hərəkatın bəzi dövrlərində 20 minlik süvari və piyada qoşunlarından ibarət ordu yarada bilmişdi. Bu ordu bir neçə dəfə xilafət qoşunlarına sarsıdıcı zərbələr vura bilmiş və onları məğlub edə bilmişdi. Xürrəmilər hərəkatı İranın bəzi vilayətlərini, hətta Qafqazda yerləşən əraziləri də bürümüşdü. 1X əsrin 20-ci illərində Babəkin üsyançıları Azərbaycanın çox hissəsini ərəb işğalçılarından azad etmiş, İranın Həmədan şəhərini ələ keçirmişdilər. 827-ci ildə ərəb qoşunları Babəkin üzərinə böyük qoşunla gəlmiş, lakin məğlub olaraq geri çəkilmişdilər. 836-cı ildə xilafət üsyançıların üzərinə yenidən qoşun yeritdi. Bu dəfə qoşunlara təcrübəli sərkərdə Afşin

başçılıq edirdi. İki illik mühasirə nəticəsində taqətdən düşmüş Babək qoşunları 838-ci ilin qışında baş vermiş döyüş nəticəsində məğlub olmuş, Babək isə tutularaq 838-ci il yanvar ayının 27-də Bağdadda edam edilmişdi.

VIII əsrin ikinci yarısından və 1X əsrin əvvəllərindən başlayaraq xilafətin tərkibinə daxil olan müxtəlif ərazilərdə yerli hökumətlərin mərkəzi hakimiyyətə qarşı çıxışları güclənməyə başladı. Bunun nəticəsində Orta Asiyada və İranda nominal olaraq xilafətdən asılı olan, faktiki olaraq isə müstəqil olan feodal dövlətləri yarandı. Bunların içərisində ən güclüləri Xorasanda Tahirilərin, Sistanda Səffarilərin və Mavərənnəhrdə Samanilərin dövlətləri idi. Bu dövlətlərin yaranması ilə yerli xalqlar öz müstəqilliklərini bərpa etməyə çalışırdılar.

Tahirilərin əmirliyi 865-ci il, Səffarilər dövləti – 900-cu il, Samanilər dövləti isə 999-cu ilə qədər mövcud olmuşdur.

IX-X əsrlərdə İranın Xəzərsahili əyalətlərində yeni feodal dövlətləri yarandı. Bu dövlətlərin yaradıcıları əsasən Gilanın dağ bölgəsi olan Deyləmdə yaşayan xalqların nümayəndələri idilər. Deyləmilər demək olar ki, abbasilərin qərbi və mərkəzi İrandakı hakimiyyətinə son qoydular. X əsrin əvvəllərində deyləmilər samanilər və ələvilər arasında gedən mübarizəyə qoşuldular. Bu mübarizədən qalib çıxmış deyləmilər ziyarilər dövlətini qurdular. (928-1045)

Bu dövrdə İran yaylasının şərq hissəsində türklərdən ibarət yeni və güclü bir qüvvə meydana çıxdı. Bu qüvvə Xorasanda samanilər dövlətini yıxaraq qəznəvilər dövlətini yaratdı. Bu dövlət sultan Mahmud Qəznəvi zamanında (998-1030) qüdrətinin ən uca nöqtəsinə çatdı.

Qəznəvilər sülaləsinin əsasını qoyan Əbu İshaq Alptəkin ölmüşdür. O, əvvəllər samani padşahları Əhməd ibn İsmayıl və

Nəsr İbn Əhmədin yanında qulam olmuş, sonralar isə fərasət və igidliyi nəticəsində Samani ordusunda sərkərdə dərəcəsinə çatmışdı. 962-ci ildə bir mübahisə nəticəsində samanilərlə silahlı mübarizəyə qalxmış, tərəfdarları ilə birlikdə Qəzni şəhərinə tərəf hərəkət etmiş, bu şəhəri tutaraq özünü şah, oranı isə öz paytaxtı elan etmişdir. Qəznəvilərin ən görkəmli nümayəndəsi Sultan Mahmud Qəznəvi öz hakimiyyətini şərqdə Hindistandakı Qanq çayının sahillərindən başlamış, qərbdə Kürdüstana qədər genişləndirə bilmişdi. Qəznəvilər dövləti təxminən 230 il mövcud olmuşdur. Mahmud Qəznəvinin hakimiyyəti dövründə Xorasana çoxlu miqdarda oğuz türkləri köçdü. İslam dinini qəbul etmiş türk tayfaları içərisində Səlcuq nəsli daha üstün mövqelərə malik idi. Qəznəvilərin hakimiyyətini qəbul edən səlcuqlar onların razılığı ilə Xorasana gəlmişdilər. Səlcuqlar tərəfindən rəhbərlik edilən oğuzlar bir qədər keçdikdən sonra sultan Mahmud Qəznəviyə tabe olmaqdan boyun qaçırdılar. Belə bir vəziyyət oğuzlarla qəznəvilər arasında müharibəyə səbəb oldu. 1038-ci ildə baş vermiş müharibə nəticəsində qəznəvilər məğlub oldular. Səlcuq qoşunlarının sərkərdəsi Toğrul bəy Nişapur şəhərində sultan elan edildi.

Qısa bir zaman ərzində səlcuqların başçılıq etdikləri oğuz tayfaları mərkəzi İranı, o cümlədən Xarəzm, Sistan, Kerman, Herat və başqa əyalətləri özlərinə tabe etdilər. 1055-ci ildə Toğrul Bağdadı tutdu və qiyam nəticəsində Bağdaddan qaçmış abbasi xəlifəsini Bağdada qaytardı. Elə həmin ildə Toğrul abbasilərin dini hakimiyyətini qəbul edən bütün ölkələrin sultanı elan edildi. Toğrul Samani hökmdarlarından fərqli olaraq Abbasi xəlifəsi ilə yaxşı münasibətdə olmuş, özünü xəlifəyə bərabər tutmuş və xəlifəyə tabe olmamışdır. O, abbasi xəlifəsini qohumluq

əlaqələri ilə özünə bağlamış və bu məqsədlə qardaşı qızını xəlifəyə ərə vermiş, 70 yaşında ikən özü xəlifənin qızına evlənmişdi.

Səlcuqların 1071-ci ildə Manazkert yaxınlığında Bizans üzərində qələbəsi oğuz-səlcuq türklərinin qərbə doğru yürüşləri üçün yol açdı. Səlcuqlar bir neçə il ərzində Suriyanı, Fələstini, Kiçik Asiyanın böyük bir hissəsini və Cənubi Qafqazı özlərinə tabe etdilər. Səlcuqlar Məlik şah zamanında (1072-1092) qüdrətlərinin ən yüksək dərəcəsinə çatdılar.

Səlcuq-oğuz imperiyasının yaranması bütün Yaxın və Orta Şərqin, o cümlədən İranın siyasi inkişafına böyük təsir etdi. Belə ki, onlar İran ərazisində mövcud olan irili-xırdalı dövlətlərin həyata keçirə bilmədikləri vəzifəni həyata keçirdilər və qısa müddətə olsa da İranı vahid dövlətdə birləşdirdilər.

Mərkəzi hakimiyyətin zəifləməsi ilə müşayiət edilən feodal münasibətlərinin inkişafı XI əsrdə vahid səlcuq-oğuz dövlətinin tənəzzülə uğramasına və Kiçik Asiyada, Suriya və Kermanda müstəqil səlcuq dövlətlərinin yaranmasına səbəb oldu. XII əsrin I yarısında isə Azərbaycanda, Mosulda, Fars və Loristanda atabəyliklər yarandı.

Səlcuqların hakimiyyəti illərində İranın şimalında Həsən Sabbahın (1090-1124) başçılığı ilə ismailli təriqətinin tərəfdarlarının böyük üsyanı baş verdi. Bu hərəkat XI əsrin sonunda başa çatdı. İsmaillilər Elbrus dağlarında öz ilk dövlətlərini qurdular və Ələmut qalasını da özlərinin baş iqamətgahına çevirdilər.

Bütün XII əsr ərzində davam edən daxili müharibələr və çəkişmələr İranın əvvəllər səlcuqların vassalı olmuş xarəzmşahlar tərəfindən işğal olunmasına şərait yaratdı. Lakin xarəzmşahlar öz hakimiyyətlərini Səlcuq imperiyasına daxil olan ölkələr üzərində tam şəkildə qura bilmədilər. Orta Asiyadakı qələbələrdən sonra xarəzmşahlar İranda və İraqda hakimiyyətlərini

möhkəmləndirmək istədikləri bir zamanda monqollar Orta Asiyanı fəth etməyə başladılar.

Monqolların şərqi İrana və cənubi Qafqaza ilk yürüşü 1220-1222-ci illərdə baş tutdu. Monqolların 1229-1230-cu illərdə şimali İrana, Azərbaycana, İraqa və digər ərazilərə başlayan yeni hücumları İranda, İraqda və Azərbaycanda mövcud olan bir çox feodal dövlətlərinin varlığına son qoydu. Qəzvində, İsfahanda, Təbrizdə əhalinin göstərdiyi müqavimət nəticəsində monqollar İranın qərbində yerləşən torpaqları ancaq 1239-cu ildə özlərinə tabe edə bildilər.

Böyük xan Münkenin (1251-1259) hakimiyyəti illərində onun qardaşı Hülaku xan çoxsaylı və yaxşı silahlanmış ordu ilə Türküstandan keçərək İrana hücum etdi. Abbasi xilafətinin ərazilərini, ismaillilərin torpaqlarını və Suriyanı zəbt edərək, Hülaku xan (1256-1265) nominal şəkildə Böyük xandan asılı olan öz dövlətini yaratdı. Elxani dövləti adlanan bu dövlət müasir İranın çox hissəsini və Türküstanı əhatə edirdi. Kiçik Asiyanın səlcuqları, Trapezund dövləti, Gürcüstan, Şirvan şahlığı, Herat dövləti elxanilərin vassalları idilər.

Təbrizi öz paytaxtına çevirmiş Hülaku xan Qafqaza malik olmaq üçün başqa monqol-tatar dövləti ilə – Qızıl Orda ilə sonsuz müharibələr aparırdı. Qərbdə Elxanilər Misir və Suriya sultanları ilə mübarizə aparırdılar. İrana və qonşu dövlətlərə yürüşləri zamanı monqol işğalçıları fəth etdikləri dövlətlərin məhsuldar qüvvəllərinə böyük zərər yetirmiş, çoxlu sayda insanları məhv etmiş, şəhərləri və kəndləri viran etmiş, suvarma sistemlərini dağıtmışdılar. İşğal etdikləri ölkələrdə hakimiyyətlərini möhkəmləndirdikdən sonra monqol feodalları dağıdılmış təsərrüfatları bərpa etməyə məcbur oldular. Lakin Hülakulər sülaləsindən olan ilk altı xanın hakimiyyəti zamanında bu sahə-

də çox az iş görülmüşdü. Ancaq Qazan xanın (1295-1304) hakimiyyəti illərində sosial-iqtisadi və siyasi sahələrdə islahatlar həyata keçirilməyə başladı.

Birinci növbədə hərbiçilərə iqta şəklində torpaq mülkiyyəti verilməyə başladı. Hərbiçilər Qazan xanın əmrinə əsasən kəndliləri torpağı becərməyə məcbur etməli və onlardan divanın hökmü ilə təyin olunmuş vergi və xərac toplamalı idilər. Vergi və xəracların miqdarının mərkəzləşdirilmiş şəkildə təyin edilməsi kəndlilərin və sənətkarların vəhşicəsinə istismar edilməsinin qarşısını almaq məqsədi ilə həyata keçirilirdi. Elxanilər dövlətində dövlət torpaq mülkiyyəti əsas mülkiyyət formasına çevrilmişdi. Qazan xanın bu islahatları ümumiyyətlə, mərkəzi hakimiyyətin möhkəmləndirilməsi məqsədi daşıyırdı.

Elxani dövlətinin ilk illərində islam dininin, yəhudiliyin, xristianlığın, buddizmin və şamanizmin nümayəndələri arasında kəskin mübarizə getməsinə baxmayaraq başqa dinlərə nisbətən müəyyən qədər dözümlülüyə riayət edilirdi. Lakin zaman getdikcə bu mübarizədə islam dini qalib gəldi. Belə ki, Elxanilər dövlətində əsasən türklərdən və qismən farslardan ibarət olan əyanların əksəriyyəti müsəlman idilər. Məhz Qazan xanın hakimiyyəti dövründə islam dini elxanilərin rəsmi dövlət dininə çevrildi.

Feodal münasibətlərinin inkişafı nəticəsində Elxanilər dövləti XIV əsrin 30-cu illərinin axırlarında orta və xırda feodal dövlətlərə parçalandı. Elxani dövlətinin ərazisi monqol türk, yerli feodal və əyanların hakimiyyət uğrunda mübarizə meydanına çevrildi. Elxani dövlətinin vassalları müstəqil dövlətlərə çevrildi. Bunların arasında Çobanilər, Cəlairilər və Müzəffərilər dövlətləri daha qüdrətli idilər.

Feodal çəkişmələri və aramsız daxili müharibələr İranın Əmir Teymur tərəfindən işğal edilməsini asanlaşdırdı. Teymur qısa bir müddət ərzində İranı, İraqı, Cənubi Qafqaz ölkələrini, Qıpçaq çölünü, Krımı özünə tabe edə bildi.

Teymurun ölümündən sonra (1405) onun yaratdığı böyük imperiya dağıldı. Qərbdə (İraq, Azərbaycan və Kürdüstan) Teymurilər Qaraqoyunlular tərəfindən məğlub oldular. Şərqi İranda öz dövlətini möhkəmlətmiş Teymurun oğlu Şahrux (1405-1446) bir müddət Orta Asiyada, İranın mərkəzində və şərqində hökmdarlığını saxlaya bildi. O, müvəqqəti olaraq Qaraqoyunlu dövlətinin şərqə genişlənməsinin qarşısını aldı. Hüseyn Baykaranın hakimiyyəti illərində isə (1469-1506) Teymurilər dövləti Orta Asiya və Xorasan hissələrinə bölündü.

Bu mərhələdə Azərbaycanda, İraqda və İranda Qaraqoyunlu və Ağqoyunlu dövlətləri arasında hakimiyyət uğrunda kəskin mübarizə gedirdi. Bu mübarizədə Ağqoyunlu dövləti qalib gəldi. Yeni yaranmış Ağqoyunlu dövlətinin başçısı Uzun Həsən Təbrizi öz paytaxtı elan etdi. ağqoyunlular dövlətinə Azərbaycandan başqa şərqi Anadolu, İraq və təqribən bütün İran daxil idi. Uzun Həsən öz hakimiyyətini Kiçik Asiyada da genişləndirmək istəyirdi. O, mövqelərini möhkəmləndirmək üçün Venesiya ilə müqavilə bağlamış, Macarıstan, Polşa, Moldova qospodarları və Rusiya ilə siyasi əlaqələr yaratmışdı.

XV əsrin II yarısı öz mənşəyini Şeyx Səfiəddin İshaqdan götürən (1252-1334) səfəvilərin, yerli Azərbaycan sülaləsinin başçılıq etdiyi Ərdəbil hakimlərinin qüvvətlənməsi ilə səciyyəvidir.

Kəndlilərə və şəhər yoxsullarına onların vəziyyətini yüngülləşdirməyi vəd edən səfəvilər Ağqoyunlu dövləti ərazisində yüksəlmiş geniş xalq hərəkatında şiəlikdən ideoloji bayraq kimi istifadə edirdilər. Səfəvilər hakimiyyətə nail olmaq üçün Azər-

baycanda və Kiçik Asiyada yaşayan türk tayfalarını əsas zərbə qüvvəsi kimi öz ətraflarına cəlb etdilər.

XV əsrin II yarısında səfəvilərin mübarizəsi müvəffəqiyyət qazandı. Onlar Şirvanşahlarla və Azərbaycanın digər hakimlərinin qüvvələri ilə toqquşdular. Şeyx Cüneyd 1460-cı ildə Şirvanşah I Xəlilullah ilə döyüşdə həlak oldu. Onun oğlu Şeyx Heydər 1488-ci ildə Şirvanşah Fərrux Yassarın və Sultan Yaqub Ağqoyunlunun qoşunları ilə döyüşdə öldürüldü. Sultan Yaqub Şeyx Heydərin böyük oğlunu qətlə yetirdi. Ərdəbil şeyxlərinin müridləri Heydərin kiçik oğlu İsmayılı Gilan vilayətində gizlətdilər və yeni çıxışlar üçün qüvvə toplamağa başladılar.

1499-cu ildə 13 yaşlı gənc İsmayıl ağqoyunlulara qarşı mübarizə aparmaq üçün öz tərəfdarları ilə birlikdə Kiçik Asiyaya yola düşdü. Ərzincanda onun qoşunlarının tərkibinə Şamlu, Rumlu, Ustaclu, Təkəli, Vərsaq, Qacar kimi Azərbaycan türk tayfaları qoşuldular. Onun tərəfdarları arasında gilanlılar və talışlar da var idilər.

1500-1501-ci illərdə İsmayıl şirvanşahların və Sultan Yaqubun qoşunlarını məğlub etdi. O, 1501-ci ildə Azərbaycanda özünü şah elan etdi və Təbriz şəhərini özünə paytaxt seçdi.

İsmayıl hakimiyyətinin ilk 10 ili ərzində İran torpaqlarının böyük bir hissəsini özünə tabe etdi.

1510-cu ildə I Şah İsmayıl şərqdə, Mərv yaxınlığında özbək xanı Şeybani xana əsaslı zərbə endirdi və Xorasanı ələ keçirtdi.

Qərbə tərəf hərəkət zamanı səfəvilər qüdrətli Osmanlı dövləti ilə toqquşdular. Orta əsrlərdə Şərqin iki güclü türk dövlətinin düşmənçiliyi 1514-cü il avqust ayının 23-də baş vermiş Çaldıran döyüşündə özünün kulminasiya nöqtəsinə çatdı. Ki-

fayət qədər topa və odlu silahlara malik olan Osmanlı ordusu bu döyüşdə qalib gəldi.

Bu döyüşdən sonra Şah İsmayıl Qərbə tərəf öz yürüşlərini dayandırdı. I Sultan Səlimə göndərdiyi məktublarda Şah İsmayıl onu sülhə dəvət edirdi. Lakin Türkiyə sultanı ölkə daxilində qızılbaş hərəkatından ehtiyat edərək Şah İsmayıla və onun varislərinə qarşı düşmənçilik siyasətini davam etdirirdi. Buna görə də, ancaq I Təhmasibin hakimiyyəti zamanı (1524-1576) 1555-ci ildə səfəvilər Türkiyə ilə sülh müqaviləsi imzalaya bildilər. I Təhmasib zamanında səfəvilər Şırvanı və Gilanı tamamilə özlərinə tabe etdilər və Gürcüstana edilən yürüşlər nəticəsinə gürcü knyazlarının müqavimətini qırdılar. Müxtəlif dövrlərdə Herat və onun qonşuluğundakı əyalətlər özbək xanlarının hakimiyyəti altına keçsə də Əfqanıstan ərazisinin böyük hissəsi Səfəvi dövlətinin tərkibinə daxil idi. XVI əsrin ikinci yarısında səfəvilər Bağdadı və Diyarbəkiri osmanlılara verməyə məcbur oldular.

I Təhmasibin hakimiyyətinin son illərində kəndlilərin və şəhər əhalisinin vəziyyəti pisləşməyə başladı. Ölkədaxili çəkişmələr gücləndi. I Təhmasibin ölümündən sonra qızılbaş tayfalarının başçılarının hər biri şahlıq taxtında öz «şahzadəsi»ni oturtmaq istəyirdi. Ölkə daxilindəki siyasi mübarizə Osmanlı Türkiyəsinə XVI əsrin axırlarında Cənubi Qafqazı və Azərbaycanı tamamilə işğal etmək imkanı yaratdı.

1588-ci ildə Ustaclu və Şamlu azərbaycanlı türk tayfa başçılarının himayəsi ilə şahzadə Abbas Mirzə I Abbas adı ilə şah elan edildi. (1581-1628). Çox cavan olmasına baxmayaraq Şah Abbas özünü qətiyyətli və istedadlı bir siyasi xadim kimi göstərdi. 1590-cı ildə Türkiyə sultanının təklif etdiyi sülhün ağır şərtlərini qəbul etməyə məcbur olan Şah Abbas qüvvələrini özbəklərin Xorasanı işğal etmələrinin qarşısını almağa yönəltdi. 1599-

cu ildən başlayaraq qızılbaşlar özbək xanlarını Xorasandan qovmağa başladılar. Xorasanı ələ keçirən Şah Abbas Orta Asiyaya yürüşlər etməyə başladı.

1603-cü ilin sentyabrında isə Azərbaycana yürüş başladı. Osmanlılarla aparılan beş illik müharibə nəticəsində Azərbaycan və Dağıstanın bir hissəsi yenidən Səfəvi dövlətinə birləşdirildi. 1612-ci ildə İran və Türkiyə arasında imzalanmış sülh müqaviləsi ilə işğal olunmuş ərazilərin səfəvi dövlətinə birləşdirilməsi rəsmiləşdirildi.

I Şah Abbasın müharibələrdə əldə etdiyi müvəffəqiyyətlər müəyyən dərəcədə onun həyata keçirdiyi daxili islahatların nəticəsi idi. Hələ hakimiyyətinin ilk illərində, özbək xanlarına qarşı müharibələr apardığı zaman Şah Abbas hərbi islahatlar keçirməyə başladı. O əsasən Qafqaz xalqlarından olan əsgərlərdən təşkil edilmiş şah qvardiyası və tüfəngçilər dəstələri yaratdı. Həm qvardiyaçılar, həm tüfəngçilər şah xəzinəsindən maaş almağa başladılar. Orduda artilleriya hissələri təsis edildi.

Nizami ordunun yaradılması, həmçinin orduya ərəb, çaqatay-özbək, əfqan və digər xalqların nümayəndələrinin cəlb edilməsi Səfəvi dövlətində Azərbaycan türk etnik elementinin rolunu zəiflətdi. Mərkəzi hakimiyyət gücləndirildi. İran feodallarından ibarət olan vətəndaş bürokratiyasının rolu artdı. Ticarətin inkişafına xüsusi diqqət yetirilməyə başladı. İrandan həm şimal yolu (Qafqaz-Rusiya), həm də cənub yolu ilə (Fars körfəzi) müxtəlif mallar Avropaya və Hindistana aparılırdı. Mərkəzi hakimiyyətin möhkəmləndirilməsi ölkədə sənətkarlığın və kənd təsərrüfatı istehsalının inkişaf etməsinə şərait yaratdı. I Şah Abbas zamanında paytaxt elan edilmiş İsfahan şəhəri sənətkarlığın və ticarətin mərkəzinə çevrildi.

Səfəvilər dövründə, xüsusən I Şah Abbasın hakimiyyəti illərində Avropa dövlətləri ilə əlaqələr yaradıldı. İngiltərəyə, Rusiyaya, Fransaya, Hollandiyaya, İspaniyaya və s. dövlətlərə səfirlər göndərildi və bu ölkələrdən səfəvilər sarayına səfirlər gəldi. I Şah Abbas Fars körfəzində də fəal siyasət həyata keçirirdi. O, bu məntəqədə Avropa dövlətləri arasında mövcud olan rəqabətdən öz xeyrinə istifadə etmək istəyirdi. I Şah Abbas Osmanlı imperiyası ilə düşmənçilik siyasəti yürüdən dövlətlərlə, o cümlədən Almaniya, Rusiya və Avstriya ilə yaxınlaşmağa çalışırdı. Səfəvilər dövründə mərkəzi hakimiyyətin möhkəmlənməsi nəticəsində cəmiyyətdə rühanilərin nüfuzunun artması üçün şərait yarandı. Yüksək dərəcəli ruhanilərin sayı artdı. Bütün ibadət, şəriət və vəqfləri idarə etmək işləri onların əlində cəmləşdi. Böyük torpaq sahələrinə və çoxlu miqdarda daşınmaz əmlaka malik olmuş ruhanilər hakim sinfin ən nüfuzlu hissələrindən birinə çevrildilər. Dövlət torpaqlarının, xüsusən I Şah Abbasa məxsus torpaqların və daşınmaz əmlakın miqdarı xeyli artdı.

Səfəvilər dövründə, xüsusən XVI-XVII əsrlərdə mədəniyyət sahəsində böyük uğurlar əldə edilmişdi. İncəsənətin inkişafında Təbriz, Qəzvin və İsfahan miniatür məktəbləri xüsusi yer tutmağa başladı. Memarlıq sənəti inkişaf etdi. Təbrizdə, Qəzvində gözəl binalar ucaldı. Səfəvilərinin yeni paytaxtı İsfahanda ictimai binalar kompleksi və şah sarayı tikildi.

XVII əsrdə əmtəə-pul münasibətlərinin inkişafı ilə yanaşı kəndililərin istismarı da gücləndi. XVII əsrin ikinci yarısında torpaq rentasının və dövlət vergilərinin artırılması xalqın etirazlarına səbəb oldu. Bu etirazlar xüsusilə əyalətlərdə daha güclü idi. Əfqanlar, gürcülər, bəluclar, Dağıstan xalqları mübarizəyə qalxıb, bir çox hallarda isə müstəqillik tələb etməyə başladılar.

XVII əsrin sonu və XVIII əsrin əvvəllərində başlamış iqtisadi tənəzzül səfəvilərin mərkəzi hakimiyyətini zəiflətməyə başladı. Mərkəzi dövlət orqanları əyalətləri idarə edə bilmirdilər. XVII əsrin sonu, XVIII əsrin əvvəllərində Səfəvi dövlətinin böyük ərazisində çoxlu sayda üsyanlar bir-birini əvəz etməyə başlamışdı. Səfəvi dövlətinin süqutu ilə nəticələnmiş ən böyük üsyan əfqan tayfaların üsyanı idi.

Əfqan tayfaları öz qonşuları türkmənlər və bəluclar kimi islam dininin sünni məzhəbinə aid idilər. Bundan istifadə edən Gilzai əfqan tayfasının başçısı Mir Veys digər əfqan tayfalarını səfəvilərə qarşı mübarizədə öz ətrafında birləşdirə bildi. Gilzailərin üsyanı 1709-cu ildə başlandı. Tezliklə bu üsyana Səfəvi dövlətinin şərq əyalətlərində yaşayan və əfqan olmayan digər xalqlar və qəbilələr də qoşuldular. 1711-ci ildə Mir Veys özünü müstəqil hökmdar elan etdi.

Mir Veysin oğlu Mahmud səkkiz aylıq mühasirədən sonra 1722-ci ildə İsfahanı ələ keçirdi. Səfəvi hökmdarı şah Hüseyn Mahmudun xeyrinə taxtdan əl çəkdi. Əfqanlar İsfahanı ələ keçirdikdən sonra qısa bir müddət ərzində bütün mərkəzi İranı demək olar ki, işğal etdilər.

Yaranmış vəziyyətdən istifadə edən Rusiya və Türkiyə Dağıstanı, Gürcüstanı, Azərbaycanı, Gilanı ələ keçirmək üçün səylər göstərməyə başladılar. 1722-1723-cü illərdə I Pyotr Qafqaza yürüş etdi. Onun məqsədi Qafqazı işğal etmək idi. Rus qoşunları Bakını, Dərbəndi və Gilanın bir hissəsini işğal etdilər. Osmanlı Türkiyəsi isə Qafqazın böyük bir hissəsini ələ keçirməklə qərbi İranı da işğal etməyi qarşısına məqsəd qoymuşdu. Qafqazı və İranın şimal əyalətlərini ələ keçirmək uğrunda mübarizə Rusiya-Türkiyə münasibətlərinin gərginləşməsinə səbəb oldu. Lakin 1724-cü ildə Rusiya ilə Türkiyə arasında müqa-

vilə imzalandı. Bu müqaviləyə əsasən İrandan ayrılaraq Rusiyaya və Türkiyəyə verilən əyalətlər müəyyənləşdi. İranın bu müqaviləni tanıyacağı təqdirdə Rusiya ilə Türkiyə 1722-ci ildə şah elan edilən sultan Hüseynin oğlu Təhmasibi himayə edəcəklərini vəd edirdilər.

Təhmasibin əfqanları ölkədən qovmaq cəhdləri uğursuzluğa uğradı. Əfqanların başçısı Əşrəfə məğlub olan Təhmasib Mazandarana qaçdı və oradan Xorasana hərəkət etdi. Təhmasibin Xorasan uğrunda apardığı müharibələrdə sərkərdələrdən biri olan Nadir xüsusilə fərqləndi. Bir qədər keçdikdən sonra isə o, əfqanlara qarşı müharibə edən ordunun baş sərkərdəsi oldu.

Nadir mənşəcə Azərbaycan türk tayfalarından olan əfsar tayfasının qırxlı nəslindən idi və əcdadları ilk səfəvilər zamanı Urmiya ətrafından Xorasana köçürülmüşdülər. 1729-cu ildə Herat şəhəri yaxınlığında əfqan ordusunu darmadağın etmiş Nadir mərkəzi İrandan da əfqanları qovmağa başladı. Nadir əfqanları İrandan tamamilə qovduqdan sonra Osmanlı türkləri tərəfindən işğal olunmuş Azərbaycanı və İranın digər qərb əyalətlərini azad etməyə başladı. O eyni zamanda rus qoşunlarının Azərbaycan hüdudlarından çıxarılmasını təkidlə tələb edirdi. Bu səbəbdən İran və Rusiya dövlətləri arasında sülh müqaviləsinin bağlanmasının labüdlüyü meydana çıxdı. 1732-ci ilin yanvar ayının 21-də Rəştdə 8 maddədən ibarət müqavilə imzalandı. Müqavilənin şərtlərinə əsasən Rusiya müqavilənin təsdiqindən sonra 5 ay ərzində Xəzər dənizi sahilindən Kür çayının axarına qədər bütün torpaqları İrana verirdi. Bu şərtlə ki, həmin torpaqlar bilavasitə İran dövlətinin əlində olmalıdır, İran isə Türkiyəni buraya buraxmamalıdır. Kür çayından şimala Xəzər dənizi boyunca Bakı və Dərbənd kimi mühüm şəhərləri əhatə edən torpaqlar da İrana verilməlidir, yalnız bu şərtlə ki, İran

XVIII əsrin 20-ci illərində Türkiyə tərəfindən zəbt edilmiş bütün torpaqları qaytarmağa nail olsun.

1733-1735-ci illərdə Nadir cənubi Qafqazı işğal etmiş Osmanlı Türkiyəsinə qarşı uğurlu müharibələr aparmağa başladı. Cənubi Qafqaz tamamilə türk əsgərlərindən təmizləndi. Nadir əldə etdiyi hərbi uğurlardan öz mütləq hakimiyyətini təsdiq etmək üçün istifadə etdi. Bu məqsədlə 1736-cı ilin əvvəlində Muğanda qurultay çağırıldı. Qurultayda İranın, Azərbaycanın, Gürcüstanın, digər qonşu əyalətlərin bütün iri feodalları və ruhaniləri iştirak edirdilər. Qurultayda Nadir şah elan edildi və Səfəvilər sülaləsinə son qoyuldu. Nadir şah olduqdan sonra Qəndəhar vilayətini öz torpaqlarına birləşdirmək qərarına gəldi. 1737-1738-ci illərdə Qəndəharı və Bəlucistanı işğal edən Nadir 1738-1739-cu illərdə Hindistana yürüşlər həyata keçirdi və 1740-cı ildə Buxara və Xivəni ələ keçirdi. 1741-ci ilin baharında Nadir şah Xarəzmdən qayıdaraq Dağıstana hücuma keçdi. Bütün səylərinə baxmayaraq Nadir burada müvəffəqiyyət qazana bilmədi. Müqavimətə rast gələn Nadir 1743-cü ildə Osmanlı Türkiyəsinə qarşı yürüş hazırlamaq üçün Azərbaycana qayıtdı. 1746-cı ildə isə İran və Türkiyə arasında sülh müqaviləsi imzalandı.

Nadir şahın Dağıstanda və Şirvanda hərbi uğursuzluqları bu ölkələrdə və həmçinin onun işğal etdiyi digər ölkələrdə azadlıq və müstəqillik hərəkatlarının baş qaldırmasına səbəb oldu. Aramsız müharibələrdən və ağır vergilərdən bezmiş xalq kütlələri çox vaxt yerli feodalların başçılıq etdikləri bu hərəkatlara qoşulurdular. Öz hakimiyyətini saxlamağa çalışan Nadir şah qızılbaş əmirləri ilə əfqan – türkmən başçıları arasında olan düşmənçilikdən öz xeyrinə istifadə etmək istədi. Nadirin bu siyasəti Qızılbaş əmirlərinin kəskin etirazına səbəb oldu və onlar 1747-ci il iyul ayının 20-də onun qətlini təşkil etdilər.

Nadir şahın yaratdığı imperiya onun ölümündən sonra tezliklə dağıldı. Təkcə Xorasanda onun nəvəsi Şahrux bir müddət hakimiyyətdə qala bildi. İranın qərbində və şimalında isə yerli feodal qruplaşmaları arasında hakimiyyət uğrunda gərgin mübarizə gedirdi. Bu mübarizədə lur tayfaları, Azərbaycan türkləri və bəxtiyari tayfaları əsas rol oynayırdılar. Bu gərgin mübarizədə bəxtiyari tayfalarının başçısı Əlimərdan Xan və Lur tayfalarının Zənd qəbiləsinin başçısı Məhəmməd Kərim xan Zənd (1750-1779) qalib çıxdılar. Kərim xan mahiyyətcə dövlətin başçısı olsa da özünü şah elan etmədi və səfəvilərin vəkili kimi dövləti idarə etməyə başladı.

Bütün qərbi İranı özünə tabe edən Kərim xan Zənd Şirazı paytaxt seçdi. Kərim xan hakimiyyətdə olduğu müddətdə dövlət idarəetmə sistemini möhkəmlətməyə çalışmış, ticarətin və kənd təsərrüfatının inkişaf etməsi üçün tədbirlər həyata keçirmişdir.

1779-cu ildə Kərim xan Zənd öldükdən sonra hakimiyyət uğrunda onun varisləri arasında mübarizə başladı. Bundan zəndlərin keçmiş rəqibləri olan qacarlar istifadə edərək, əvvəlcə zəndləri İranın cənubuna qovdular, sonra isə zəndlərin dövlətini tamamilə aradan götürdülər.

Qacarlar səfəvi dövlətinin yaranmasında mühüm rol oynamış Azərbaycan türk tayfalarından idilər. Onlar əsasən Azərbaycanda və Mazandaranda yaşayırdılar. Yeni dövlətin banisi Mazandaranda yaşayan qacarların başçısı Ağa Məhəmməd xan idi (1778-1797). Qətiyyətliliyi ilə seçilən Ağa Məhəmməd xan əvvəlcə mərkəzi və şimali İranı, Azəbaycanı, Xəzər dənizinin cənub qərbində yerləşən əraziləri, sonra isə Kermanı, qərbi Bəlucistanı, Sistanı və Məşhədi öz hakimiyyəti altında birləşdirdi. Ağa Məhəmməd xan ölkənin şimalında yerləşən kiçik Tehran şəhərini özünə paytaxt seçdi.

Qacarlar hakimiyyətlərinin ilk illərindən başlayaraq mərkəzləşdirilmiş feodal dövlətinin yaradılmasına çalışırdılar. Onlar İrandakı qəbilə və tayfaların separatizminin qarşısını ala bildilər və ölkənin parçalanmasına imkan vermədilər. Bunun əksinə olaraq şimali Azərbaycanda, Gürcüstanda, Dağıstanda yerli feodalların başçılığı ilə xırda müstəqil dövlətlər yarandı.

Bu mərhələdə çar Rusiyası cənubi Qafqazı tutmaq planlarını həyata keçirməyə başladı. 1801-ci ildə Şərqi Gürcüstan Rusiyaya birləşdirildi. Bu dövrdə Qazax və Şəmsəddin sultanlıqları Gürcüstandan asılı vəziyyətdə olduğundan şərqi Gürcüstanla birlikdə Rusiyaya birləşdirildi. Bununla Azərbaycanın işğalı başlandı. Rus qoşunlarının Cənubi Qafqazdakı nailiyyətləri, Gürcüstanın, onunla həmsərhəd olan Azərbaycan torpaqlarının çar Rusiyası tərəfindən zəbt edilməsi sultan Türkiyəsini və şahlıq İranını narahat etdi. Buna görə də 1804-cü ilin iyun ayında Rusiya ilə İran arasında müharibə başlandı. Belə bir şəraitdə qacarların feodal dövləti Avropanın müstəmləkəçi dövlətlərinin diqqətini cəlb etməyə başladı.

Rusiya qoşunlarının İran ordusuna qarşı Cənubi Qafqazdakı müvəffəqiyyətləri İran şahını və İranın cənubi Azərbaycandakı hakimi Abbas Mirzəni (1789-1833) kömək üçün İngiltərəyə müraciət etməyə məcbur etdi. Lakin ingilislər İrana lazım olan köməyi edə bilmədilər. Çünki Napoleon diplomatiyası İranda fəaliyyətini gücləndirmişdi. Belə ki, Fransa İngiltərə və Rusiyaya qarşı mübarizədə İrandan istifadə etməyə çalışırdı. 1807-ci ildə İran və Fransa arasında müqavilə imzalandı. Bu müqaviləyə əsasən Fransa Cənubi Qafqazı ələ keçirməkdə və İran ordusunun yenidən qurulmasında qacarlara kömək etməyi öhdəsinə götürürdü. Bu məqsədlə Tehranda Fransanın səfiri general Qardan təyin olunmuşdu. 1807-ci ildə Rusiya və Prussiya ilə im-

zalanmış Tilzit sülhündən sonra isə Fransanın İrana olan marağı azalmağa başladı. Bunun əksinə olaraq İngiltərənin İrana olan diqqəti çoxaldı. 1809-cu ildə İngiltərə ilə İran arasında müttəfiqlik barəsində müqavilə imzalandı. Bu müqaviləyə əsasən Rusiya ilə müharibəni davam etdirəcəyi təqdirdə İngiltərə İrana hər il 160 min tümən subsidiya verməyi öhdəsinə götürürdü. 1810-cu ildə İngiltərə bu məbləğin miqdarını bir qədər də artırdı. 1810-1811 -ci illərdə İngiltərə hökuməti İran ordusuna xeyli miqdarda top, silah, patron və s. hərbi sursat verdi. İran ordusunun yenidən qurulmasında ingilis müşavirləri Abbas Mirzəyə kömək edirdilər. Lakin nə bu köməklik, nə də Napoleonun Rusiyaya hücumu Rusiyaya qarşı müharibədə İrana kömək edə bilmədi. 1813-cü il oktyabrın 13-də Qarabağın Gülüstan kəndində Rusiya ilə İran arasında sülh müqaviləsi imzalandı. Bu müqaviləyə görə İrəvan və Naxçıvan xanlıqlarından başqa Araz çayının şimalında yerləşən Azərbaycan ərazisindəki bütün xanlıqların – Gəncə, Qarabağ, Nuxa (Şəki), Şamaxı, Quba, Bakı, Dərbənd xanlıqlarının ərazisi Rusiyanın tərkibinə qatıldı.

Birinci Rus-İran müharibəsindən sonra 1814-cü ildə İran İngiltərə ilə yeni müqavilə imzaladı. Bu müqaviləyə əsasən İran tərəfi öz ərazisindən hər hansı bir dövlətin Hindistana keçməsinə icazə verməməyi öhdəsinə götürürdü. İngilislər isə İranın xeyrinə olaraq Gülüstan sülhünün şərtlərinə yenidən baxılmasını təmin etməyi vəd verirdilər.

İngilislər həmçinin İrana hər hansı bir dövlətlə müharibə aparacağı təqdirdə ildə 200 min tümən subsidiya ayırmağı, silah və əsgərlərə kömək etməyi öhdələrinə götürürdülər.

İngiltərə ilə İran arasındakı 1814-cü il müqaviləsi İranın Rusiya ilə yeni müharibəyə başlamasına şərait yaradırdı.

İran Qafqazı əldən verməsi ilə heç cür razılaşmaq istəmirdi. Bu səbəbdən 1826-cı il iyulun 16-da 60 minlik İran ordusu Azərbaycanın şimal torpaqlarına hücum etdi. Lakin İranın başladığı bu yeni müharibə də onun ağır məğlubiyyəti ilə nəticələndi. Təbrizdən bir qədər cənubda Türkmənçay kəndində 1828-ci il fevralın 10-da İranla Rusiya arasında yeni sülh müqaviləsi imzalandı. Bu müqavilə Rusiyaya kapitulyasiya hüquqları verirdi. Müqaviləyə görə Naxçıvan və İrəvan xanlıqları Rusiyanın tərkibinə keçdi. Müqaviləyə əsasən İran Rusiyaya 20 mln. rubl gümüş pul ödəməli idi.

Rusiya ilə apardığı uğursuz müharibələr nəticəsində zəifləmiş İran get-gedə müstəmləkəçi dövlətlərin rəqabəti obyektinə çevrilməyə başladı. Lakin buna baxmayaraq İran dövləti itirilmiş torpaqların qaytarılması iddialarından əl çəkmirdi. Bu məqsədlə Fətəli şah Qacar yarımmüstəqil Herat xanlığını İrana birləşdirmək qərarına gəldi və 1834-cu ildə İran qoşunları Herat şəhərini mühasirəyə aldılar. Lakin Abbas Mirzənin və ondan sonra Fətəli şahın ölümü səbəbilə İran qoşunları geri qayıtdı. Taxt-taca sahib olmuş Məhəmməd şah Qacar (1834-1848) 1837-ci ildə yenidən Herat üzərinə qoşun yeritdi. Ancaq İngiltərə tərəfindən açıq hədələrə məruz qalan İran öz qoşunlarını geri çəkməyə məcbur oldu. Rusiyaya qarşı müharibədə İranı müdafiə edən İngiltərə dövləti İrana qarşı əfqan əmirlərini müdafiə etdi.

1856-cı ilin əvvəllərində ingilislər tərəfindən himayə edilən əfqan əmiri Dost Məhəmmədin Heratı tutmaq istəməsi xəbərini alan Nəsirəddin şah Qacar (18148-1896) Herat hakimi Məhəmməd Yusifə kömək etmək məqsədi ilə Herata qoşun göndərdi. İranın bu hərəkəti İngiltərə dövlətinin kəskin etirazına səbəb oldu. 1856-cı il noyabr ayının əvvəlində Hindistanın general-qubernatoru İngiltərə höküuməti adından İrana müharibə elan et-

di. 1856-cı ilin sonu, 1857-ci ilin əvvəllərində İngilis ekspedisiya korpusu Fars körfəzində işğalçılığa başladı. Xark adası, Buşir, Mohəmmərə və Əhvaz şəhəri ingilislər tərəfindən tutuldu. Döyüşlərdə İran ordusu məğlub oldu. 1857-ci ilin mart ayında İran dövləti İngiltərə ilə sülh müqaviləsi imzaladı. Bu müqaviləyə əsasən İran dövləti Herat xanlığının və digər əfqan ərazilərinin suverenliyini tanıdı.

İranın Rusiya və İngiltərə ilə apardığı müharibələrdə məğlubiyyəti onu Avropa dövlətlərinin yarımmüstəmləkəsinə, inkişaf etmiş dövlətlərin bazarına çevirməyə başladı. İngiltərə və Rusiya kimi müstəmləkəçi dövlətlər hədə və rüşvət hesabına feodal hakimiyyətinin bir çox nümayəndələrini özlərinin müstəmləkəçilik siyasətinin alətlərinə çevirmişdilər. Bu adamlar İranda siyasi, iqtisadi və mədəni islahatların keçirilməsinin əleyhinə idilər. Bu səbəbdən sədr əzəm (baş nazir) Mirzə Tağı xan Əmir Kəbirin həyata keçirmək istədiyi ictimai-siyasi və hərbi islahatların qarşısı adı çəkilən mühafizəkar feodallar tərəfindən qətiyyətlə alındı.

1848-1850-ci illərdə İranda babilərin üsyanı baş verdi. Üsyan Mazandaran, Zəncan və Neyriz şəhərlərində daha kütləvi xarakter daşıyırdı. Müstəmləkə ölkələrindən İrana mal idxalının çoxalması nəticəsində sənətkarlığın və yerli sənaye məhsullarının istehsalının aşağı düşməsi əhalinin maddi vəziyyətini xeyli ağırlaşdırmışdı. Belə vəziyyətdən cana gəlmiş əhalinin böyük bir hissəsi babi üsyanlarında iştirak edirdi. Babi üsyanları ordunun gücü ilə yatırıldı.

XIX əsrin ikinci yarısını Avropa dövlətlərinin İrana nüfuz etməsi dövrü hesab etmək olar. Sərfəli konsessiyaların əldə edilməsi, ağır kreditlərin verilməsi və ticarətin genişləndirilməsi

uğrunda mübarizə müstəmləkəçi dövlətlər arasında İran uğrunda rəqabəti gücləndirdi.

İranda ilk konsessiyaları 1862-1872-ci illərdə ingilislər əldə etmişdilər. Bu konsessiya teleqraf xətlərinin tikintisi üçün idi. 1872-ci ildə baron Röyter İran hökümətindən İranda dəmiryol və tramvay xətlərinin tikilməsinə, kanalların çəkilməsinə, meşələrin istifadə olunmasına, xam torpaqların mənimsənilməsinə, qızıl, gümüş və qiymətli daşlar istisna olmaqla faydalı qazıntı yataqlarının istismar olunmasına xüsusi səlahiyyətlər aldı. Bu konsessiya Rusiya hökumətinin kəskin etirazına səbəb oldu və tezliklə şah tərəfindən ləğv edildi.

Lakin Baron Röyter 1889-cu ildə İngiltərə hökumətinin vasitəçiliyi ilə İran hökumətindən yeni konsessiya ala bildi. Bu konsessiya ilə Röyter İranda bank təşkil etmək və filiz yataqlarının istismar etmək hüquqlarını əldə etdi. Onun təşkil etdiyi bu bank 1928-ci ilə qədər İran Şahənşah Bankı kimi fəaliyyət göstərmişdir.

Sonrakı dövrlərdə rus dövləti və rus təbəələri də İran dövlətindən müxtəlif konsessiyalar əldə etdilər. İranda Rusiyanın ən mühüm müstəmləkəçilik aləti İran kazak hərbi hissəsi idi. Əvvəlcə polk, sonra isə briqada adlanan bu hissə 1879-cu ildə İran şahının xahişi ilə təşkil edilmişdi. Bu hərbi hissədə ilk dövrlərdə bütün komandir postlarını rus zabitləri tuturdular.

1890-cı ildə təsis edilmiş uçot- kredit bankı da Rusiyanın maraqlarına xidmət edirdi.

Avropa dövlətlərinin XIX əsrin əvvəllərindən başlayaraq İranla ticarəti genişləndirmələri bir tərəfdən ölkənin iqtisadi mərkəzlərində əmtəə pul münasibətlərinin inkişafına xidmət edirdisə, digər tərəfdən yerli sənayenin inkişafına mənfi təsir göstərirdi. Bu siyasət toxuculuq, dəriçilik, ipəkçilik və s. kimi

yerli istehsal sahələrinin demək olar ki, dağılmasına gətirib çıxarırdı.

İranda ən çox gəlir verən sahələrdən biri kənd təsərrüfatı idi. Ona görə də, torpaqlara yiyələnmək uğrunda mübarizə xüsusi əhəmiyyətə malik idi. Xanlar, ali dərəcəli müsəlman rühaniləri, iri tacirlər və dövlət məmurları müxtəlif qanuni və qeyri-qanuni yollarla dövlət, vəqf və kəndli torpaqlarının mənimsənilməsi ilə məşğul idilər. Əsas istehsalçılar olan kəndlilər isə torpaq icarədarları idilər və bütünlüklə iri torpaq sahiblərindən asılı vəziyyətdə idilər.

Müstəmləkəçi dövlətlərin təzyiqi və ölkədə hökm sürən ictimai-siyasi qarşıdurmalar XIX əsrin sonu və XX əsrin əvvəllərində ən yüksək gərginliyə çatdı. Qacarların orta əsr üsuli-idarəsi, şah rejimi tərəfindən hər hansı yeniliyin, liberallaşmanın qarşısının alınması əhalinin, xüsusən onun təhsil almış hissəsinin kəskin etirazına səbəb oldu. 1905-ci ildə ölkədə şah despotizminə, feodal üsuli-idarəsinə və xaricilərin İranda nüfuzlarının artmasına qarşı yönəlmiş inqilab başlandı. İnqilabçıların əsas tələbləri şah üsuli-idarəsinin məhdudlaşdırılması, parlamentin (məclisin) çağırılması və feodal qaydalarının ləğv edilməsindən ibarət idi. 1905-1911-ci illər inqilabı dövründə ölkədə konstitusiya rejiminin yaradılmasında və məclisin çağırılmasında xüsusi rol oynamış əncümənlər (şuralar) yaradıldı. Birinci İran məclisi İran Konstitusiyasını və onun mühüm hissəsi olan əlavələri hazırlayıb qəbul etdi. 1905-1911-ci illər İran inqilabının ən parlaq səhifəsi Azərbaycan xalqının görkəmli oğlu Səttar xanın başçılıq etdiyi 1908-1909-cu illərdəki Təbriz üsyanı idi. Bu zaman hakimiyyət bütünlüklə yerli əncümənlərin əlində idi.

İranda demokratik hərəkatın inkişafına ən böyük zərbəni İngiltərə və Rusiya dövlətləri vurdular. İnqilab illərində onlar

kobud şəkildə İranın daxili işlərinə qarışırdılar. Bu illərdə bu iki dövlət Almaniyanın regiona nüfuzunun qarşısını almaq məqsədi ilə İranı, Əfqanıstanı və Tibeti öz təsir dairələrinə bölən müqavilə imzaladılar.

1905-1911-ci illərdə siyasi səhnəyə çıxmış İran burjuaziyası və liberal torpaq sahibləri şah rejiminin feodal aristokratiyasına qarşı mübarizədə xarici dövlətlərin, o cümlədən Almaniyanın, Fransanın və ABŞ-ın köməyindən istifadə etməyə çalışırdılar. 1911-ci ildə məclisin qərarı ilə başda Morqan Şüster olmaqla bir qrup Amerika mütəxəssisi İrana dəvət edildi. Bu qrupun ölkədəki vergi sisteminin yenidən qurulması ilə bağlı cəhdləri feodal dairələri tərəfindən kəskin etiraz və düşmənçiliklə qarşılandı. Elə həmin ildə Morqan Şüsteri aradan götürmək və millətçilərin mövqelərini zəiflətmək məqsədi ilə Rusiya İrana hərbi birləşmələr göndərdi. Bu birləşmələr ölkənin şimal-qərbində inqilabi hərəkatın mərkəzlərini darmadağın etdilər. 1911-ci ilin dekabrında Tehranda məclis buraxıldı və əncümənlər ləğv edildi. Konstitusiya və onun gətirdiyi dəyişikliklər qalsa da inqilab yatırıldı.

Birinci dünya müharibəsinin başlanması İranın daxili və xarici siyasətinə öz təsirini göstərdi. İran hökuməti bitərəfliyini elan etsə də, ölkənin ərazisi müharibə edən tərəflərin və onların tərəfdarlarının hərbi toqquşmaları meydanına çevrildi. 1915-ci ildə Türkiyə-Almaniya blokunun tərəfdarlarına qarşı mübarizə aparmaq adı altında rus qoşunları İranın şimalına soxuldular. Ölkənin cənubunda ingilis qoşunları peyda oldular. Ölkənin şimalının və cənubunun xarici dövlətlər tərəfindən işğal olunması bir çox hallarda onlara qarşı çıxışlara səbəb olurdu. Bu çıxışlar vətənpərvərlik və islam şüarları altında baş verirdi. Bəzi hallar-

da xalq kütlələrinin işğalçılara qarşı hərəkatları İranın hakim siniflәri tərəfindən himayə edilirdi.

1915-ci ilin noyabr ayında İranın baş naziri Müstöfi-əl-məmalik Almaniyanın İrandakı səfiri ilə gizli müqavilə imzaladı. Müqaviləyə əsasən Almaniya İrana maliyyə və hərbi yardım göstərməyi öhdəsinə götürürdü. Bunun əvəzində isə İran Almaniya və onun müttəfiqlərinin tərəfində müharibəyə girməli idi. Lakin rus qoşunlarının Tehrana yürüşü, ingilis və rus diplomatlarının kobud müdaxiləsi nəticəsində Müstöfi hökuməti 1915-ci ilin dekabrında istefaya getməyə məcbur oldu.

Rusiyadakı 1917-ci il fevral inqilabı İrandaki daxili vəziyyətə ciddi təsir göstərdi. Şimali və mərkəzi əyalətlərdə vətənpərvər siyasi qüvvələrin fəalliyyəti canlandı. Ölkə burjuaziyası və liberal mövqeli torpaq sahibləri mərkəzi hakimiyyətin möhkəmləndirilməsinin tərəfdarı idilər. Onlar yeni məclisin çağırılmasını tələb edirdilər. Güney Azərbaycanının paytaxtı Təbriz şəhərində Şeyx Məhəmməd Xiyabaninin başçılıq etdiyi demokrat partiyası geniş fəaliyyətə başlamışdı. Demokrat partiyası xarici qoşunların ölkədən çıxarılmasını, İranın suverenliyinin bərpa edilməsini və yeni məclisin çağırılmasını tələb edirdi.

Gilanda Mirzə Kiçik xanın başçılığı ilə «Cəngəlilər üsyanı» adı altında milli-vətənpərvərlik hərəkatı böyük bir əraziyə yayıldı. Bu hərəkat təkcə Rusiya ilə İngiltərə əleyhinə deyil, həmçinin bu dövlətlərin ölkə daxilindəki tərəfdarlarına qarşı yönəlmişdi.

Rusiyadakı 1917-ci il oktyabr bolşevik inqilabı İranın daxili siyasi vəziyyətinə böyük təsir göstərdi. Rusiyada yeni qüvvələrin hakimiyyətə gəlməsi ilə İran Rusiyanın müstəmləkəçilik siyasətindən xilas oldu. 1917-ci il dekabr ayının 3-də sovet hökumətinin «Rusiyanın və Şərqin müsəlman xalqlarına

müraciəti» elan olundu. Bu müraciətdə İranın bölünməsi barədə müqavilənin ləğv olunması bildirildi. Müraciətdə həmçinin qeyd olunurdu ki, hərbi əməliyyatlar qurtarandan sonra Rusiyanın bütün qoşunları İrandan çıxarılacaq və İrana öz müqəddəratını həll etmək hüququ veriləcəkdir. İngilis diplomatları Rusiyanın müvəqqəti olaraq İran səhnəsindən çəkilməsindən istifadə edərək ölkənin hakim dairələrinə təzyiqlərini artırmağa çalışdılar. Şah rejiminin keçirdiyi böhran isə ingilislərin planlarının həyata keçməsinə şərait yaradırdı. Böyük Britaniyanın Tehrandakı səfiri Marlinq ingilispərəst Vosuqəddövlənin baş nazir təyin olunacağı təqdirdə İngiltərə hökuməti tərəfindən İrana hər il 15 min tümən subsidiya veriləcəyi barədə vəd vermişdi. 1918-ci il avqustun əvvəllərində Vosuqəddövlə baş nazir təyin edildi və həmin ilin sonunda İngilis-İran müqaviləsi bağlamaq üçün İngiltərə ilə gizli danışıqlar başlandı. Bu danışıqların nəticəsi olaraq 1919-cu il avqustun 9-da İngiltərə ilə İran arasında müqavilə imzalandı. Bu müqaviləyə əsasən İngiltərə faktiki olaraq İran siyasəti və iqtisadiyyatının əsas sahələri üzərində nəzarəti ələ keçirirdi. İngiltərə İranda ingilis hərbi mütəxəssislərinin rəhbərliyi altında vahid ordu yaratmağı, idarəçilik və maliyyə sahələrində islahatlar həyata keçirməyi öhdəsinə götürürdü.

Belə bir müqavilənin imzalanacağı xəbəri ölkədə anti-imperialist və demokratik hərəkatın başlanmasına təkan verdi. Güney Azərbaycanında Şeyx Məhəmməd Xiyabaninin başçılıq etdiyi üsyan bu hərəkatlar arasında daha güclü və daha kütləvi idi. Üsyançılar bu müqavilənin ləğv edilməsini, xarici qoşunların İrandan çıxarılmasını tələb edirdilər. Gilanda «cəngəlilərin» hərəkatı daha geniş vüsət aldı və daha çox xalq kütləsi bu üsyana qoşuldu. Mesopotamiyadan (İraqdan) sonra İranın iqtisadiyyatı və siyasəti üzərində nəzarəti ələ keçirmək istəyən Böyük

Britaniyanın səyləri Fransa və ABŞ hökumətləri tərəfindən kəskin etirazla qarşılandı. Sovet hökuməti isə müqavilənin müstəmləkəçi xarakterini nəzərə alaraq 1919-cu il avqustun 30-da onu tanımadığını elan etdi. Belə bir şəraitdə çətin bir vəziyyətə düşmüş Vosuqəddövlə hökuməti Cənubi Qafqaz ölkələrinin və Orta Asiyanın Sovet qoşunlarının gücü ilə sovetləşdirildiyini görərək Sovet Rusiyasını rəsmi olaraq tanıdığını elan etdi. 1920-ci il may ayının 20-də İran ilə Sovet Rusiyası arasında diplomatik əlaqələr yaradıldığı elan edildi. Bir müddətdən sonra iki dövlət arasında müqavilə imzalamaq üçün Moskvada danışıqlar başlandı. Ölkə daxilində nüfuzunu əldən vermiş Vosuqəddövlə hökuməti 1920-ci il iyun ayının 25-də istefaya getdi.

Eyni zamanda ölkənin şimalında milli-demokratik çıxışlar davam edirdi. 1920-ci ildən başlayaraq İran sosial-demokratlarının Bakıda yaratdıqları və sonralar İran kommunist partiyasına çevrilmiş «Ədalət» təşkilatı «cəngəlilərin» hərəkatında iştirak etməyə başladı. Onların bu hərəkatda iştirakı və xüsusən təcrübəli siyasətçi Heydər Əmioğlunun Gilana gəlməsi Gilanda hadisələrin inkişafına böyük təsir göstərdi. Heydər Əmioğlu kommunistlərin imperialistlərə qarşı çıxan, milli suverenlik və demokratiya tərəfdarı olan bütün qüvvələrlə əməkdaşlıq etmələrinin tərəfdarı idi. Lakin Gilanda «solçu» qüvvələr daha güclü idilər və onların rəhbərləri bəzi bolşeviklərlə birlikdə İranda «sosialist inqilabı» həyata keçirmək istəyirdilər. Bu adamlar Qafqazdan gəlmiş İran kommunistləri ilə birlikdə yerli şəraiti nəzərə almadan Gilanda «Sovet hökuməti» elan etdilər. İranda bolşeviklərin nüfuzunun artmasından qorxan liberal-mülkədar xırda burjuaziya və Kiçik xanın özü solçularla əməkdaşlıqdan geri çəkildilər. Bu dövrdə sovet hökumətinin də hərəkata olan münasibəti dəyişdi. Sovet Rusiyası xarici işlər komissarı Çiçeri-

nin Azərbaycanın rəhbəri N.Nərimanova göndərdiyi məktubda İran inqilabçılarına köməklərin dayandırılması təklif edilirdi. Bütün bunlar və müxtəlif qruplar arasında daxili çəkişmələr İranın mərkəzi hakimiyyətinin 1922-ci ildə «Cəngəlilər» üsyanını yatırmasına şərait yaratdı. Güney Azərbaycanında, Xorasan, Qorqan və digər yerlərdəki bütün demokratik hərəkatlar yatırıldı.

Bu dövrdə Rusiya imperiyası dağıldıqdan sonra İran ilə Cənubi Qafqazda yaranmış yeni müstəqil dövlətlər arasında münasibətlərin yaradılması yolunda ilk addımlar atıldı. Belə təşəbbüslər ilk növbədə Cənubi Qafqaz ölkələrindən biri olan Azərbaycan tərəfindən göstərilmişdi.

Belə ki, 1919-cu ilin aprel ayının ortalarında Fətəli xan Xoyskinin başçılıq etdiyi Azərbaycan höküuməti İran Xarici İşlər Nazirliyində danışıqlar aparmaq üçün İsmayıl xan Ziyadxanovun başçılıq etdiyi nümayəndə heyətini Tehrana göndərdi.

İsmayıl xan Ziyadxanov İran Xarici İşlər Nazirliyində müvəffəqiyyətlə danışıqlar aparmışdı. Bir çox məsələlər barəsində razılıqlar əldə edilmiş və 1919-cu il iyun ayının 4-də on dörd maddədən ibarət razılaşma imzalanmışdı. Azərbaycan Cümhuriyyətinin rəsmi surətdə tanınması, iki ölkə arasında sərhədlərin müəyyənləşdirilməsi kimi mühüm məsələlər razılaşmaya daxil edilməsə də, razılaşmada iki ölkə arasında ticarət əlaqələrinin yaradılması, hər iki ölkə vətəndaşlarının hüquqlarının qorunması kimi məsələlər öz əksini tapmışdı. Cənubi Qafqazda istiqlaliyyətlərini yeni qazanmış dövlətlərlə rəsmi münasibətlər qurmağa tərəddüd göstərən İran hökuməti nəhayət 1919-cu il oktyabr ayının 10-da Qafqaza siyasi nümayəndə heyəti göndərmək qərarına gəldi və nümayəndə heyətinin tərkibini müəyyənləşdirdi. Nümayəndə heyətinə baş nazir Vosuqəddövlənin etibar

etdiyi adamlardan biri olan Seyid Ziyaəddin Təbatəbai başçılıq edirdi.

Nümayəndə heyətinə ilk növbədə Azərbaycan Respublikası ilə ticarət və poçt əlaqələrinin genişləndirilməsi, İran mallarına qoyulmuş həbslərin aradan götürülməsi, Şimali Azərbaycanda yaşayan İran vətəndaşlarının qorunması və s. məsələlər ətrafında danışıqlar aparmaq tapşırılmışdı.

1919-cu ilin noyabr ayının 30-da İran dövlətinin rəsmi nümayəndə heyəti Bakıya gəldi və 1919-cu il dekabr ayının 4-də Azərbaycan-İran danşıqları başladı. Azərbaycan hökuməti tərəfindən danışıqlara xüsusi əhəmiyyət verilirdi. Buna görə də danışıqlarda baş nazir Nəsib bəy Yusifbəyli başda olmaqla bütün hökumət üzvləri iştirak edirdilər.

Cənubi Qafqazda cərəyan edən siyasi hadisələrə və Azərbaycandakı daxili vəziyyətə görə fasilələrlə davam edən Azərbaycan-İran danışıqları 1920-ci ilin mart ayının 19-da fransız dilində tərtib edilmiş iki müqavilənin imzalanması ilə başa çatdı. Müqavilələrdə Azəbaycanın müstəqilliyinin İran tərəfindən tanınması, ticarət, gömrük, konsulluq və poçt sahələrində əlaqələrin yaradılması və genişləndirilməsi kimi məsələlər əks olunmuşdu. Lakin 1920-ci ilin aprel ayının 27-də Azərbaycanın bolşeviklərin XI ordusu tərəfindən işğal olunması müstəqil Azərbaycan dövləti ilə İran arasında dövlətlərarası səviyyədə əlaqələrin yaranmasına mane oldu.

1921-ci il fevral ayının axırlarında İran və Sovet Rusiyası hökumət nümayəndələri arasında gedən danışıqlar başa çatdı. Danışıqların yekunu olaraq 1921-ci il fevral ayının 26-da Sovet –İran müqaviləsi imzalandı.

Bu müqaviləyə əsasən Sovet Rusiyası hökuməti çar Rusiyasının İranla və ya hər hansı üçüncü bir dövlətlə imzaladığı, İra-

nın suverenliyinə və onun milli maraqlarına zidd olduğu bütün müqavilələrin ləğv olunduğunu elan etdi. Sovet hökuməti İrandakı Rusiya müəssisələrinin bütün pul, kapital və əmlakından İranın xeyrinə olaraq imtina etdi. Çar hökumətinin və onun təbəələrinin aldıqları bütün konsessiyalar təmənnasız olaraq İran xalqına qaytarıldı.

Müqaviləyə Sovet Rusiyası xarici işlər xalq komissarlığının təşəbbüsü ilə aşağıdakı maddə daxil edilmişdi (maddə 6): Tərəflər belə bir razılığa gəlmişlər ki, əgər hər hansı üçüncü bir dövlət tərəfindən hərbi müdaxilə yolu ilə İran ərazisində işğalçılıq siyasəti həyata keçirilərsə, yaxud İran ərazisi Rusiya əleyhinə hərbi bazaya çevrilərsə, əgər Rusiya Sovet Federativ Respublikasının və onun müttəfiqlərinin dövlət sərhədlərinə qarşı təhlükə yaranarsa və əgər Rusiya Sovet hökumətinin xəbərdarlığından sonra İran hökuməti bu təhlükənin qarşısını ala bilmək iqtidarında olmazsa, Rusiya Sovet hökuməti özünü qorumaq şərti ilə İran ərazisinə öz qoşunlarını yeritmək hüququna malik olacaqdır. Belə bir təhlükə aradan qalxan kimi Rusiya Sovet hökuməti dərhal qoşunlarını İran ərazisindən çıxarmağı öhdəsinə götürürdü. Sovet hökuməti tərəfindən bu maddənin İranın maraqlarını qorumağa yönəldiyi elan olunsa da, hüquqi cəhətdən maddə İranın suverenliyini pozurdu.

İranda İngilislər əleyhinə çıxışların genişlənməsi, Cənubi Qafqazın və Orta Asiyanın sovetləşməsi İngiltərəni İranı birbaşa olaraq özünə tabe etmək ideyasından çəkindirdi. Britaniya hökuməti qoşunlarının İrandan çıxarılması barədə qərar qəbul etsə də yeni şəraitdə nüfuzunu İranda saxlamaq barəsində yeni planlar hazırlamışdı. Digər tərəfdən İran dövləti özü İranda sovetlərin nüfuzunun artmasına qarşı ölkədə İngiltərənin nüfuzunun artmasına maraqlı idi. Bu planların ən birincisi İranda hər-

bi çevrilişin həyata keçirilməsi idi. Hərbi çevrilişin həyata keçirilməsində əsas rolu ingilis generalı Ayronsayd ilə İran siyasətçisi Seyid Ziyaəddin Təbatəbai oynadılar. İngilis generalı İranı tərk etməmişdən əvvəl hərbi çevrilişi həyata keçirəcək hərbi hissənin komandirini təyin etdi. Bu adam İran kazak diviziyasının polkovniki Rza xan idi.

Hərbi çevriliş 1921-ci il fevral ayının 21-də həyata keçirildi. İran kazak diviziyasının Qəzvin dəstəsi Rza xanın komandanlığı altında demək olar ki, döyüşsüz Tehranı tutdu. Hakimiyyətdə olan bir neçə yüksək rütbəli məmur həbs edildi. Əhməd şah yeni nazirlər kabinetinin təşkil edilməsini Seyid Ziyaəddin Təbatəbaiyə tapşırdı. Baş nazir təyin edildikdən sonra Seyid Ziyaəddin Təbatəbai 1921-ci il fevral ayının 26-da 1919-cu il 9 avqust tarixli ingilis-İran müqaviləsinin ləğv olunmasını elan etdi. Bununla bərabər o, ingilis səfirinə bildirmişdi ki, onun ingilispərəst siyasəti İngiltərə hökumətinə müqavilədə nəzərdə tutulmuş maddələrən daha çox xeyir verəcəkdir.

Seyid Ziyaəddinin ikiüzlü siyasəti, onun bir sıra düşünülməmiş qərarları tezliklə hakim dairələrin, o cümlədən Rza xanın da etirazlarına səbəb oldu. Hərbi çevriliş rəhbərlərinin hakimiyyət uğrunda mübarizələri Rza xanın qələbəsi ilə nəticələndi. 1921-ci il may ayının 25-də Seyid Ziyaəddin Təbatəbai şahın fərmanı ilə baş nazir vəzifəsindən kənarlaşdırıldı və yeni təşkil edilmiş kabinetdə Rza xan hərbi nazir vəzifəsini özündə saxladı. Hakimiyyətini get-gedə möhkəmlədən Rza xan 20-ci illərin birinci yarısında artıq Əhmədşah Qacarın özü ilə rəqabət aparmağa başladı. 1924-cü ilin oktyabrında baş nazir təyin edilmiş Rza xan 1925-ci ilin dekabr ayında Əhməd şah Qacarı taxtdan salaraq özünü Rza şah Pəhləvi adı ilə şah elan etdi.

İran taxt-tacını ələ keçirmiş Rza şah ölkənin güclü diktatoruna çevrildi. O, mərkəzləşdirmə siyasətini həyata keçirməyə və əleyhdarlarını aradan götürməyə başladı. Rza şahın hakimiyyətinin ilk dövrlərində ordunun varlanmış yüksək rütbəli zabitləri Rza şahın əsas dayağına çevrildilər. Rza şah ona müxalif olan xanların və iri torpaq sahiblərinin torpaqlarını ələ keçirərək özü ən iri torpaq sahibinə çevrildi. 30-cu illərin axırlarında artıq onun 2 min kəndi var idi.

Bununla yanaşı olaraq Rza şah hakimiyyətinin ilk illərində ölkədə ictimai-siyasi və mədəni sahələrdə islahatlar həyata keçirilməyə başlandı. Belə ki, bu illərdə İranda dünyəvi təhsil sistemi tətbiq olunmağa başladı, dövlət idarəçiliyinin mərkəzləşdirilməsi gücləndirildi, nizami ordu yaradıldı, məhkəmə sahəsində islahatlar həyata keçirildi, dövlət maliyyə sistemi yenidən təşkil olundu, pul dövriyyəsi stabilləşdirildi. 1928-ci ildə İran milli bankı təsis edildi və o, 1932-ci ildən başlayaraq mərkəzi dövlət bankı funksiyasını yerinə yetirməyə başladı. 1931-ci ildən başlayaraq İran hökuməti sənaye sahəsində dövlət kapitalist sektorunu yaratmağa başladı. II Dünya müharibəsi ərəfəsində sənayedə dövlət sektorunun payı artıq əhəmiyyətli dərəcədə yüksəlmişdi. 1939-cu ildə sənayenin inkişafına dövlət investisiyalarının miqdarı bir neçə dəfə artırıldı. 1927-1939-cu illərdə Fars körfəzinin sahillərindən başlayaraq Xəzər dənizinə qədər uzanan 1394 km uzunluğunda trans-İran dəmir yolu xətti çəkildi.

XX əsrin 20-ci və 30-cu illərində İranda həyata keçirilən siyasi və iqtisadi islahatlar məhdud xarakter daşısa da, müəyyən bir dövr üçün Rza şah diktaturasının stabilliyinə səbəb oldu. Polis metodlarının köməyi ilə Rza şah rejimi ölkədə baş qaldıran müxtəlif çıxışları, o cümlədən kommunist və milli-azadlıq

hərəkatlarını yatıra bilirdi. Rza şah hər vəchlə ölkədə öz hakimiyyətini möhkəmlətməyə çalışırdı.

Bu yolda onun həyata keçirmək istədiyi tədbirlər iran-ingilis neft şirkəti ilə və ümumiyyətlə Britaniya hökuməti ilə konfliktlərə səbəb oldu. Həmin illərdə İran sənayesinin az-çox inkişaf etmiş sahəsi olan neft sənayesi tamamilə İngilis–İran neft şirkətinin ixtiyarında idi. Şirkətin bütün aktivləri Britaniya hökumətinə və İngiltərə kapitalına məxsus idi. İngilis–İran neft şirkəti həm iqtisadi, həm də idarəçilik sahələrində muxtar hüquqlara malik idi və İran dövlətindən asılı deyildi. Şirkətin iqtisadi fəaliyyəti və sosial siyasəti İngiltərə hökuməti tərəfindən təyin edilirdi.

Bir tərəfdən şirkətdən alınan ödəmələrin miqdarını artırmaq, digər tərəfdən isə Xuzistanda və Fars körfəzində hakimiyyətini möhkəmləndirmək istəyən İran hökuməti XX əsrin 20-ci illərinin axırlarında İngiltərə hökuməti və İngilis-İran neft şirkətinin rəhbərliyi ilə müzakirələrə başladı. Bu müzakirələrin təşəbbüsçüsü saray naziri Teymurtaş idi. 1928-ci ildə o İran hökuməti adından şirkətə bir neçə təklif təqdim etdi. Bunların arasında şirkətin konsessiya zonasının məhdudlaşdırılması və ödəmələrin bir hissəsinin aksiya (səhm) şəklində icra olunması təklifləri daha əhəmiyyətli idilər. Bu təkliflərin həyata keçirilməsi bir tərəfdən İranı İngilis-İran neft şirkətinin şərikinə çevirə bilərdi və digər tərəfdən İran konsessiya ödəmələrindən əlavə aksiyalardan gəlir əldə edə bilərdi. İngilis-İran neft şirkəti və Britaniya höküməti qəti olaraq bu təkliflərin əleyhinə çıxdılar. Şirkətin rəhbərliyi və ingilis hökuməti ilə danışıqların heç bir nəticə vermədiyini görən İran hökuməti 1932-ci ildə 1909-cu ildə d’Arsiyə verilmiş konsessiyanı ləğv olunmuş elan etdi. İran hökuməti ilə İngiltərə hökuməti arasında ciddi qarşıdurma şə-

raiti yarandı. İran ilə İngiltərə arasında narazılıqlar şiddətləndiyi bir zamanda İranın görkəmli dövlət xadimi Teymurtaş vəzifəsindən çıxarılaraq həbs edildi. İki dövlət arasında yaranmış konflikt İran hökuməti ilə İngilis-İran neft şirkəti arasında yeni konsessiya müqaviləsinin imzalanması ilə həll edildi. Yeni müqavilə 1933-cü ilin aprel ayının axırlarında imzalandı. Yeni müqaviləyə əsasən İran hökuməti ixrac olunan və ya ölkədə satılan neftin hər tonuna görə 7 şillinq almalı idi. Konsessiya zonası 1939-cu il başlanana qədər əvvəlkinə nisbətən zonanın 1/5-i qədər qısaldılmalı idi. İranın maliyyə tələblərini ödəmək məqsədilə şirkət müqavilə imzalandıqdan sonra 30 gün ərzində İran hökumətinə 1 mln. funt sterlinq pul ödəməli və 1931 və 1932-ci iln ödəmələrini tamamilə icra etməli idi. Lakin yeni müqavilə ilə İranın qanuni tələbləri təmin edilmədi. Belə ki, şirkət ölkənin zəngin neft yataqlarını istismar etmək və 69 il müddətində İran fəhlələrinin əməyindən istifadə etmək hüquqlarını özündə saxladı.

Öz hakimiyyətini möhkəmləndirmək və saxlamaq üçün Rza şah və onun əlaltıları paniranizm və fars şovinizmi ideyalarını təbliğ etməyə başladılar. Paniranist və fars şovinizmi ideyalarının təbliğini gücləndirmək üçün qədim İran imperiyalarının və şahlarının şişirdilmiş və təhrif edilmiş tarixindən istifadə edilir və arilərin yüksək mənşəli xalqlar olmaları barədə irqçi ideyalar yayılırdı. Bu ideyaların faşist ideyalarına çox yaxın olması ötən əsrin 30-cu illərinin axırlarında faşist Almaniyasının İranda ictimai-siyasi həyatın və iqtisadiyyatın bir çox sahələrinə nüfuz etməsinə şərait yaratdı. 1941-ci ilin yayında SSRİ-yə hücum etdikdən sonra İran Almaniya üçün daha mühüm əhəmiyyət kəsb etməyə başladı. Almaniya İran ərazisindən SSRİ əleyhinə casusluq, diversiya və təbliğat işləri üçün istifadə et-

məyə başladı. Alman faşistlərinin fəaliyyəti İran ordusunda, Tehranda, Güney Azəbaycanında və cənubda köçəri tayfalar arasında xüsusilə güclənmişdi. Faşist Almaniyasının rəhbərliyi İrana xüsusi əhəmiyyət verirdi. Onun ərazisindən Yaxın Şərqə və Hindistana hücum etmək üçün istifadə etmək planları hazırlanmışdı. Digər tərəfdən hökumətin tərkibində və ordunun rəhbərliyində olan adamların bir qismi faşistlərlə əməkdaşlığın fəal tərəfdarları idilər və onlar almanların cənubi Qafqaza gəlişini layiqincə qarşılamağa hazırlaşırdılar. SSRİ hökuməti 1941-ci ilin 26 iyun, 19 iyul və 16 avqust tarixlərində İran hökumətinə notalar göndərərək İran hökuməti tərəfindən faşistlərə himayə edilməsini SSRİ üçün qeyri-məqbul olduğunu qeyd etmiş və İran hökumətinin hərəkətlərinin 1921-ci il müqaviləsinə uyğun olmadığı bildirilmişdi. Lakin Rza şah hökuməti SSRİ-nin notalarına məhəl qoymadan öz qoşunlarını SSRİ ilə həmsərhəd olan rayonlarda və cənubda neft mədənləri olan rayonlarda cəmləşdirdi. İran hökumətinin bu hərəkətləri SSRİ ilə yanaşı II Dünya müharibəsində müttəfiqlik əlaqələrinə girmiş Böyük Britaniya dövlətini də narahat etdiyinə görə U.Çörçil SSRİ ilə birbaşa əlaqələr saxlamaq məqsədi ilə İranda birgə hərbi əməliyyat həyata keçirməyi Moskvaya təklif etdi. Çörçilin təklifi SSRi rəhbərliyi tərəfindən qəbul edildi və 1941-ci ilin sentyabrında sovet qoşunları şimaldan, İngiltərə qoşunları isə cənubdan İran ərazisinə daxil oldular. Müttəfiq qoşunlarının İran ərazisinə daxil olması ilə 1941-ci ilin sentyabrın 16-da Rza şah hökuməti devrildi və o, oğlu Məhəmməd Rzanın xeyrinə şahlıqdan imtina etdi. İranın yeni şahı Məhəmməd Rza Pəhləvi müttəfiq dövlətlərlə əməkdaşlığa hazır olduğunu elan etdi. 1942-ci ildə SSRİ, İngiltərə və İran arasında müharibə dövründə əməkdaşlıq barəsində müqavilə imzalandı. Müqaviləyə əsasən müharibə başa çatdıqdan so-

nra SSRİ və İngiltərə öz qoşunlarını İran ərazisindən çıxarmalı idilər.

1943-cü ildə İranın paytaxtı Tehran şəhərində SSRİ-nin, İngiltərənin və ABŞ-ın dövlət rəhbərlərinin görüşü keçirildi.

Tarixə Tehran konfransı kimi daxil olmuş bu görüşdə faşist Almaniyasına qarşı birgə mübarizənin təşkili məsələləri müzakirə olunmuşdu. Bu konfrans zamanı üç dövlətin İran barəsində deklarasiyası qəbul edildi. Bu sənəddə İranın ümumi düşmənə qarşı mübarizədə xidmətləri göstərilir və İran hökumətinə iqtisadi kömək edilməsi qeyd edilirdi.

Rza şah hakimiyyətdən kənarlaşdırıldıqdan sonra ölkədə həm siyasi, həm də ideoloji vəziyyət ciddi surətdə dəyişikliyə uğradı. Bir tərəfdən sağ qüvvələrin, xüsusən ruhani rəhbərliyinin mövqeləri möhkəmləndi, digər tərəfdən isə demokratik qüvvələrin fəaliyyəti canlandı. 1941-ci ilin payızında İran xalq Partiyası (Tudə partiyası) yaradıldı. Tudə partiyası rəhbərliyinin SSRİ-yə arxalandığını nəzərə alaraq və bu partiyanın ölkədə nüfuzunun artmasının qarşısını almaq məqsədi ilə İranda fəaliyyət göstərən ingilislər mühafizəkar qüvvələrin qüvvətlənməsinə kömək göstərirdilər. 1943-cü ildə ingilislər 1921-ci ildə Fələstinə qaçmış Seyid Ziyaəddinin İrana qayıtmasını təşkil etdilər və onun ətrafında ingilispərəst qüvvələr cəmləşməyə başladılar. İngiltərənin maliyyə dəstəyi ilə Seyid Ziya bir neçə qəzet nəşr etməyə başladı. Bu qəzetlərdə demokratik təşkilatlara qarşı təbliğat aparılırdı.

1944-cü ilin əvvəllərindən başlayaraq hakim sinfin nümayəndələri arasında ABŞ-a tərəf meyllər çoxalmağa başladı. Bunlar əsasən yeni nəslin iş adamları idilər. Amerikalıların iştirakının İranda artması, İran ordusunda və jandarmeriyasında amerikan hərbi mütəxəssislərinin çoxalması, ABŞ-ın kiçik hərbi

kontingentinin İrana gəlməsi bu meyllərin artmasının əsas göstəriciləri idi. Rza şah diktaturası dövründə İranın fars olmayan xalqlarına qarşı, o cümlədən İranda əsas xalqlardan biri olan azərbaycanlılara qarşı milli zülm siyasəti həyata keçirilirdi. Diktator rejiminin çökməsi, ölkədə ictimai həyatın nisbətən demokratikləşməsi və sovet qoşunlarının İranda olması azərbaycanlılar arasında milli və demokratik hərəkatın güclənməsi üçün şərait yaratdı. Güney Azərbaycanında azərbaycanlıların milli–demokratik hərəkatına 1945-ci ildə yaradılmış Azərbaycan Demokrat Partiyası rəhbərlik edirdi. Güney Azərbaycanında milli-demokratik hərəkatın əsas hərəkətverici qüvvələri ziyalılar və zəhmətkeş siniflər idilər. Hərəkatda eyni zamanda demokratik meylli bəzi hərbçilər, mülkədarlar və torpaq sahibləri də, iştirak edirdilər. 1945-ci ilin sonunda Güney Azərbaycanında Milli Şura çağırıldı. Milli Şuranın 1945-ci ilin noyabr ayında Təbriz şəhərində çağırılmış iclasında Azərbaycana İran dövləti çərçivəsində geniş milli muxtariyyət verilməsi barəsində bəyannamə qəbul edildi. Azərbaycanın yerli hökuməti yaradıldı. Çox qısa bir müddət ərzində bu hökumət ictimai həyatın demokratikləşdirilməsi, əyalətlərdə yaşayan əhalinin maddi vəziyyətinin yaxşılaşdırılması haqqında qərarlar qəbul etdi və onların bir çoxunu həyata keçirə bildi. Belə ki, səkkiz saatlıq iş günü və haqqı ödənilən məzuniyyətlər təyin edildi. Dövlət torpaqlarının və demokratik hərəkata qarşı mübarizə aparmış və ölkədən qaçmış mülkədar torpaqlarının kəndli icarədarlar arasında bölüşdürülməsinə başlandı. Təbriz Universiteti yaradıldı. Azərbaycan dili dövlət dili elan edildi və təhsil ana dilində aparılmağa başladı. Milli mədəniyyətin inkişafı üçün ciddi addımlar atıldı. Tehranda mərkəzi hakimiyyət Güney Azərbaycanının yerli hökumətini tanımaq məcburiyyətində qaldı. 1946-cı il iyun ayının 13-də Əh-

məd Qəvvamın başçılıq etdiyi İran hökuməti Güney Azərbaycanının demokratik hökuməti ilə müqavilə imzaladı. Müqaviləyə əsasən mərkəzi hakimiyyət Güney Azərbaycanının milli məclisini əyalət əncuməni hüququnda tanıdı. Belə hüquq 1945-ci ildə yaradılmış Şimali Kürdüstan hökumətinə də verildi. Tehrandakı mərkəzi hakimiyyət demokratik qüvvələrin daha çox güclənməsindən ehtiyat edərək bir neçə siyasi manevr həyata keçirdi. Belə ki, hələ Güney Azərbaycanı və Şimali Kürdüstan yerli hökumətləri ilə razılaşma imzalamamışdan qabaq 1946-cı il aprel ayının 4-də Əhməd Qəvvam Moskvada İranın şimalında neft yataqlarının kəşfiyyatı və istismar edilməsi barədə Sovet hökuməti ilə müqavilə imzaladı. Eyni zamanda sovet qoşunlarının İrandan çıxarılması müddətləri də dəqiqləşdirildi.

İngilis-İran neft şirkətinin mədənlərində fəhlə hərəkatının güclənməsindən ehtiyat edərək Qəvvam hökuməti əmək haqqında qanun qəbul etdi. Qəvvam hökumətində üç nazir postu Tudə partiyasının üzvlərinə verildi. Sonrakı hadisələr göstərdi ki, Əhməd Qəvvamın həyata keçirdiyi bu tədbirlər başçılıq etdiyi hökumətin mövqelərini möhkəmlətmək, sonra isə antidemokratik xəttin icrasına başlamaq üçün nəzərdə tutulmuşdu. Şah sarayının və Amerika səfirliyinin himayəsini əldə etmiş Qəvvam mühafizəkar qüvvələrlə əlaqələrini genişləndirməyə başladı. Amerikalıların açıq aşkar köməyinə arxalanaraq Qəvvam 1946-cı ilin payızında hökumətin xarici və daxili siyasət kursunu dəyişdirdi. 1946-cı ilin oktyabr ayında Qəvvam hökumətin tərkibində dəyişiklik edərək Tudə partiyasının üzvlərini hökumətdən uzaqlaşdırdı. Mühafizəkar qüvvələrin fəaliyyəti genişləndi. Milli məclisə XV çağırış seçkilər elan edildi. 1946-cı ilin dekabr ayında Tehranda bütün sol demokratik yönümlü mətbuat orqanları bağlandı və məclisə seçkilərin keçirilməsini təmin etmək

adı altında Güney Azərbaycanının ərazisinə qoşun yeridildi. Hökumət qoşunları və iri mülkədarların pulu ilə təşkil edilmiş silahlı dəstələr Azərbaycan Demokrat Partiyasının üzvlərinə və tərəfdarlarına divan tutdular. 25000-ə yaxın adam istintaqsız və məhkəməsiz edam edildi. Güney Azərbaycan Demokratik Respublikası rəhbərləri tərəfindən hökumət qoşunlarına müqavimətin lazım olan səviyyədə təşkil edilməməsi demokratik hərəkatda iştirak etmiş vətənpərvər sadə insanların və ziyalıların vəziyyətini xeyli ağırlaşdırdı. Demokrat partiyasının yüzlərlə üzvü təqiblərdən qaçaraq SSRİ-yə mühacirət etdilər. Güney Azərbaycanında və Şimali Kürdüstanda demokratik hərəkat yatırıldıqdan sonra 1947-ci ilin əvvəllərində məclisə seçkilər keçirildi. Yeni seçilmiş məclis özünün ilk iclaslarının birində Qəvvam hökumətinin SSRİ ilə bağladığı 4 aprel 1946-cı il tarixli neft müqaviləsini təsdiq etməkdən imtina etdi. Sovet-İran neft müqaviləsinin İran məclisində müzakirəsi parlamentin vətənpərvər ruhlu nümayəndələri tərəfindən ölkənin mənafelərinin müdafiəsi üçün istifadə edildi. Belə ki, müqavilənin ləğvi barəsində qəbul edilmiş qərarda hökumətdən tələb edilirdi ki, İranın öz təbii sərvətləri üzərindəki hüquqlarını bərpa etsin. Bu maddə İngilis-İran neft şirkətinin fəaliyyətinə qarşı yönəlmişdi. Belə ki, bu şirkətin rəhbərliyi İrana öz gəlirlərinin yalnız 20%-ni konsessiya ödəmələri şəklində verirdi. İngilis-İran neft şirkətinin fəaliyyətindən təkcə demokratik qüvvələr və milli burjuaziya deyil, həmçinin amerikapərəst hakim sinif nümayəndələri də narazı idilər. İkinci Dünya müharibəsinin sonlarında siyasi səhnəyə çıxmış İran siyasətçilərinin çoxu ölkənin iqtisadi geriliyinin aradan götürülməsini ABŞ ilə iqtisadi və hərbi-siyasi əlaqələrin genişləndirilməsində görürdülər. Hökumətin müharibədən sonrakı

illərdə qəbul etdiyi ölkənin iqtisadi inkişafı haqqında planlarda ABŞ şirkətlərinə xüsusi yer verilirdi.

1948-1949-cu illərdə İran məhsullarının ixracının azalması və rialın kursunun aşağı düşməsi İngiltərə və ABŞ-dan gətirilən malların qiymətlərinin artmasına səbəb oldu. Kənd təsərrüfatı məhsullarının istehsalı azaldı. Həyat səviyyəsi pisləşdi. Ölkədə əhalinin narazılıqları artdı.

Hökumət ölkədə yaranmış vəziyyəti nizama salmaq və nəzərdə tutduğu birinci iqtisadi inkişaf planını həyata keçirmək üçün İngilis-İran neft şirkətindən əldə edilən gəlirlərə xüsusi əhəmiyyət verməyə başladı.

İngilis-İran neft şirkəti İran ərazisində ən böyük və ən müasir sənaye müəssisəsi idi. Bu şirkət həm iqtisadi, həm də idarəçilik muxtariyyətini özündə saxlayırdı. Şirkətdə bütün məsul vəzifələri ingilislər tuturdular. Şirkətin yanğınsöndürənlər adı altında xüsusi polis dəstələri var idi. Ölkədəki bahalığa baxmayaraq şirkətdə çalışan İran fəhlələrinin maaşı az idi. İran fəhlələri təhqir və diskriminasiyaya məruz qalırdılar. Onların ingilislərə aid restoranlardan, idman zallarından kinoteatrlardan və s. istifadə etmək hüquqları yox idi. Onlara tibbi xidmət də edilmirdi. Bütün bunlar İran fəhlələrinin haqlı narazılıqlarına səbəb olurdu.

İngilis-İran neft şirkətinin fəaliyyəti yüksək vəzifəli İran dövlət adamlarının da etirazına səbəb olurdu. Britaniya hökumətinin himayəsinə arxalanaraq şirkət İran hökumətinə qarşı maliyyə fırıldaqları edirdi. Bu dövrdə Britaniya hökumətinin şirkətdən aldığı gəlir vergisinin miqdarı İrana verilən ödəmələrdən xeyli çox idi. Məsələn, təkcə 1950-ci ildə İngiltərə hökuməti şirkətdən 50,7 mln. funt sterlinq aldığı halda, İran hökuməti cəmi 16 mln. funt sterlinq konsessiya ödəməsi almışdı.

İran məclisinin 1947-ci il oktyabr ayının 22-də qəbul etdiyi qərara əsasən 1948-ci ilin sentyabr ayında İran hökuməti İngilis-İran neft şirkətinin rəhbərliyinə İran hökumətinin tələbləri əks olunmuş memorandum təqdim etdi.

1948-ci ilin axırlarında şah yarımfeodal mülkədarların maraqlarını təmsil edən Məhəmməd Saed Marağaini baş nazir təyin etdi. Marağainin baş nazir təyin edilməsi demokratik qüvvələr tərəfindən etirazla qarşılandı. İngilis-İran neft şirkəti məsələsində hökumətin yeritdiyi milli maraqlara cavab verməyən siyasət geniş ictimaiyyətin kəskin narazılığına səbəb oldu. Milli burjuaziyanın nümayəndələri hökumətin və şah sarayının ingilispərəst siyasəti əleyhinə çıxdılar. Belə bir şəraitdə 1949-cu ilin may ayında İngilis-İran neft şirkətinin idarə heyətinin sədri U.Frezer baş nazir Saedə yeni müqavilə layihəsi təqdim etdi. Saedin başçılıq etdiyi hökumətdə müqavilə ilə bağlı yekdil qərarın olmamasına baxmayaraq, 1949-cu il iyun ayının 17-də şirkət ilə ölkənin maraqlarına cavab verməyən yeni müqavilə imzalandı. Bu müqavilə maliyyə cəhətdən İranın maraqlarına lazım olduğu qədər cavab vermirdi. Müqavilədə çıxarılan hər bir ton neft üçün İran tərəfinə 4 şillinq əvəzinə 6 şillinq verilməsi və plandan əlavə istehsal edilən hər 1 ton neft üçün isə 3 pens ödənilməsi nəzərdə tutulurdu. Yeni müqavilənin şərtlərindən xəbər tutmuş İranın vətənpərvər meylli siyasətçiləri İran məclisində və onun xaricində fəaliyyətlərini gücləndirdilər. Müqavilənin taleyinin yeni çağırılacaq məclisdə həll ediləcəyini bilən hökumət vətənpərvər və anti-ingilis qüvvələrin məclisə seçilmələrinin qarşısını almaq üçün bütün tədbirlərə əl atdı. Belə bir şəraitdə 1949-cu ilin oktyabr ayında hökumətə müxalif mövqelərdə duran ictimai xadimlər – jurnalistlər, hüquqşünaslar, şiə üləmaları, məşhur siyasətçilər doktor Məhəmməd Müsəddiq başda ol-

maqla hökumətdən qəbul etdiyi fövqəladə tədbirləri ləğv etməyi tələb etdilər.

Hökumət seçkilərə müdaxilə etməkdən əl çəkməyə söz verdi. Müxalifət doktor Müsəddiq başda olmaqla milli cəbhə yaratdı. Tehranda keçirilən təkrar seçkilərdə milli cəbhənin nümayəndələri qələbə çaldılar.

Yeni seçilmiş XVI məclisdə doktor Müsəddiq İranın cənub nefti üzərində suveren hüquqlarının bərpa edilməsini tələb etdi. Doktor Müsəddiq və onun tərəfdarları belə hesab edirdilər ki, İngilis-İran neft şirkəti öz gəlirlərinin çox az hissəsini İran dövlətinə ödəyir və milli qüvvələrin əsas vəzifəsi şirkətin çıxardığı, emal etdiyi və ixrac etdiyi neftin üzərində İran dövlətinin nəzarətini yaratmaqdan ibarətdir.

Lakin şah və hökumət öz əvvəlki niyyətlərindən – yeni müqavilənin ratifikasiya edilməsi niyyətindən əl çəkməmişdilər. 1950-ci il iyun ayının 27–də şah general Rəzmaranı baş nazir təyin etdi. Rəzmara İngilis-İran neft şirkətindən İran üçün daha əlverişli şərtlər əldə etməyə çalışırdı və bunun üçün müqavilədə bəzi dəyişikliklər edilməsini təklif edirdi. Bu məqsədlə Rəzmara hökuməti məclisdən yeni müqavilənin təsdiq edilməsinin lehinə səs verilməsini tələb etdi. Buna cavab olaraq məclis yekdilliklə yeni müqavilənin ləğv olunmasına səs verərək elan etdi ki, müqavilə İranın mənafelərinə uyğun deyildir. Deputat Məkki isə milli cəbhənin və doktor Müsəddiqin adından çıxış edərək məclisin rəyasət heyətinə İranın neft sənayesinin milliləşdirilməsi təklifini verdi. İran məclisində baş verən hadisələr İran cəmiyyətinin siyasi həyatına d ciddi təsir göstərirdi. Milli cəbhənin mövqeləri möhkəmləndi və o İngilis-İran neft şirkətinə qarşı daha ciddi tədbirlər həyata keçirməyə başladı. 1951-ci ilin mart ayında Rəzmara hökuməti İran neftinin milliləşdirilməsi ideya-

sını rədd edərək İngilis-İran neft şirkəti ilə yeni müqavilə bağlanması təklifini etdi. 1951-ci il mart ayının 7-də baş nazir Rəzmara «Fədayane islam» təşkilatının üzvləri tərəfindən qətlə yetirildi.

1951-ci il martın 11-də hakimiyyətə gəlmiş Hüseyn Əla hökuməti milliləşdirmənin əleyhinə idi. Kütləvi anti- imperialist çıxışların qarşısını almaq məqsədi ilə o ölkədə mitinq və nümayişlərin keçirilməsini qadağan etdi. Paytaxtda və fəhlə hərakatının mərkəzi olan Xuzistanda hərbi vəziyyət elan edildi. Hökumət Abadan şəhərinə və neft mədənləri yerləşən rayonlara qoşun göndərdi. İngilis hərbi gəmiləri İranın sərhəd sularında və Fars körfəzində üzməyə başladı. 1951-ci il aprel ayının 26-da məclisin neft komissiyası İran neftinin milliləşdirilməsi haqqında milli cəbhənin hazırlıdığı qanun layihəsini təsdiq etdi. Belə bir şəraitdə Hüseyn Əla hökuməti aprelin 27-də istefaya getdi. Aprelin 28-də Milli məclis İran neftinin milliləşdirilməsi barədə qanun qəbul etdi. Sabahısı gün isə məclis doktor Məhəmməd Müsəddiqi baş nazir postuna təklif etdi.

Şah və onun ətrafındakıları Müsəddiqin başçılıq etdiyi hökumətə düşmən mövqelərdə idilər. Buna görə də Müsəddiq hökumətinin İran neft sənayesinin milliləşdirilməsi və onun İran sənayesinin dövlət sektorunun əsasına çevirmək səyləri maneələrlə üzləşirdi.

Böyük Britaniyanın hakim dairələri Müsəddiq hökumətini qorxutmaq və onu planlarından çəkindirmək üçün bütün vasitələrə əl atırdı. Belə ki, Abadan rayonuna hərbi gəmilər göndərildi. Haaqa beynəlxalq məhkəməsinə, kömək üçün ABŞ dövlətinə müraciət edildi. ABŞ prezidenti Trumenin İrana gəlmiş xüsusi nümayəndəsi Harriman Müsəddiqə və hökumətin digər üzvlərinə bildirdi ki, İngiltərə ilə, İngilis–İran neft şirkəti ilə razılıq əl-

də edilməsə, İran təkbaşına dünya neft bazarına çıxa bilməyəcəkdir. Bütün bunlara və şah sarayının təzyiqinə baxmayaraq Müsəddiq əqidəsində dönməz idi. Buna cavab olaraq İngiltərə və ABŞ hökumətləri və bu dövlətlərin iri neft şirkətləri İranı blokadaya aldılar və İran öz neftini xarici bazarlara çıxara bilmədi.

İngiltərə və ABŞ dövlətlərinin yaratdığı iqtisadi blokadanın və ölkə daxilindəki sağyönümlü müxalifətin təzyiqləri şəraitində Müsəddiq məclisdən başçılıq etdiyi hökumətə 6 ay müddətinə xüsusi səlahiyyətlər verilməsini və eyni zamanda ona hərbi nazir postunun həvalə edilməsini istədi. Bu təklif şahın kəskin etirazı ilə üzləşdi və Müsddiq hökuməti 1952-ci il iyul ayının 16-da istefaya getməyə məcbur oldu.

Yeni hökumətin təşkil edilməsi Əhməd Qəvvama tapşırıldı. Lakin Qəvvamın elə ilk çıxışı xalqın geniş etirazına səbəb oldu. Hökumət əleyhinə etirazlar bütün ölkəni bürüdü. 1952-ci il iyul ayının 1-də Tehranda baş verən ümumi tətil şəhər əhalisinin hökumət əleyhinə üsyanına çevrildi. İyulun 22-də şah Müsəddiqin şərtlərini qəbul edərək onu yenidən baş nazir təyin etdi.

Hakimiyyətə qayıtmış Müsəddiq hökuməti çoxlu miqdarda siyasi və maliyyə çətinlikləri ilə üzləşdi. Lakin bu çətinliklərə baxmayaraq, Müsəddiq və onun tərəfdarları elan etdikləri siyasi kursu əzmkarlıqla davam etdirirdilər.

Bu illərdə İranda ABŞ-ın fəaliyyəti hiss olunacaq dərəcədə genişlənməyə başlamışdı. Müsəddiq hökumətinin ABŞ administrasiyası ilə münasibətləri isə ardıcıl deyildi.

Eyni zamanda Müsəddiq hökumətinin şah sarayı ilə münasibətləri də, get-gedə pisləşirdi.

1952-ci il avqust ayının 3-10 tarixlərində ölkədə referendum keçirildi. Referendumda iştirakçıların 99 %-i məclisin bu-

raxılmasına səs verdi. Eyni zamanda Müsəddiqin başçılıq etdiyi hökumətə qarşı qəsd hazırlanırdı. İran tərəfindən qəsdin başında şahın təyin etdiyi general Zahedi dayanırdı. Müsəddiq hökumətinin hərbi yolla devrilməsi planı ingilis kəşfiyyatı ilə birlikdə ABŞ-in mərkəzi kəşfiyyat idarəsində hazırlanmışdı.

1953-cü il avqustun 16-sı gecəsi şah qvardiyasının bir qrup zabiti Müsəddiqi şahın fərmanına tabe olmadığına görə həbs etmək istədilər. Belə ki, hələ avqustun 13-də şah onu baş nazir vəzifəsindən kənarlaşdıraraq, əvəzində General Zahidini təyin etmişdi. Müsəddiqin evini qoruyan hökumətə sadiq hərbi hissələr bunun qarşısını ala bildilər. Şah əvvəlcə İraqa, oradan isə İtaliyaya qaçdı. Avqustun 16,17 və 18-də paytaxt Tehranda və başqa şəhərlərdə geniş kütləvi çıxışlar oldu. Avqustun 17-də və 18-də paytaxtda Rza şahın və Məhəmməd Rza Pəhləvinin abidələri dağıdıldı. Avqustun 19-də şəhərə qoşun hissələri yeridildi və Müşəddiq hökuməti devrildi. Şah İtaliyadan qayıtdı. Zahedi baş nazir kimi fəaliyyətə başladı. Sol demokratik qüvvələrə və Müsəddiqin tərəfdarlarına qarşı təqib və repressiyalar başlandı.

1953-cü ilin axırlarında Böyük Britaniya ilə dondurulmuş diplomatik əlaqələri bərpa etmiş Zahedi hökuməti neft ilə bağlı müqavilə bağlamaq üçün Qərbin iri neft şirkətləri ilə danışıqlara başladı. İran nefti ilə əlaqədar bütün məsələlər İranın iştirakı olmadan iri neft şirkətləri tərəfindən müzakirə olunaraq həll edildi. Bu şirkətlər İran neftinin istismarı və satılması üçün Beynəlxalq Neft Konsorsiumu (BNK) yaratdılar.

ABŞ və İngiltərə hökumətlərinin fəal iştirakı ilə yaradılmış Beynəlxalq Neft Konsorsiumu Qərbin monopolist kapitalının birləşməsinin yeni nümunəsi idi.

Beynəlxalq Neft Konsorsiumunun aksiyalarının 40%-i, «Britiş Petrolium Kompani» adlandırılmış İngilis-İran neft şir-

kətinə verildi, aksiyaların 14%-i, İngilis-Holland «Royal Dats-Şell», 35%-i ABŞ neft şirkətinə, 6%-i Fransa şirkətinə və 5%-i isə «İrikon Agensi» şirkətlər birliyinə verildi.

İran hökuməti ilə BNK arasında bağlanmış sazişdə Müsəddiq hökumətinin qəbul etmədiyi bütün maddələr öz əksini tapmışdı.

BNK çox qısa bir zaman ərzində İran neftinin istismarı və ixracatını bərpa etdi və böyük gəlirlər əldə etməyə başladı. Belə ki, BNK-ya daxil olan şirkətlər İranda 1955-ci ildə 16 mln. ton, 1957-ci ildə 35 mln. ton 1959-cu ildə 45 mln. ton və 1961-ci ildə isə 57 mln. ton neft hasil etmişdilər.

BNK-nın fəaliyyətə başlaması ilə ABŞ-ın İranın ictimai-siyasi və təsərrüfat həyatının bütün sahələrinə müdaxiləsi çoxaldı.

1955-ci ilin avqust ayında İran ilə ABŞ arasında dostluq, iqtisadi münasibətlər və konsul hüquqları haqqında müqavilə imzalandı. ABŞ-ın İrana texniki və iqtisadi köməklərinin həcmi artmağa başladı. İranın xarici siyasətində də dəyişikliklər baş verdi. İran dövlətinin 150 ildən çox yürütdüyü bitərəflik siyasətinə son qoyuldu. 1955-ci ilin noyabr ayında Bağdad paktı yaradıldı. Böyük Britaniya, Türkiyə, İran və Pakistan ilə yanaşı İran da, bu hərbi-siyasi birliyə qoşuldu. İran dövlətinin bu pakta qoşulması ilə ölkənin siyasi kursu müəyyənləşdi. Şah rejimi Amerika yönümlü siyasət həyata keçirməklə yanaşı, qonşuları ilə, o cümlədən Sovet İttifaqı ilə də mehriban qonşuluq əlaqələrinin saxlanmasına çalışırdı. 1954-cü ildə sovet tərəfinin təklifi ilə sərhəd və maliyyə məsələlərini tənzimləmək məqsədi ilə iki ölkə arasında razılaşma imzalandı. Bu müqaviləyə əsasən İrana onun qızıl ehtiyatı qaytarıldı. 1957-ci ildə Araz və Atrek çaylarının su

və enerji ehtiyatlarından birgə istifadə olunması üçün iki ölkə arasında müqavilə imzalandı.

Bunlara baxmayaraq şah rejimi ABŞ ilə əlaqələrini bütün sahələrdə, o cümlədən hərbi sahədə genişləndirməkdə davam edirdi. 1959-cu il mart ayının 5-də ABŞ ilə İran arasında hərbi razılaşma imzalandı. Bu razılaşmaya əsasən İrana təcavüz olunacağı halda ABŞ hərbi qüvvəlrinə İran ərazisinə girməyə icazə verilirdi. 1957-ci ildə ABŞ-ın birbaşa köməyi ilə İranın məxfi polisi "SAVAK" (Sazmane əmniyyət və ettelaat-e keşvər) yaradıldı.

İran hakim dairələrinin iqtisadi çətinliklərin həll olunacağına və dövlət maliyyə sisteminin möhkəmlənəcəyinə olan ümidləri özünü doğrultmadı. Əhalinin həyat səviyyəsi ildən-ilə aşağı düşməyə başladı. Kənd əhalisinin kütləvi sürətdə şəhərlərə axını başladı. Ölkəni işsizlik bürüdü. Geniş ictimaiyyəti sakitləşdirmək və ölkəni bürümüş həyəcanı yatırmaq məqsədi ilə şah və onun ətrafındakılar ölkədə siyasi islahatlar keçirməyə başladılar. Şahın təklifi ilə hakim təbəqələrin nümayəndələrindən ibarət "Melliyun" və "Mərdom" adlı iki partiya yaradıldı. Hər iki partiya şah rejiminə sadiq olacağını elan edərək, bir çox sahələrdə, o cümlədən, aqrar sahədə islahatlar keçirəcəkləri vədlərini verdilər. Bu vədlər ancaq deklorativ xarakter daşıyırdı. Məqsəd 1960-cı ilin payızında keçirilicək parlament seçkilərində qalib gəlmək idi. Seçkilərdə qalib gəlmiş partiyanın başçısı baş nazir təyin olunmalı idi.

Kobud saxtalaşdırmalar ilə keçirilmiş seçkilərin nəticələrini şah ləğv etməli oldu. Belə bir şəraitdə özlərini milli cəbhənin və Müsəddiqin varisləri elan etmiş və rejimin əsil müxalifətçiləri sayılan qüvvələr ölkədə get-gedə məşhurlaşmağa başladılar. Ölkədə böhranın dərinləşməsindən ehtiyat edən şah yeni hökumətin təşkil edilməsini Cəfər Şərif İmamiyə tapşırdı. Hakimiyyət

gərginliyi azaltmaq üçün məclisə təkrar seçkilər elan etdi. Milli cəbhə və ona yaxın olan təşkilatlar xalqı seçkiləri baykot etməyə çağırdılar. Ölkədə, xüsusilə Tehranda siyasi vəziyyət get-gedə gərginləşirdi. Milli cəbhə ilə yanaşı «İranın azadlığı uğrunda hərəkatın" üzvləri də geniş siyasi fəaliyyətə başlamışdılar. Bu təşkilata milli cəbhənin keçmiş üzvləri və ruhanilər daxil idilər. Bu təşkilatın başçıları sırasında doktor Mehdi Bazorqan və ayətulla Mahmud Taleqani də var idilər. Müxalifətin güclənməsi və onun ölkə daxilindəki geniş çıxışları şahın və onun ətrafındakılarının təşvişə düşmələrinə səbəb oldu. 1961-ci ilin yazında ABŞ prezidentinin xususi nümayəndəsi Harriman Tehrana gəldi. O, şahı ölkədə müəyyən dəyişikliklərin aparılmasına və ölkənin ictimai-siyasi sisteminin demokratikləşdirilməsi zərurətinə inandırmağa çalışdı. ABŞ hökuməti əvvəllər ABŞ-da İranın səfiri olmuş Əli Əminini baş nazir təyin etməyi şaha təklif etdi. 1961-ci il may ayının 6-da Əli Əmini Şərif İmamının əvəzində baş nazir təyin edildi. Əmini ölkədə aqrar islahatlar keçirməyə başladı.

1962-ci ilin aprel ayında şah ABŞ-a rəsmi səfərə getdi. ABŞ prezidenti şahı onun özü tərəfindən təşəbbüs göstərilməsinə və ölkədə islahatlar keçirilməsinə inandıra bildi. 1963-cü il yanvar ayının 26-da şah altı maddədən ibarət islahat proqramını elan etdi.

1962-ci ilin iyul ayında şah Əli Əmininin başçılıq etdiyi hökuməti istefaya göndərərək Əsədulla Ələmi baş nazir təyin etdi. Ələm nəinki ölkədə daxili siyasi vəziyyəti stabilləşdirə bilmədi, əksinə, özünün bəzi hərəkətəri ilə müxalif meyllərin artmasına səbəb oldu. 1962-ci il oktyabrın 8-də elan olunmuş yerli əncümənlərə (şuralara) seçkilər haqqında əsasnamə ruhani rəhbərləri tərəfindən kəskin tənqid olundu. Baş nazirin bu əsasna-

mədən imtina etməməsi  ruhanilərin dövlət əleyhinə yönəlmiş meyllrinin daha da güclənməsinə səbəb oldu.

Bu dövrdə rejimə qarşı müxalifətdə duran  ruhanilər arasında şaha və onun keçirdiyi islahatlara qarşı kəskin çıxışlar edən ən görkəmli şəxsiyyətlərdən biri ayətullah Ruhulla Xomeyni idi. 1963-cü ilin mart ayında novruz bayramı ərəfəsində Xomeyni xalqa müraciət etdi. O, bu müraciətdə şahı və onun ətrafındakıları ABŞ-ın və İsrailin mənafelərinə xidmət etməkdə təqsirləndirdi. Buna cavab olaraq martın 22-də SAVAK Qum şəhərində yerləşən və Xomeyninin rəhbərlik etdiyi "Fevziyə" mədrəsəsinə hücum etdi. Hücum zamanı bir nəfər tələbə öldürüldü, bir neçə nəfər isə yaralandı. Xomeyni isə həbs olundu. Lakin tezliklə azad edildi.

Şah rejimi və ruhanilər arasında konflikt genişlənməkdə davam edirdi. 1963-cü ilin iyununda bu konflikt üsyana çevrildi. Səbəblərdən biri isə şah  tərəfindən xəyanətkar elan edilən Xomeyninin həbsi idi. 1963-cü il iyun ayının 4-də və 5-də baş vermiş üsyan Qum, Tehran, Məşhəd, Təbriz, Veramin və Kaşan şəhərlərini bürüdü. Üsyançılara qarşı əməliyyata şahın özü başçılıq edirdi. İki gün ərzində polis və ordu hissələri ilə üsyançıların qanlı toqquşmaları baş verdi. Üsyan yatırıldı. 100 nəfərə qədər üsyançı öldürülmüş, 28 nəfər ayətullah  həbs edilmişdi. 1963-cü ilin əvvəlində isə Mehdi Bazorqan və ayətullah Taleqani həbs edildilər.

1963-cü il iyun hadisələrindən sonra Əsədulla Ələmin başçılıq etdiyi hökumət istefaya getdi və yeni hökumətin təşkil edilməsi "İrane nəvin» (Yeni İran) partiyasının başçısı Həsənəli Mənsura tapşırıldı. Yeni hökumətin iqtisadi proqramının əsasını geniş sənaye quruculuğu planı tuturdu. Aqrar sahədə isə hökumət bu və ya digər formada ənənəvi mülkədar-icarədar

münasibətlərini saxlamağa çalışırdı. Hökumətin proqramına uyğun olaraq iri mexanikləşdirilmiş təsərrüfatlar və orta kənd təsərrüfatı sahibkarları dövlət tərəfindən himayə olunmağa başladılar .

ABŞ ilə bütün sahələrdə iqtisadi və siyasi əlaqələr genişləndirilirdi. Hökumətin belə açıq-aşkar amerikapərəst siyasəti müxalifətin kəskin etirazlarına səbəb oldu. 1965-ci il yanvar ayının 21-də gizli fəaliyyət göstərən "İslam xalq partiyası" üzvləri tərəfindən Mənsurə sui-qəsd edildi və o, aldığı yaralardan öldü. Həsənəli Mənsurun əvəzinə Əmir Abbas Höveyda baş nazir təyin edildi. Höveyda hökuməti Qərb dövlətləri ilə, xüsusən ABŞ ilə əlaqələrin genişlənməsini davam etdirməklə yanaşı, ölkədə dövlət vəsaitləri hesabına ağır sənaye sahələrini yaratmağa başladı. Hökumətin bu addımları Qərb dövlətlərinin narazılığına səbəb oldu və onlar metallurgiya zavodunu tikməkdə İrana kömək etməkdən imtina etdilər.

Belə bir şəraitdə İran Sovet İttifaqına müraciət etdi. 1966-cı il yanvar ayının 13-də İranda Sovet İttifaqının köməyi ilə metallurgiya zovodunun tikilməsi haqqında müqavilə imzalandı. 1970-ci illərin əvvəllərində isə İsfahan metallurgiya zavodu istifadəyə verildi.

1973-cü ildə İran neft sənayesini milliləşdirdi. İranın neft ixrac edən ölkələr təşkilatına (OPEK) daxil olması və bu ölkələrin birgə fəaliyyəti nəticəsində neftdən əldə edilən gəlirlərin miqdarının artması İrana öz təsirini göstərdi. İranın neftdən əldə etdiyi gəlirlərin miqdarı bir neçə dəfə artdı. İran geniş maliyyə imkanları əldə etdi.

Şah rejimi özünün əsas dayağı olan ordunun möhkəmləndirilməsinə külli miqdarda vəsait xərcləməyə başladı. Şah ölkəni qüdrətli orduya malik bir dövlətə çevirmək istəyirdi. Artıq

1970-ci ilin ortalarında İran silah alınmasına xeyli miqdarda pul xərcləmişdi. İranın təkcə silah alınması üçün ABŞ-a olan şifarişləri 1975-ci ildə 6 milyard dollar təşkil edirdi. Ölkənin hərbi potensialının artması ilə İranın xarici siyasəti kursunda da dəyişikliklər baş verirdi. Şah ABŞ-ın köməyi ilə İranı regionda demokratik hərəkatlar ilə mübarizə mərkəzinə çevirməyə çalışırdı. Belə ki, 1973-cü ildə İran qoşunları Omanda anti-monarxist hərəkatın yatırılmasında iştirak etdilər. İran region dövlətlərinə, o cümlədən Misir, Hindistan, Pakistan, Seneqal, Cənubi Koreya və başqalarına böyük miqdarda kreditlər verməklə beynəlxalq aləmdə nüfuzunu artırmağa çalışırdı. 1979-cu ildə Misir-İsrail seperat sülhünün imzalanmasında İran şahının da rolu olmuşdu.

1976-cı ildə C.Karter ABŞ prezidenti seçildikdən sonra İranda insan hüquqlarının pozulması ilə bağlı İran-ABŞ münasibətlərində zahiri soyuqluq yarandı. Lakin şahın 1977-ci ilin əvvəlində ABŞ-a səfərindən sonra münasibətlər yenidən əvvəlki vəziyyətinə qayıtdı.

1977-ci il dekabr ayının 31-də Karter Tehrana iki günlük səfər etdi. Bir neçə gündən sonra isə İranda şah hakimiyyətinin böhranına səbəb olmuş hadisələr baş verdi.

Rejimə qarşı narazılıqların artmasını nəzərə alaraq, xarici mətbuatda tənqid olunmasının qarşısını almaq, ölkədə siyasi mühitin liberallaşması təəssüratını yaratmaq məqsədi ilə şah 1977-ci ilin fevralında bir qrup siyasi dustağı zindanlardan azad etdi. Eyni zamanda beynəlxalq qızıl xaç cəmiyyətinin nümayəndələri bəzi İran həbsxanalarına baxdılar.

1977-ci ilin mart ayında məşhur publisist Əli Əcğər Hacseyyid Cavadinin şaha ünvanlanmış açıq tənqidi məktubu çap olundu. Bu məktubda İranın siyasi sistemi kəskin tənqid

edilirdi. Həmin il iyun ayının 12-də milli cəbhənin liderlərinin şaha açıq məktubu dərc olundu. Onlar da məktublarında İranda despotik sistemin ləğv olunmasını tələb edirdilər. Məktubda həmçinin mətbuat azadlığı, siyasi təşkilatların fəaliyyət göstərməsinə icazə verilməsi, siyasi dustaqların azad olunması, ümumdünya insan hüquqları deklarasiyasına riayət olunması tələb edilirdi. Bütün bu hadisələr şahı manevrlər etməyə məcbur etdi. 1977-ci il avqustun əvvəllərində Hoveyda hökuməti istefaya göndərildi və yeni hökumətin təşkil olunması "Rəstaxiz" (Dirçəliş) partiyasının rəhbəri Cəmşid Amuzqara tapşırıldı. SAVAK-ın müxalifətə qarşı təzyiqləri gücləndi. Lakin bütün bunlar narazılıqların qarşısını ala bilmədi. 1977-ci ilin sentyabrında bir qrup İran hüquqşünası hökumətdən şikayətlə ali məhkəməyə müraciət etdilər. Doktor Mehdi Bazorqanın başçılıq etdiyi müxalifət təmsilçiləri "İnsan hüquq və azadlıqlarının İran komitəsini» yaratdılar. İctimai fəaliyyətin azadlığı tələbləri ilə Tehran Universiteti müəllimlərinin böyük bir qrupu çıxış etdi.

1977-ci ilin noyabr ayında Tehran Universitetinin və "Aryamehr" Universitetinin tələbələri də hökumət əleyhinə çıxışlar etdilər. SAVAK tələbələr arasında kütləvi təqiblərə başladı. "Rəstaxiz" partiyasının 1978-ci ilin yanvar ayında toplanmış fövqəladə qurultayında nümayişlərdə iştirak etmiş tələbələrin universitetlərdən qovulmaları haqqında qərar qəbul edildi.

1978-ci il fevral ayının 18-də İranın 11 şəhərində görkəmli ruhanilərin çağırışı ilə Qum şəhərində öldürülmüş nümayişçilərin xatirəsinə həsr olunmuş matəm nümayişləri keçirildi. Təbriz şəhərində keçirilən nümayiş isə rejim əleyhinə üsyana çevrildi. Bu nümayişdə 100 min nəfərə qədər adam iştirak edirdi. Hökumət nümayişçilərin əleyhinə ordu hissələrindən, polis və jandarmeriya qüvvələrindən, tanklardan, hərbi maşınlardan və

helikopterlərdən istifadə etdi. Yüzlərlə nümayişçi öldürüldü və yaralandı.

1978-ci ilin yazı və yayı ölkənin bütün şəhərlərini hökumət əleyhinə çıxışlar bürüdü. Bu çıxışlar Təbriz, Məşhəd və İsfahan şəhərlərində daha izdihamlı idilər.

1978-ci il yayın sonlarından başlayaraq şəhərlərdə baş verən üsyanlara ruhanilər və islamçı siyasətçilər başçılıq etməyə başladılar. 1978-ci ilin payızından başlayaraq isə şah rejiminə müxalifətdə olan ruhanilər xalq hərəkatının aparıcı qüvvəsinə çevrildilər.

Müxalifətdə olan ruhanilərin və islamçı siyasətçilərin xalq inqilabının rəhbərlərinə çevrilmələri İranda o zaman mövcud olan siyasi şəraitin nəticəsi idi. Şah rejiminin sol demokratik qüvvələri ardıcıl olaraq təqib etməsi onları xeyli zəiflətmişdi. "Tudə" partiyasının mövqeləri xeyli zəif idi. 1977-ci ilin əvvəllərində radikal gənclər təşkilatları olan "Fedayane xəlq" (xalq fədailəri) və "Mocahedine xəlq" (Xalq mücahidləri) qruplarının qərargahları darmadağın edilmişdi. Bunların əksinə olaraq ruhanilər əhəmiyyətli təşkilat imkanlarına malik idilər. Müxalif ruhanilərin mövqelərindəki faktiki manevrlər də xüsusi əhəmiyyətə malik idi. Ruhani liderləri öz proqram və çıxışlarında geniş xalq kütlələrinin anti-istismar və anti-imperialist əhvali ruhiyyəsindən məharətlə istifadə edirdilər. Dövlətlilər ilə kasıblar arasındakı dərin uçurumu aradan götürmək, şah rejimini ləğv etmək, iqtisadiyatda hakim mövqelərdə olan xarici kapitalın və onunla bağlı olan iri İran kapitalistlərinin İrandan qovulması və s. kimi şüarlarla çıxış edən ruhanilər inqilabi hərəkatda mövqelərini möhkəmləndirirdilər.

1978-ci ilin oktyabrında inqilabi qüvvələrin düşərgəsində elə bir şərait yarandı ki, rejimə müxalifətdə olan burjuaziya in-

qilabi hərəkatda ruhanilərin, hər şeydən əvvəl isə ayətullah Ruhulla Xomeyninin rəhbərliyini təsdiq etdi.

Şah və onun ətrafındakılar müxtəlif siyasi manevrlər vasitəsilə kütləvi çıxışların qarşısını almaq istəyirdilər. 1978-ci il avqustun 27-də Cəmşid Amuzqar istefaya göndərildi və Cəfər Şərif İmami baş nazir təyin edildi.

O, dini məsələlərlə məşğul olmaq üçün yeni nazirlik təsis etdi. Müsəlman təqvimi də rəsmi təqvim ilə yanaşı işlədilməyə başladı. Həbs edilmiş bir neçə görkəmli ruhani və siyasətçilər azadlığa buraxıldılar. "Pəhləvi fonduna" aid olan kazinolar bağlandı. Senzura aradan götürüldü. Hökumət nümayişçilərin güllələnməsinə əmr vermiş onlarla polis və hərbi zabitin cəzalandırılacağını elan etdi. Bəzi görkəmli ruhanilərlə, o cümlədən böyük hörmət və şöhrət sahibi olan Seyid Kazım Şəriətmədari ilə danışıqlar həyata keçirildi.

1978-ci il sentyabr ayının 6-da Tehranda Xomeyninin müraciəti yayıldı. Müraciətdə o, xalqı rejim əleyhinə mübarizəni gücləndirməyə, hərbçiləri isə öz qardaş və bacılarına güllə atmamağa çağırırdı. Sentyabrın 7-də yüz minlərlə nümayişçi "Şaha ölüm" şüarları ilə Tehran küçələrinə axışdılar. 1978-ci il sentyabrın 8-də şahın tələbi ilə hökumət ölkədə hərbi vəziyyət elan etdi. Lakin buna baxmayaraq minlərlə adam nümayişə çıxdı. Nümayişçilər şah rejiminin ləğv olunmasını və islam idarə üsulunun yaradılmasını tələb edirdilər.

Hökumət nümayişçilərə qarşı ordu hissələri göndərdi. Xəbərdarlıq edilmədən nümayişçilərə müxtəlif silah növlərindən və helikopterlərdən atəş açıldı. "Qara cümə günü" adlandırılmış bu gündə 4 mindən çox adam öldürülmüşdü.

1978-ci il sentyabr ayının 18-də mərkəzi bankın işçiləri mətbuata hakimiyyətdə olan dövlət adamlarının son zamanlar-

da xarici banklara 2 milyard dollar pul köçürmələri haqqında məlumat ötürdülər. Bunların arasında baş nazir Şərif İmaminin də adı var idi. Bu məlumatın yayılması ölkədə nümayişlərin yenidən başlanmasına təkan verdi. 1978-ci il sentyabr ayının sonu, oktyabr ayının əvvəllərində ölkəni yeni tətil hərəkatı bürüdü. Bütün bunların müqabilində şah rejimi güzəştlərə getməyə davam edirdi. O, korrupsiyada əli olan bütün şəxslərin cəzalandırılacağını vəd etdi. Sentyabrın sonunda 1976-cı ildə yaradılmış "Rəstaxiz" partiyası buraxıldı. Oktyabrda böyük miqdarda siyasi xadim həbsdən azad edildi. Bunlara cavab olaraq Fransada olan ayətulla Xomeyni xalqı Pəhləvi rejiminə qarşı mübarizəni gücləndirməyə çağırdı. Xomeyni İran milli neft şirkətinin fəhlələrinə müraciət edərək onları tətilə başlamağa çağırırdı. 1978-ci il oktyabrın 31-də neft sənayesində işləyən fəhlələrin tətili başladı.

1978-ci il noyabr ayının 6-da şah öz qvardiyasının komandanı general Qulam Rza Əzhərini baş nazir təyin etdi. Ertəsi günü şahın razılığı ilə o, hakim sinfin 13 nəfər görkəmli nümayəndəsini, o cümlədən keçmiş baş nazir Höveydanı həbs etdi. Eyni zamanda müxalifətin başçılarından olan Səncabi və Dariyuş Foruhər də həbs edildilər. Paralel olaraq ABŞ administrasiyasının İrandakı vəziyyətə müdaxiləsi də genişlənirdi. 1978-ci ilin noyabrında ABŞ-ın yüksək vəzifəli dörd nəfər məmuru Tehrana gəldi. Belə bir şəraitdə ABŞ-ın İranın daxili işlərinə genişlənməkdə olan müdaxiləsini görən sovet dövlətinin başçısı L.Brejnev 1978-ci il noyabr ayının 11-də bəyanat verərək bildirdi ki, Sovet dövləti ABŞ-ın İrana hərbi müdaxiləsinə yol veməyəcəkdir.

1978-ci il dekabrın 6-da Şəncabi və Foruhər həbsdən azad edildilər.

Eyni zamanda Tehranda və ölkənin digər şəhərlərində şah əleyhinə və Amerika əleyhinə çıxışlar genişlənməkdə davam edirdi. Bu çıxışlar 1978-ci il dekabrın 11-də aşura günü çoxmilyonlu bir izdihama çevrildi. Belə bir mürəkkəb şəraitdə Milli Cəbhənin rəhbərlərindən biri olan Şapur Bəxtiyar şah ilə əməkdaşlığa razılıq verdi. Bəxtiyarın şərtlərini qəbul edən şah onu baş nazir təyin etdi. Şah ilə əməkdaşlığa getdiyinə görə Ş.Bəxtiyar dərhal milli cəbhədən xaric edildi. 1979-cu ilin yanvar ayının 30-da Bəxtiyar hökuməti məclis tərəfindən himayə olunsa da müxalifət onu qeyri-qanuni elan etdi. 1979-cu il yanvarın 16-da şah və şahbanu İranı tərk edərək Misirə getdilər. Bu xalqın inqilab ruhunun daha da yüksəlməsinə səbəb oldu. 1979-cu il fevral ayının 1-də Xomeyni Parisdən Tehrana gəldi. Tehrana gələn Ayətulla Xomeyni Bəxtiyarın dərhal istefa verməsini tələb etdi. Fevral ayının 5-də Xomeyni fərman verərək Mehdi Bazorqanı müvəqqəti hökumətin başçısı təyin etdi. O, hökumətə ölkənin siyasi rejimini dəyişdirəcək referendumu hazırlayıb, həyata keçirməyi tapşırdı. 1979-cu il fevral ayının 9-da Dovşantəpə hərbi aviabazasında kadetlərin və texniki personalın üsyanı başladı. Bu üsyana şah ordusundan fərari olmuş hərbiçilər və mülki şəxslər qoşuldular. Fevral ayının 9 və 10-da bir çox polis məntəqəsini və hərbi bazaları ələ keçirmiş üsyançılar artıq fevralın 11-də Tehranda idilər. Fevralın 11-də başda baş qərargah rəisi general Qarabağı olmaqla 27 nəfər yüksək rütbəli general yaranmış siyasi qarşıdurmada öz bitərəfliyini elan etdilər və ordu hissələrinə kazarmalara qayıtmağı əmr etdilər. Bundan xəbər tutan Bəxtiyar ölkədən qaçdı və 1979-cu il fevral ayının 12-də Tehran radiosu şah rejiminin devrilməsini və inqilabın qələbə çalmasını elan etdi.

Nəticədə ayətullah Xomeyninin tərəfdarları olan ruhanilər və onlarla bağlı olan xırda burjua və liberal siyasətçilər hakimiyyətə gəldilər.

İranın müasir tarixində yeni dövr başlandı.

1979-cu il mart ayının 30 və 31-də ölkədə dövlət quruluşu ilə bağlı referendum keçirildi. 1979-cu il aprel ayının 1-də isə rəsmi olaraq İran İslam Respublikası elan edildi.

1979-cu ilin dekabr ayının 3-də yeni bir referendum keçirilərək, İran İslam Respublikasının konstitusiyası qəbul edildi.

1980-ci ilin yanvar ayında ölkənin ilk prezidenti seçildi. Bu Əbülhəsən Bənisədr idi. İnqilab şurasi buraxıldı. Lakin ölkədə daxili siyasi çətinliklər və qalmaqallar davam edirdi. Tələbələrin 1979-cu il noyabr ayının 4-dən etibarən tutduqları ABŞ səfirliyi ətrafında yaranmış vəziyyət bu çətinlikləri daha da dərinləşdirmişdi. Yaranmış şəraitdə prezident Bənisədr ABŞ ilə əlaqələrin bərpa edilməsi, müəyyən şərtlər əsasında ABŞ diplomatlarının azad edilməsinin təşəbbüsləri ilə çıxış etdi.

Prezident seçkilərindən dərhal sonra milli şura məclisinə, İran parlamentinə seçkilər kampaniyası başladı. İran İslam Respublikasının ilk parlamentinə seçkilər iki mərhələdə keçirildi. Seçkilərin birinci turu 1980-ci il mart ayının 14-də keçirildi. Birinci mərhələdə məclisə lazım olan miqdarda deputat seçilmədiyinə görə may ayının 9-da parlamentə seçkilərin ikinci turu keçirildi və 1980-ci il may ayının 28-də İran İslam Respublikasının ilk parlamenti 217 deputat ilə öz işinə başladı. Parlamentə əsasən ayətulla Xomeyni tərəfdarı olan siyasətçi ruhanilər və əqidələrinə görə onlara yaxın olan xırda burjua siyasətçiləri seçilmişdilər. Məclisdə liberal burjuaziyanı və ziyalıları təmsil edən deputatların sayı xeyli az idi. Ayətulla Xomeyninin ən yaxın tərəfdarlarından olan höccətül-islam Əli Əkbər Haşemi Rəf-

səncani məclisin sədri seçildi. Parlament İslam Şurası Məclisi adlandırılmağa başladı. 1980-i il sentyabr ayının 22-də Səddam Hüseynin başçılıq etdiyi İraq rejimi İran İslam Respublikası əleyhinə geniş hərbi əməliyyatlara başladı. Müharibə ölkənin daxili siyasi vəziyyətini daha da mürəkkəbləşdirdi.

1981-ci ilin əvvəllərində məclis üzvlərinin əksəriyyəti Bənisədrə və onun yeritdiyi siyasətə qarşı çıxdılar. Məclis üzvləri Xomeyni tərəfindən himayə edilirdilər.

1981-ci ilin iyun ayında Bənisədr prezidentlikdən devrildi və o iyulun 29-da xaricə qaça bildi.

Əbülhəsən Bənisədr ölkədən getdikdən sonra prezidentlik səlahiyyətləri baş nazir Məhəmməd Əli Rəcayiyə keçdi. Lakin o, «mycahedine xəlq» (xalq mücahidləri) təşkilatının təşkil etdiyi terror aktı zamanı 1981-ci il avqust ayının 31-də həlak oldu. Buna və bundan başqa ölkə ərazisində baş vermiş çoxlu sayda terror aktlarına cavab olaraq müxalifətə qarşı tədbirlər sərtləşdirildi. Bu məqsədlə yaradılmış çoxlu sayda inqilab məhkəmələri islam ədalətinin bərpası adı altında müxalifətçilərə qarşı sərt tədbirlər keçirməyə başladılar. Müxalifətdə olan bir çox silahlı qruplar tamamilə məhv edildilər. Məhəmməd Əli Rəcainin ölümündən sonra keçirilmiş prezident seçkilərində Seyid Əli Xameneyi 1981-ci ilin sonunda İran İslam Respublikasının üçüncü prezidenti seçildi.

1988-ci ilin yayında həm İran, həm də İraq xalqlarına çoxlu bədbəxtliklər gətirmiş İran-İraq muharibəsi başa çatdı. 1989-cü il iyunun 4-də isə İslam inqilabının rəhbəri və İran İslam Respublikasının yaradıcısı ayətullah Xomeyni vəfat etdi.

O, İran xalqının dahi lideri idi və nadir, güclü şəxsiyyət idi. O, bütün varlığını həyatının ən böyük ideyasına – İran xalqının şah zülmündən azad olunmasına həsr etmişdi və bu arzusuna da

yetişdi. O, ən yeni tarixin ən yeni tarixi hadisəsini – İslam İnqilabını həyata keçirtdi və İran xalqına İran islam Respublikasını əmanət qoyaraq dünyadan köçdü.

Hələ İran İslam Respublikasının rəhbəri ayətulla Xomeyni vəfat etməmişdən əvvəl İran rəhbərliyində ali icraedici hakimiyyət və bu hakimiyyətdə prezidentin yeri məsələsi ətrafında «radikallar» ilə «praqmatiklər» arasında siyasi mübahisələr gedirdi. S.Xameneinin və Ə.Rəfsəncaninin başçılıq etdikləri qrup prezidentin icraedici səlahiyyətlərini məhdudlaşdıran sistemdən imtina edilməsini təklif edirdi. Bu məsələnin həlli məqsədilə yaradılmış komitə Xamenei-Rəfsəncani qrupunun təklifini qəbul etdi. Baş nazir vəzifəsi ləğv edildi. Prezidentin icraedici hakimiyyəti genişləndirildi. Seyid Əli Xamenei İran İslam Respublikasının ali rəhbəri seçildi. İran İslam Respublikasının prezidenti və hökumətinin başçısı Əli Əkbər Haşemi Rəfsəncani seçildi. Onun prezidentlik dövrü islam dövlətinin formalaşması, onun siyasi-hüquqi və sosial-iqtisadi qurumlarının yaradılması dövrü oldu. Bu illərdə iqtisadi liberallaşma siyasəti həyata keçirilməyə başladı və azad bazar münasibətlərinə doğru əhəmiyyətli addımlar atıldı. O cümlədən, dövlət nəzarəti altında olan bəzi istehsal obyektlərinin səhmləri fəhlə və qulluqçulara satıldı, İran iqtisadiyyatına xarici sərmayə qoyuluşları üçün şərait yaradıldı, İran şirkətləri ilə xarici şirkətlərin birgə müəssisələri yaradıldı, beynəlxalq şirkətlərlə İran kapitalının əməkdaşlığı üçün imkanlar yarandı, azad ticarət zonaları təşkil edildi və s. İslam və şəriət qanunlarına uyğunlaşdırılmış kredit-bank və sığorta şirkətlərinin işinin fəallaşdırılması üçün təsirli tədbirlər həyata keçirildi. XX əsrin 90-cı illərinin əvvəlini İranda quruculuq və sabitliyin bərqərar olması dövrü kimi səciyyələndirmək olar. Müharibə nəticəsində dağılmış şəhər və kəndlərin bərpası, sənayenin və

kənd təsərrüfatının inkişaf etdirilməsi vəzifələri ön sıralara çəkildi. Bu məqsədlə ölkənin iqtisadi siyasətinin istiqamətlərini müəyyənləşdirmək üçün yaradılan komissiya 1989-1993-cü illər üçün beşillik inkişaf planı tərtib etdi və bu plan hökumət tərəfindən qəbul edildi.

İqtisadiyyat sahəsində həyata keçirilmiş tədbirlər nəticəsində İran müharibənin törətdiyi böhrandan çıxa bildi. 1989-1990-cı illərdə ümumi daxili məhsulun azalması tendensiyası dayandırıldı və hətta 4% artdı. 1990-1991 illərdə bu artım artıq 8%-ə qədər yüksəlmişdi.

1997-ci ildə seyid Məhəmməd Xatəminin İran İslam Respublikasının prezidenti seçilməsi ilə İranın istər daxili, istərsə də xarici siyasətində bir sıra yeniliklərin əsası qoyuldu.

1997-ci ilin baharında yeni prezident seçkiləri kampaniyası başlananda istər ölkə daxilində, istərsə də onun xaricindəki siyasi ekspertlərin əksəriyyəti bu fikirdə idilər ki, İran parlamentinin sədri, sağ islamçı qüvvələrin nümayəndəsi Natiq Nuri ölkə prezidenti seçiləcəkdir. Hətta o, rəsmi səfərlə Rusiyaya dəvət edilərək ona «prezident sayağı» ehtiram göstərilmişdi. Lakin bütün öngörmələrin əksi olaraq İran İslam Respublikasının on il mədəniyyət və islam irşadı naziri olmuş Məhəmməd Xatəmi İran İslam Respublikasının beşinci prezidenti seçildi. O, özünün seçkiqabağı çıxışlarında İranda mövcud olan rejim şəraitində «vətəndaş cəmiyyətinin» qurulmasını, ölkədə demokratiya və azadlıqların inkişafına yardım etməyi vəd vermişdi. Seyid Məhəmməd Xatəmi prezident seçildikdən sonra bir çox sahələrdə, xüsusən mənəviyyat və mədəniyyət sahələrində islahatlar keçirməyə başladı. İslam iniqilabının ilk illərində tətbiq edilmiş bir çox qadağalar aradan götürüldü. Həyata keçirilən islahatlar yenilik tərəfdarlarını sevindirsə də, islahatların əleyhdar-

ları olan mühafizəkarların müqaviməti ilə rastlaşdı. Buna görə də 1997-1998 və 2003-cü illərdə müvafiq olaraq keçirilmiş prezident, parlament, ekspertlər şurası (məclese xebreqan) və yenidən parlament seçkiləri islahatçılarla mühafizəkarlar arasında siyasi mübarizə şəraitində həyata keçdi. Xarici siyasət sahəsində İran rəhbərliyi «sivilizasiyalar arası konflikt» əvəzinə «Sivilizasiyalararası dialoq» ideyasını irəli sürdü. Bu istiqamətdə İran İslam Respublikası rəhbərliyi siyasi izolyasiya çərçivəsindən çıxaraq, beynəlxalq aləmdə, xüsusən Yaxın və Orta Şərqdə, həmçinin SSRİ-nin dağılması ilə müstəqillik əldə etmiş qonşu ölkələrdə fəal xarici siyasət yürütməyə başladı. Bu illərdə, yəni 90-cı illərin ikinci yarısında İran prezidenti region ölkələrinə, Avropa və Asiya ölkələrinə səfərlər etdi. BMT-nin illik sessiyasında iştirak etmək üçün ABŞ-a getdi.

Amerika Birləşmiş Ştatlarının İrana qarşı elan etdiyi iqtisadi embarqonun aradan qaldırılması yolunda ciddi addımlar atıldı və bunun nəticəsində İran iqtisadi mühasirədən çıxa bildi. 1990-cı illərin ikinci yarısında İran hökumətinin yürütdüyü xarici siyasət nəticəsində ölkədə şəffaf və açıq siyasi mühit yaranmaqla yanaşı Avropa ölkələri ilə əməkdaşlıq üçün münasib şərait formalaşdı. Digər tərəfdən Avropa ölkələrinin özlərinin mənafeyi onları İranın əməkdaşlıq çağırışına müsbət cavab verməyə vadar etdi.

Belə ki, Fransanın Avropada ən böyük şirkətlərindən sayılan «Total» şirkəti İranda sərmayə qoymağa maraq göstərdi və 1997-ci ildə İranla 2 milyard dollar həcmində müqavilə imzaladı. İngiltərə və Hollandiyanın müştərək «Şell» şirkəti ilə ABŞ-ın hədələrinə baxmayaraq İranda dəniz neft yataqlarının istismarı üçün 800 milyon dollarlıq müqavilə imzalandı.

Beləliklə, həyata keçirilmiş siyasət nəticəsində artıq XXI əsrin astanasında Almaniya, İtaliya, İngiltərə və Fransa İranın ticarət tərəfdaşlarına çevrildilər.

Bu dövrdə İran İslam Respublikası Çin, Hindistan, Rusiya ilə əməkdaşlığı genişləndirmiş və bir çox sahələrdə bu ölkələrlə münasibətlər strateji xarakter almışdır.

İran İslam Respublikası bu illərdə Yaxın Şərq, Fars körfəzi ölkələri, Cənub-Şərqi Asiya ölkələri ilə də əlaqələrini möhkəmləndirdi.

1991-ci ildə SSRİ-nin dağılması nəticəsində yeni müstəqil dövlətlərin yaranması ilə İran İslam Respublikası iqtisadi və siyasi sahələrdə əməkdaşlıqlar həyata keçirmək üçün yeni tərəfdaşlar qazandı. Bu baxımdan İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasındakı münasibətləri xüsusilə qeyd etmək lazımdır.

İran İslam Respublikası Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk dövlətlərdəndir. 1992-ci il mart ayının 12-də İran İslam Respublikası Azərbaycan Respublikasını müstəqil dövlət kimi tanıdığını elan etdi.

Lakin qeyd etmək lazımdır ki, İranın Azərbaycanı rəsmi tanımasından əvvəl də iki dövlət arasında müxtəlif sahələrdə əlaqələr yaranmışdı.

Belə ki, 1991-ci ilin iyun ayında Azərbaycanın hökumət nümayəndə heyəti İrana səfər etdi. Səfər zamanı iki dövlət arasında ticarət, iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında memorandum imzalandı. Bu sənədə əsasən İran ərazisindən dəmir yolunun yenidən açılması haqqında razılıq əldə edildi. Bununla yanaşı iki qonşu dövlət arasında birbaşa telefon rabitəsi və Bakı-Tehran hava yolları əlaqəsinin təşkili məsələləri həll edildi.

1991-ci ilin dekabr ayında İranın o zamanki xarici işlər naziri Əli Əkbər Vilayəti nümayəndə heyəti ilə birlikdə Azərbayacana səfər etdi. Bu səfər zamanı  iki ölkə arasında siyasi-iqtisadi və mədəni əməkdaşlığın prinsipləri haqqında saziş imzalandı. Həmin sazişdə İran-Azərbaycan sərhədlərində əlavə keçid məntəqələrinin açılması, turizmin inkişaf etdirilməsi və s. məsələlər nəzərdə tutulmuşdu.

1992-ci ilin dekabr ayında Azərbaycan hökumətinin nümayəndə heyəti İrana səfər etdi. İran İslam Respublikasının vitse-prezidenti və hökumət üzvləri ilə aparılan danışıqlar zamanı iki ölkə arasında iqtisadi əməkdaşlıq məsələləri müzakirə edildi.

1993-cü ildən sonra Azərbaycan – İran münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoydu və burada mərhum prezident H. Əliyevin xidmətlərinin xüsusi yeri vardır.

1993-cü ilin oktyabr ayında İran İslam Respublikasının o zamankı prezidenti Ə. Haşemi Rəfsəncaninin Bakıya səfəri və bunun nəticəsində Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında memorandumun imzalanması iki ölkə arasında münasibətlərdə yeni mərhələnin başlanğıcı kimi qeyd edilə bilər.

Sonrakı dövrlərdə hər iki ölkə başçılarının qarşılıqlı dövlət səfərləri zamanı imzalanan sənədlər isə Azərbaycan-İran münasibətlərinin hüquqi-siyasi təməlini qoydu.

Belə ki, 1994-cü il iyunun 29-dan iyulun 2-dək Azərbaycan prezidenti H.Əliyev İrana rəsmi səfər etdi. Azərbaycan prezidenti həmçinin may ayının 12-15 tarixlərində Məşhəd-Sərəxs-Fələnd dəmir yolu xəttinin açılış mərasimində iştirak etmək üçün İrana yeni səfər etdi. Bu səfərlər zamanı bir sıra iqtisadi

xarakterli məsələlər barəsində razılığlar əldə edildi: Astara-Astara körpüsünün inşası, Astara-Qəzvin dəmir yolu xəttinin birləşdirilməsi, Naxçıvanda sement zavodunun tikilməsi, İrandan Naxçıvana qaz kəməri çəkilməsi layihələri ətrafında müzakirələr aparılmış, qərarlar qəbul edilmişdi. 1996-cı il iyun ayından etibarən isə «Şahdəniz» neft yatağının istismarı üzrə konsorsiumun iştirakçıları sırasına İran şirkəti də qatıldı.

Prezident H.Əliyevin 2002-ci ilin may ayında İrana rəsmi səfəri zamanı siyasi, iqtisadi, mədəni, səhiyyə, gömrük, idman və digər sahələrdə II saziş və memorandumun imzalanması iki ölkənin münasibətlərinin inkişafı istiqamətində yeni bir səhifə açdı.

İran İslam Respublikasının eks-prezidenti S.M.Xatəminin 2004-cü ilin avqust ayında Azərbaycana rəsmi səfəri zamanı da iki ölkənin əməkdaşlığının inkişafı istiqamətində II sənəd imzalandı.

Bu səfərə cavab olaraq isə 2005-ci il 24-26 yanvar tarixlərində Azərbaycan Respublikasının Prezidenti İ. Əliyev İrana rəsmi səfərə getdi. Səfər zamanı iki ölkə arasında siyasi, iqtisadi, mədəniyyət sahələrində əməkdaşlıq etmək üçün sənədlər imzalandı.

Əlbəttə ki, Azərbaycan müstəqilliyini əldə etdikdən sonra Azərbaycan-İran münasibətləri təkcə prezidentlər səviyyəsində deyil, o cümlədən parlamentlərarası münasibətlər, iqtisadi əməkdaşlıqlar, mədəniyyət, elm, təhsil mübadilələri səviyyəsində də ildən-ilə genişlənməkdə və inkişaf etməkdədir.

İran İslam Respublikası ötən əsrin 90-cı illərində Azərbaycandan başqa digər qonşu dövlətlərlə, o cümlədən Gürcüstan, Ermənistan, Türkmənistan, Tacikistan, Qazaxıstan ilə əlaqələrini müxtəlif sahələrdə inkişaf etdirmişdir. XX əsrin

sonu və XXI əsrin əvvəllərində yaranmış beynəlxalq vəziyyət isə İran İslam Respublikası ilə Rusiyanı strateji tərəfdaşlara çevirmişdir. İran Rusiya ilə atom enerjisi saneyesi, hərbi və başqa strateji sahələrdə yaxından əməkdaşlıq edir.

İran dövlətinin və bu dövlətin ərazisində yaşayan xalqların keçdiyi şərəfli və zəngin tarixi yolu nəzərdən keçirdikdən sonra onu qeyd etmək lazımdır ki, İran xalqı XX əsrin son 21 ilini və XXI əsrin 11 ilini, yəni əsrin üçdə birindən çox olan bir zaman kəsiyində region, bəlkə də bütün dünya ölkələrində mövcud olan rejimlərdən fərqli olan bir rejim şəraitində yaşayır, işləyir, bəzi sahələrdə çətinliklərlə üzləşsə də, bir çox sahələrdə uğurlar əldə edir. Lakin bir həqiqəti inkar etmək olmaz ki, İran İslam Respublikası islam inqilabının qələbəsindən sonra regionda nüvə texnologiyasına yiyələnməyin astanasında durmuş, iqtisadi cəhətdən inkişaf etməkdə olan bir ölkəyə çevrilmişdir. Beynəlxalq münasibətlərdə Şərq-Qərb qarşıdurmasının Şimal-Cənub qarşıdurması ilə əvəzləndiyi bir şəraitdə Şimal mövqeyində duran dövlətlər artıq başa düşmüşlər ki, onların Cənuba qarşı yeritdikləri siyasətlərinin qarşısında İran İslam Respublikası kimi güclü rəqib dayanmışdır.

2005-ci ilin iyun ayında İran İslam Respublikasında növbəti prezident seçkiləri keçirildi. Seçkilərdə İran İslam İnqilabının qələbəsindən sonra İslam Respublikası şəraitində yetişmiş nəslin nümayəndəsi Mahmud Əhmədi Nejad qalib gəldi.

## ƏHALİSİ

İran İslam Respublikası XX əsrin ikinci yarısından başlayaraq «demoqrafik sıçrayış» keçirmiş ölkələrdən biri sayılır. Əgər XX əsrin birinci yarısında əhalinin illik artımı 1% təşkil edirdisə, XX əsrin 60-cı illərinin ikinci yarısında əhalinin illik artımı 3%, 80-ci illərin sonunda isə demək olar ki, 4 % təşkil edirdi.

İranda əhalinin siyahıya alınması ilk dəfə 1956-cı ilin noyabr-dekabr aylarında həyata keçirilmişdir. Siyahıya alınmanın dərc olunmuş nəticələrində ölkənin çoxsaylı xalqlarının təsərrüfat həyatı, sosial strukturu, sayı və yerləşməsi haqqında, həmçinin onların mədəniyyəti, təhsili və səhiyyəsi haqqında dəqiq və obyektiv statistik materiallar az olmuşdur. Birinci siyahıya alınmanın nəticələrinə görə ölkədə 18,9 mln. nəfər əhali var idi.

İran əhalisinin ikinci siyahıya alınması on il sonra, 1966-cı ilin noyabr-dekabr aylarında keçirilmişdir. Bu siyahıya alınmadan əldə edilmiş məlumatlar daha dolğun idi. Siyahıya alınmanın nəticələrinə görə ölkə əhalisinin sayı 6,9 mln. nəfər artaraq 25,8 mln. nəfərə çatmışdı.

Ölkə əhalisinin üçüncü ümumi siyahıya alınması 1976-cı ilin noyabr-dekabr aylarında keçirildi. Bu siyahıya alınma göstərdi ki, həmin dövrdə İran əhalisinin sayı 33,7 mln. nəfərdir.

1986-ci ildə İranda ilk dəfə islam dövləti şəraitində əhalinin ümumi siyahıya alınması həyata keçirildi. Bu siyahıya alınmanın nəticələrindən ölkənin sosial-iqtisadi inkişafı planlarının hazırlanması üçün istifadə olundu. 1986-cı ildə həyata keçirilmiş siyahıya alınmanın nəticələrinə görə İran islam Respublikasının əhalisi 49 mln. 445010 nəfər idi. İran islam Respublikasının İraq ilə apardığı səkkiz illik müharibə əhalinin sayında, ölkənin ictimai-siyasi və iq-

tisadi həyatında böyük dəyişikliklərə səbəb oldu. Buna görə də müharibədən sonrakı illərdə ölkənin inkişafının yeni proqramlarını hazırlamaq üçün ölkə əhalisinin yenidən siyahıya alınması zərurəti meydana çıxdı və 1996-cı ildə İran İslam Respublikasında ölkə əhalisinin ümumi siyahıya alınması həyata keçirildi.[1]

1996-cı ilin ümumi siyahıya alınmasının nəticələrinə görə İran İslam Respublikasının əhalisinin sayı 60 mln 55488 nəfər idi. (2006-cü ilin dekabr ayına olan məlumatlara əsasən İranın əhalisi 70,3 mln. nəfərdir). Əgər 1986-cı ildə əhalinin orta illik artımı 3,9% təşkil edirdisə, 1996-cı ildə bu göstərici xeyli aşağı düşərək 1,5% təşkil etmişdir. Bunun səbəbləri kimi səkkiz il davam edən İran-İraq müharibəsini və həmçinin ölkə əhalisinin sosial-iqtisadi durumunu göstərmək olar. Yaşına görə əhalinin sayca ən çox olan hissəsini 10-14 yaşlı yeniyetmələr təşkil edir. Onların sayı 4,5 mln. nəfərdir. Ümumiyyətlə ölkə əhalisinin əsas hissəsini 25-62 yaş arasında olan insanlar təşkil edirlər. Onlar əhalinin ümumi sayının təxminən 35%-ni əhatə edirlər.

**Əhalinin sıxlığı.** Ötən əsrin ortalarında ölkədə baş vermiş demoqrafik sıçrayış və həmçinin ölkədaxili miqrasiya proseslərinin fəallaşması İran İslam Respublikası əhalisinin sıxlığına da təsir göstərmişdir. İkinci dünya müharibəsinə qədər əhalinin sıxlığı hər kv.km-də 9 nəfər idi. 50-ci illərdə bu rəqəm 12 nəfər, 70-ci illərdə isə 15,6 nəfər olmuşdur. XX əsrin 80-ci illərində İran əhalisinin orta sıxlığı hər 1 kv.km-də 32 nəfər təşkil etmişdir. 1996-cı ilin hesablamalarına görə İran İslam Respublikasında əhalinin orta sıxlığı hər 1 kv.km-də 41,2 nəfərdir.

[1] Ölkədə siyahıya alınma hər on ildə bir dəfə həyata keçirildiyinə görə verilən rəqəmlər 1996 və2006-cı illərin siyahıya alınmasına əsaslanır.

Əhalinin sıxlığı ölkənin müxtəlif yerlərində bir-birindən kəskin sürətdə fərqlənir. Bu fərqlərin meydana gəlməsi təbii iqlim şəraitinin təsiri ilə tarixən formalaşan inkişaf xüsusiyyətlərinin, ticarət-iqtisadi əlaqələrin istiqamətinin və həmçinin siyasi amillərin təsirinin nəticəsidir. Əlverişli iqlim şəraitinin mövcudluğu, kənd təsərrüfatına yararlı torpaqların, başlıcası isə su ehtiyatlarının olması əhalinin yerləşməsinə öz təsirini göstərir. Ona görə də ölkənin şəhərlərinin və digər yaşayış məskənlərinin çoxu vadilərdə və dağətəyi rayonlarda yerləşmişdir. (Əsasən şimal və şimal-qərb rayonlarında). Bu rayonlarda əlverişli iqlim şəraiti vardır və illik yağıntının miqdarı 400 mm-dən az deyildir. Bu ərazilərdə ölkə əhalisinin 2/3 hissəsi yaşayır və əhalinin orta sıxlığı bu yerlərdə hər 1 kv.km-də 25-30 nəfərdir.

Ölkənin mərkəzi, Tehran və onun ətrafı, Xəzər sahili ərazilər və Azərbaycan (Şərqi Azərbaycan, Qərbi Azərbaycan, Ərdəbil, Zəncan ostanları) əhalinin ən çox sıx yaşadığı yerlərdir.

1996-cı ildə keçirilmiş ölkə əhalisinin ümumi siyahıya alınmasının nəticələrinə görə İran İslam Respublikası əhalisinin ostanlar üzrə coğrafi bölgüsü aşağıdakı kimidir.

| **Ostanlar** | **Əhalinin ümumi sayı** | **Şəhər əhalisi** | **Kənd əhalisi** |
|---|---|---|---|
| Şərqi Azərbaycan | 3325540 | 2004484 | 1320788 |
| Qərbi Azərbaycan | 2496320 | 1315161 | 1181119 |
| Ərdəbil | 1168011 | 568448 | 596916 |
| İsfahan | 3923255 | 2914874 | 1007087 |
| Elam | 487886 | 259687 | 217434 |
| Buşehr | 743675 | 394489 | 332884 |
| Tehran | 11176239 | 9404754 | 1771206 |

| | | | |
|---|---|---|---|
| Çahar Mahal Bəxtiyarı | 761168 | 342905 | 417005 |
| Xorasan | 6047661 | 3421937 | 2622134 |
| Xuzestan | 3746772 | 2342514 | 1367945 |
| Zəncan | 1036873 | 489518 | 547301 |
| Semnan | 501447 | 342455 | 158991 |
| Sistan və Bəlucistan | 1722579 | 794528 | 908579 |
| Fars | 3817036 | 2163119 | 1598913 |
| Qum | 853044 | 777677 | 75269 |
| Kürdüstan | 1346383 | 705715 | 640668 |
| Kerman | 2004328 | 1060075 | 922883 |
| Kermanşah | 1778596 | 1098282 | 670459 |
| Kohgiluye və Buyer Əhməd | 544356 | 213563 | 327685 |
| Gilan | 2241896 | 1049980 | 119480 |
| Lorestan | 1584434 | 850016 | 717059 |
| Mazandaran | 4028296 | 1783218 | 2237946 |
| Mərkəzi Ostan | 1228812 | 701547 | 527265 |
| Hürmüzqan | 1062155 | 443970 | 613326 |
| Həmədan | 1677957 | 810640 | 867115 |
| Yəzd | 750769 | 564233 | 186536 |

Mərkəzi ostanda, (Tehran və onun ətrafı daxil olmaqla) əhalinin sıxlığı hər 1 kv. km-də 45-100 nəfər, Gilan ostanında 34, Mazanadaranda 26, Azərbaycanda isə 25-28 nəfərdir. Ölkənin cənub-şərqində, Sistan və Bəlucistan ostanlarında ölkə əhalisinin sıxlığı  olduqca azdır. Bu ərazilərdə hər 1 kv. km-də 0,5-2 nəfər yaşayır. Ölkənin Dəşte Kəvir və Dəşte-Lut səhralarında isə demək olar ki, əhali yaşamır.

**Əhalinin məşğuliyyəti.** Son onilliklərdə İran İslam Respublikasında sərbəst fəaliyyət göstərən əhalinin strukturunda ciddi dəyişikliklər baş vermişdir.

Əhalinin sayında, əhalinin xalq təsərrüfatının sahələrinə görə bölgüsündə, cinsi tərkibində və ailə tərkibində dəyişikliklər baş vermişdir.

1996-cı ildə keçirilmiş siyahıya alınmanın nəticələrinə görə yaşı 10-dan çox olan əhalinin sayı 45,4 mln. nəfərdir. Bu əhalinin 16,03 mln. nəfəri, yəni 35,3%-i iqtisadi cəhətdən fəal əhali hesab edilir. Başqa sözlə desək, onlar təsərrüfat fəaliyyətinə cəlb olunmuşlar. Ölkədə iqtisadi cəhətdən qeyri-fəal əhalinin sayı isə 28,8 mln. nəfərdir.

Bu rəqəm yaşı 10-dan çox olan əhalinin 26,4%-ni təşkil edir. İqtisadi cəhətdən fəal olmayan əhalinin 12,6 mln. nəfəri tələbə, 13,2 mln. nəfəri evdar qadın, 1,2 mln. nəfəri isə işləmədən gəliri olan adamlardır. (Evini kirayə verənlər, bank faizləri hesabına yaşayanlar və b.)

Yaş qruplarına görə təsərrüfat fəaliyyətinə cəlb olunmuş əhalinin bölgüsü aşağıdakı cədvəldə göstərildiyi kimidir: (min nəfər hesabı ilə)

| Yaş qrupu | Ümumi say | İşləyənlər | İşləməyənlər |
|---|---|---|---|
| 10-14 yaş | 368 | 265 | 103 |
| 15-19 | 1547 | 1182 | 366 |
| 20-24 | 2244 | 1881 | 363 |
| 25-29 | 2467 | 2269 | 198 |
| 30-34 | 2167 | 2071 | 96 |
| 35-39 | 1971 | 1902 | 70 |
| 40-44 | 1538 | 1477 | 50 |
| 45-49 | 1020 | 985 | 35 |

| | | | |
|---|---|---|---|
| 50-54 | 713 | 686 | 29 |
| 55-59 | 618 | 587 | 31 |
| 60-64 | 580 | 545 | 35 |
| 65 yaşdan çox | 784 | 705 | 79 |

Cədvəldən göründüyü kimi İran İslam Respublikasında hələ də uşaq əməyi istismar edilir və rəsmi statistik məlumata görə 10-14 yaşlı 265 min uşaq işləyən hesab edilir.

İqtisadi cəhətdən fəal olan əhalinin təsərrüfatın əsas sahələri üzrə bölgüsü isə aşağıda verilən cədvəldə göstərildiyi kimidir. (min nəfər hesabı ilə)

| | |
|---|---|
| Kənd təsərrüfatı, ovçuluq və meşəçilik | 3319 |
| Balıqçılıq | 39 |
| Mədən və yataqların istismarı | 120 |
| Sənaye | 2552 |
| İşıq, qaz və su təchizatı | 151 |
| Tikinti | 1650 |
| Ticarət və kommunal təsərrüfat | 1842 |
| İaşə xidməti (restoran və mehmanxanalar) | 85 |
| Nəqliyyat və kommunikasiya | 973 |
| Bank işi | 153 |
| İcarədarlıq və biznes | 149 |
| İdarəçilik, müdafiə və asayışın mühafizəsi | 1618 |
| Təhsil | 1041 |
| Səhiyyə və sosial müdafiə | 303 |
| Digər ictimai və şəxsi xidmət sahələri | 224 |
| Mərkəzi idarələr və təşkilatlar | 33 |
| Ölkə xaricində fəaliyyət göstərən idarə və təşkilatlar | 1 |

**Ailə və ailə münasibətləri.** 1979-cu ildə İranda İslam inqilabı qələbə çaldıqdan sonra ölkədə rəsmi surətdə çoxarvadlığa icazə verildi. İnqilaba qədər ölkənin ayrı-ayrı xalqları arasında çoxarvadlıq faktiki olaraq mövcud olsa da, bu qanunla qadağan edilmişdi. Qadınların ərə getmələri üçün yaş həddi azaldılaraq 15 yaşa endirildi. Lakin ruhanilər hətta bu yaşa yetməsələr belə şəriətə uyğun olaraq qızların nigahlarını qeydə alırlar. Siğə adlandırılan müvəqqəti nigahlara da icazə verilmişdir. Kişilərin də evlənmək üçün yaş həddi azaldılaraq 17-yə endirilmişdir. Lakin kişilər faktiki olaraq daha yetkin yaşlarda ailə qururlar.

İranda ailələrin çoxu bir qayda olaraq adət və ənənələrə uyğun olaraq qohumluq əlaqələri və sinfi mənsubluq münasibətləri əsasında qurulur. Əmi, bibi, dayı və xala uşaqları arasındakı evlənmə hallarına çox rast gəlinir. Gənclərin evlənmələri zamanı valideynlərin əvvəlcədən razılaşmaları və atanın iradəsi həlledici rol oynayır. Ailə həyatı qurmuş oğullar əksər hallarda valideynləri ilə birlikdə yaşayırlar.

Lakin müasir dünyada baş verən sosial dəyişikliklər İran ailələrini də get-gedə əhatə etməyə başlamışdır. Müasir İran ailələrində tayfa-qəbilə münasibətlərinin zəifləməsini, qədim adətlərin aradan getməsini, gənclərin müstəqil yaşamaq meyllərinin artmasını müşahidə etmək olar. Bütün bunları gənclərin ümumi mədəni səviyyəsinin əvvəlki illərə nisbətən artmasının nəticəsi kimi dəyərləndirmək olar.

**Əhalinin miqrasiyası.** Son onilliklərdə ölkənin şəhər və kənd əhalisinin sayında böyük dəyişikliklər baş vermişdir. İranın aqrar ölkədən tədricən aqrar-sənaye ölkəsinə çevrilməsi bu dəyişikliklərin əsas səbəbi sayıla bilər. Artıq bir neçə onillikdir ki, ölkə əhali-

sinin ümumi sayında kənd əhalisinin xüsusi çəkisinin azalması müşahidə olunmaqdadır. Əgər 1986-cı ildə 55,8 mln. nəfər olan ölkə əhalisinin 26,8 mln. nəfəri şəhərdə və 22,3 mln. nəfəri kənddə yaşayırdısa, 1996-cı ildə keçirilmiş axırıncı siyahıya alınmaya görə 60,05 mln. nəfər olan ölkə əhalisinin 36,8 mln. nəfəri şəhərlərdə, 23,02 mln. nəfəri isə kənd yerlərində yaşayırlar.

Əhalinin miqrasiyası əsasən kənd-şəhər istiqamətində baş verir. Nəticədə Tehranda və digər şəhərlərdə əhalinin sayı artır. Eyni zamanda şəhər-şəhər istiqamətində də miqrasiyanı müşahidə etmək olar. Əhali daha yaxşı yaşamaq ümidi ilə kiçik şəhərlərdən böyük şəhərlərə köçür. Ölkədə əhalinin miqrasiyasını törədən səbəblər kimi sənayenin inkişafını, kəndlərdə kapitalist münasibətlərinin inkişafını, aqrar təsərrüfatlarda yüksək səviyyəli mexanikləşmənin tətbiqi ilə əlaqədar artıq əhalinin meydana gəlməsini, xırda kəndli təsərrüfatlarının sıxışdırılmasını, onların orta və iri təsərrüfatlarla rəqabətə dözməməsini, patriarxal ailə münasibətlərinin tədricən dağılmasını, İran-İraq müharibəsi nəticəsində döyüş yerlərindən şəhərə axının güclənməsini göstərmək olar.

Kənd əhalisinin şəhərlərə miqrasiyasında da dəyişikliklər baş verir. Mühacirlərin təkcə sayında deyil, ictimai tərkibində də dəyişikliklər baş verir. Əgər əvvəllər yalnız iş dalınca kəndi tərk edirdilərsə, indi əlavə gəlir əldə etmək, təhsil almaq, şəhər həyatı ilə tanışlıq və daha rahat yaşamaq üçün varlı təbəqədən olan kənd əhalisinin şəhərlərə axını baş verir. Həmçinin xüsusilə qeyd edilməlidir ki, ölkənin sənaye və ictimai inkişaf sürətinin daxili miqrasiya sürətindən geri qalması əhali arasında işsizliyin artmasına səbəb olur.

**Şəhər əhalisi**. İran İslam Respublikasının şəhər əhalisinin, xüsusən böyük şəhərlərdə yaşayan əhalinin sayı sürətlə artmaqdadır. Buna səbəb kimi kənd yerlərində baş verən sosial -

iqtisadi dəyişiklikləri və şəhərlərdə yeni sənaye müəssisələrinin tikilməsini göstərmək olar.

1996-cı ildə keçirilmiş siyahıya alınmanın nəticələrinə görə İran İslam Respublikasında şəhər əhalisinin ümumi sayı 36817789 nəfərdir. Ölkədə əhalisinin sayı 100 min nəfərdən çox olan 60-dan çox şəhər vardır. Hazırda İran əhalisinin demək olar ki, yarısından çoxu iri və xırda şəhərlərdə yaşayırlar. 1996-cı ilin məlumatlarına əsasən İranın əhalisinin sayına görə ən böyük şəhərləri aşağıdakılardır:

| | |
|---|---|
| Tehran | 10530250 nəfər |
| İsfahan | 1266072 nəfər |
| Təbriz | 1191043 nəfər |
| Kərəc | 9409668 nəfər |
| Məşhəd | 887405 nəfər |
| Əhvaz | 804980 nəfər |
| Qum | 777677 nəfər |
| Kermanşah | 692986 nəfər |
| Şiraz | 675845 nəfər |
| Rəşt | 417748 nəfər |

Hazırda İran İslam Respublikası əhalisinin 60%-i şəhərlərdə yaşayır. Ostanlarda urbanizasiyanın səviyyəsi müxtəlifdir. Şəhərlərin və şəhər tipli yaşayış məntəqələrinin əksəriyyəti mərkəzi ostanda, Şərqi Azərbaycanda, İsfahan və Lurestan ostanlarında yerləşmişdir. Mərkəzi Ostanda şəhər əhalisinin xüsusi çəkisi təxminən 80% təşkil etdiyi halda, Sistan- Bəlucistan, Kermanşah  ostanlarında bu göstərici 20%-dən çox deyildir.

İri şəhərlərdə əhalinin sürətli artımı sənayeləşmə və şəhər tikinti işlərinin sürətini ötüb keçir. Bu səbəbdən işsizlik, nəqliyyat və sanitariya problemləri şəhərlərdə ildən-ilə kəskinləşir.

Yaşayış evlərinin tikilməsi ilə əlaqədar olaraq iri şəhərlərdə torpaq ərazilərinin qiyməti sürətlə artır. Bununla bağlı olaraq bəzən qanun pozuntuları da, baş verir. Şəhər tikintisi sənayenin ən çox inkişaf edən sahəsidir. Şəhər tikintisinin 70%-ni yaşayış evlərinin və idarə binalarının tikintisi təşkil edir. İri şəhərlərdə yaşayış evləri kəskin surətdə çatışmır. İri şəhərlərdə kasıbların yaşadıqları məhəllələr əhalinin ən sıx yaşadığı yerlərdir.

İran İslam Respublikasının ən böyük şəhəri və paytaxtı Tehran şəhəridir. O İranın ən hündür dağı olan Dəmavənd dağının cənub ətəklərindəki vadidə yerləşmişdir və 1795-ci ildə Qacarlar sülaləsi hakimiyyəti ələ aldıqdan sonra ölkənin paytaxtı elan edilmişdir. Şəhər çox sürətlə böyüməkdə davam edir. Bir neçə on il bundan əvvəl şəhərin ətrafı hesab edilən yerlər, hətta Elbrus dağının ətəklərindəki bağ sahələri artıq şəhərə birləşdirilmişdir. 2004-cü ilin yanvar ayının 1-ə olan məlumata əsasən Tehran şəhərinin əhalisinin sayı 12 mln. nəfərdən çoxdur.

Tehran kontrastlar şəhəridir. Varlı adamlara məxsus olan dəbdəbəli evlər və malikanələr şəhərin şimalında, Şimranat, Zəngənə və Qolhək adlı yerlərində yerləşir. Şəhərin cənubunda yerləşən köhnə məhəllələrdə isə əsasən kasıblar və kənddən köçüb gəlmiş adamlar yaşayırlar.

Son illər ölkə və şəhər rəhbərliyi Tehranın yenidən qurulması, yeni yaşayış evlərinin tikilməsi üçün tədbirlər həyata keçirməkdədirlər. Belə ki, Orta Şərqin ən böyük bazarlarından olan Tehran bazarı və onun ətrafı yenidən qurulur, bir çox mərkəzi küçələrdə müasir mağazalar və ticarət mərkəzləri açılır. Şəhərdə 1000-dən çox məscid və 100-ə qədər imamzada mövcuddur və onlar şəhərin ictimai həyatına böyük təsir göstərirlər.

Dövlət idarələrinin, iri sənaye obyektlərinin Tehranda cəmləşdiyini nəzərə alaraq, bütün dövlət məmurlarının 35%-i,

mühəndis- texniki işçilərin 44% və bütün fəhlə sinfinin 1/3-i Tehranda toplanmışdır. Ölkə ziyalılarının əksəriyyəti və ölkə üzrə bütün tələbələrin demək olar ki, yarısı Tehrandadır.

Tehrandan başqa Təbriz, İsfahan, Şiraz, Məşhəd, Yəzd, Həmədan və digər şəhərlər də İranın iri və qədim tarixə malik olan şəhərləridir.

**Kənd əhalisi**. İran İslam Respublikasında kəndlər (farsca deh) ilkin inzibati vahid olmaqla yanaşı, kənd mühitinin sosial və təsərrüfat özəyini təşkil edir. Kənd evlərinin ənənəvi tipinə, onların ölçülərinə, xarici görünüşünə, daxili quruluşuna və bəzəyinə kəndin yerləşdiyi təbii şəraiti, kənd əhalisinin məşğuliyyət növü, təsərrüfatın əsas sahəsi, texnikanın səviyyəsi, əmlakın miqdarı, adət və ənənələr, əhalinin estetik görüşləri və dini inamları böyük təsir göstərir.

İranda hal-hazırda 68 mindən çox kənd vardır. (1996-cı ilin siyahıya alınmasının nəticələrinə görə). Göstərilən xüsusiyyətləri nəzərə alaraq İranda kəndlər evlərin quruluşuna görə bir-birindən fərqlənirlər.

1996-cı ilə keçirilmiş siyahıya alınmanın nəticələrinə görə İran İslam Respublikasında kənd əhalisinin ümumi sayı 23026293 nəfərdir. Bu rəqəm bütün ölkə əhalisinin 38%-ni təşkil edir. İran kəndinin həyat tərzində, xüsusilə sosial və təsərrüfat quruluşunda son illər əsaslı dəyişikliklər baş vermişdir. Ötən əsrin 70-ci illərində həyata keçirilmiş islahatlara qədərki dövrdə İranda torpağı olmayan kəndlilər sonralar kiçik torpaq sahiblərinə çevrilmiş, torpağını itirmiş mülkədarların əksəriyyəti isə kəndləri tərk edərək şəhərlərə köçmüşlər. 1979-cu il islam inqilabından sonra şahın həyata keçirdiyi aqrar islahatlar hakimiyyəti ələ almış islam hökuməti tərəfindən tənqid olundu. Bu şahın islahatları nəticəsində torpağı əlindən alınmış bir çox mülkədar

və qəbilə başçılarına torpaqlarını geri tələb etmək üçün əsas verdi. İslam inqilabı «torpaq onu əkib becərənindir» şüarını irəli sürdü və islahatların islam prinsipləri əsasında həyata keçiriləcəyini elan etdi və heç nə etmədi.

**Əhalinin milli tərkibi**. Mərkəzi Asiya, Aralıq dənizi sahilləri və ərəb dünyası arasında yerləşən İran ərazisi uzun əsrlər boyu müxtəlif xalqların təcavüzünə məruz qalmışdır. Bu istila və təcavüzlərin izləri ölkə əhalisinin çoxmillətli tərkibində özünü göstərmişdir.

Hər şeydən əvvəl onu qeyd etmək lazımdır ki, İran İslam Respublikasının ərazisində yaşayan xalqlar milli yetkinliyin müxtəlif mərhələrində yaşayırlar. Bu ölkədə köçəri maldar təsərrufat ukladını və tayfa-qəbilə bölgüsünü saxlamış müxtəlif etnik qruplarla yanaşı, milli yetkinliyin yekun mərhələsini başa vurmaq üzrə olan çoxsaylı xalqlar da yaşayırlar. İran İslam Respublikasında həyata keçirilən rəsmi dövlət siyasətinə əsasən ölkədə müxtəlif millət və xalqların mövcudluğu inkar edilir və xalqların «milli-siyasi birliyi olan İran xalqının varlığı» qəbul edilir. Rəsmi sənədlərdə və nəşr edilən statistik məlumatlarda İran İslam Respublikasında yaşayan əhali ancaq dini mənsubiyyətlərinə görə qruplara bölünürlər. Ölkədə keçirilmiş siyahıya alınmanın nəticələrinə görə ölkə əhalisinin 99,8%-ni müsəlman, 0,2%-ni isə başqa dinlərə (xristian, atəşpərəstlik, yəhudilik və s. dinlərə) məxsus adamlar təşkil edirlər.

XX əsrin 20-30-cu illərindən başlayaraq indiyə qədər hakimiyyətdə olmuş bütün hökumətlər «vahid İran xaqlı» və «vahid xalq-vahid dil» siyasətini həyata keçirməyə çalışsalar da, həqiqətdə İran xalqları öz milli xüsusiyyətlərini – etnik şüurü, milli dili, mədəniyyəti, ənənəvi məşğuliyyət növlərini və yaşadıqları əraziləri qoruyub saxlaya bilmişlər. Buna görə də İran xalqla-

rında iki-üç mərhələli milli şüur formalaşmaqdadır. Qəbilə – etnik milli dövlət məfhumunun paniranistlərin təbliğ etdikləri və İran xalqlarının guya mənəvi, mədəni, dini, dil və adət-ənənə birliyi olan «vahid İran milləti» məfhumu ilə heç bir əlaqəsi yoxdur.

İranda istər islam inqilabından əvvəlki, istərsə də, sonrakı dövrlərdə nəşr olunan rəsmi dövlət sənədlərində və statistik materiallarda İranda yaşayan millət və xalqlar haqqında məlumatlar həmişə ya nisbi, ya da qeyri-dəqiq olmuşdur.

Beynəlxalq təşkilatların yaydığı məlumat kitablarına əsasən İranda hal-hazırda 30-dan 40-a qədər xalq yaşayır. İran ərazisində yaşayan xalqlar danışdıqları dillərə görə üç əsas qrupa bölünürlər: İran dilli xalqlar – təxminən 60-65%, tükr dilli xalqlar – təxminən 30-35%, və ərəb dilli xalqlar – təxminən 4% - 5%.

İran İslam Respublikası əhalisinin təxminən 42-43%-ni farslar təşkil edirlər. Farslar əsasən Elbrus dağlarından cənubda ölkənin şərq və cənub rayonlarında daha sıx məskunlaşmışlar. Onların yayıldığı ərazi şimal-qərbdə Qərbi Azərbaycan ostanının cənubundan başlayaraq cənub-şərqdə Oman körfəzinə qədər geniş sahəni əhatə edir. Cənubi Azərbaycan istisna olmaqla ölkənin bütün rayonlarında farslar şəhər əhalisinin əsas hissəsini təşkil edirlər. Kənd yerlərində farslar əkinçiliyə yararlı rayonlarda yaşayırlar. Tehran–Həmədan-İsfahan şəhərləri qovşağı farsların yayıldığı başlıca tarixi rayonlardır və bura İraqi - əcəm rayonları adlanır.

Farslara yaxın olan gilanlılar və mazandaranlılar Xəzər dənizinin sahillərində Gilan və Mazandaran ostanlarında yaşayırlar. Ölkənin ümumi əhalisinin təxminən 7,6%-ni təşkil edirlər. Qeyd olunan ostanlarda əhalinin 80%-i gilanlılardır. Onların məişətində və xarici görünüşlərində farslardan fərqli olan cə-

hətlər çoxdur. Gilanlıların əksəriyyəti düyü, buğda, tütün, çay və s. kənd təsərrüfatı məhsulları yetişdirməklə məşğuldurlar. İpəkçilik gilanlıların təsərrüfat həyatında xüsusi yer tutur. Mazandaran ostanının əsas əhalisi olan mazandaranlıların gilanlılarla ümumi cəhətləri çoxdur. Onlar əsasən əkinçiliklə, dağlıq ərazilərdə isə qoyunçuluqla məşğul olurlar.

Kürdlər ölkə əhalisinin təxminən 7,8% -ə qədərini əhatə edirlər. Əsasən Kermanşah, Qərbi Azərbaycan ostanlarında və Xorasan ostanının Şimal ərazilərində məskunlaşmışlar. Özlərinin hansı tayfaya və nəslə mənsub olmalarını unutmasalar da, kürd tayfalarının əksəriyyəti oturaq həyat keçirən şəhər və kəndlərdə yaşayırlar. Milli geyimlərini saxlamışlar və kənd yerlərində əkinçilik və heyvandarlıqla məşğul olurlar.

Lurlar və bəxtiyarilər etnik cəhətdən kürdlərə yaxın olan xalqlardırlar və ölkə əhalisinin təxminən 3%-ni təşkil edirlər. Lur tayfaları Lurestan, Kohgiluye və Buyer Əhməd, Fars, Caharmahale Bəxtiyari ostanlarında və Xuzestan ostanının şimal hissəsində yaşayırlar. Lurlar və bəxtiyarilər Xuzestan ostanının cənubundakı şəhər əhalisinin əksəriyyətini təşkil edirlər. Bəxtiyarilər həmçinin İsfahan şəhərinin qərbində yerləşən dağlıq ərazilərdə və Xuzestan düzənliyinin şərqində də, məskunlaşmışlar. İranın neft və qaz sənayesində çalışanların böyük əksəriyyəti lur və bəxtiyari tayfalarından olan adamlardır.

Bəluclar ölkə əhalisinin təxminən 1,5%-ni təşkil edirlər. Onlar əsasən İranın şərqində yerləşən Sistan və Balucistan ostanında yaşayırlar. Bəluclara həmçinin Xorasan və Kerman ostanlarında da rast gəlmək olar. Bəlucların bir qismi yarımköçəri, bir qismi isə oturaq həyat tərzi keçirirlər. Onlar da, Lurlar və bəxtiyarilər kimi özlərinin qəbilə-tayfa quruluşunu saxlamışlar.

İran bəluclarını qonşu Pakistan və Əfqanistanda yaşayan bəluclarla ümumi dil, din və adət-ənənə birləşdirir.

Sayca kiçik xalq olan talışlar Azərbaycan Respublikası ərazisində yerləşən Lənkəran ovalığı ilə həmsərhəd olan Xəzərsahili ərazilərdə yaşayırlar. Onların sayı ölkə əhalisinin 1%-i qədərdir. Dilləri gilan dilinə yaxındır. Talışlar əsasən əkinçiliklə, həmçinin maldarlıq və balıqçılıqla məşğuldurlar.

Azərbaycanlılar (Azərbaycan türkləri) İranın ən böyük türk dilli xalqı olub, əsasən şərqi və qərbi Azərbaycan, Zəncan və Ərdəbil ostanlarında məskunlaşmışlar. Onlar Tehran, Həmədan, Qəzvin, Ərak, Save şəhərləri əhalisinin əsas hissəsini təşkil edirlər. Azərbaycanlılar arasında özgünlüyünü saxlayan etnik qruplar vardır. (qaraçorlular, bayatlar, cavanşirlər, əfşarlar, şahsevənlər, qarapapaqlar, qaradağlılar, qaşqaylar və b.) Əfşarlar Urmiya gölündən şərqdə, həmçinin Fars, Kerman və Lurestan ostanlarında, şahsevənlər Cənubi Azərbaycanın şimal-şərqində, qarapapaqlılar Urmiya gölünün cənub sahilində, qaradağlılar isə İranın şimal-qərb, Turkiyə ilə sərhəd rayonlarında yaşayırlar.

İran İslam Respublikasında nəşr edilən rəsmi statistik məlumatlara əsasən əhalinin təxminən 25-28 milyona qədərini azərbaycanlılar təşkil edirlər. Bu İran İslam Respublikası əhalisinin təxminən 35-38 %-ni təşkil edir. Reallıqda isə bu rəqəm xeyli çoxdur. (35 milyona qədər)

İran İslam Respublikası əhalisinin 0,5-0,7%- ni türkmənlər təşkil edirlər. Onlar üç iri türkmən tayfa birləşməsinin –yomutların, göklanların və salarların nümayəndələridirlər. İran türkmənləri əsasən Gülüstan (əvvəlki Qorqan) və Xorasan ostanlarının şimal-şərqində yaşayırlar. Türkmənlərin bir hissəsi yarım oturaq həyat tərzi keçirir. Gülüstan ostanı türkmənlərinin əsas məşğuliyyət növü əkinçilik, qoyunçuluq və balıqçılıqdır.

Qaşqaylar böyük Azərbaycan türk tayfa qrupu olub Fars və Lurestan ostanlarının qərb ərazilərində yarımköçəri tərzdə yaşayırlar. Qaşqayların böyük hissəsi heyvandarlıqla məşğul olur. Fars ostanının Şiraz və Abadan şəhərlərində xeyli miqdarda qaşqay yaşayır. Təxmini hesablamalara görə qaşqayların sayı 0,5-0,8 mln.-a qədərdir.

İran İslam Respublikasında həmçinin ölkə əhalisinin təxminən 3-4%-i miqdarında ərəblər yaşayırlar. Onlar əsasən Xuzestan ostanında və Fars körfəzi sahillərində yaşayırlar. Ərəblərin ayrı-ayrı qruplarına Fars və Kerman ostanlarında da rast gəlmək olar.

İran İslam Respublikasında həmçinin çox az miqdarda assurilər (aysorlar), atəşpərəst gebrlər (parslar) və ermənilər yaşayırlar. Bu xalqlar əksər hallarda böyük şəhərlərdə, o cümlədən Tehran, Abadan, Şiraz, İsfahan, Qəzvin və başqa şəhərlərdə məskunlaşmışlar.

**Dil və əlifba**. İran İslam Respublikası konstitusiyasına əsasən (Fəsil 2, maddə 15) ölkənin rəsmi dövlət dili fars dilidir. Hind-Avropa dil ailəsinin İran dilləri qrupuna daxil olan fars dili ilə yanaşı, İranda bu qrupa aid olan kürd, bəluc, mazandaran, tat, talış. lur, bəxtiyari, pustu dilləri və xırda dialektlər də yayılmışdır. Ölkədə əsas türk dilləri Azərbaycan və türkmən dilləri hesab edilir. Ölkənin əsas qanununda yerli dillərin inkişaf etdirilməsi ilə bağlı maddələr nəzərdə tutulsa da, onlara dövlət tərəfindən qayğı göstərilməsi demək olar ki yox dərəcəsindədir. Buna görə də yerli dillər ailə və məişət səviyyəsində işlənən danışıq dili kimi qalmaqdadırlar. Ölkənin fars olmayan əhalisi öz gündəlik həyatında fars dilindən istifadə etməyə məcburdur.

İranın dövlət dili fars dilidir. Rəsmi dövlət işləri, ali və orta məktəblərdə təhsil, qəzet və kitab nəşri, televiziya və radio verilişlərinin əksəriyyəti bu dillə aparılır.

Fars əlifbası ərəb əlifbası əsasındadır.

İranda 1979-cu ildə islam inqilabı qalib gəldikdən sonra ərəb dilinin əhəmiyyəti xeyli artdı. Hazırda bütün məktəblərdə şagirdlər ibtidai təhsili başa vurduqdan sonra orta məktəbi qurtarana qədər ərəb dilini icbarı şəkildə öyrənirlər.

**Dinlər.** İran İslam Respublikasında hakim din islam dinidir. Ölkə əhalisinin 99%-ni müsəlmanlar təşkil edirlər. 1996-cı ilin siyahıya alınmasının nəticələrinə görə İranda 59,8 mln. nəfər müsəlman yaşayır. İran əhalisinin əksəriyyəti şiə məzhəblidir. Farslar, azərbaycanlılar, türklər, gilanlılar, mazandaranlılar, bəxtiyarilər, lurlar, qaşqaylar, tatlar, həmçinin İran kürdlərinin yarısı və İran ərəblərinin yarısı şiədirlər. Ölkənin müsəlman əhalisinin təxminən 10%-ə qədərini sünnilər təşkil edirlər. İran kürdlərinin yarısından çoxu, bəluclar, türkmənlər və İran ərəblərinin yarısı sünni məzhəbinin ardıcıllarıdırlar.

1996-cı ildə keçirilmiş siyahıya alınmaya görə İranda 78745 nəfər xristian yaşayır. Bunlar əsasən ermənilər və assurilərdir. İranda həmçinin 12737 nəfər yahudi dininə mənsub adamlar yaşayırlar. İslam inqilabı qalib gəldikdən sonra xeyli miqdarda yəhudi ölkəni tərk etmişdir. 1996-cı ilin məlumatına əsasən İranda 7920 nəfər atəşpərəst yaşayır. Onlar özlərini pars adlandırsalar da, yerli əhali onları gebrlər kimi tanıyırlar. Onların Yəzd, Kerman və Tehran şəhərlərində ibadətgahları vardır.

**Dövlət quruluşu və ictimai təşkilatlar.** 1979-cu il mart ayının 31-də keçirilmiş referendumdan sonra ölkə rəsmi olaraq İran İslam Respublikası adlandırılırdı. Ölkənin dövlət bayrağı düz bucaq şəklindədir, yaşıl, ağ və qırmızı olmaqla üç zolaqdan ibarətdir. Ortadakı ağ zolağın üzərində «La ilahə iləllah» yazılmış İranın gerbi həkk olunmuşdur. 1979-cu ildə qəbul edilmiş konstitusiyaya əsasən ölkə respublika elan edilmişdir.

XX əsrin iki böyük hadisəsi İran dövlətçiliyi üçün taleyüklü əhəmiyyətə malik olmuşdur. Bunların birincisi 1905-1911-ci illər məşrutə inqilabı, ikincisi isə 1978-1979-cu illər islam inqilabıdır.

1905-1911-ci məşrutə inqilabı zamanı İran özünün birinci konstitusiyasını əldə etdi və parlamentli monarxiya sisteminə keçdi. 1906-cı ilin dekabr ayında qəbul edilmiş əsas qanun 51 maddədən ibarət idi. 1907-ci ilin oktyabrında əsas qanuna 107 maddədən ibarət əlavələr edildi. Bu konstitusiyanın fəaliyyət göstərdiyi 1907-1979-cu illər ərzində ona demək olar ki, heç bir ciddi dəyişiklik edilməmişdi. Edilən dəyişikliklər əsasən şahın səlahiyyətlərinə aid olmuşdur. Belə ki, 1925-ci ildə qacarlar sülaləsi pəhləvilər sülaləsi ilə əvəz olunduqda bununla bağlı konstitusiyada dəyişiklik edilmişdi. 1949-cu ildə müəssislər məclisinin qərarı ilə konstitusiyaya şahın səlahiyyətlərini genişləndirən dəyişikliklər edildi. 1957-ci ildə şaha veto hüququ verildi. 1967-ci ildə isə şah öz varisini müəyyən etməkdə xüsusi səlahiyyət əldə etdi.

Şah üsuli-idarəsinin konstitusiyası dövlət hakimiyyətinin qanunverici, məhkəmə və icraedici orqanlara bölünməsini elan etsə də, həqiqətdə onlar şaha və şah sarayına tabe idilər.

Ötən əsrin 70-ci illərinin sonunda İranda baş vermiş inqilab şahlıq rejiminə son qoydu və onun konstitusiyasını ləğv etdi. Şahlıq üsuli-idarəsi dağıdıldıqdan və ölkə İslam Respublikası elan edildikdən sonra yeni konstitusiyanın qəbul olunması və yeni dövlətçiliyin yaradılması əsas məsələyə çevrildi.

1979-cu ilin iyun ayında müvəqqəti hökumətin hazırladığı konstitusiya layihəsi nəşr olundu. Konstitusiya layihəsi ruhanilərin etirazı ilə qarşılandı. Buna səbəb o idi ki, konstitusiyada dünyəviliyə əsaslanan güclü prezident respublikasının yaradıl-

ması nəzərdə tutulurdu. Layihənin yalnız 10-cu maddəsində səlahiyyətli şiə ruhani rəhbərləri beş nəfər ruhani və altı nəfər dünyəvi hüquqşünasdan ibarət konstitusiyanın mühafizə şurasında iştirak etmək yolu ilə parlamentin qanunvericilik fəaliyyətinə nəzarət etmək hüququ əldə edirdilər. Belə bir şəraitdə ayətulla Xomeyni yeni konstitusiya layihəsi hazırlamaq üçün müəssislər məclisinin əvəzinə xübreqan məclisinə (ekspertlər şurası) seçkilər keçirilməsi barədə fərman verdi. 1979-cu il avqust ayının 3-də keçirilmiş seçkilərdə xübreqan məclisinə əsas etibarı ilə ruhani hüquqşünasları və Quran təfsirçiləri seçildilər. Xübreqan məclisi 1979-cu ilin noyabr ayına qədər konstitusiyanın yeni layihəsini hazırladı və 1979-cu ilin dekabr ayında referendum keçirilərək konstitusiya qəbul edildi.

İran İslam Respublikasının konstitusiyası müqəddimə hissəsi ilə başlayır. Bu hissədə İranda baş vermiş inqilabi hadisələrə konstitusiyanı tərtib edənlərin baxışı əks olunmuş, islam hökuməti, islamda hökumət üsulu, ədalətli “vilayəti-fəgih” prinsipləri qeyd edilmişdir. Müqəddimə hissəsində həmçinin iqtisadiyyat, qadının cəmiyyətdəki rolu, məhkəmə sistemi, icra orqanları, kütləvi informasiya vasitələri ilə bağlı açıqlamalar öz əksini tapmışdır.

Konstitusiyanın əsas mətni qəbul edilən zaman 12 fəsil və 175 maddədən ibarət idi. 1989-cu ildə konstitusiyaya edilmiş əlavə və dəyişikliklərdən sonra fəsillərin sayı 14-ə və maddələrin sayı 177-ə qədər artırılmışdır. İran İslam Respublikası konstitusiyası aşağıdakı fəsillərdən ibarətdir; 1-ci fəsil – ümumi prinsiplər, 2-ci fəsil – dil, xətt, tarix və bayraq, 3-cü fəsil- millətin hüquqları, 4-cü fəsil – iqtisadiyyat və maliyyə işləri, 5-ci fəsil – millətin hakimiyyət hüququ və ondan doğan hakimiyət orqanları, 6-cı fəsil – qanunvericilik orqanı, 7-ci fəsil – Şuralar, 8-ci

fəsil – rəhbər və rəhbərlik şurası, 9-cu fəsil – icra orqanları, 10-cu fəsil – xarici siyasət, 11-ci fəsil – hüquq və məhkəmə orqanları, 12-ci fəsil – iranın radio və televiziyası, 13-cü fəsil – milli təhlükəsizlik üzrə ali şura. 14-cü fəsil – əsas qanuna yenidən baxılması haqqında.

İran İslam Respublikasının yeni əsas qanunu bütünlüklə "vilayəti-fəqih" prinsiplərinə əsaslanır. Yəni, İranın müasir hüququ həm dini normalara tabe olmaq məcburiyyətindədir, həm də hüququn əsas mənbələri içərisində alilik islam prinsiplərinə verilir. İran İslam Respublikasının konstitusiyası elan edir ki, dünya və insan üçün mütləq hakimiyyət Allaha məxsusdur və O, insanı öz ictimai taleyinə hakim etmişdir. Heç kəs insanı bu ilahi hüquqdan məhrum edə bilməz və onu bir fərdin və ya dəstənin mənafeyi xidmətinə yönəldə bilməz. (maddə 56) Konstitusiyada qanunvericilik, icra və məhkəmə hakimiyyətinin bir-birindən ayrılığı göstərilsə də onların hər üçünün fövqündə ali rəhbərin durduğu qeyd edilir.

İranda islam inqilabi qalib gəldikdən sonra islam inqilab şurası ali hakimiyyət orqanına çevrildi. İslam inqilab şurası islam inqilabının qalib gəlməsindən bir ay əvvəl, 1979-cu ilin yanvar ayında yaradılmışdı və onun tərkibində ayətullah Xomeyniyə yaxın adamlar fəaliyyət göstərirdilər. İslam inqilab şurası bütün siyasi qurumlardan üstün idi və ölkə ərazisində fəaliyyət göstərən islam komitələri vasitəsilə real hakimiyyətə malik olan qüvvə idi. İslam inqilabı mühafizəçiləri korpusları da bir-başa islam inqilab şurasına tabe idilər.

İslam prinsiplərinin aliliyini nəzərə alaraq İranda dövlət hakimiyyəti tərkibi və mahiyyətinə görə iki qurumdan ibarətdir. Birincisi – dini qurumlar, ikincisi – dünyəvi respublika qurumları.

Dini qurumlar aşağıdakılardan ibarətdir:

Şuraye xübreqan (ekspertlər şurası), rəhbər, konstitusiyanın mühafizəsi şurası, qurum mənafeyini müəyyənləşdirən şura, islahat siyasəti şurası və mədəni inqilab ali şurası.

**Ekpertlər şurası** (şuraye xübreqan). Bu qurum, onun tərkibi və səlahiyyətləri nəzərə alınmaqla İranda hakimiyyətin ən ali səviyyələrindən biri hesab edilir. Şuranın səlahiyyət dairəsi ali rəhbəri və konstitusiyanı əhatə edir. Ekspertlər şurasının əsas vəzifələri İran İslam Respublikasının ali rəhbərlərinin seçkilərinin təşkili, hazırlanması və keçirilməsindən ibarətdir. Ekspertlər şurası rəhbər vəzifəsini tutmaq üçün namizədləri qeydə alır, onların əxlaqi, dini-siyasi, profesional keyfiyyətlərini və səlahiyyət səviyyələrini müəyyən edir. Ekspertlər şurası özü ali rəhbəri seçir, yaxud onun istefasını qəbul edir. Ekspertlər şurası zərurət yarandıqda ali rəhbərin öz vəzifəsini icra etmək üçün səlahiyyət müddətini uzada bilmək hüququna malikdir. Ekspertlər şurası İran İslam Respublikası konstitusiyasına dəyişiklik və əlavələri müzakirə edib hazırlayır. Dəyişiklik və əlavələr ekspertlər şurası tərəfindən bəyənildikdən sonra geniş müzakirəyə verilərək qəbul edilə bilər.

Ekspertlər şurası öz tərkibinə görə ən səlahiyyətli qurumdur və ali şiə rəhbərləri olan müctəhidlərin əksəriyyəti bu qurumda təmsil olunmuşlar. Şuranın tərkibi 70-80 nəfərdən ibarətdir və İran rejiminin bütün rəhbərləri demək olar ki, bu şuranın üzvüdürlər.

Ekspertlər şurasına (şuraye xübreqan) üzvlük şərtləri, üzvlərin sayı, onların seçilmə qaydaları və şuranın iclaslarının keçirilməsinin daxili nizamnaməsi haqqında qanun konstitusiyaya nəzarət şurası tərəfindən hazırlanır və əksəriyyətin səs verməsi ilə təsdiq edilir. Ekspertlər şurasının üzvləri hər səkkiz ildən bir seçilirlər.

İran İslam Respublikasının kontitusiyasına uyğun olaraq ekspert şurasına ilk seçkilər 1982-ci ildə keçirilmişdir. Bu şuraya axırıncı seçkilər 2006-cı ilin sonunda keçirilmişdir.

**İran İslam Respublikasının ali rəhbəri.** İran İslam Respublikasının konstitusiyasında ölkənin idarə olunması ilə bağlı aşağıdakılar qeyd olunmuşdur: «Ölkənin və bütün müsəlman icmasının idarə olunması əbədi və həmişəlik olaraq İmamın əlindədir. (Şiələrin on ikinci imamı Mehdi Sahib əz-Zəman nəzərdə tutulur). Vəli - əsrin, yaxud Mehdi sahib-əzzəmanın qeybə çəkildiyi dövrdə ümmətin rəhbərliyi, vilayəti-əmri və imaməti ədalətli və təqvalı bir fəqihin öhdəsinə düşür." İran İslam Respublikasının konstitusiyasına əsasən İran islam Respublikasında rəhbər seçilən şəxs həm dünyəvi, həm də dini rəhbərliyi həyata keçirir. Beləliklə rəhbərin əlində konstitusiya ilə müəyyənləşmiş geniş vəzifə və səlahiyyətlər toplaşır.

İran İslam Respublikası rəhbərinin seçilməsi, rəhbər seçilmək üçün lazım olan şərtlər, rəhbərin hüquq və vəzifələri, onun istefası və əvəz edilməsi qaydaları İran konstitusiyasının səkkizinci fəslində qeyd olunmuşdur. Konstitusiyaya görə İran İslam Respublikasının rəhbəri xubreqan məclisi (ekspertlər şurası) tərəfindən seçilir. İran İslam Respublikası rəhbərinin cəmiyyət və dövlət həyatının bütün sahələrini əhatə edən geniş vəzifə və səlahiyyətləri vardır və onlar konstitusiyanın 110-cu maddəsində təsbit edilmişdir. Rəhbərin vəzifə və səlahiyyətləri aşağıdakılardan ibarətdir:

1. Qurumun mənafeyini müəyyənləşdirən şura ilə məşvərət etdikdən sonra İran İslam Respublikasının ümumi siyasətini həyata keçirir.
2. Ümumi siyasətin həyata keçirilməsinə nəzarət edir.
3. Referendumların keçirilməsini müəyyənləşdirir.

4. Silahlı qüvvələrin ali baş komandanı vəzifəsini yerinə yetirir.

5. Müharibə, sülh və yaxud ümumi səfərbərlik elan edir.

6. Konstitusiyaya nəzarət şurasının üzvlərini, ali məhkəmə orqanlarının rəhbərlərini, İran İslam Respublikası radiosu və televiziyasının başçısını, birləşmiş qərargah rəisini, islam inqilabı mühafizəçiləri dəstəsinin baş komandanını, hərbi və daxili qoşun qüvvələrinin komandanlarını vəzifəyə təyin edir, onları vəzifədən kənarlaşdırır, yaxud istefalarını qəbul edir.

7. Qanunverici, icraedici və məhkəmə orqanları arasında yaranan ixtilafları həll edir və onları tənzimləyir.

8. Ölkə prezidenti seçildikdən sonra onun təyin edilməsi ilə bağlı fərman imzalayır, ali məhkəmə tərəfindən prezidentin öz vəzifələrini pozması hökmü verilərsə, yaxud parlament tərəfindən prezidentin impiçmenti haqqında rəy verilərsə ölkə prezidentini vəzifəsindən kənar edir.

9. Məhbusları əfv edir və ya amnistiya elan edir.

Bunlardan başqa 1989-cu ildə qəbul edilmiş əlavəyə əsasən qurum mənafeyini müəyyən edən şuranın daimi və müvəqqəti üzvlərini təyin edir.

1989-cu ildə ayətullah Xomeyni vəfat etdikdən sonra İran İslam Respublikasının rəhbəri Seyid Əli Xameneyi seçilmişdir.

Konstitusiyaya əsasən İran İslam Respublikası rəhbəri vəzifəsinin müddəti məhdud deyildir.

**İran konstitusiyasına nəzarət şurası.** Bu şura İranda qısa şəkildə" Şuraye negəhban" (nəzarət şurası) adlanır. Şuranın on iki nəfər üzvü vardır. Onların altı nəfəri rəhbər tərəfindən, altı nəfəri isə məhkəmə hakimiyyəti başçısının təqdimatı ilə parlament tərəfindən seçilir. Nəzarət şurasının üzvləri altı il müddəti-

nə seçilirlər. Lakin ilk mərhələdən üç il keçdikdən sonra şuranın hər bölməsinin yarısı püşk yolu ilə dəyişir və onların yerinə yeni üzvlər seçilirlər. Nəzarət şurasının əsas vəzifəsi parlamentin qəbul etdiyi qanunların və qanunvericilik aktlarının islam prinsiplərinə və konstitusiya normalarına uyğunluğunu müəyyən etməkdən ibarətdir. Qəbul edilmiş bütün normativ aktlar nəzarət şurası tərəfindən müzakirə edilib təsdiq edildikdən sonra qüvvəyə minir. Nəzarət şurasının veto hüququ vardır. Ölkə rəhbərinin, xübreqan məclisinin, prezident və parlament seçkilərinin, həmçinin referendumların keçirilməsini nəzarət şurası həyata keçirir. İxtilaflar yarandıqda konstitusiya maddələrinin şərhi nəzarət şurasının öhdəsinə düşür.

İran şəraitində nəzarət şurası öz mahiyyətinə görə dini bir qurumdur və parlamentdən daha yüksək pillədə durur. Nəzarət şurası faktiki olaraq İran konstitusiyasına nəzarəti və parlamentin yuxarı palatası vəzifələrini həyata keçirir, həmçinin mərkəzi seçki komissiyası funksiyalarını icra edir.

**Qurum mənafeyini müəyyənləşdirən şura (şuraye məsləhəte nizam).** Bu Şura 1988-ci ildə parlament ilə nəzarət şurası arasında bəzi qanunverici aktlarla bağlı yaranmış konflikti həll etmək üçün yaradılmışdı. Ayətulla Xomeyni qurumun mənafeyini müəyyənləşdirən şuranı yaradaraq qərar və qanunların hazırlanması prosesini tənzimləmək məqsədilə öz səlahiyyətlərinin bir hissəsini ona verdi. Qurumun mənafeyini müəyyənləşdirən şura İran İslam Respublikasının rəhbəri tərəfindən təşkil olunur, onun daimi və müvəqqəti üzvləri təyin edilir. Şuranın iş və qərar qəbul etmə qaydaları onun özü tərəfindən müəyyənləşdirilir.

Qurumun mənafeyini müəyyənləşdirən şura özünün İran siyasi sistemindəki yerinə görə, həmçinin funksiya və səlahiyyətlərinə görə ölkənin ali siyasi şurasıdır. O arbitr funksiyalarını

icra etməklə konstitusiya məhkəməsinin də vəzifələrini yerinə yetirir.

**İslahatlar siyasəti şurası.** 1988-ci ilin avqust ayında Ayətullah Xomeyni İranın vahid iqtisadi siyasətinin müəyyənləşdirilməsi zərurəti haqqında fərman imzaladı. Bu fərmandan sonra islahatlar siyasəti şurası yaradıldı və ölkənin demək olar ki, bütün rəhbərləri bu şuranın tərkibinə daxil edildilər.

İslahatlar şurası öz mahiyyətinə görə ölkə iqtisadiyyatının inkişaf istiqamətlərini müəyyənləşdirən ali iqtisadi şuradır. Bu şuranın aqrar, sənaye, ticarət, maliyyə, nəqliyyat, sosial-məişət və yaşayış məskənləri məsələləri üzrə yeddi komitəsi vardır.

**Ali mədəni inqilab şurası.** Bu şura mədəniyyət və təhsil sahəsində ali qanunverici və icraedici orqandır. Onun parlamentin və nazirlər şurasının səlahiyyətlərinə bərabər hüquqları vardır. Ali mədəni inqilab şurasının qəbul etdiyi normativ aktlar qəbul etdiyi andan qüvvəyə minir. Ölkənin ali rəhbərləri, mədəniyyət, ali təhsil, təlim və tərbiyə nazirləri, bir sıra görkəmli mədəniyyət xadimləri və mütəxəssislər bu şuranın üzvüdürlər

Adı çəkilmiş şuralar İran konstitusiyasında vəzifə və səlahiyyətləri qeyd olunmayan qeyri-seçkili orqanlardır. Lakin 1989-cu ildə konstitusiyaya edilən əlavə dəyişikliklərdən sonra iki yeni şura yaradıldı. Bunların birincisi milli təhlükəsizlik üzrə ali şura, ikincisi isə əsas qanuna yenidən baxılma şurasıdır.

Milli təhlükəsizlik üzrə ali şura.

Milli mənafeyin təmin edilməsi, islam inqilabının, ölkənin ərazi bütövlüyü və milli hakimiyyətinin qorunması məqsədi ilə ölkə prezidenti yanında milli təhlükəsizlik üzrə ali şura yaradılır. Bu şuranın vəzifələri aşağdakılardır:

1. Ali rəhbər tərəfindən təyin edilmiş ümumi siyasət çərçivəsində ölkənin müdafiə və təhlükəsizlik məsələləri üzrə siysətini müəyyənləşdirmək.

2. Siyasi informasiya, sosial, mədəni və iqtisadi fəaliyyətləri ölkənin ümumi müdafiə-təhlükəsizlik tədbirləri ilə uyğunlaşdırmaq.

3. Ölkənin maddi və mənəvi imkanlarından daxili və xarici təhlükəyə qarşı mübarizədə istifadə etmək.

Şuranın tərkibi aşağıdakılardan ibarətdir:

- üç hakimiyyət orqanının başçıları;
- silahlı qüvvələrin ali komandanlığının baş qərargah rəisi;
- plan və büdcə işləri üzrə məsul şəxs;
- ali rəhbərin təyin etdiyi 2 nümayəndə;
- xarici işlər, daxili işlər və informasiya nazirləri;
- baxılan məsələ və vəziyyətlə əlaqədar olaraq müvafiq nazirlər,ordunun və islam inqilabı mühafizəsi dəstələrinin ali rütbəli şəxsləri.

Milli təhlükəsizlik üzrə ali şura vəzifələrinə mütənasib olaraq yardımçı şuraları – müdafiə şurasını və təhlükəsizlik şurasını təşkil edir. Bu şuralara prezidentin və ya ali şura üzvlərindən birinin təyin etdiyi şəxs başçılıq edir.

Yardımçı şuraların vəzifə və səlahiyyətlərini qanun müəyyən edir və onların strukturları ali şura tərəfindən təsdiq edilir.

Milli təhlükəsizlik üzrə ali şuranın qərarları ali rəhbər tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir.

Ali rəhbər konstitusiyanın 177-ci maddəsinə əsasən ölkənin qurum mənafeyini müəyyənləşdirən şura ilə (şuraye məsləhəte nizam) məsləhətləşmələrdən sonra öz fərmanı ilə ölkə prezidentinə müraciət edərək, əsas qanuna dəyişikliklər və əlavələr

edilməsi məqsədilə əsas qanuna yenidən baxılması üçün aşağıdakı tərkibdə şura yaradılmasını təklif edir:

1. Nəzarət şurasının (şuraye negəhban) bütün üzvləri.

2. Üç hakimiyyət qurumunun başçıları.

3. Qurum mənafeyini müəyyənləşdirən şuranın daimi üzvləri.

4. Rəhbərlik yanında ekspertlər şurasının 5 nəfər üzvü.

5. Ali rəhbər tərəfindən təyin edilən 10 nəfər .

6. Nazirlər kabinetinin 3 üzvü.

7. Məhkəmə hakimiyyətindən 3 nəfər.

8. İran parlamentinin 10 nəfər deputatı.

9. Universitetlərin 3 nəfər nümayəndəsi.

Bu şuranın iş üslubu, seçilmə qaydası və şərtləri qanunla müəyyənləşdirilir.

Şuranın qəbul etdiyi qərarlar ali rəhbər tərəfindən bəyənilib təsdiq edildikdən sonra referendum yolu ilə xalqın müzakirəsinə verilir. Qərar referendumda səslərin əksəriyyətini qazandıqdan sonra təsdiq edilir.

Qeyd etmək lazımdır ki, İran İslam Respublikasının konstitusiyasına görə aşağıda göstərilən prinsip və şərtlərə yenidən baxıla bilməz və onlar dəyişdirilə bilməzlər; ictimai quruluşun islam olması, bütün qanun və qaydaların islam prinsip və normalarına, iman və İran İslam Respublikasının məqsədlərinə uyğun şəkildə hazırlanması, hakimiyyət formasının respublika olması, vilayəti - əmr və ümmətin imaməti, ölkənin işlərinin xalqın ümumi rəyinə uyğun idarə edilməsi, dinin və rəsmi məzhəbin saxlanması.

**Qanunverici hakimiyyət.** 1906-1911-ci illər məşrutə inqilabı ilə İranda qəbul edilmiş konstitusiyaya əsasən İranın ali qanunverici orqanı məclisdir (parlamentdir).

İran parlamenti ilk dəfə 1906-cı il avqustun 5-də yaradılmışdır. İlk İran məclisinə seçkilər 1906-cı ilin sentyabr ayında qəbul edilmiş seçki qanunu əsasında həyata keçirilmişdir. Birinci İran məclisinin geniş hüquqları var idi və o İran cəmiyyətinin bütün təbəqələrini təmsil edirdi.

İran parlamenti 1949-ci ilə qədər faktiki olaraq bir palatalı parlament olmuşdur. 1949-cu ilin may ayında qəbul edilmiş qanuna əsasən İran parlamenti iki palatalı parlamentə çevrilmişdir; aşağı palata – məclis, yuxarı palata – senat (məclese sena).

Şah dövrünün axırıncı parlamentinin deputatlarının sayı ölkə əhalisinin hər 100 min nəfərinə 1 deputat olmaqla 270 deputat idi və deputatların əksəriyyəti sənaye müəssisələri sahiblərinin, mülkədarların və dövlət məmurlarının nümayəndələri idilər.

1978-1979-cu il islam inqilabından sonra ölkənin qanunvericilik sistemi, onun dövlət hakimiyyətinin təşkilindəki rolu ciddi dəyişikliklərə uğradı. Belə ki, 1979-cu ildə qəbul edilmiş bir sıra qanunlara əsasən ölkənin yeni parlamentinə seçkilər keçirildi.

İnqilabdan sonra birinci milli şura məclisinə, sadəcə olaraq məclisə seçkilər iki turda keçirildi. Birinci tur 1980-ci il martın 14-də keçirildi. Seçkilərdə edilmiş çoxlu sayda saxtakarlıqlara görə məclisə bütün deputatların seçilməsi mümkün olmadı. Həmin ilin may ayının 9-da keçirilmiş ikinci turdan sonra məclis 217 deputatla öz işinə başladı. 1989-cu ildə konstitusiyaya edilmiş dəyişikliklər əsasında İran parlamenti islam şurası məclisi adlandırılmağa başladı. İran parlamentinin səlahiyyət müddəti dörd ildir və onun deputatlarının sayı 270 nəfər-

dir. Deputatların seçilmə qaydaları və onların səlahiyyətləri seçki haqqında qanun əsasında müəyyənləşdirilir.

Hər on ildən bir ölkə əhalisinin sayı çoxaldıqca deputatların sayı da artırıla bilər. Atəşpərəstlər, yəhudilər və xristianlar (ermənilərdən başqa) parlamentdə hərəsi 1 nəfər deputatla təmsil olunurlar.

İranın şimalında və cənubunda yaşayan ermənilər isə hərəsi bir nəfər deputat parlamentə göndərə bilərlər. Deputatların 2/3 hissəsi məclisdə iştirak etdikdə parlament səlahiyyət əldə edir.

İslam şurası məclisinin sədrinin və rəyasət heyətinin seçilmə qaydaları, komissiyaların sayı, onlara başçılıq etmə müddəti, məclisin müzakirə və nizam-intizamına aid məsələlər məclisin daxili nizamnaməsi ilə müəyyən edilir.

İslam şurası məclisi konstitusiyanın müəyyən etdiyi hüdudlar çərsçivəsində bütün məsələlər üzrə qanunlar qəbul etmək hüququna malikdir. Məclisin dini prinsiplərə və konstitusiyaya uyğun olmayan qanunlar qəbul etmək hüququ yoxdur. Qəbul edilmiş qanunların islam normalarına cavab verib-verməməsini isə nəzarət şurası müəyyən edir. İslam şurası məclisi dünyəvi qanunları təfsir və şərh etmək hüquqlarına malikdir. Ən azı 15 nəfər deputatın təklifi ilə hər hansı bir qanun layihəsi məclisin müzakirəsinə verilə bilər. Bütün beynəlxalq razılaşmalar, öhdəliklər, müqavilə və kontraktlar məclisdə ratifikasiya edilir. Məclis hökumətin aldığı və ya verdiyi kreditləri, həmçinin hökumətin həm ölkə daxilində, həm də ölkə xaricində verdiyi təmənnasız maliyyə köməklərini təsdiq edir. Xarici mütəxəssislərin işə qəbul edilmələri, yaxud xaricilərin iştirakı ilə şirkətlərin yaradılması islam şurası məclisi tərəfindən təsdiq olunmalıdır.

Nazirlər kabineti məclisin etimadını almadan işə başlaya bilməz.

İslam şurası məclisinin qəbul etdiyi bütün qanunlar nəzarət şurasının müzakirəsinə verilir.

İran islam parlamentinə ilk seçkilər 1980-ci ildə keçirilmişdir.

Hazırkı İran islam şurası məclisi 9-cu çağırışdır və onun seçkiləri 2012-ci il fevral ayında həyata keçirilmişdir. «İslahatçılar» qrupu ilə mühafizəkar ruhanilər arasında mübarizə şəraitində keçirilmiş seçkilərdə mühafizəkarlar qələbə çalaraq məclisdə əksəriyyəti əldə etmişlər.

**İcra hakimiyyəti.** 1979-cu il islam inqilabına qədər İranda ali icraedici hakimiyyət şahlara məxsus olmuşdur. XX əsrdə İranı 1925-ci ilə qədər qaçar şahları, 1925-1979-cu illərdə isə pəhləvi şahları idarə etmişlər. Şah ölkədə tam ixtiyar sahibi olmuş, ölkənin daxili və xarici siyasətini müəyyənləşdirmiş, baş nazirləri təyin edərək nazirlər kabinetini təşkil etmişdir.

1979-cu il fevral inqilabından sonra icra hakimiyyəti ölkədə Mehdi Bazorqanın başçılıq etdiyi müvəqqəti hökumətə keçdi. Müvəqqəti hökumət məcburi şəkildə istefaya göndərildikdən sonra icra hakimiyyəti seçilənə qədər hökumət səlahiyyətlərinin icra edilməsi funksiyalarını islam inqilab şurası öz üzərinə götürdü. Yeni baş nazir təyin edilmədi, lakin seçkilərə qədər nazirlər və dövlət orqanları öz vəzifələrini yerinə yetirməyə davam etdilər.

İran İslam Respublikasında ilk prezident seçkiləri 1980-ci ilin yanvarında mürəkkəb siyasi şəraitdə keçirildi. Bu seçkilərdə Ə.Bənisədr İran İslam Respublikasının birinci prezidenti seçildi.

İran İslam Respublikası konstitusiyasının 113-cü maddəsinə əsasən «rəhbər» vəzifəsindən sonra prezident ölkənin ən ali rəsmi vəzifəsidir. Birbaşa rəhbərlərə aid olan məsələlərdən başqa əsas qanunun icra məsuliyyəti və icra hakimiyyətinə başçılıq

etmək prezidentin öhdəsinə düşür. Ölkə prezidenti dörd il müddətinə xalqın birbaşa səsverməsi ilə seçilir və onun yeni müddətə bir daha seçilməsi yalnız bir dövr üçün mümkündür. Prezident əslən iranlı və İran vətəndaşı olmalı, idarəçi, müdrik və tədbirli, keçmişi yaxşı olan, əmanət və təqva sahibi, mömin və İran İslam Respublikasının əsaslarına və ölkənin rəsmi məzhəblərinə etiqad bəsləməlidir.

Prezident seçkilərinə nəzarət, nəzarət şurasının öhdəsinə düşür. Ölkə prezidenti seçilən şəxs ali rəhbər tərəfindən təsdiq edildikdən sonra islam şurası məclisində hüquq-məhkəmə hakimiyyətinin başçısı və nəzarət şurasının üzvlərinin iştirakı ilə keçirilən iclasda and içir.

Prezident nazirləri təyin edir və etimad qazanmaq üçün onları İslam şurası məclisinə təqdim edir. İran İslam Respublikasının prezidenti inkişaf proqramlarının yerinə yetirilməsi, büdcənin icrası və İranın dövlət orqanları sisteminə rəhbərliyi həyata keçirir. İran konstitusiyasında əks olunmasa da, prezidentin səlahiyyətləri genişdir. Bu səlahiyyətlər ölkənin iqtisadi, mədəni və siyasi həyatının idarə olunmasını, ictimai qayda-qanunun təmin olunmasını, həmçinin ən əsası dinin və dövlətin maraqlarının qorunmasını əhatə edir. Prezident xarici dövlətlərlə iqtisadi və mədəni əlaqələri təşkil edir.

İran İslam Respublikası prezidentinin başçılıq etdiyi nazirlər kabineti əsasən aşağıdakı nazirliklərdən ibarətdir; xarici işlər nazirliyi, müdafiə və silahlı qüvvələrin himayəsi nazirliyi, daxili işlər nazirliyi, mədəniyyət, texnologiya, elm və ali təhsil nazirliyi, mədəniyyət və islam irşadı nazirliyi, iqtisadiyyat və maliyyə nazirliyi, təhlükəsizlik naziliyi, ticarət nazirliyi, səhiyyə nazirliyi, informasiya və telekommunikasiya nazirliyi, ədliyyə nazirliyi, nəqliyyat nazirliyi, sənaye nazirliyi, ağır sənaye nazir-

liyi, əmək və sosial işlər naziliyi, kənd təsərrüfati nazirliyi, tikinti və şəhər işləri nazirliyi, mədən və metallurgiya nazirliyi, neft nazirliyi, energetika nazirliyi, təlim və tərbiyə nazirliyi.

2005-ci il iyun ayında keçirilmiş prezident seçkilərində Tehran şəhərinin meri Mahmud Əhmədi Nejad İran İslam Respublikasının 6-cı prezidenti seçildi. O, İran islam inqilabı şəraitində və islam respublikası hakimiyyəti rejimində yetişmiş siyasətçilər nəslinin nümayəndəsidir.

**İran İslam Respublikasının inzibati ərazi bölgüsü.** İranın inzibati-ərazi bölgüsü XX əsrin əvvəllərindən başlayaraq ənənəvi olaraq ostan– şəhristan –bəxş– dəhestan strukturu üzrə qurulmuşdur. İranda hakimiyyət başında duran rejimdən asılı olaraq bu ərazi vahidlərinin sayında, ölçülərində və şəhərlərinin adında dəyişikliklər edilmişdir.

1979-cu il islam inqilabından sonra ölkənin inzibati ərazi bölgüsündə bəzi dəyişiklik edildi. Bu dəyişikliklər bəzən sosial-iqtisadi cəhətcə əsaslandırılsa da, əsasən siyasi xarakter daşımaqdadırlar. Məhz bu səbəbdən Cənubi Azərbaycan Şərqi və Qərbi Azərbaycan, Ərdəbil, Qəzvin ostanlarına, Kürdüstan isə Kürdüstan və Kermanşah ostanlarına bölünmüşdür.

İran İslam Respublikasının ən böyük inzibati ərazi vahidi ostandır və onu ostandar (general-qubernator) idarə edir. Ostanlar şəhristanlara (vilayətlərə) bölünür və hər bir şəhristanı fərmandar (qubernator) idarə edir. Şəhristanlar bəxşlərə (rayonlara) bölünür. Hər bəxşin başında bəxşdar (rayon başçısı durur). Bəxşlər isə bir neçə kəndi özünə birləşdirən dehestanlardan (kəndistanlardan) ibaətdir. Dehestanları isə dehdarlar (kəndxudalar) idarə edirlər.

Bunlardan əlavə ölkədə hər ostanın tərkibində çoxlu sayda şəhərlər vardır ki, onları da şəhər başçıları (şəhrdarlar) idarə edirlər.

Son rəsmi məlumatlara görə İran İslam Respublikasının inzibati-ərazi bölgüsü hal-hazırda aşağıdakı şəkildədir.

1. Tehran ostanı. Ərazisi 18814 kv.km, əhalisi 12,151000 nəfərdir. Ostanın tərkibində 13 şəhristan vardır. Mərkəzi Tehran şəhəridir.

2. Qum ostanı. Ərazisi 11526 kv.km, əhalisi 1,064000 mln. nəfərdir. Ostanın tərkibinə 1 şəhristan daxildir.Mərkəzi Qum şəhəridir.

3. Mərkəzi ostan. Ərazisi 29130 kv.km əhalisi 1,361000 mln. nəfərdir. Ostanın tərkibində 10 şəhristan vardır. Mərkəzi Ərak şəhəridir.

4. Qəzvin ostanı. Ərazisi 15549 kv.km əhalisi 1166861 nəfərdir. Ostanın tərkibində 5 şəhristan vardır. Mərkəzi Qəzvin şəhəridir.

5. Gilan ostanı. Ərazisi 15549kv.km əhalisi 2410523 nəfərdir. Ostanın tərkibində 16 şəhristan vardır. Mərkəzi Rəşt şəhəridir.

6. Ərdəbil ostanı. Ərazisi 17800 kv.km, əhalisi 1257624 nəfərdir. Ostanın tərkibində 9 şəhristan vardır. Mərkəzi Ərdəbil şəhəridir.

7. Zəncan ostanı. Ərazisi 21773 kv.km, əhalisi 970946 nəfərdir. Ostanın tərkibində 7 şəhristan vardır. Mərkəzi Zəncan şəhəridir.

8. Şərqi Azərbaycan ostanı. Ərazisi 45650 kv.km, əhalisi 3500183 nəfərdir. Ostanın tərkibində 19 şəhristan vardır. Mərkəzi Təbriz şəhəridir

9. Qərbi Azərbaycan ostanı. Ərazisi 37437 kv.km, əhalisi 2949426 nəfərdir. Ostanın tərkibində 14 şəhristan vardır. Mərkəzi Urmiya şəhəridir.

10. Kürdüstan ostanı. Ərazisi 29137 kv.km, əhalisi 1574118 nəfərdir. Ostanın tərkibində 9 şəhristan vardır. Mərkəzi Sənəndəc şəhəridir.

11. Həmədan ostanı. Ərazisi 19368 kv.km, əhalisi 1738772 nəfərdir. Ostanın tərkibində 8 şəhristan vardır. Mərkəzi Həmədan şəhəridir.

12. Kermanşah ostanı. Ərazisi 24998 kv.km, əhalisi 1938060 nəfərdir. Ostanın tərkibində 13 şəhristan vardır. Mərkəzi Kermanşah şəhəridir.

13. Elam ostanı. Ərazisi 20133 kv.km, əhalisi 545093 nəfərdir. Ostanın tərkibində 7 şəhristan vardır. Mərkəzi Elam şəhəridir.

14. Lorestan ostanı. Ərazisi 28294 kv.km, əhalisi 1758628 nəfərdir. Ostanın tərkibində 9 şəhristan vardır. Mərkəzi Xorrəmabad şəhəridir.

15. Xuzestan ostanı. Ərazisi 64055 kv.km, əhalisi 4345607 nəfərdir. Tərkibində 18 şəhristan vardır. Mərkəzi Əhvaz şəhəridir

16. Çaharmahale Bəxtiyari ostanı. Ərazisi 16332 kv.km, əhalisi 842002 nəfərdir. Təkibində 6 şəhristan vardır. Mərkəzi Şəhri-Kürd şəhəridir.

17. Kohgiluye və Buyer Əhməd ostanı. Ərazisi 15504 kv.km, əhalisi 695099 nəfərdir. Tərkibində 5 şəhristan vardır, Mərkəzi Yəsuc şəhəridir.

18. Buşir ostanı. Ərazisi 22743 kv.km, əhalisi 816115 nəfərdir. Tərkibində 9 şəhristan vardır. Mərkəzi Buşir şəhərridir.

19. Fars ostanı. Ərazisi 122608 kv.km, əhalisi 4385869 nəfərdir. Tərkibində 23 şəhristan vardır. Mərkəzi Şiraz şəhəridir.

20. Hormazqan ostanı. Ərazisi 70669 kv.km, əhalisi 1314667 nəfərdir. Tərkibində 11 şəhristan vardır. Mərkəzi Bəndər-Abbas şəhəridir.

21. Sistan və Bəlucistan ostanı. Ərazisi 181785 kv.km, əhalisi 2290078 nəfərdir. Tərkibində 8 şəhristan vardır. Mərkəzi Zahedan şəhəridir.

22. Kerman ostanı. Ərazisi 180836 kv.km, əhalisi 2432927 nəfərdir. Tərkibində 14 şəhristan vardır. Mərkəzi Kerman şəhəridir.

23. Yəzd ostanı. Ərazisi 12928 kv.km, əhalisi 958318 nəfərdir. Tərkibində 10 şəhristan vardır. Mərkəzi Yəzd şəhəridir.

24. İsfahan ostanı. Ərazisi 107029 kv.km, əhalisi 4454595 nəfərdir. Tərkibində 21 şəhristan vardır. Mərkəzi İsfahan şəhəridir.

25. Semnan ostanı. Ərazisi 97491 kv.km, əhalisi 589512 nəfərdir. Tərkibində 4 şəhristan vardır. Mərkəzi Semnan şəhəridir.

26. Mazandaran ostanı. Ərazisi 23701kv.km, əhalisi 2818831 nəfərdir. Tərkibində 15 şəhristan vardır. Mərkəzi Sari şəhəridir.

27. Qolestan ostanı. Ərazisi 20195 kv.km, əhalisi 1637063 nəfərdir. Tərkibində 11 şəhristan vardır. Mərkəzi Qorqan şəhəridir.

28. Şimali Xorasan ostanı. Ərazisi 28434 kv.km, əhalisi 786918 nəfərdir. Tərkibində 6 şəhristan vardır. Mərkəzi Bojnurd şəhəridir.

29. Xorasane Rezəvi ostanı. Ərazisi 144781 kv.km, əhalisi 5202770 nəfərdir. Tərkibində 19 şəhristan vardır. Mərkəzi Məşhəd şəhəridir.

30. Cənubi Xorasan ostanı. Ərazisi 69555 kv.km, əhalisi 510000 nəfərdir. Mərkəzi Bircənd şəhəridir.

Qeyd etmək lazımdır ki, siyahıdakı sonuncu üç ostan 2004-cü ildə Xorasan ostanının bölünməsi nəticəsində yaradılmışlar.

İran İslam Respublikası konstitusiyasının 100-cu maddəsinə əsasən əhalinin iştirakı yolu ilə sosial, iqtisadi, abadlıq, səhiyyə, mədəniyyət və təhsil proqramlarını, həmçinin ümumi rifah işlərini sürətlə həyata keçirmək məqsədilə yerli şəraiti nəzərə almaqla hər bir kəndistanın, rayonun, şəhərin, şəhəristanın və ostanın işlərini idarə etmək üçün kəndistan, rayon, şəhər, şəhristan və ostan şuraları seçilir.

Ayrıseçkiliyin qarşısını almaq, ostanların ümumi rifah və abadlıq proqramlarının hazırlanmasında ümumi əməkdaşlığı təmin etmək və bu işlərin icrasında ahəngdarlıq yaratmaq məqsədilə ostan şuraları nümayəndələrindən ibarət ostanların ali şurası təşkil olunur. Ostanların ali şurası öz vəzifələri çərçivəsində müəyyən layihələr hazırlamaq, onları bir başa islam şurası məclisinə (parlamentinə) təqdim etmək hüququna malikdirlər.

İran İslam Respublikasında yerli idarə orqanları sisteminə bələdiyyələr və bələdiyyə şuraları da daxildirlər. Onlar seçkilər vasitəsilə seçilirlər.

Yerli hakimiyyət orqanlarına 2006-cı il dekabr ayında seçkilər keçirildi. Bu seçkilərdə yerli orqanlara bütün səviyyələrdən olan 113000 deputat seçilmişdir. Seçki kampaniyasının səciyyəvi cəhətlərindən biri o olmuşdur ki, keçmiş prezident Xataminin başçılıq etdiyi liberal islahatçılar digər keçmiş prezident Rəfsəncaninin başçılıq etdiyi mərkəzçi mühafizəkarlarla birləşərək bir cəbhədən çıxış etmişlər. Bu birliyə hətta prezident Əhmədi Nejadın yaxın adamları hesab edilən bəzi nüfuzlu siyasətçilər də qoşulmuşdular. Bu seçkiləri fərqləndirən daha bir xü-

susi cəhət o olmuşdur ki, bəzi şəhərlərdə yerli orqanlara deputat mandatlarının 50 % -ni liberal baxışlı qadınlar qazanmışlar.

**Məhkəmə hakimiyyəti**. 1979-cu il islam inqilabından sonra ən çox dəyişikliklikliyə uğramış, öz islahatları ilə cəmiyyətin həyatına çox ciddi təsir göstərmiş sahələrdən biri də məhkəmə hakimiyyəti oldu.

1982-ci il avqust ayının 22-də Ayətulla Xomeyni inqilabdan əvvəlki qanunvericiliyin qüvvədən düşməsi haqqında xüsusi sərəncam verdi. Bu sərəncamdan sonra ali məhkəmə şurası 5 maddədən ibarət xüsusi direktiv qəbul etdi. Direktivin 2-ci maddəsi islam prinsiplərinə uyğun olmayan bütün qanunları ləğv etdi. Direktivin 3-cü maddəsində isə qərar qəbul etməkdə məhkəmələrə islam qanunlarından və islam ruhanilərinin fətvalarından istifadə etmək təklif edilirdi. Qərar qəbul etməkdə çətinlik yarandıqda nəzarət şurasına (şuraye negəhban) və ya birbaşa Ayətulla Xomeyninin qərargahına müraciət edilməsinə icazə verilirdi.

Ali məhkəmə şurası şah rejimi zamanı fəaliyyət göstərən bütün qanunları dəyişdirdi. Ən çox cinayət qanunları dəyişikliyə məruz qaldılar. Bir çox qədim cəza növləri bərpa edildi. Cinayətkarlar açıq edam oluna, şallaqlana, daşqalaq edilə bilərdilər. Oğurluğa görə qolun kəsilməsi mümkün hesab edildi və s.

Şəriət normalarının qanun dərəcəsinə qaldırılması dünyəvi hüquq təhsili almış adamları məhkəmə işində iştirak etməkdən məhrum etdi və onları qanun yaradıcılığından kənarlaşdırdı. Məhkəmə işi bütünlüklə ruhanilərin ixtiyarına keçdi.

Qeyd etmək lazımdır ki, inqilabın ilk illərində məhkəmə sistemində mövcud olan hərc-mərcliklər, inqilab məhkəmələrindən tutmuş müxtəlif tribunallara qədər müxtəlif cəza orqanlarının olması 80-ci illərdə yüzlərlə, minlərlə günahsız insanların edam olunmalarına səbəb oldu.

1989-1990-cı illərdə məhkəmə hakimiyyətinin rəhbərliyində dəyişikliklər edildi:

1989-cu ildə məhkəmə hakimiyyəti ilə bağlı İran İslam Respublikası konstitusiyasına əlavələr edildi. Bu əlavələrə əsasən bütün hüquq-məhkəmə işlərini, inzibati-idarə və icra işlərində məhkəmə hakimiyyətinin məsuliyyətlərini yerinə yetirmək üçün ölkənin ali rəhbəri hüquq-məhkəmə işlərini yaxşı bilən, ədalətli, idarəetmə qabiliyyəti olan, müdrik və tədbirili bir nəfər müctəhidi beş il müddətinə hüquq-məhkəmə hakimiyyətinin başçısı təyin edir. Bu məhkəmə hakimiyyətinin ən yüksək dərəcəsi hesab edilir.

Məhkəmə hakimiyyətinin başçısı müctəhidlərdən olan ali məhkəmənin sədrini təyin edir, onun heyətini formalaşdırır, yenə də müctəhidlərdən olan baş prokuroru təyin edir və ədliyyə nazirinin namizədliyini ölkə prezidentinə təklif edir.

Ölkənin ali məhkəməsi məhkəmələrdə qanunların düzgün icrasına nəzarət etmək, məhkəmə qayda və üsullarının vəhdətini təmin etmək və qanunla ona tapşırılan məsuliyyətləri yerinə yetirmək üçün hüquq-məhkəmə hakimiyyətinin başçısı tərəfindən müəyyən edilmiş qaydalar əsasında təşkil edilir.

Məhkəmə sistemində ali məhkəmədən sonra məhkəmələr sonrakı pillələrdə dururlar. Məhkəmələr iki növdür:

- ümumi məhkəmələr
- xüsusi məhkəmələr

Xüsusi məhkəmələr sistemində islam inqilab məhkəmələri xüsusi yer tuturlar. 1983-cü il may ayının 1-də qəbul edilmiş qanuna əsasən ölkənin xarici və daxili təhlükəsizliyi əleyhinə olan cinayətlər, siyasi liderlərin həyatına qarşı yönəlmiş sui-qəsdlər, torpaq möhtəkirliyi, narkotik maddələrin istehsalı və satışı,

dövlət və ictimai mülkiyyətin oğurlanması kimi cinayətlər islam inqilab məhkəmələrinin yurisdiksiyasına aid edilmişdir.

Qeyd olunanlardan başqa İran İslam Respublikasının məhkəmə sisteminə idarəçilik məhkəməsi (dadqahe edare) baş müfəttişlik (sazmane bərrəsiye kol), ədliyyə polisi (polise qəzai) daxildirlər.

Hüquq mühafizə orqanları dövlət hakimiyyətinin başqa sahələrində olduğu kimi iki qurumdan ibarətdir. Dini hüquq-mühafizə orqanları və dövlət-hüquq mühafizə orqanları.

Dini hüquq-mühafizə orqanları islam komitələri tərkibində fəaliyyət göstərirlər. Dövlət hüquq-mühafizə orqanları isə polis və jandarmeriyadan ibarətdir. İslam inqilab komitələri polis kimi daxili işlər nazirliyinin tabeliyindədirlər. Lakin islam inqilab komitələrinin komandanı İranın ali rəhbəri tərəfindən təyin edilir.

Jandarmeriya isə kəndlərdə hüquq-mühafizə funksiyalarını həyata keçirir. Dövlət sərhədlərinin qorunması da jandarmeriyanın vəzifələrindən sayılır. Göstərilən vəzifələrdən başqa jandarmeriya kənd yerlərində gənclərin ordu sıralarına çağırılmasını təmin edir, nəqliyyat kommunikasiyalarının və mühüm obyektlərin (körpü, tunel və s.) mühafizəsini təmin edir.

**İran İslam Respublikasının silahlı qüvvələri.** XX əsrin əvvəllərindən başlayaraq kazak diviziyası bazasında yaradılmağa başlayan İran ordusu Məhəmməd Rza Şah Pəhləvinin hakimiyyətinin son illərində ABŞ-dan və başqa inkişaf etmiş dövlətlərdən alınmış müasir silahlar və hərbi texnika ilə Orta Şərqin ən güclü ordularından birinə çevrilmişdi. Bu ordunu İranda olan böyük miqdarda əcnəbi hərbi mütəxəssislər və ABŞ-ın ali hərbi məktəblərinin məzunları olan general və zabitlər idarə edirdilər. İranda baş vermiş islam inqilabı orduya da böyük təsir göstərdi. İslam inqilabının ilk illərində ordunun strukturunda, təkmilləş-

məsində, silah və hərbi texnika ilə təchiz edilməsində, həmçinin şəxsi heyətin formalaşdırılmasında baş vermiş dəyişikliklər mənfi nəticələr verdi. İran silahlı qüvvələri hərbi hazırlığının böyük hissəsini itirdi.

1980-ci ilin sentyabrında başlamış İran-İraq müharibəsi islam inqilabından sonrakı İranda yeni ordu quruculuğuna güclü təkan verdi və onu surətləndirdi. İran İslam Respublikası rəhbərliyinin həyata keçirildiyi təcili və bəzi hallarda radikal tədbirlər nəticəsində yeni ordu yarandı və bu ordu səkkiz il davam edən müharibəni uduzmadı.

İran İslam Respublikasının silahlı qüvvələri hal-hazırda üç növ silahlı birləşmənin birliyindən təşkil olunmuşdur. Bu silahlı birləşmələr aşağıdakılardır:

A) İran İslam Respublikasının ordusu.

Ordu quru qoşunlarından, hərbi-hava qüvvələrindən və hərbi-dəniz qüvvələrindən ibarətdir.

B) İslam inqilabının müdafiəsi korpusu.

Bu silahlı birləşmə də quru qoşunlarından, hərbi - hava qüvvələrindən və hərbi – dəniz qüvvələrindən ibarətdir.

C) Jandarm,yaxud daxili qoşunlar.

Bu qoşunlar İran İslam Respublikası Daxili İşlər Nazirliyinin ictimai asayışın mühafizəsi qüvvələri sisteminə daxildirlər.

Bunlardan əlavə İran İslam Respublikası silahlı qüvvələrinə «Xalq silahlı dəstələri» funksiyalarını yerinə yetirən və qeyri münəzzəm silahlı birləşmə olan «bəsici» (səfərbər olan) dəstələri də daxildirlər. «Bəsici» dəstələri islam inqilabının müdafiəsi korpusunun komandanlığı altında fəaliyyət göstərirlər.

İslam inqilabının qələbəsindən sonra səkkiz il müharibə aparmış İran İslam Respublikası silahlı qüvvələrinin inkişafı aşağıdakı istiqamətlərdə həyata keçirilmişdir: birincisi, ordunun ye-

nidən qurulması və islamlaşdırılması; İkincisi, islam inqilabı mühafizəçiləri korpusunun yaradılması və inkişaf etdirilməsi; üçüncüsü, «bəsici» dəstələrinin yaradılması və möhkəmləndirilməsi.

Qəbul edilmiş və milli təhlükəsizlik doktrinası adlandırılmış İran İslam Respublikasının hərbi doktrinasının ideoloji əsası islamçı şiə ideologiyasıdır. Bu doktrinanın mahiyyti və əsas məqsədləri İranda islam üsuli-idarəsinin müdafiəsi və başqa ölkələrdə bu tipli hərəkatları himayə etməkdən ibarətdir. Bunun üçün hərbi quruculuq siyasətinin son hədəfi İranda güclü islam ordusunun yaradılmasıdır.

Belə bir ordunun yaradılmasında əsasən daxili imkanlardan istifadə olunması nəzərdə tutulsa da, xarici ölkələrdən silah və hərbi texnika alınması da mümkün hesab edilir.

İran İslam Respublikasının konstitusiyasına əsasən ölkənin rəhbəri bütün silahı qüvvələrin ali baş komandanı hesab edilir. Onun bütün hərbi və hərbi-siyasi məsələlərin həllində qeyri-məhdud səlahiyyətləri vardır. Rəhbərin yanında məsvərətci orqan olan milli təhlükəsizlik üzrə ali şura fəaliyyət göstərir. Bu şura hərbi quruculuq, silahlı qüvvələrdə ali vəzifələrə təyin olunma, müharibə və ya sülh elan etmə sahələrində təkliflər hazırlayır. Ölkə prezidentinin başçılıq etdiyi bu şuranın tərkibinə ölkənin ali hərbi-siyasi rəhbərləri daxildirlər. Milli təhlükəsizlik üzrə ali şura iki hissədən: müdafiə və təhlükəsizlik şuralarından ibarətdir.

Ali baş komandan bütün silahlı qüvvələrə rəhbərliyi özünün qərargahı vasitəsilə həyata keçir. Ordunun birləşmiş qərargahı, islam inqilabı müdafiəçiləri korpusunun qərargahı və müharibə dövründə ictimai asayışın mühafizəsi qüvvələrinin komandanlığı ali baş komandanın qərargahına tabedirlər. Müdafiə nazirliyi ordunun və islam inqilabı müdafiəçiləri korpusunun (İİMK) əmə-

liyyat və hərbi hazırlıq məsələlərinə müdaxilə etmir. Bu nazirlik inzibati, təsərrüfat və maliyyə məsələləri ilə məşğul olur.

İran İslam Respublikasının ordusunda islam inqilabı korpusları ilə birlikdə təxminən 950 min nəfərdən çox adam xidmət edir. Ordunu operativ idarə edən orqan birləşmiş qərargahdır. Birləşmiş qərargah eyni zamanda qoşunların gündəlik hərbi fəaliyyətini də planlaşdırır. İran İslam Respublikası ordusunun birləşmiş qərargahı bir neçə idarədən ibarətdir və bunların arasında kadrlar idarəsi, kəşfiyyat idarəsi, əməliyyat və arxa cəbhə idarələri əsas idarələr sayılır. Quru qoşunlarının, hərbi-hava və hərbi-dəniz qüvvələrinin komandanları birləşmiş qərargahın rəisinə tabedirlər.

İran İslam Respublikası ordusunun əsas növü quru qoşunlarıdır və sayı təxminən 300 min nəfərdir. Quru qoşunları komandan, onun müavinləri və qərargah vasitəsilə idarə edilir. Sülh şəraitində qərargah təbeliyində olan diviziyaların, müstəqil briqadaların və artilleriya qruplarının ştablarına rəhbərlik edir. Ordu aviasiyasının, nəqliyyat qoşunlarının, mühəndis-inşaat qoşunlarının və arxa cəbhə qoşunlarının komandanlıqları quru qoşunlarının tərkibinə daxildirlər. Quru qoşunlarının döyüş tərkibinə təxminən 44 diviziya (onlardan 32 piyada, 7 zirehli tank, 3 mexanikləşdirilmiş,1 hava-desant və 1 hava-qırıcı diviziyaları) və 24 əlahiddə briqada (17 piyada, 2 zirehli tank və 5 hava–desant) daxildir. Quru qoşunlarının tərkibinə həmçinin 7 raket briqadası, 10 artilleriya qrupu, bir neçə zenit-artilleriya qrupları, mühəndis və kimya bölmələri, ordu aviasiyası hissələri daxildir. Quru qoşunlarının ixtiyarında 2400 tank, 1500 zirehli transportyor və maşın, 2000 səhra artilleriyası topu, 700 reaktiv artilleriya qurğusu, 4-5 min 60 mm,və daha yüksək kalibrli minaatan vardır.

Qeyd etmək lazımdır ki, quru qoşunlarının 44 diviziyasından 12-si İran ordusunun və 32-si islam inqilabı mühafizəçiləri korpusunun tərkibindədir.

Quru qoşunlarının ali taktiki birləşməsi diviziyadır. Öz quruluşuna görə İran ordusunun diviziyası Amerika ordusunun diviziyasına oxşayır. Quru qoşunları aşağıdakı tərkibdə olurlar;

Zirehli tank diviziyası – 3 zirehli tank briqadası, 1 mexanikləşdirilmiş briqada, 1 artilleriya briqadası (adətən 4-5 artilleriya divizionundan ibarət olurlar).

Piyada diviziyası – 4 piyada briqadası, 1 artilleriya briqadası (4-5 divizion)

Kommandos diviziyası – 3 komandos briqadası

**Hərbi-hava qüvvələri**. İran İslam Respublikası ordusunun hərbi-hava qüvvələrində təxminən 80 mindən çox (20 min nəfər islam inqilabı mühafizəsi dəstələrinnin tərkibində) hərbiçi xidmət edir. Bu qüvvələrin başında hərbi-hava qüvvələrinin komandanı durur. Təşkilat baxımından hərbi-hava qüvvələrinin döyüş tərkibinə 12 aviasiya bazası daxildir. Bunların 10-u qırıcı aviasiya və 2-si nəqliyyat aviasiya bazalarıdır. Bu bazalarda 25 döyüş aviasiyası eskadrilyası və 12 nəqliyyat aviasiyası eskadrilyası, 2 vertolyot eskadrilyası, 10 rabitə və idarəetmə təyyarə və vertolyot dəstələri və 10 axtarış-xilasetmə vertolyot dəstələri daxildir.

Hava hücumundan müdafiə qüvvələri ordunun hərbi-hava qüvvələrinə daxildir. Hava hücumundan müdafiə qüvvələrinin komandanı hərbi - hava qüvvələri komandanının müavinlərindən biridir.

İranın hava hücumundan müdafiəsi zona-obyekt prinsipi əsasında qurulmuşdur. Bu qüvvələrin idarəetmə sistemi baş operativ mərkəz sayılan qərargahdan (Tehran şəhəri) və 4 hava hücumundan müdafiə rayonundan ibarətdir. Bu rayonların

tərkibinə 15 radiolokasiya məntəqəsini birləşdirən 16 hava hücumundan müdafiə qrupu, 20 zenit-raket divizionu, 8 zenit-raket artilleriya divizionu və 7 zenit-artilleriya divizionu daxildir.Hal – hazırda hava hücumundan müdafiənin qarşısında duran vəzifələri daha səmərəli yerinə yetirmək üçün vahid avtomatlaşdırılmış idarə sistemi yaradılır.

Hərbi-hava qüvvələrinin malik olduqları hərbi-texnika və silahlar əsasən ABŞ, İngiltərə və digər Qərb dövlətlərinin istehsalıdır. Son dövrlərdə İran ilə Rusiya arasında əmələ gəlmiş siyasi yaxınlıq nəticəsində İran islam Respublikası hərbi-hava qüvvələrində rus hərbi texnikası da görünməyə başlamışdır.

**İran-İslam Respublikasının hərbi-dəniz qüvvələri.** Bu qoşun növündə təxminən 45 min nəfər hərbiçi xidmət edir. Hərbi-dəniz qüvvələrinin komandanı birbaşa birləşmiş qərargahın rəisinə tabedir. Təşkilat baxımından İran İslam Respublikası hərbi-dəniz qüvvələri qərargahdan, 4 hərbi dəniz rayonundan, hərbi birləşmə və hissələrdən, təminat və xidmət bölmələrindən, təlim mərkəzləri və müəssisələrindən ibarətdir. Hərbi dəniz qüvvələri suüstü və sualtı gəmi və qayıqlardan, hərbi dəniz aviasiyasından, dəniz piyadalarından, gəmi əleyhinə raket hissələrindən, dəniz mühafizə hissələrindən, sahil xidməti və arxa cəbhə xidmətlərindən təşkil olunmuşdur.

İran İslam Respublikası hərbi-dəniz qüvvələrinin əsas bazaları cənubda Bəndər-Abbas, Buşir, Bəndər-Xomeyni şəhərlərində, Xarq və Çahbahar adalarında, şimalda isə Ənzəli şəhərində yerləşir.

İran İslam Respublikasının jandarm qoşunları ictimai qayda-qanunu mühafizə edən əsas silahlı qüvvə birləşməsidir. Jandarm qüvvələri komandanının öz idarə etmə aparatı vardır. Bu milli janlarmeriya baş idarəsidir. Jandarm qüvvələri daxili işlər

nazirinə tabedirlər. İran islam Respublikasının ərazisi 6 jandarm dairəsinə bölünmüşdür. Bu dairələrdə təxminən 50 jandarm alayı, 30 zərbə batalyonu və 10 jandarm batalyonu yerləşdirilmişdir. Bütün jandarm batalyonları xüsusi təyinatlıdırlar və əsgərlərin təxminən yarısı islam inqilabı mühafizəçiləri dəstələrindən çağırılırlar. Jandarm qoşunlarının tərkibində həmçinin 1 təlim briqadası vardır. Sərab şəhərində jandarm qoşunlarının təlim mərkəzi yerləşir. Jandarm qoşunları ölkədə daxili qayda-qanunun qorunması, qaçaqmalçılıqla mübarizə və silahlı qüvvələrə çağırış funksiyalarını yerinə yetirirlər. Jandarm qoşunlarının sayı təxminən 40 min nəfərdir. İran İslam Respublikasının jandarm qoşunları müasir silah və hərbi-texnika ilə təchiz edilmişlər.

Ordu və jandarm qoşunları 1986-cı ildə qəbul edilmiş hərbi-mükəlləfiyyət haqqında yeni qanun əsasında orduya çağırılan əsgərlərdən təşkil olunur. İran İslam ordusunda əsgər və çavuşların xidmət müddəti 2 ildir.

Quru qoşunlarında xidmət edən zabitlər milli müdafiə akademiyasında, komanda qərargah kollecində, ümumqoşun zabitlər məktəbində və hər bir qoşun növü üzrə zabit məktəblərində hazırlanırlar. Hərbi-hava və hərbi-dəniz qüvvələrinin zabitləri müvafiq olaraq aviasiya və hərbi-dəniz məktəblərində hazırlanırlar.

**İslam inqilabı mühafizəçiləri korpusu**. (Sepahe pasdarane enqelabe islami). İslam inqilabı mühafizəçiləri korpusu (İİMK) hərbi birləşməsi İranda islam inqilabının qələbəsindən sonra, İran-İraq müharibəsi dövründə yaranmışdır və başqa ölkələrdə analoqu yoxdur. Müasir İranda İİMK güclü hərbi-siyasi qüvvədir və onun sayı haqqında müxtəlif mənbələrdə müxtəlif məlumatlar vardır. Bəzi mənbələr onun sayını 450-500 min nəfər olduğunu qeyd edirlər. İİMK hazırda İranda üç əsas funksiyanı

yerinə yetirir: xarici və daxili vəzifələr, silahlı qüvvələrin bütün növlərinin öz nəzarəti və rəhbərliyi altında birləşdirilməsi.

İran İslam Respublikasının konstitusiyasına uyğun olaraq İslam inqilabının mühafizəçiləri korpusunun komandanlığı ölkənin ali rəhbərinə (vilayəti fəqihə) həvalə olunmuşdur. İİMK öz strukturu baxımından üç hissədən ibarətdir: komandanlıq, siyasi-ideoloji idarə və inzibati idarə.

İslam inqilabının mühafizəçiləri korpusunun komandanı şəxsi heyətə görə, onun hərbi təlimi və hərbi hazırlığına görə, arxa cəbhə təchizati, hərbi hissə və bölmələrin yerləşməsinə görə, kəşfiyyat xidmətlərinə görə, hərbi əməliyyatların planlaşdırılması və aparılmasına görə məsuliyyət daşıyır. Səfərbər olunan könüllülərin; «bəsicilərin» (sayı təxminən 135 min nəfərdir) də məsuliyyəti İİMK komandanın öhdəsinə düşür. Komandan bütün göstərilən vəzifələri ixtiyarında olan baş qərargah vasitəsi ilə həyata keçirir. İslam inqilabının mühafizəçiləri körpüsünün siyasi-ideoloji idarəsinin rəisi, "vilayəti-fəqihin» nümayəndəsi hesab edilir. O, öz idarəsi vasitəsilə şəxsi heyətin ideoloji və siyasi cəhətdən tərbiyələndirilməsinə yönəlmiş tədbirləri həyata keçirir, ideoloji aparatın kadrlarını hissə və bölmələrdə yerləşdirir, təbliğat ədəbiyyatı yayır və digər qoşun növləri ilə əlaqələri təşkil edir.

Müdafiə və silahlı qüvvələrin himayə edilməsi naziri inzibati, maliyyə və hüquq məsələlərinə görə məsuliyyət daşıyır. O, həmçinin İran parlamenti ilə əlaqələri həyata keçirir, ölkə daxilində və xaricində silah-sursat, hərbi-texnika alınmasını və qoşunların onlarla təmin edilməsini təşkil edir.

İslam inqilabının mühafizəçiləri korpusunun üç qolu arasında qarşılıqlı əlaqələri təşkil etmək, İİMK-nın quruculuğu və fəaliyyətinin əsas istiqamətini müəyyənləşdirmək və cari məsələləri həll etmək məqsədi ilə İİMK-nın ali şurası yaradılmışdır.

Onun tərkibinə İİMK-nın komandanı, müdafiə naziri, vilayəti-fəqihin nümayəndəsi, baş qərargahın rəisi, baş qərargahın idarə rəisləri daxildirlər. Ali şura islam-inqilabi mühafizəçiləri korpusunun ali baş komandanına tabedir. İİMK-nın silahlı birləşmələri təşkilat baxımından hərbi birləşmələrdən və ərazi qüvvələrindən ibarətdir. Hərbi birləşmələrin əsas vəzifəsi dövlət əleyhinə silahlı çıxışları dağıtmaqdan, sərhədləri qorumaqdan və müharibə zamanı düşmənə qarşı ordu ilə birlikdə döyüşlərdə iştirak etməkdən ibarətdir.

İİMK-nın hərbi birləşmələri quru qoşunlarından, hərbi-hava qüvvələrindən və hərbi-dəniz qüvvələrindən təşkil olunmuşlar

İİMK-nın quru qoşunlarının sayı təxminən 370 min nəfərdən çoxdur. Onun döyüş tərkibinə 32 diviziya,10 əlahiddə qrup (5 artilleriya, 1 raket, 1 rabitə, 1 mühəndis-istehkam, 1 kimyəvi mühafizə) daxildirlər. Quru qoşunlarının tərkibində 1 əlahiddə ideoloji hazırlıq briqadası da vardır. İİMK –nin quru qoşunları Rusiya istehsalı olan T-55, T-59, T-62, T-72 tipli tanklar, səhra artilleriyası topları, raket–artilleriya qurğuları, minaatanlar, tank əleyhinə toplar, zenit qurğuları və s. ilə silahlanmışlar.

İslam inqilabı mühafizəçiləri korpusu hərbi-hava qüvvələri İran İslam Respublikası silahlı qüvvələrinin müstəqil qoludur. İran rəhbərliyinin nəzərincə bu qüvvələr düşmənin piyada, hava və dəniz qüvvələrinə, onun hərbi və sənaye obyektlərinə zərbələr endirmək və həmçinin İran ordusunun quru qoşunlarının və hərbi – dəniz qüvvələrinin döyüş əməliyyatlarını himayə etmək üçün nəzərdə tutulmuşdur.

İİMK–nin hərbi-hava qüvvələrinin struktur tərkibinə operativ-taktiki və taktiki - raket kompleksləri, yardımçı təyyarə və helikopter dəsətələri daxildirlər. Bu qüvvələrin döyüş tərkibinə

isə müxtəlif təyinatlı raket hissələri və bölmələri, yardımçı aviasiya hissələri, təlim mərkəzləri və poliqonları daxildirlər, İİMK-nin hərbi-hava qüvvələrinin əsas zərbə qüvvəsi raket qoşunlarıdır.

İİMK-nin hərbi-dəniz qüvvələri İran ordusunun müstəqil qoludur. Şəxsi heyətinin sayı 20 min nəfərdən çoxdur. Əsas vəzifəsi;

- İranın sahil ərazilərini və sahil sularını, o cümlədən cənub rayonlarının inzibati-siyasi mərkəzlərini, sənaye rayonlarını, neft mədənlərini, hərbi-dəniz bazalarını, liman və adalarını qorumaq;
- sahilyanı dəniz kommunikasiyalarını mühafizə etmək və düşmənin Fars, Oman körfəzlərində və Xəzər dənizində yerləşən dəniz kommunikasiyalarını aradan götürmək;
- Hörmüz boğazına nəzarət etmək;
- düşmənin dəniz desantını məhv etmək və aramsız dəniz kəşfiyyatını həyata keçirmək,

Təşkilat baxımından İİMK–nın hərbi-dəniz qüvvələri qərargahdan, 4 müstəqil komandanlıqdan, 3 hərbi-dəniz rayonundan, hərbi birləşmə və hissələrdən, təminat və xidmət bölmələrindən, təlim mərkəzləri və müəssisələrindən ibarətdir.

İİMK-nın ərazi qüvvələri.

Ölkədə qəbul edilmiş hərbi-inzibati bölgüyə görə İran İslam Respublikası ərazisində 16 ərazi komandanlığı fəaliyyət göstərir.Bu komandanlıqlar onların məsuliyyət daşıdıqları dairədə yerləşmiş qüvvə və vəsait qruplaşmasından asılı olaraq bir və ya iki ostanın ərazisini əhatə edə bilərlər. Ərazi qüvvələrinə rəhbərliyi adətən ostanın İİMK qüvvələrinin komandanı, yaxud ərazidə yerləşmiş birləşmələrdən birinin komandiri həyata keçirir. İnzibati cəhətdən ona İİMK – nın bu ərazidə yerləşən bütün

birləşmə və hissələri, həmçinin «bəsici» qruplarının bölmələri tabe olurlar. İİMK-nın ərazi komandanlıqlarının rəhbərlərinə və onların qərargahlarına operativ və səfərbərlik planlarının yerinə yetirilməsi, hərbi təlim proseslərinin təşkili və qoşunların həyat fəaliyyətinin hər tərəfli təminatı, həmçinin «bəsici» qüvvələrinin təlimi və hazırlanması vəzifələri tapşırılır.

Bəsici dəstələri 30 il əvvəl, islam inqilabının ilk illərində yaranmışlar. Onları həm «səfərbər olunmuşlar», həm də «könüllü xalq dəstələri» kimi adlandırmaq olar. Bu dəstələr ilk döyüş sınaqlarından İraq ilə müharibədə çıxmışlar. Həmin illərdə İran İslam Respublikası rəhbərliyi 20 milyonluq bir ordu yaratmağı qarşısına məqsəd qoymuşdu. Başqa sözlə, hər üç nəfərdən bir İran vətəndaşı vətəninin və islam quruluşunun silahlı müdafiəsinə hazır olmalı idi. Bu məqsədlə «könüllülərdən» ibarət dəstələr - «bəsicilər» meydana çıxdı. Bu dəstələrin döyüş meydanlarındakı qəhrəmanlıqları, onların daxili müstəqillikləri İran rəhbərliyini bu dəstələri təşkilatlandırmaq fikrinə saldı. Döyüşlərdə sağ qalmış «bəsicilərdən» ibarət ilk müqavimət qüvvələri yaradıldı və onlar ölkə silahlı qüvvələrinin bir növünə çevrilərək, İİMK-nin tabeliyinə verildilər.

İran İslam Respublikasında bu gün «bəsici» qüvvələri İran ordusu birləşmələrinin birinci dərəcəli ehtiyat qüvvəsini təşkil edirlər. «Bəsicilər» İran İslam Respublikasının bütün təyinatlardan olan xüsusi xidmət orqanlarının əməkdaşlarıdırlar.

Müasir İranda «cəhade sazəndəgi» (quruculuq cihadı) adlanan dəstələrə xüsusi diqqət yetirilir. Bu dəstələrin əsas zərbə qüvvəsi «bəsici» döyüşçülərdən ibarətdir.

«Bəsici» döyüşçülər gənclərin hərbi hazırlığında yaxından iştirak edirlər. Onlar islam dininə və islam inqilabına sədaqət simvolları kimi bütün iclas, mitinq və küçə nümayişlərinin ən

fəal iştirakçılarıdırlar. «Bəsicilər» şəriət qanunlarının yerinə yetirilməsinə ciddi nəzarət edirlər.

İran İslam Respublikasında «bəsicilər» xüsusi mövqeyə malikdirlər. Onlar müqəddəs ziyarətgahların mühafizəçiləridirlər. Onlar həmçinin cinayətkarlara qarşı ən çətin əməliyyatlarda iştirak edir, narkotiklərə qarşı mübarizə aparır, mühüm sənaye və hərbi mərkəzlərin, dövlət orqanlarının, tarixi, mədəni və dini abidələrin qorunmasını təmin edirlər.

«Bəsici» dəstələri İran dövlətinin ən çox inandığı qüvvələrdir. Onlar İran İslam Respublikasının bütün təşkilat, müəssisə və orqanlarında fəaliyyət göstərirlər. Müasir İranda həm mehmanxanada adi fəhlə işləyən «bəsiciyə», həm də nazir vəzifəsində işləyən «bəsiciyə» rast gəlmək olar.

Konkret olaraq «bəsici» qüvvləri iki qrupa bölünürlər:

Birincisi – hərbiləşdirilmiş qruplar

İkincisi – dini-təbliğat qrupları.

Birinci qruplar ərazi amili əsasında təşkil olunmuşlar. Bu hərbi qruplar təxminən 750-800 batalyondan ibarətdirlər və hər batalyonda 350-400 nəfər xidmət edir. Batalyonlar 12 yaşından 60 yaşına qədər olan kişilərdən təşkil olunurlar. Lakin, qadın «bəsici» batalyonları da vardır. Bu batalyonların hər biində təxminən 200 nəfər qadın olur. Qadın batalyonları ruhani rəhbərlərin xüsusi himayəsi altındadırlar. «Bəsici» qadınlar nəşriyyatlarda, maarif, mədəni və xeyriyyə cəmiyyətlərində mühüm vəzifələr tuturlar.

Hər il noyabr ayının 26-da İran İslam Respublikasında «bəsici» günü qeyd edilir. Həmin gün sayı təxminən milyon yarım olan «bəsicilər» arasından min nəfərə yaxın ən yaxşı «bəsici» seçilir. Bunlar hərbi və fiziki hazırlıqda, Quranı və şəriəti, habelə imam Xomeyni təlimini bilməkdə fərqlənən adamlar

olurlar. Onların bir hissəsi dini təbliğat dəstələrinə, bir hissəsi isə yeni «bəsicilərə» dərs demək üsün islam maarifi qruplarına göndərilirlər. Fərqlənmiş «bəsicilər» eyni zamanda kütləvi informasiya vasitələrində, xarici ölkələrdəki səfirliklərdə işləmək üçün təyinatlar alırlar.

Hərbiləşdirilmiş «bəsici» dəstələrinə İİMK-nın və İran silahlı qüvvələrinin yüksək dərəcəli zabitləri rəhbərlik edirlər.

«Bəsicilərin» dini-təbliğat qruplarına rəhbərliyi İran İslam Respublikasının ali rəhbərinin ən yaxın və ən sədaqətli adamı, Məhəmməd Peyğəmbərin birbaşa nəslindən olan seyid və müctəhid başçılıq edir. Onun öhdəsinə İran gənclərinin ideya-nəzəri hazırlığı məsuliyyəti vəzifəsi düşür.

Dini təbliğat qruplarının ixtiyarına ən müasir texnika və kompüterlər, böyük maliyyə vəsaitləri verilmişdir.

İran İslam Respublikasında müasir «bəsici» qüvvələri yaxşı təşkil olunmuş, İran cəmiyyətinin ən dərin qatlarına nüfuz edə bilən hərbi – ideoloji təşkilatdır.

**Siyasi partiyalar.** 1979-cu ilin fevral ayında şah rejimi devrildikdən sonra rejim tərəfindən qadağan edilmiş bir çox siyasi partiya və təşkilatlar leqal fəaliyyətə başladılar. Şah rejiminin devrilməsində sol yönümlü partiyalardan olan «xalq mücahidləri partiyası», «xalq fədailəri partiyası», İran «Tudə partiyası» fəal iştirak etdilər. Milli cəbhəyə daxil olan partiyaların çoxu, o cümlədən «İranın azadlığı hərəkatı» partiyası (Nehzəte azadiye İran) İslam inqilabını müdafiə etdilər. Bu partiyanın lideri Mehdi Bazərqan Ayətulla Xomeyni tərəfindən müvəqqəti hökumətin başçısı təyin edilmişdi. Lakin islam inqilabının qələbəsindən sonra inqilabda iştirak etmiş partiyaların çoxu rejimə qarşı müxalif mövqelərə keçdilər. Bunların arasında ən fəal təşkilatlardan biri İranın birinci prezidenti Əbülhəsən Bənisədri müda-

fiə edən «Xalq mücahidləri» (mocahedine xəlq) partiyası idi. Çox keçmədən islam höküməti bütün sol yönümlü və demokratik partiyaların fəaliyyətini qadağan etdi. 1983-cü ildə «Tudə» partiyasının bir çox görkəmli rəhbərləri həbs edilərək, edam edildilər.

Hazırda islam höküməti rejiminə müxalifətdə olan partiya və təşkilatların əksəriyyəti ya fəaliyyətlərini dayandırmış, ya da ölkə xaricində fəaliyyət göstərirlər.

İslam hökümətі ilə mübarizəsini ölkə xaricində davam etdirən təşkilatlar arasında «Mocahidine xəlq», «Fədayane xəlq» və «Peykar» partiyaları başqa siyası qurumlarla müqaisədə nisbətən öz fəallıqları ilə seçilirlər. Mehdi Bazorqanın vəfatından sonra İbrahim Yəzdinin başçılıq etdiyi «Nehzəte azadiye İran»(İranın azadlıgı hərəkatı) təşkilatı İranda yarım-leqal vəziyyətdə fəaliyyət göstərir.

1981-ci ildə partiyalar haqqında qanun qəbul edilməsinə baxmayaraq, bu qanunun icrası İraq ilə müharibənin sonuna qədər dayandırılmışdı. 1983-cü ildə bir çox partiyaların fəaliyyəti qadağan edildikdən sonra İran İslam Respublikasında əsas etibarı ilə islam partiyaları və qruplaşmaları fəaliyyət göstərə bilirlər. 1979-cu ildə Ayətulla Xomeyninin təşəbbüsü ilə «İslam respublikası partiyası» (Hezbe cümhuriye eslami) yaradıldı və bütün islam təşkilatları və qruplaşmaları bu partiyaya daxil oldular. İslam hökumətinin yaradılmasını qarşısına məqsəd qoymuş və onu həyata keçirmiş bu partiya daxili qarşıdurmalar nəticəsində 1987-ci ildə buraxıldı. Bu partiyada fəaliyyət göstərən qruplar «Mübariz ruhanilər cəmiyyəti» («Cameye ruhaniyune mobarez») adlı bir qurum yaratdılar. 1988-ci ildə bu təşkilat daxilində də parçalanma baş verdi və «Məcməe ruhaniyune mobarez» (Mübariz ruhanilər asambleyası) adlı bir qurum adı çəkilən

təşkilatdan çıxdı. Yeni yaranmış siyasi təşkilatda Ayətulla Xomeyninin oğlu Əhməd Xomeyni, Seyyid Məhəmməd Xatəmi, Məhəmməd Rza Təvəssoli, Əli Əkbər Möhtəşəmi kimi görkəmli ruhanilər və siyasətçilər toplaşdılar. Təşkilatın lideri isə o dövrdə İran parlamentinə rəhbərlik edən Mehdi Kərubi oldu. Seyid Məhəmməd Xatəmi İranın prezidenti seçiləndən sonra özlərini «islahatçılar» adlandıran bu qrup İran siyasi həyatında fəal rol oynamağa başladı. İran İslam Respublikası kütləvi informasiya vasitələrinin verdiyi məlumatlara görə hazırda İran Daxili İşlər Nazirliyində 200-dən çox partiya və ictimai-siyasi təşkilat qeydiyatdan keçmişdir.

Bunların arasında ən irisi islahatçıların «İslam İranının iştirak cəbhəsi» təşkilatıdır. (Cəbheye moşarekəte İrane eslami). Qısa şəkildə «Moşarekət» adlanan bu təşkilata 18 partiya və siyasi qurum daxildir. Adı çəkilən bu təşkilat, həmçinin Məhəmməd Səlamətinin baş katibi olduğu «İslam inqilabı mücahidləri təşkilatı» (cazmane mocahedine enqelabe eslami) və 1996-cı ildə eks-prezident Rəfsəncaninin və Tehran şəhərinin meri Qulam Hüseyn Kərbasçinin tərəfdarlarının yaratdıqları «İran qurucularının partiyası» (Hezbe karqozarane sazəndegiye İran) prezident seçkilərində Xatəmini müdafiə edən əsas siyasi təşkilatlar idilər.

İran mühafizəkarlarının ən böyük siyasi təşkilatı "İran koalisiya cəmiyyətidir" (Cəmiyyəte momanefeye eslami).

2003-cü ildə İran İslam Respublikası parlamentinə keçirilən seçkilər ərəfəsində mühafizəkarların «Abadgəran» (Qurucular) adlı yeni partiyası yaradıldı. Seçkilərdə bu partiya parlamentdə yerlərin əksəriyyətini əldə etdi və partiyanın lideri Qulaməli Həddad Adil parlamentin sədri oldu.

## İQTİSADİYYATI

Ötən əsrin 60-70-ci illərində şahlıq rejimi şəraitində İranda həyata keçirilmiş islahatlar ilə başlamış kapitalizmin sürətli inkişafı prosesi özünün son mərhələsində müvəffəqiyyətsizliyə uğradı. Kapitalizmin bu şəkildə, yəni siyasi despotizm şəraitində inkişaf etdirilməsi bu sistemə məxsus ziddiyətlərin kəskinləşməsinə səbəb oldu və bu 1978-79-cu illər inqilabı ilə nəticələndi. İnkişaf edən kapitalizmin daha da genişlənməsi üçün kifayət qədər ictimai-siyasi və demokratik əsaslar hazırlanmamışdı.

İslam inqilabından əvvəlki iki onillik ərzində ölkənin sənayeləşdirilməsi yolunda təsirli tədbirlər həyata keçirilmişdi. Bu tədbirlər həm iqtisadiyyatın müasir sahələrinə, həm də emal sənayesində yeni istehsal sahələrinə aid idi. Ötən əsrin 60-70 -ci illərində sənaye iqtisadiyyatı inkişaf etdirən əsas istiqamətlərdən birinə çevrilməyə başladı. Nəticədə İranda mövcud olan ənənəvi sənaye sahələri ilə yanaşı sənayenin yeni sahələri, o cümlədən radiotexnika, avtomobil, neft-kimya, rezin məmulatları sənayesi və s. sürətlə inkişaf etməyə başladı. 70-ci illərin əvvəllərində artıq metallurgiya, maşınqayırma və neft-kimyası sənayesininin əsasları yaradılmışdı. Bu illərdə həmçinin ölkədə elektro-energetika sənayesi sahəsi yaradıldı. Çoxlu elektrik stansiyaları tikildi, elektrik istehsalının həcmi xeyli artdı. Torpaqların suvarılması və əhalinin keyfiyyətli içməli su ilə təmin edilməsi sahəsində dövlət tərəfindən müəyyən tədbirlər həyata keçirildi.

İqtisadiyyatın daha yüksək inkişafını təmin etmək məqsədi ilə bu illərdə şah rejimi ölkədə bir sıra sosial-iqtisadi islahatlar həyata keçirməyə müvəffəq oldu. Bunun nəticəsində kənd təsərrüfatı sahəsində feodal istismarına son qoyuldu və kənddə kapitalist münasibətlərinin inkişafı üçün imkanlar yarandı.

Lakin 1975-ci ildə baş vermiş hadisə ölkə iqtisadiyyatında yaranmış nisbi tarazlığı və inkişafı aradan götürdü. Belə ki, 1975-ci ilin may ayında şah rejimi 1974-cü ildə neftin qiymətinin kəskin şəkildə qalxması nəticəsində əldə edilən gəlirləri beşinci inkişaf planına xərcləmək və kapital qoyuluşlarını iki dəfə artırmaq haqqında qərar qəbul etdi. Kapital qoyuluşunun artırılması ilə əldə edilən istehsal və istehlak tələbləri yeni ümumi təkliflərə uyğun gəlməməyə başladı. Tələblər ancaq qismən yerinə yetirilirdi. Nəticədə ölkədə inflyasiya başdadı.

İranda şahlıq üsuli-idarəsinin süqutu illəri sayılan 1978-1979-cu illər İran iqtisadiyyatı üçün ən çətin illər idi. 1978-ci ilin payız və qış aylarında baş vermiş tətillər, xüsusən neft sahəsində işləyənlərin tətili neft ixracını tamamilə iflic vəziyyətinə saldı. Ölkəyə neftdən gələn gəlirlərin qarşısı alındı, neft məhsullarının istehsalı dayandı. İranın böyük şəhərlərində iqtisadi həyat donmuş vəziyyətə düşdü.

1979-cu ilin fevral ayında İranda islam inqilabı qalib gəldikdən sonra hakimiyyətə gəlmiş yeni qüvvələr İranın iqtisadi müstəqilliyi və «İlahi ədalətə əsaslanan iqtisadiyyat» prinsiplərini irəli sürdülər. Lakin İranın daxilində və xaricində baş vermiş hadisələr və səkkiz illik İran-İraq müharibəsi İran iqtisadiyyatını olduqca çətin bir vəziyyətə saldılar.

1979-cu il noyabr ayının 4-də ABŞ səfirliyinin İran tələbələri tərəfindən tutulmasına görə ABŞ və onun tərəfdarları tərəfindən İran iqtisadi blokadaya alındı. Həmçinin həmin illərdə ölkə rəhbərliyinin həyata keçirdiyi xırda sahibkarlığın genişləndirilməsi siyasəti və ölkədən qaçmış sahibkarlara məxsus qeyri-rentabelli iri sənaye müəssisələrinin dövlət sektoruna alınması ölkə iqtisadiyyatı və büdcəsi üçün əlavə problemlər yaratdı.

İran-İraq müharibəsi bu problemlərin yükünu ikiqat ağırlaşdırdı. Ölkədə tüğyan edən inflyasiya nəticəsində gündəlik tələbat mallarının və iqtisadiyyata lazim olan xammalın qiymətləri kəskin sürətdə yuxarı qalxdı.

İran iqtisadiyyatı durğunluq vəziyyətinə düşdü. Sənayenin bir çox sahələri, o cümlədən neft sənayesi iflic vəziyyətində idi. Müharibə illərində sənaye demək olar ki, ancaq müharibənin tələblərini yerinə yetirirdi.

Müharibədən sonra iqtisadi blokadanın davam etməsinə və kifayət qədər sərmayənin olmamasına baxmayaraq iqtisadiyyatın yenidən qurulması dövrü başladı. Bu dövr İranda yeni iqtisadi siyasət dövrü adlandırılır.

Bu siyasətin həyata keçirilməsinin ilk dövrlərində islam hökuməti iqtisadi inkişafın mərkəzləşdirilməsi modelindən, başqa sözlə iqtisadiyyata dövlət müdaxiləsi modelindən istifadə etməyə başladı. Lakin iqtisadiyyatın müxtəlif sahələrində texnoloji yeniliklərdən istifadə edilməsi səviyyəsi çox aşağı olduğuna görə gözlənilən nəticələr əldə edilmədi. Ümumi daxili məhsulun miqdarı aşağı düşməyə başladı. Bununla yanaşı olaraq əhalinin sayı 1,5 dəfə (1976-1986-cı illərdə 16 milyon nəfər) artdı. Nəticədə əhalinin həyat səviyyəsinin göstəriciləri xeyli aşağı düşdü. Hökumətin iqtisadi siyasətini dəyişdirmək zərurəti meydana çıxdı.

İran hökumətinin 1989-1993-cü illər üçün qəbul etdiyi 5-illik inkişaf planı ölkə iqtisadiyyatının yeni formaya-bazar iqtisadiyyatı formasına keçidinin proqramı oldu.

Bu sənədə əsasən xarici kapitalın ölkə iqtisadiyyatına cəlb edilməsi, yeni azad iqtisadi zonaların yaradılması, dövlət mülkiyyətinin özəlləşdirilməsi kimi prinsiplərin həyata keçirilməsinə icazə verildi. Qiymətlər liberallaşdırıldı.

Ziyanla işləyən müəssisələrə dövlət dotasiyalarının verilməsinə son qoyuldu.

Həyata keçirilmiş tədbirlər öz nəticəsini verdi. İqtisadiyyatda hökm sürən böhran qismən götürüldü. 1989-1990-cu illərdə ümumi daxili məhsul 4%, 1990-1991-ci il illərdə isə 8% artdı. Sənaye istehsalının ümumi indeksi qalxmağa başladı.

Beynəlxalq Valyuta Fondunun 2006-cı ildə yaydığı hesabata görə 2001-2005 ci illərdə İran İslam Respublikasında ümumi daxili məhsulun(ÜDM) real orta artımı 5,5 % olmuşdur. Pul hesabı ilə bu 554 milyard 744 milyon ABŞ dollarıdır. Onun adambaşına miqdarı 8556 dollar təşkil edir. Həmin dövrdə ÜDM –in bu göstəricisi Böyük Britaniyada- 2,7%, Kanadada- 3,3 %, ABŞ –da 2,8%, Fransada-1,9%, Yaponiyada-0,8%, Almaniyada-0,3%, İtaliyada isə 0,2% olmuşdur. Belə bir artım İran İslam Respublikasında işsizliyin səviyyəsinin nisbətən azalmasına və əhalinin sosial müdafiəsi səviyyəsinin bir qədər artmasına səbəb olmuşdu. Əlbəttə ki, bu göstəricilərin meydana gəlməsinin səbəbkarı neft biznesindən əldə edilmiş gəlirlər olmuşdur. Bununla yanaşı olaraq İran dövləti həyata keçirdiyi tədbirlər nəticəsində bu dövrdə inflyasiyanı 15% səviyyəsində saxlaya bilmişdi.

İran dövlətinin işsizliyi azaltmaq yolunda səylərinə baxmayaraq onun səviyyəsi orta hesabla 11-12 % təşkil edir. Bu səviyyə sənayecə inkişaf etmiş ölkələrdən çoxdur. İşsizliyin belə yüksək səviyyədə qalması ölkə iqtisadiyyatına neqativ təsir göstərir. Buna görə də işsizlik İran iqtisadiyyatının ən ciddi problemlərindəndir, İran əhalisinin ötən əsrin 80-90-cı illərindəki yüksək artımı əmək bazarına çoxlu sayda gənclərin gəlməsinə səbəb olmuşdur. Ölkə iqtisadiyyatı isə onları işlə təmin edə bilməmişdir.

## KƏND TƏSƏRRÜFATI

Kənd təsərrüfatı İran İslam Respublikası iqtisadiyyatının əsas sahələrindən biridir. Əmək qabiliyyətli əhalinin 25%-i bu sahədə çalışır və ÜDM-nin 25% burada istehsal edilir.

Ötən əsrin 60-cı illərinin əvvəllərində İranda mövcud olan şah rejimi yarımfeodal torpaq sahiblərindən, müxtəlif tayfaların xanlarından və irticaçı ruhanilərdən ibarət olan mühafizəkar parlamenti (məclisi) buraxdı və ölkədə aqrar islahatları həyata keçirməyə başladı. Şah aqrar islahatı həyata keçirməklə İranın kənd təsərrüfatını kapitalist qaydalarına uyğun olaraq yenidən qurmaq istəyirdi. 60-70-ci illərdə həyata keçirilmiş aqrar islahatın ayrı-ayrı mərhələlərində yarımfeodal təsərrüfatlar demək olar ki, ləğv edildi. Bu təsərrüfatlarda orta əsr feodal dövrlərinə məxsus müxtəlif icarə üsulları ilə işləyən böyük miqdarda kəndlilərin bir hissəsi münasib qiymətlərlə bu təsərrüfatları alaraq torpaq sahiblərinə çevrildilr.

Otlaqların milliləşdirilməsi və bir çox qəbilə və tayfaların oturaq həyata keçirilmələri ilə qəbilə başçılarının iqtisadi mövqeləri zəiflədi. Həmçinin kənddə dövlət müəssisələrinin və kooperativlərin fəaliyyətə başlaması nəticəsində sələmçi-ticarət burjuaziyasının mövqeləri sarsıldı.

Lakin aqrar islahatın həyata keçirilməsi torpaqdan istifadə edilməsinin strukturunda heç bir dəyişiklik etmədi. Kəndin kapitalistləşməsi nəticəsində istifadə olunan torpaqlar iri təsərrüfatlarda cəmləşdi.

1979-cu ildə İranda şahlıq rejimi süqut etdikdən və bu rejimin hərbi-polis aparatı ləğv edildikdən sonra İran kəndində sinfi və siyasi mübarizə fəallaşdı. Kəndlilər «sosial ədalət» prin-

siplərinə söykənən aqrar islahatların aparılmasını tələb etməyə başladılar.

1980-ci il aprel ayının 15-də islam inqilab şurası aqrar islahatların keçirilməsi barədə qanun qəbul etdi. Qanunda dövlət torpaqlarının, iri torpaq sahiblərinin dincə qoyulmuş və istifadə olunan torpaqlarının torpağı olmayan və ya az torpaqlı kəndlilərə, kənd təsərrüfatı ixtisası üzrə təhsil almış ali təhsilli şəxslərə verilməsi nəzərdə tutulurdu. 15 aprel 1980-cı il qanunun əsas məqsədi dövlət torpaqlarının və rejim əleyhdarlarının torpaqlarını kəndlilər arasında bölüşdürməkdən ibarət idi. Mexanikləşdirilmiş təsərrüfatların, iri heyvandarlıq komplekslərinin torpaqları və iri bağ sahələri bölüşdürülməyə şamil edilmirdi. Bu qanuna əsasən 577 min hektar istifadəsiz və 792 min hektar istifadə olunan torpaq kəndlilərə paylanıldı. Qanunda nəzərdə tutulmuş xüsusi torpaq sahibkarlığının məhdudlaşdırılması isə kəndlilərin ciddi müqavimətinə səbəb oldu.

İran İslam Respublikası hökumətinin torpaq üzərində xüsusi mülkiyyətin məhdudlaşdırılması cəhdlərinin istər kənd əhalisi, istərsə hökumətin bəzi üzvlərinin ehtirazına səbəb olması göstərdi ki, aparılan aqrar islahatlar İran kəndinin sosial-iqtisadi strukturunda dəyişikliklərə səbəb olmur.

Buna görə də, İran İslam Respublikası Məclisi 2 mart 1982-ci il tarixində aqrar islahatlarla əlaqədar olaraq yeni qanun qəbul etdi. Əvvəlki qanunla müqayisədə yeni qanunda kənd təsərrüfatı istehsalının intensivləşdirilməsinin stimullaşdırılması, istifadə olunan torpaqlardan daha səmərəli istifadə olunması, dəmyə və dincə qoyulmuş torpaqlardan istifadə olunmasının genişləndirilməsi məsələləri öz əksini tapmışdı. Bu tədbirlərin həyata keçirilməsi ilə kənd təsərrüfatı məhsullarının istehsalının sürətləndirilməsi, xüsusən əhalinin ərzaqla təminatı-

nın həll edilməsi nəzərdə tutulurdu. Qanunda həmçinin əkinçiliyin və torpaqdan istifadə olunması qaydalarının tənzimlənməsi məsələləri də nəzərə alınmışdı.

Kəndli təsərrüfatlarının koperativlərdə birləşdirilməsi siyasəti İranda islam inqilabı qalib gəldikdən sonra da, davam etdi. Bu təsərrüfatlara dövlət tərəfindən qayğı göstərilməsinin həcmləri artdı.

2002-2003-cü illərin statistik məlumatlarına əsasən koopersiya nazirliyi tərəfindən qeydə alınmış kənd təsərrüfatı kooperativ şirkətlərinin sayı 1854 ədəd olmuşdur.

Bu koperativ şirkətlərində üzv olanların sayı 1044434 nəfər adam olmuşdur. Qeyd olunan dövr üçün koperativ şirkətlərin ümumi kapitalı 236904 milyon rial təşkil etmişdir. Koperativlər İranda əsasən quşçuluq, heyvandarlıq, taxılçılıq, bağçılıq, texniki bitkilər istehsalı, arıçılıq, kənd təsərrüfatının mexanizasiyası və s. sahələri üzrə fəaliyyət göstərirlər. İstər islam inqilabından əvvəl, istərsə də, onun qələbəsindən sonrakı dövrlərdə dövlət tərəfindən iri təsərrüfatlara, ilk növbədə aqrosənaye komplekslərinə, müasir heyvandarlıq və quşçuluq müəssisələrinə maliyyə və digər köməklər edilmiş və edilməkdədir. Kənd təsərrüfatı məhsullarının istehslalı, xüsusən ərzaq məhsullarının atırılmasına dövlət tərəfindən xüsusi diqqət verilməsini nəzərə alaraq sənaye tipli əkinçilik və heyvandarlıq təsərrüfatlarına müxtəlif növ köməklərin sayı xeyli artmışdır.

2000-ci ildə iri maldarlıq komplekslərinin inkişafına dövlət tərəfindən 98971 milyon rial həcmində kapital qoyuluşu edilmişdir. Bu vəsait avadanlıq və nəqliyyat vasitələrinin alınmasına, inşaat işlərinin aparılmasına və s. məqsədlərə xərclənmişdir. Sənaye tipli quşçuluq müəssisələrinin inkişafına isə dövlət 2000-ci ildə 299683 mln. rial kapital qoyuluşu etmişdir.

Əkinçilik ənənəvi olaraq İran əhalisini əsas ərzaq məhsulları ilə təmin edən sahə olmuşdur. Milli sənaye sahələrinin inkişafı üçün və müxtəlif kənd təsərrüfatı mallarının ixracatı üçün lazım olan məhsulları da məhz əkinçilik sahəsi verir. Lakin suvarılan torpaqların az olması bu sahənin inkişafı üçün əngəllər törədir.

1997-1998-ci ilin məlumatlarına əsasən ölkə üzrə suvarılan torpaqların ümumi sahəsi 6913700 hektar olmuşdur. Bu əkinçilik üçün istifadə olunan torpaqların təxminən 40%-ni təşkil etmişdir. İranın quru iqlimə malik olması nəzərə alınsa suvarmanın ölkə üçün necə əhəmiyyətli rol daşıması daha da aydın olur.

Dənli bitkilərin istehsalı İranda əkinçiliyin əsas sahəsidir. İranda dənli bitkilərin əkilməsi üçün hər il demək olar ki, əkilən torpaqların 80%-i ayrılır. Bir çox ölkələrdə olduğu kimi İranda da, buğda əsas kənd təsərrüfatı məhsulu sayılır. Lakin onun istehsalı ölkənin ildən-ilə artan tələblərinə cavab vermir. Buna görə İranda taxılçılığı suvarılan torpaqlarda inkişaf etdirmək üçün xüsusi proqram hazırlanmış və yerinə yetirilməkdədir. Həyata keçirilmiş tədbirlər nəticəsində ölkədə buğda istehsalı nəzərə çarpacaq dərəcədə artmışdır. Belə ki, statistik məlumatlara əsasən ölkədə 2002-2003-cü illərdə 12,5 mln. ton buğda, 3,1 mln. ton arpa, 2,9 mil. ton çəltik istehsal olunmuşdur. 2004-cü ildə isə İranda 14 mln. taxıl istehsal edilmişdi. Perspektivdə taxıl istehsalını ildə 20 mln. tona çatdırmaq nəzərdə tutulmuşdur.

Taxıl məhsulları ilə yanaşı ölkədə digər əkinçilik məhsullarının inkişafına da diqqət yetirilir. Paxlalı bitkilərin, bostan və tərəvəz bitkilərinin əkilməsi üçün ayrılan torpaq sahələri genişlənmiş və bu bitkilərin istehsalı artmışdır. Belə ki, 2002-2003-cü ilin məlumatlarına əsasən paxlalı bitkilərin istehsalı 25%, tərə-

vəz və bostan bitkilərinin istehsalı isə 1992-1993 cü illər ilə müqayisədə 50% artmışdır.

Müharibədən sonra ölkə sənayesi inkişaf etdikcə onun xammala, xüsusən, texniki bitkilərə ehtiyacı artdı. Bu ehtiyacları əsasən İranın kənd təsərrüfatı ödəmişdir. Ölkədə şəkər çuğundurunun, şəkər qamışının, pambığın, günəbaxanın, soya bitkisinin və çayın istehsalı əhalinin artan tələbləri ilə yanaşı artmağa başladı.

Bağçılıq İran kənd təsərrüfatının əsas sahələrindən biridir. İran dünya bazarlarına quru meyvə ixrac edən əsas ölkələrdən biridir. Dünya bazarlarında satılan zəfəranın 80%-i, püstənin 60%-i, xurmanın 19%-i, kişmiş və ərik qurusunun 8,5%-i, limonun 8%-i İranın payına düşür. Buna görə də İranda istehsal olunmuş quru meyvələrə ehtiyacın ildən-ilə artması səbəbinə İranda meyvə istehsalı kənd təsərrüfatının əsas sahələrindən biri kimi qalmaqdadır. Ölkədə hər il xeyli miqdarda alma, armud, üzüm, sitrus meyvələri, xurma, əncir, nar, püstə, badam, fındıq, zeytun və başqa meyvələr istehsal olunaraq həm daxili, həm də xarici bazara çıxarılır.

## SƏNAYE

XX əsrin 30-cu illərinə qədər İranda sənayenin ənənəvi formaları – sənətkar emalatxanaları, evdə əmtəə istehsalı və bu kimi başqa yerli sənaye sahələri inkişaf etmişdi. Ənənəvi olaraq istehsalın ən çox mərkəzləşmiş yeri bazarlar idi. Burada sənətkarlar müxtəlif birliklərdə birləşərək, həm əmtəə istehsal edir, həm də onu satırdılar. İranın yerli sənayesinin istehsal etdiyi mallar, o cümlədən xalçalar, zinət əşyaları və s. indi də dünya bazarlarında alınmaqdadır. İranda sənayenin inkişafı prosesi ötən əsrin 30-cu illərində başlamış, 60-70-ci illərində isə inkişafı-

nın yüksək səviyyəsinə çatmışdır. XX əsrin 60-70-ci illərində dövlət tərəfindən həyata keçirilmiş ölkənin sənayeləşdirilməsi əsasən idxal yönümlü idisə, İslam inqilabından sonra sənaye sahələrində həyata keçirilən siyasət ixrac yönümlü xarakter daşımağa başladı. Keçmiş illərdən fərqli olaraq İran dövləti neftdən əldən edilən gəlirlər hesabına xaricə ixrac edilə bilən mallar istehsal edən texnologiyalar alıb, ölkədə quraşdırmağa başladı. İran sənayesi artıq qara və əlvan metallurgiya, neft emalı və neft-kimya, əczaçılıq, avtomobil sahələrində istehsal olunan malları ölkədən kənara ixrac edə bilir. Belə bir inkişafı əldə etmək üçün İran İslam Respublikası hökuməti inqilabın ilk illərində milliləşdirdiyi iri sənaye müəssisələrini yenidən özəlləşdirmiş, zərərlə işləyən dövlət müəssisələrinə dotasiya verilməsini dayandıraraq, onları ya bağlamış, ya da özəl sektora satmış, qiymət siyasətinə dövlətin müdaxiləsini dayandırmışdır.

Qeyd etmək lazımdır ki, İran sənayesi ölkədə qəbul edilmiş ənənəvi sistemə görə üç əsas sahədən; neft, dağ – mədən və emal saneyesi sahələrindən ibarətdir.

## NEFT SƏNAYESİ

Neft sənayesi İran İslam Respublikası iqtisadiyyatının ən çox inkişaf etmiş sahəsidir. Neft sənayesi ötən əsrin ortalarından başlayaraq həm bilvasitə, həm də bilavasitə İranın iqtisadi inkişafına, vahid xalq təsərrüfatı sisteminin yaradılmasına böyük təsir göstərməkdədir.

İranda neft sənayesinin tarixi Məscidi-Süleyman adlanan yerdə 1909-cu ildə qazılmış ilk neft quyusu ilə başlamışdır. Bu neft quyusunun qazılmasından sonra keçmiş on illiklər ərzində neft sənayesinin strukturu və texniki imkanları xeyli genişlənmiş

və təkmilləşmişdir. Hal-hazırda böyük və münəzzəm bir təşkilata malik olan İran milli neft şirkəti İran İslam Respublikası Neft Nazirliyinin tabeliyində fəaliyyət göstərir.

İran İslam Respublikası dünyanın neft istehsal edən ən böyük dövlətlərindən biridir. Bütün dünyada istehsal edilən neftin 5%-i İranın payına düşür. Kəşf edilmiş neft ehtiyatlarına görə İran dünyada Səudiyyə Ərəbistanı, ABŞ və Rusiyadan sonra 4-cü yeri tutur. Rəsmi surətdə yayılmış məlumatlara görə İranın ümumi neft ehtiyatlarının miqdarı 370 milyard barrel və ya 50 milyard ton təşkil edir. 2003-cü ilin əvvəlinə olan statistik məlumata əsasən həmin ildə ölkədə istehsal olunmuş xam neftin həcmi 1533 mln.barrel təşkil etmişdir. Bu rəqəm 1992-1993 –cü illərdə istehsal edilmiş xam neftin miqdarından 285 milyon barral çoxdur. Həmin illərdə İran 1248 mln. barrel neft istehsal etmişdi. Ölkədə çıxarılmış neftin emalı üçün həm inqilabdan əvvəl, həm də inqilabdan sonra Abadan, Ərak, İsfahan, Bəndər-Abbas, Təbriz, Kermanşah, Şiraz və Lavan şəhərlərində neftayırma zavodları tikilmişdir. 2003-cü ilin əvvəlinə olan məlumata əsasən bu zavodlarda il ərzində 538010 min barrel xam neft emal edilmişdir. Bunun 8833 kub metri maye qaz , 38551 kub metri benzin, 24688 kub metri kerosin, 71923 kub metri dizel yanacağı, 80134 kub metri mazut, 2740 kub metri aviasiya yanacağı, 891 kub metri motor və sənaye yağları, 7027 kub metri isə bitum (qətran) təşkil etmişdir.

İran İslam Respublikası neft istehsal edən və onu xaricə ixrac edən ölkədir. İran beynəlxalq OPEK təşkilatının ən fəal üzvlərindəndir. İran neft sənayesi nazirliyinin verdiyi məlumata görə 2006-cı ildə ölkə xaricinə 2400000 barrel neft ixrac etmişdir. Həmin ildə İranın neftdən əldə ediyi gəlirlərin miqdarı 51,3 milyard ABŞ dolları olmuşdur.

İranda qazdan istifadə edilməsi tarixi Məscidi-Süleymanda ilk neft quyusunun qazılması ilə eyni bir vaxta düşür. 1971-ci ildə Əhvaz, Ağa-Çari və Marun neft yataqlarından çəkilmiş ilk qaz kəməri ilə İranda qazın kəmərlər vasitəsi ilə nəql edilməsi tarixi başlamışdır.

Neft Sənayesi Nazirliyinin məlumatına görə İran qaz ehtiyatlarına görə Rusiyadan sonra dünyada ikinci yeri tutur. Hesablamalara əsasən onun həcmi 26 trilyon kub metrdir ki, bu da dünya qaz ehtiyatlarının 18% -ni təşkil edir.

Qaz ehtiyatlarından səmərəli istifadə edilməsini təşkil etmək məqsədi ilə 1966-cı ildə milli qaz şirkəti yaradılmışdır. Bu şirkət hal-hazırda İran islam Respublikası neft sənayesinin tərkibindədir. İran milli qaz şirkəti təbii qazın istehsalı, emalı, nəql edilməsi və satışı ilə məşğul olur.

2003-cü ilin əvvəlinə olan statistik məlumatlara əsasən İranda gündəlik olaraq 336 milyon kub metr kondensatlı və 288 milyon kubmetr yüngül qaz istehsal edilmişdir.

Qaz sənayesinin inkişafı ilə yanaşı olaraq qaz kəmərləri sistemi də yaradılmışdır. 2003-cü ilin məlumatlarına əsasən İranın 439 böyük şəhərinə qaz kəməri çəkilmişdir. Bu şəhərlər İranın bütün ostanlarına aiddir. Bu şəhərlərdə əhali və sənaye obyektləri bəzi yerlərdə tam, bəzi yerlərdə isə qismən qaz boru xətləri ilə təmin edilmişlər.

Ölkədə maye qazın istehsalı və onun satışı lazım olan səviyyədə təşkil edilmişdir. Son illərdə maye qazın istehalı xeyli, artmışdır. Belə ki, 2002-ci ildə maye qazın istehsalı 1328 min ton təşkil etmişdir.

## DAĞ – MƏDƏN SƏNAYESİ

İran İslam Respublikası neft və qazdan başqa digər faydalı qazıntılarla da, zəngindir. Ölkədə daş kömür, dəmir filizi, sink, qurğuşun mis, qızıl, xrom, manqan, boksit və s. faydalı qazıntıları vardır. Bu faydalı qazıntıların istehsalı və istismarı qədim dövrlərdən aparılsa da, ötən əsrin 60-70-ci illərində ölkədə yaradılmağa başlamış sənaye kompleksləri və inşaat işləri faydalı qazıntıların sənaye üsulu ilə istismarının əhəmiyyətini artırmışdır. Buna görə də 1983-cü ildə ölkədə faydalı qazıntıların istismarını tənzimləyən qanun qəbul edildi. Bu qanuna əsasən kəşfiyyatı, çıxarılması və emalına görə bütün faydalı qazıntılar dörd kateqoriyaya bölündü.

Birinci kateqoriyaya inşaatda və inşaat materiallarının hazırlanmasında istifadə olunan faydalı qazıntılar aid edildi. Bunlar tikintidə istifadə olunan daşlar, mərmər, dolomit, təbaşir, gil, həmçinin xörək duzu, gips, qum və çınqıl mədənləridir. Bu faydalı qazıntıları istər dövlət, istər koperativ, istərsə də özəl şirkətlər kəşf və istismar edə bilərlər.

İkinci kateqoriyaya dəmir filizi, xrom, mis, nikel, qalay, qızıl, sink, qurğuşun, titan, müxtəlif nitrat, fosfat duzları, mineral sular, asbest, kükürd, qrafit, qiymətli daşlar və s. faydalı qazıntılar daxildirlər. Onların kəşfiyyatı və istismarına həm özəl, həm də dövlət şirkətləri cəlb oluna bilərlər.

Üçüncü qrup faydalı qazıntılara neft və qaz yataqları daxildirlər. Son illərdə həyata keçirilmiş islahatlara əsasən onların kəşfiyyatı və istismarında da dövlət şirkətləri ilə yanaşı, həm özəl, həm də xarici şirkətlər iştirak edə bilərlər.

Dördüncü qrup faydalı qazıntılara isə radioaktiv materiallar daxildirlər. Onların istismarı isə ancaq dövlətin səlahiyyətindədir

Qeyd etmək lazımdır ki, 1983-cü ilin qanununa əsasən islam inqilabının ilk illərində bütün iri faydalı qazıntı mədənləri milliləşdirildi. Bu bir çox mədənlərin istismarının dayanmasına, hətta bəzilərinin ləğvinə səbəb oldu. 1985-ci ildə qanuna edilmiş əlavələr nəticəsində strateji əhəmiyyət daşımayan mədənlərin kəşfiyyatına və istismarına özəl şirkətlərin cəlb olunmasına icazə verildi.

2002-ci ilin statistik məlumatlarına əsasən ölkədə 2886 ədəd faydalı qazıntı yatağı qeydə alınmışdır. Bunların 2543 ədədi özəl şaxta və ya mədənlərdir. Bu mədənlərin 83-ü daş kömür, 24-ü dəmir filizi, 11-i qurğuşun və sink, 3-ü qızıl, 9-u mis, 23-ü xrom, 9-u manqan, 6-ı boksit, 1028-i qum və çınqıl, 503-ü müxtəlif növ bəzək daşı, 180-i əhəng daşı, 199-u təbaşir, 61-i müxtəlif növ duz, 92-si silisium və s. yataqlarıdır. Bu mədənlərdə 2002-ci ildə 1,4 mln. ton daş kömürü, 11,5 mln. ton dəmir filizi, 579 min ton sink və qurğuşun, 453 min ton mis filizi, 174 min ton xrom, 140 min ton manqan filizi, 65 min ton boksit, 46,2 mln. kub metr qum və çınqıl, 10,4 mln. ton bəzək daşları və başqa faydalı qazıntılar istehsal edilmişdir.

Faydalı qazıntı yataqlarının kəşfiyyatı və istismarına istər özəl, istərsə də, dövlət sektoru tərəfindən qoyulan kapital qoyuluşlarının həcmi də xeyli artmışdır. 1998-ci ildə faydalı qazıntı yataqlarının istismarına və kəşfiyyatına (neft və qazdan başqa) 106,5 milyard rial kapital qoyuluşu edilmişdisə, 2002-ci ildə bu rəqəm 667,9 milyard rial olmuşdur.

## EMAL SƏNAYESİ

Ötən əsrin 60-70-ci illərində həyata keçirilmiş ölkənin sənayeləşdirilməsi siyasətinin əsas istiqamətini sənayenin yüksək texnologiyalara malik emal sahələrinin yaradılması təşkil edirdi.

Həmin illərdən başlayaraq dövlət tərəfindən emal sənayesi sahələrinə aid müəssisələrin yaradılmasına xüsusi diqqət yetirilməyə başlanmışdır. İranda islam inqilabı qalib gəldikdən sonra sənayenin emal sahələrinin inkişafına xüsusi əhəmiyyət verilməsi davam etdirilmişdir. Onu göstərmək lazımdır ki, əgər emal sahəsində sənaye müəssisələrinin təsis edilməsi üçün sənaye nazirliyi tərəfindən 1997-1998-ci illərdə 9182 lisenziya verilmişdisə, 2002-2003-cü illərdə bu rəqəm 27101 olmuşdur.

Son illərdə emal sənayesində iri sənaye obyektlərinin sayı böyük sürətlə artmağa başlamışdır. Ölkədə əgər 1997-ci ildə işçilərinin sayı 100 və daha çox olan 1351 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, 2002-ci ildə belə müəssisələrin sayı artıq 1629 olmuşdur. Bu müəssisələrin 1205-i özəl sektora, 424-ü isə dövlət sektoruna aiddir. Statistik məlumatlara əsasən emal sənayesi müəssisələrində 2002-ci ildə 652107 nəfər adam işlə məşğul olmuşdur.

İran İslam Respublikası emal sənayesinin sahələri çox və genişdir. Hazırda emal sənayesinin ərzaq məhsullarının istehsalı (tütün və tənbəki daxil olmaqla), toxuculuq, parça istehsalı, hazır geyim istehsalı, dəri və dəridən tikilmiş məmulatların istehsalı, ağac və ağac emalı, kağız istehsalı, çap məhsullarının nəşri, koks olunan kömür istehsalı, kimyəvi maddələrin hazırlanması və kimya məhsullarının emalı, rezin və rezin məmulatlarının hazırlanması, metallurgiya və maşınqayırma, energetika maşınqayırması məhsullarının istehsalı, tibbi avadanlıqlar və cihazla-

rın hazırlanması, nəqliyyat vasitələrinin istehsalı, mebel sənayesi və s. kimi sahələri İran iqtisadiyyatının və əhalisinin sənaye və ərzaq məhsullarına olan tələbatının əsas hissəsini təmin edirlər.

İran İslam Respublikasının emal sənayesi müəssisələrinin 40%-i Tehran şəhərində cəmləşmişdir. Tehrandan başqa İsfahan (toxuculuq və qara metallurgiya), Təbriz (ağır və yüngül maşınqayırma), Qəzvin və Savə (yüngül sənayenin müxtəlif sahələri), Rəşt (elektrotexnika və elektron maşınqayırması), Ərak (alüminium sənayesi və maşınqayırma), Əhvaz (maşınqayırma və metal emalı), Şiraz (neft kimyası və elektron sənayesi), Abadan və Bəndər-Xomeyni (neft-kimya və neft enmalı) şəhərləri də İranın emal sənayesi mərkəzləri hesab edilirlər.

Statistik məlumatlara əsasən İran İslam Respublikasının emal sənayesi 2002-2003-cü illərdə 18180 ton balıq konservi, 1113 min ton qənd və şəkər tozu, 4818 milyon butulka alkoqolsuz içkilər, 13,4 milyard ədəd siqaret, 551 milyon metr müxtəlif növ parçalar, 51875 mln. kv.metr maşınla toxunmuş xalça məmulatları, 315502 ton kağız məhsulu, 306249 ton yuyucu tozlar, 24,8 mln. ton sement, 76827 min kv.metr kaşı və keramika məhsulları, 346 ədəd kombayn, 12207 traktor, 612 ədəd tikinti maşınları, 212664 ədəd paltar yuyan maşın, 330676 ədəd minik avtomobili, 4303 ədəd yük avtomobili, 1643 ədəd avtobus istehsal etmişdir.

## ELEKTROENERGETİKA

İran İslam Respublikasında energetikanın inkişafına dövlət tərəfindən xüsusi diqqət yetirilir. Bu sahənin inkişafından bütünlüklə İran iqtisadiyyatının texniki səviyyəsi asılıdır. Ötən əsrin 60-70-ci illərində İranda başlamış sənayeləşmə siyasəti birinci növbədə elektroenergetikanın sürətlə inkişaf etməsinə səbəb oldu.

Dövlət bu sahəyə xüsusi diqqət yetirməyə başladı. Nəticədə bu sahənin inkişaf göstəriciləri ümumi daxili məhsul və emal sənayesinin göstəricilərindən xeyli üstün oldu. Elektroenergetika sahəsinə verilən xüsusi diqqət ölkədə elektrik enerjisi istehsalının artmasına səbəb oldu. Belə ki, əgər 1960-1961-ci illərdə ölkədə 690 mln. kvt. saat elektrik enerjisi istehsal edilmişdisə, 1975-1976-cı illərdə bu rəqəm 15703 mln. kvt. saat təşkil etmişdi.

İran İslam Respublikasında energetikanın inkişafı məsələləri ilə Energetika Nazirliyi məşğul olur. İranda son zamanlarda atom energetikasına olan maraq nəticədə atom enerjisi sahəsinin yaranmasına səbəb oldu. Atom enerjisi təşkilatı birbaşa ölkə prezidentinə tabedir, təşkilatın direktoru isə İran hökumətinin tərkibinə daxildir.

2002-2003 cü ilin statistik məlumatlarına əsasən ölkə ərazisində quraşdırılmış enerji mənbələrinin nominal gücü 36795 meqavata bərabər olmuşdur. Bu zaman ölkədə 140 milyon meqavat/saat eletrik enerjisi istehsal edilmişdir. Bu rəqəm 1998-ci il ilə müqayisədə 50% çoxdur. İstehsal edilmiş elektrik enerjisinin 135,2 milyon meqavat/saatı İran İslam Respublikası Energetika Nazirliyinin tabeliyində olan müəssisələrin payına düşür. İstehsal edilmiş elektrik enerjisinin 6,2%-i su elektrik stansiyalarında, 59,3 %-i istilik elektrik stansiyalarında, 21,0%-i dövri sistemli elektrik stansiyalarında, 13,2%-i qaz ilə işləyən elektrik stansiyalarında və 0,3% isə dizel yanacağı ilə işləyən elektrik stansiyalarında istehsal edilmişdir. İran İslam Respublikası hökuməti yaxın gələcəkdə elektrik enerjesinin islehsalını 200-250 milyon meqavat/saata çatdırmağı planlaşdırır.

## NƏQLİYYAT VƏ RABİTƏ

Nəqliyyat İran iqtisadiyyatının ən mühüm sahələrindən biridir. Bu sahəyə həm inqilabdan əvvəl, həm də inqilabdan sonra dövlət tərəfindən həmişə diqqət göstərilmişdir. Hələ 70-ci illərin ortalarında İran hökuməti nəqliyyatın inkişafı üçün hər il büdcənin 14-19%-i miqdarında vəsait ayırırdı.

İran-İraq müharibəsi illərində İran İslam Respublikası hökuməti nəqliyyatın inkişafına daha çox diqqət yetirməyə başladı. Çünki müharibə nəticəsində bir çox mühüm İran limanları dağıdılmışdı. Buna görə də digər limanları genişləndirmək və başqa nəqliyyat sahələrini inkişaf etdirmək lazım gəldi. Müharibə İran nəqliyyatına 514, 7 milyard rial, yaxud ümumi iqtisadi zərərin 9%-i miqdarında ziyan vurmuşdu.

**a) Avtomobil yolları**

İran İslam Respublikasında avtomobil nəqliyyatı nəqliyyatın əsas növü sayılır. Daxili yük daşımalarının 80%-i avtomobillər vasitəsi ilə həyata keçirilir. Son illərdə, xüsusən kənd yerlərində çəkilmiş yeni yolların hesabına ölkənin əsas avtomobil yollarının uzunluğu 2002-ci ildə artaraq 189650 km olmuşdur.

İran İslam Respublikasının avtomobil yollarının əsas istiqamətləri bunlardır:

Tehran – Bazorqan – 781 km.
Tehran – Çalus – 194 km.
Tehran – Şiraz – Buşir – 1230 km.
Tehran – Məşhəd – 966 km.
Tehran – Əhvaz – Bəndər Xomeyni – 1037 km.
Tehran – Qum- İsfahan-Şiraz-Buşir – 1230 km.
Tehran – İsfahan – Zahedan – 1555 km.
Tehran – Rəşt – 325 km.

İran İslam Respublikasının son zamanlar Azərbaycan, Rusiya və digər MDB ölkələri ilə artan iqtisadi əlaqələrinin nəticəsində Tehran – Rəşt-Astara yolunun əhəmiyyəti xeyli artmışdır.

**b) Dəmir yolu nəqliyyatı**

Daxili daşımaların həcminə görə dəmir yolu nəqliyyatı avtomobil nəqliyyatından sonra ikinci yeri tutur və nəqliyyat daşımalarının 10%-ni təşkil edir. 2002-ci ilin statistik məlumatlarına əsasən İran İslam Respublikasının dəmir yolu xətlərinin ümumi uzunluğu 9383 km olmuşdur. Bunun 7265 km əsas dəmir yolu xətləri, qalan hissəsi isə yardımçı və ticarət əhəmiyyətli dəmir yolu xətləridir. İran dəmir yolu siteminin əsas hissəsi, təxminən 4600 km-i islam inqilabından əvvəl çəkilmişdir.

İran İslam Respublikasının əsas dəmiryol xətləri aşağıdakılardır: Xorrəmşəhr, Abadan və Bəndər Xomeyni şəhərlərini Tehran və Xəzər dənizindəki Bəndəre Törkmən ilə birləşdirən 1440 km-lik Trans-İran dəmir yolu, Tehran-Təbriz-Culfa dəmir yolu xətti - 896 km, Tehran- Məşhəd dəmir yolu xətti – 925 km, Tehran – İsfahan – Yəzd – Kerman dəmir yolu xətti – 950 km. Dəmir yolunun Təbriz –Culfa hissəsi 145 km uzunluğunda elektrikləşdirilmişdir.

İranda İslam inqilabından sonra dəmir yol nəqliyyatının inkişafına da diqqət artırılmışdır. Bu sahəyə dövlət investisiyalarının həcmi xeyli artırıldı. Belə ki, İran-İraq müharibəsi zamanı dağılmış dəmir yol xətləri bərpa edildi, Bafq-Bəndər-Abbas dəmir yolu xəttinin tikintisi başa çatdırıldı, 257 km uzunluğunda əlavə dəmir yol xətti çəkildi.

1994-cü ildə Məşhəd – Sərəxs dəmir yolu xətti tikilməyə başlamış və bu xəttin tikintisi artıq başa çatmışdır. Məşhəd – Sərəxs dəmir yolu xətti uzadılaraq Orta Asiya dəmir yolu xətlərinə birləşdirilmişdir.

1979-cu il islam inqilabından sonra tikintisi dayandırılmış Tehran metrosunun tikintisi 1986-cı ildə yenidən bərpa edilmiş və artıq birinci növbə istifadəyə verilmişdir.

Tehran metrosu iki xəttdən ibarətdir.

Birinci xətt şimaldan cənuba – Mirdaməd-Beheşte Zəhra xətti 28 km və ikinci xətt Kərəc-Tehran-Pars xətti – 62 km-dir.

**c) Dəniz nəqliyyatı**

Dəniz nəqliyyatının İran İslam Respublikasının xarici ticarət əlaqələrinin inkişafında, ölkənin ayrı-ayrı mallara olan ehtiyacının ödənilməsində və onun iqtisadi potensialının reallaşmasında xüsusi əhəmiyyəti vardır.

2002-ci ilin statistik məlumatlarına əsasən İran dövlət gəmiçilik şirkətinin və ondan asılı olan şirkətlərin ixtiyarında 109 gəmi olmuşdur. Bu gəmilərin 82-si dövlət gəmiçiliyinin, 8-i İran-Hindistan gəmiçilik şirkətinin, 13-ü «Vəlfəcr» gəmiçilik şirkətinin və 6-sı isə Xəzər gəmiçilik şirkətinin gəmiləridir. Bu gəmilər vasitəsi ilə qeyd olunan dövrdə 3,25 mln. ton yük daşınmışdır.

Məlumat üçün qeyd etmək lazımdır ki, İran-Hindistan gəmiçilik şirkəti 1974-cü ildə təşkil edilmişdir. Bu şirkətin səhmlərinin 51% irana məxsusdur. Bu şirkətin gəmiləri vasitəsi ilə Hindistan və Cənub –Şərqi Asiya ölkələrindən İrana yüklər daşınır.

**d) Hava nəqliyyatı**

İranda İslam inqilabından sonra hakimiyyətə gəlmiş yeni İran hökuməti 60-cı illərin sonu və 70-ci illərin əvvəlində alınmış, uçuş resursları qurtarmaq üzrə olan təyyarə parkını əldə etdi. Hava nəqliyyatı xidmətlərinə artan tələbləri nəzərə alaraq hökumət təyyarə parkını təzələməyi, yeni aeroportların tikilməsini qarşısına məqsəd qoydu.

İran İslam Respublikasında iki əsas hava şirkəti fəaliyyət göstərir. Bunların birincisi «Homa», yaxud «İran eyr», ikincisi isə «Asman» şirkətidir. «Homa» hava yolları şirkəti ölkənin daxilində və dünyanın 50-yə yaxın ölkəsinə uçuşlar həyata keçirir.

1985-ci ildə təşkil edilmiş «Asman» aviasiya şirkətinin təyyarələrində isə əsasən daxili uçuşlar və xarici ölkələrə çarter uçuşları həyata keçirilir.

Statistik məlumatlara əsasən 2002-ci ildə İran İslam Respublikasının aviasiya şirkətlərinin təyyarələrində beynəlxalq reyslərdə 3,5 milyon nəfər, daxili reyslərdə isə 16,8 milyon nəfər sərnişin daşınmışdır.

İslam İnqilabından sonrakı illərdə ölkədə yeni aeroportlar tikilmişdir. 1993-1995 ci illərdə ölkədə 45 aeroport fəaliyyət göstərirdisə, 2000-ci ildə onların sayı artıq 53-ə çatdırılmışdır. Bu təyyarə limanlarının 18-i geniş füzelajlı təyyarələr qəbul etməyə qadirdilər.

**e) Boru kəməri nəqliyyatı**

İranın əsas boru kəmərlərinin uzunluğu 13 min km-dir. Bunun 6 min km-i neft kəməri, 7 min km isə qaz kəmərləridir. 1996-cı ildə 3,9 min km uzunluğunda neft məhsulları nəql edən boru kəməri istifadəyə verilmişdir.

İran İslam Respublikasının neft və neft məhsulları daşıyan əsas boru kəmərləri aşağıdakılardır:

Abadan-Tehran (950 km), Əhvaz – Tehran (750 km), Tehran –Məşhəd (850 km), Tehran –Rəşt (330km), Tehran – Təbriz (550 km), Qaçsəran -Şiraz (330 km).

İranın ən uzun qaz kəməri Behbahan – Astara magistral qaz kəməridir. (1100km). Bu kəmər ilə ölkənin mərkəzi və şimal əyalətləri qaz ilə təmin olunurlar. 1980-ci ilə qədər bu kəmər vasitəsi ilə Azərbaycandan keçməklə keçmiş SSRİ-yə qaz nəql edilirdi.

Hazırda İran - Pakistan - Hindistan qaz boru kəmərinin çəkilməsi layihəsi müzakirə edilməkdədir. Bu layihə həyata keçirilsə çəkiləcək qaz kəmərinin uzunluğu 1600 km olacaqdır.

## RABİTƏ

İran İslam Respublikasının demək olar ki, bütün ərazisi poçt, telefon, və teleqraf rabitəsi ilə təmin olunmuşdur. Dövlət ölkədə rabitənin inkişafını prioritet sahə kimi dəyərləndirir. İslam inqilabından sonra telekommunikasiya xətləri həm ölkə daxilində genişləndirilmiş, həm də xarici ölkələrlə kommunikasiya və rabitə imkanları yaxşılaşmışdır. İnqilabdan sonra yüzlərlə şəhər və şəhər tipli qəsəbə telefon kodu almışdır. İslam inqilabının qalib gəldiyi il ölkədə əgər 500 beynəlxalq telefon kanalı fəaliyyət göstərirdisə, 2000-ci ildə ildə bunların sayı artıq 136860 olmuşdur.

Telefon rabitəsi olmayan və inqilabdan sonra telefon kanallarına qoşulan kəndlərin sayı 1996-cı ildə 14550 idisə, 2002-ci ildə bunların sayı 36020 olmuşdur. Rabitə sahəsində peyk rabitəsindən istifadə edilməyə başlanmış və hazırda ölkənin ucqar əraziləri bu rabitənin xidmətlərindən istifadə edirlər. Ölkədə 7 əsas peyk stansiyası və 51 yarımstansiya fəaliyyət göstərir.

Ölkədə mobil rabitə sürətlə inkişaf etdirilməyə başlamışdır. Mobil telefon abunəçilərinin sayı 1996-cı ildə 59967 nəfər idisə 2002-ci ildə bu rəqəm 2279143 nəfər olmuşdur. Buna baxmayaraq rabitənin bu növünə ehtiyac qalmaqdadır və minlərlə adam növbə gözləməkdədir.

Məlumatların ötürülməsini təmin etmək üçün «Deyta» şirkəti yaradılmışdır. Bu şirkətin köməyi ilə ölkənin bütün təşkilatları öz kompüterlərini həm ölkədaxili şəbəkələrə birləşdirə bilərlər, həm

də, beynəlxalq şəbəkələrə qoşula bilərlər. Bu şirkət «Pəyam» informasiya bazası vasitəsi ilə ümumi və audio informasiyası xidmətləri, informasiya mübadiləsi xidməti, beynəlxalq informasiya bankları ilə əlaqə xidmətləri və «İnternet» xidmətləri göstərir.

## İRAN İSLAM RESPUBLİKASININ MALİYYƏ SİSTEMİ

İslam inqilabından sonra islam dövləti maliyyə sahəsində şah rejimindən qalmış çoxlu sayda problemlərlə üzləşdi. Bu problemlərin sırasında dövlət büdcəsinin kəsirli olmasını, inflyasiyanın yüksək səviyyəsini, silah alınmasına sərf edilən böyük xərcləri, özünü doğrultmayan iri miqyaslı tikinti obyektlərinin maliyyələşdirilməsini, istehlak mallarının həddən artıq idxal edilməsini, maliyyə vəsaitlərinin həm ölkə daxilində, həm də, ölkə xaricində səpələnmiş halda məqsədsiz olaraq xərclənməsini, böyük miqdarda xarici borcun mövcudluğunu və s. qeyd etmək olar. Şah rejiminin siyasəti nəticəsində İran maliyyə kapitalı beynəlxalq ınhisarçı maliyyə kapitalından, ilk növbədə isə Amerika kapitalından asılı vəziyyətə düşmüşdü.

Hakimiyyətə gəlmiş yeni İran hökuməti 1979-cu ilin iyun ayında İranın bank – kredit sisteminin yenidən qurulması haqqında qərar qəbul etdi. Bu qərara əsasən ilk növbədə bütün özəl və xarici banklar milliləşdirildi. Qərara əsasən bu bankların bazasında yeni dövlət banklarının və əyalət banklarının yaradılması nəzərdə tutulurdu.

Özəl  və xarici bankların dövlət əlinə keçməsi kapitalist ənənələrinə uyğun olaraq həyat keçirilmişdi. Yəni, banklar milliləşdirilsə də, onlarda saxlanılan fiziki və hüquqi şəxslərin əmanətləri və əmlakı müsadirə edilməmişdi. Yeni hökumət özünün

bu tədbiri ilə bildirdi ki, o şəriət qaydaları tətbiq edilməklə inkişafın özəl kapitalist yoluna üstünlük verəcəkdir. Bununla da, dünya kapitalist valyuta-maliyyə sistemi ilə şah rejiminin yıxılması ilə qırılmış əlaqələr yenidən bərpa edildi.

Bankların milliləşdirilməsi nəticəsində İran mərkəzi bankı (Banke-mərkəzi-ye İran) İran İslam Respublikasının bank sisteminə başçılıq etməyi davam etdi. Digər bankların ləğvi və ya birləşməsi nəticəsində isə çoxlu kommersiya bankları yaradıldı. Bunlar İran Milli bankı (Banke Melliye İran), hərbi bank (banke sepəh), fəhlələrin rifah bankı (banke refahe kargəran), ticarət bankı (banke tecaret), millət bankı (banke millet), xarici ticarət bankı (banke tecaret xareci), ixracat bankı (bank saderat) kimi banklardır. Ötən əsrin 80-ci illərinin əvvəllərində vilayətlərdə (ostanlarda) çoxlu sayda banklar yaradıldı. Bu bankların fəaliyyəti ostanın ərazisi üzrə məhdudlaşdırılsa da, onlar universal xidmətlər göstərir, borc-əmanət, ticarətin, sənayenin və kənd təsərrüfatının kreditləşdirilməsi kimi funksiyaları həyata keçirirlər.

Ölkədə üç ixtisaslaşdırılmış bank fəaliyyət göstərir. Bunlar məskən bankı (banke məskən), sənayenin və faydalı qazıntı yataqlarının inkişafı bankı (banke touseye sənaye və məaden) və kənd təsərrüfatının inkişafı bankıdır (banke tousee-ye kəşavərzi). Bankların milliləşdirilməsi haqqında qanuna əsasən İran İslam Respublikası bank sisteminin idarə edilməsinin ali orqanı – baş assambleyadır. Bu orqanın tərkibinə iqtisadiyyat, maliyyə, ticarət, sənaye və mədənlər, kənd təsərrüfatı, yaşayış evlərinin tikintisi, plan və büdcə nazirləri daxildirlər. Baş assambleyanın iclasları ildə bir dəfə keçirilir. Bu iclaslarda bankların illik hesabatları dinlənilir, balans və smetalar təsdiq edilir, bankların idarə heyətləri təsdiq edilir və başqa məsələlər həll edilir. Ölkə banklarının fəaliyyətlərini tənzimləmək və idarə etmək üçün

həmçinin bankların ali şurası fəaliyyət göstərir. Bu şuranın tərkibinə mərkəzi və milli bankların idarə heyətlərinin rəhbərləri və assambleyaya daxil olan nazirliklərin nümayəndələri daxildirlər. Son illərdə İranda həyata keçirilməyə başlayan özəlləşdirmə siyasəti nəticəsində ölkədə özəl banklar açılmağa başlamışdır.

1985-ci ildə İran banklarında ilk dəfə olaraq «faizsiz islam bank sistemi» çərçivəsində  faizsiz hesablar açıldı. Bununla əlaqədar olaraq faizsiz suda və kreditlərin verilməsi, banklar tərəfindən pul vəsaitlərinin cəlb edilməsi və onlardan istifadə edilməsinin formaları dəyişdirildi. Orta əsrlərin müsəlman dövlətləri üçün xarakterik olan «Moşarekət», «Mozarebe», «Coəle», «Sələf» kimi formalardan istifadə edilməyə başladı.

«Moşareket» elə bir bank əməliyyatıdır ki, bu zaman bank hər hansı bir müəssisənin kapitalında tam, yaxud qismən iştirak edir və öz səhmlərinin miqdarına uyğun olaraq müəssisənin gəlirlərinin bölünməsində, həmçinin onun məhsulunun bölgüsündə iştirak edir. «Mozarebe» elə bir böyük bank əməliyyatı formasıdır ki, bu zaman bank birbaşa, yaxud dolayısı ilə pul vəsaitinin sahibi olaraq hüquqi və ya fiziki şəxsin şəriki rolunda ticarət əməliyyatlarında və istehsal müəssisəsində iştirak edir, öz xidmətlərini təklif edir. Əkinçilikdə bu növ əməliyyat «mozaree», bağçılıqda isə «Mosaqət» adlanır. «Coəle» bank əməliyyatı növündə banklar istehsal sahəsində və ya icrası müəyyən bir müddət üçün nəzərdə tutulmuş xidmət sahəsində işləri yerinə yetirmək üçün podratçılıq edir və bu zaman podrat müqaviləsi imzalanır.

«Sələf» hər hansı bir məhsulun yağılmamışdan, yaxud istehsal edilməmişdən əvvəl avans ödənilməklə həyata keçirilən alqı-satqı əməliyyatıdır. Bank sistemini islamlaşdırmaqla İran İslam Respublikasının rəhbərliyi belə hesab edir ki, bu sistem

sələmçi kapitaldan fərqli olaraq bank sisteminə daha çox özəl sərmayənin cəlb edilməsinə xidmət edəcəkdir.

İran İslam Respublikasının rəsmi pul vahidi –rialdır. 1 rial 100 dinara bərabərdir. Hazırda İranda tədavüldə aşağıdakı pul işarələri vardır: 10000 rial, 5000 rial, 2000 rial, 1000 rial, 500 rial, 200 rial, 100 rial. Həmçinin 20, 10, 5, 2, 1 riallıq və 50 dinarlıq sikkələr isə demək olar ki, artıq dövriyyədə yoxdur. Qədimlərdə olduğu kimi İranda on rial bir tümən adlanır . 2007-ci ilin əvvəllərindən başlayaraq dövriyyəyə 50000 riallıq əskinaslar buraxılmışdır.

İranda monarxiya rejimi devrildikdən sonra yeni əkinaslar çap edildi. Əskinaslardan şahın şəkli götürüldü və əvəzində yeni İran gerbi həkk olundu.

Hal-hazırda İranda gedən inflyasiya nəticəsində dövriyyədən 10, 20 və 50 riallıqlar demək olar ki, yoxa çıxmışdır.

## DÖVLƏT BÜDCƏSİ

Maliyyə vəsaitinin və bank-kredit sisteminin bütünlüklə dövlət nəzarətinə keçməsi iqtisadiyyatın maliyyələşdirilməsinin yeganə mənbəyi kimi dövlət büdcəsinin əhəmiyyətini artırır. Bu baxımdan İran İslam Respublikasının dövlət büdcəsinin ölkənin ümumi inkişafı üçün əhəmiyyəti çoxdur. İranın müasir büdcə sistemi birdən-birə yaranmır. O, ayrı-ayrılıqda fəaliyyət göstərən dövlət aparatının, plan təşkilatlarının, İran milli neft şirkətinin, həmçinin dövlət müəssisələri büdcələrinin birləşərək vahid dövlət büdcəsi olana qədər bir yol keçir.

İran İslam Respublikasının büdcə sistemi hal-hazırda üç tərkib hissəsindən ibarətdir.

1. Əsas dövlət büdcəsi

2. Dövlət şirkətləri və təsərrüfat hesablı müəssisələrin büdcələri.

3. Ölkənin ümumi büdcəsi

İranda büdcə layihələrinin hazırlanması və tərtib edilməsi ilə birbaşa olaraq planlaşdırma və büdcə nazirliyi məşğul olur. Nazirlik tərəfindən hazırlanmış büdcə layihəsi müzakirə edilib təsdiq edilmək üçün əvvəlcə nazirlər şurasına göndərilir. Nazirlər şurasında müzakirə edilərək təsdiq edilmiş büdcə layihəsi dəyişikliklər və əlavələr ilə birlikdə məclisə göndərilir. Büdcə məclisin plan-büdcə komissiyasında müzakirə edildikdən sonra məclisin müzakirəsinə verilir. Məclis tərəfindən təsdiq edilmiş büdcə «Şuraye negəhban» (mühafizə şurası) tərəfindən təsdiq edildikdən sonra qanuni qüvvəyə minir. İran İslam Respublikasında büdcə ili cari ilin mart ayının 21-də başlayaraq sonrakı ilin mart ayının 20-dək davam edir.

## İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİ

Ötən əsrin 70-ci illərinin sonunda baş vermiş və rejimin dəyişilməsinə səbəb olmuş ictimai-iqtisadi böhran İran iqtisadiyyatının dünya kapitalist bazarına sıx bağlılığını sübut etdi və göstərdi ki, inflyasiya və beynəlxalq kapitalın təzyiqi, İran iqtisadiyyatının ənənəvi sahələrinin təzyiqi kimi hadisələr İran xalqının həyatına həlledici təsir gücünə malikdirlər.

Buna görə də islam inqilabı zamanı xalq kütlələri ölkənin beynəlxalq iqtisadi əlaqələrinin və xarici ticarətinin yenidən qurulmasını tələb edirdi.

İranda hakimiyyətə gəlmiş islam hökuməti həmin dövrdə Quranın və şəriətin hökmlərini nəzərə almaqla «İslam tövhid iqti-

sadiyyatı yaratmaq» ideyasını irəli sürdü. Bu ideyanın xarakterik cəhətlərindən biri iqtisadi təcrid olunma siyasəti idi. İdeyanın müddəalarını həyata keçirmək məqsədi ilə ölkə rəhbərliyi xarici ticarətdə idxalın həcminin azaldılması, onun strukturunun dəyişdirilməsi, xaricdən alınan xammalın və «montaj sənayesi» komponentlərinin alınmasının azadılması, onların ölkə daxilində istehsalı mümkün olan mallar ilə əvəz edilməsi yolunda cəhdlər etdi.

Həmçinin xam neft ixracının azaldılması nəzərdə tutulurdu. Ölkənin xarici valyutaya olan ehtiyacını təmin etmək üçün isə ancaq neft məhsullarının xaricə satılması planlaşdırıldı.

Bütün bu tədbirlər, o cümlədən kənd təsərrüfatının inkişaf etdirilməsi, kiçik və orta sahibkarlığın genişləndirməsi, bank sisteminin «islamlaşdırılması» ölkə rəhbərliyinin fikrincə beynəlxalq aləmdən asılı olmayan «İslam iqtisadiyyatını» yaratmağa gətirib çıxarmalıdır. Lakin «İslam iqtisadiyyatı» yaratmaq yolunda atılan ilk addımlar sübut etdi ki, bu ideya ölkənin iqtisadi inkişafının tələbləri ilə uyğunsuzluq təşkil edir. Bu yol ölkə iqtisadiyyatında böhranların yaranmasına səbəb olur. İnqilabın qələbəsindən sonrakı illər göstərdi ki, tam və geniş miqyaslı xalq təsərrüfatı kompleksinin olmaması, istehsal vasitələri istehsalının zəif inkişaf etməsi və ölkə əhalisinin ərzaq məhsulları ilə tam şəkildə təmin etmək gücünə malik olmayan aşağı məhsuldarlıqlı kənd təsərrüfatının mövcudluğu şəraitində ölkənin təsərrüfat mexanizmi normal fəaliyyət göstərə bilməz.

Ölkə daxilində sosial-iqtisadi problemlərin şiddətlənməsi, neft ixracatından əldə edilən gəlirlərin azalması, iqtisadi həyatın pozulması sənayeyə lazım olan detalların və ehtiyat hissələrinin alınmasının azalması, Amerika banklarında İran pullarının dondurulması və ABŞ tərəfindən İrana tətbiq edilən ticarət em-

barqosu bir daha sübut etdi ki, İran iqtisadiyyatı beynəlxalq iqtisadi əlaqələr olmadan normal inkişaf edə bilməz. Beynəlxalq iqtisadi və ticarət əlaqələrinin əhəmiyyətini nəzərə alaraq İran hökuməti xarici ticarətin mərhələli şəkildə dövlət nəzarətinə götürülməsi qərarına gəldi. Bu məqsədlə İran İslam Respublikası İnqilab Şurası 1980-ci il 10 may tarixində malların tədarükü və bölgüsü mərkəzləri yaradılması barədə qanun qəbul etdi. Bu mərkəzlər ilk mərhələdə İran iqtisadiyyatının nisbətən stabil şəkildə fəaliyyət göstərməsinə xidmət etdilər. 1992-ci ildə isə hökumət bu mərkəzlərin ləğv edilməsi barədə qərar qəbul etdi. Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində İran İslam Respublikası höküməti xarici ticarət üzərində nəzarəti gücləndirdi. İdxalat əməliyyatları həmin dövrdə xüsusi nəzarətə götürüldü. İdxal edilən malların siyahısı ildən - ilə məhdudlaşdırıldı. Lakin 90-cı illərin əvvəllərində bu məhdudiyyətlər aradan götürüldü və malların azad idxalına icazə verildi.

Hazırda İran İslam Respublikasının xarici ölkələrlə ticarəti yüksələn xətt üzrə inkişaf etməkdədir. Belə ki, 2002-2003-cü illərdə İran İslam Respublikasının xarici ölkələrlə ticarət mübadilələrinin həcmi 52 milyard ABŞ dolları təşkil etmişdir. Bunun 23,8 milyard dolları idxal edilmiş mallara, 28,2 milyard dolları ixrac olunmuş mallara aiddir. İxracdan əldə edilmiş gəlirin 22,8 milyard dolları neft və qaz satışından əldə edilmişdir. Xarici ticarət balansı ixrac mallarının xeyrinə 4,4 milyard dollardır.

İran İslam Respublikasının idxal etdiyi mallar arasında diri mal-qara, heyvandarlıq məhsulları, müxtəlif növ bitki məhsulları, heyvan və bitki yağları, yeyinti sənayesi məhsulları, kimya sənayesi məhsulları, plastik kütlə və ondan hazırlanmış məhsullar, gön-dəri-xəz məmulatları, ağac və ağac emalı məhsulları, toxuculuq sənayesi məhsulları, müxtəlif növ filizlər, nəq-

liyyat vasitələri, silah və hərbi texnika əsas yer tutur. Xarici ölkələrə ixrac edilən məhsullar sırasında isə kənd təsərrüfatı məhsulları, ərzaq məhsulları, mineral maddələr, kimya sənayesi məhsulları, gön-dəri və meşə sənayesi məhsulları, quru meyvələr, toxuculuq sənayesi malları, hazır geyimlər və ayaqqabı, müxtəlif zinət daşları, maşın və avadanlıqlar, məişət elektrik cihazları, nəqliyyat vasitələri v s. üstünlük təşkil edir.

İrana 1980-1990-cı illərdə ABŞ və Avropanın aparıcı kapitalist dövlətləri tərəfindən ticarət embarqosu tətbiq edildiyinə görə, İran bu illərdə Türkiyə, Cənubi Koreya, Hindistan, Braziliya, Argentina, Pakistan, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri kimi inkişaf edən dövlətlərlə ticarət əlaqələrini genişləndirdi. 1991-ci ildə SSRİ dağıldıqdan sonra isə İran onunla həmsərhəd olan qonşu ölkələrlə, o cümlədən Azərbaycan, Ermənistan, Gürcüstan, Orta Asiya ölkələri və Qazaxıstan ilə birbaşa ticarət əlaqələri yaratdı.

İran İslam Respublikası müstəqilliyini əldə etmiş Azərbaycan Respublikası ilə də ticarət əlaqələri qurmuşdur. 2002-2003-cü ilin statistik məlumatlarına əsasən həmin dövrdə İran İslam Respublikası Azərbaycan Respublikasından 198 milyard rial məbləğində mal idxal etmiş və Azərbaycana 1938,7 milyard rial məbləğində mal ixrac etmişdir.

İran İslam Respublikası OPEK, Qaradəniz İqtisadi Təşkilatı, Beynəlxalq Valyuta fondu, Beynəlxalq Ticarət Təşkilatı kimi təşkilatların fəal üzvüdür.

# TƏHSİL

XIX əsrin ortalarına qədər İranda ancaq dini təhsil sistemi mövcud olmuşdur. Ölkədə çoxlu sayda dini məktəb və mədrəsələr fəaliyyət göstərirdi.

İranda yeni tipli təhsilin banisi Rüşdiyyə ləqəbi ilə məşhur olan görkəmli Azərbaycan maarifçisi Mirzə Həsən Təbrizi olmuşdur. İstanbulda, Qahirədə və Beyrutda təhsil almış Mirzə Həsən Rüşdiyyə vətənə qayıtdıqdan sonra 1888-ci ildə İranda ilk dəfə yeni tipli məktəb açmışdır. Təbrizin Şeşkəlan məhəlləsində açılan bu məktəbdə Rüşdiyyənin türk dili əsasında tərtib etdiyi “sövti” əlifba ilə uşaqlara Azərbaycan və fars dillərində hesab, həndəsə, tarix, coğrafiya fənləri tədris edilirdi. Lakin bu məktəbin ömrü uzun sürməmiş və mürtəce ruhanilərin təsiri altında məktəb bağlanmışdı. Rüşdiyyə özü isə Qafqaza mühacirət etməyə məcbur olmuşdur. Mirzə Həsən Qafqazda 6 il yaşamış, Tiflisdə yaşayan müsəlman uşaqları üçün yeni tipli məktəblər aça bilmişdi. 1896 –cı ildə o, Tehrana qayıtmış və burada həmin ildə yeni tipli məktəbini işə sala bilmişdi

X1X əsrin 90-cı illərində İranda dünyəvi təhsil verən təhsil müəssisəsi –darulfünun yaradıldı.

Sonralar dövlət müəssisələrini ixtisaslı məmurlarla təmin etmək məqsədi ilə xarici işlər nazirliyi nəzdində hüquq məktəbi, ictimai işlər nazirliyi nəzdində ali kənd təsərrüfatı məktəbi, maliyyə nazirliyi yanında isə ali ticarət məktəbi təsis edildi. Bu təhsil müəssisələrində dərs deyən müəllimlərin əksəriyyəti əcnəbilər idi.

1909-cu ildə məşrutə inqilabı dövründə İranda maarif nazirliyi yaradıldı və 1911-ci ildə isə icbari ibtidai təhsil haqqında qanun qəbul edildi.

1928-ci ildə verilmiş şah fərmanı ilə maarif sahəsində köklü islahatlar həyata keçirildi və ümumtəhsil məktəblərinin vahid dövlət sisteminin yaradılması ilə İranda dünyəvi təhsilə keçilməsinin əsası qoyuldu. 1934-cü ildə Tehran universiteti təsis edildi.

Ötən əsrin 60-cı illərində «Ağ inqilab» adı altında İranda həyata keçirilən sosial-iqtisadi islahatlar təhsil sistemini də əhatə etdi. Təhsil sistemində aparılan islahatlar nəticəsində ibtidai və orta təhsil sistemi şəbəkəsi genişləndirildi, texniki-peşə təhsili məktəbləri və yeni texniki-mühəndis ali məktəbləri yaradıldı.

Aparılan islahatlar nəticəsində təhsil sahəsində vəziyyət bir qədər yaxşılaşdı və savadsızlığın səviyyəsi nisbətən aşağı düşdü.

Ali təhsil sahəsində də islahatlar aparıldı. ABŞ, Almaniya, Fransa, İngiltərə və Yaponiya kimi inkişaf etmiş dövlətlərin təhsil sahəsindəki təcrübələrinə söykənərək ölkədə yeni universitet kompleksləri yaradıldı. Qeyd edilən ölkələr tərəfindən müasir texniki tədris vasitələri ilə təchiz edilən universitetlərdə təhsil ilə yanaşı elmi-tədqiqat işləri də aparılırdı. Eyni zamanda hər il çoxlu sayda İran vətəndaşı inkişaf etmiş ölkələrin aparıcı ali məktəblərində təhsil almaq üçün bu ölkələrə göndərilirdilər. Qeyd etmək lazımdır ki, xaricə təhsil almağa getmiş İranlı tələbələrin çoxu vətənə qayıtmamışlar. Onlar getdikləri ölkələrdə müxtəlif sahələrdə çalışırlar.

İslam İnqilabından sonra 1980-ci il iyun ayının 13-də «İslam mədəni inqilabı»nın elan edilməsi ilə təhsil sistemində köklü dəyişikliklər həyata keçirilməyə başlandı. «İslam mədəni inqilabı»nın elan edilməsi ilə təxminən eyni vaxtda İranda fəaliyyət göstərən bütün ali məktəblər bağlandı və onların tələbələri tətilə buraxıldılar. Bu tətil 3 il davam etdi.

«İslam mədəni inqilabı»nı həyata keçirmək üçün mədəni inqilab qərargahı yaradıldı. 1984-cü ildə qərargah mədəni inqilab ali şurasına çevrildi. 15 nəfərdən ibarət olan bu şuranın tərkibinə parlamentin (islam məclisi şurası) sədri, baş nazir və ali məhkəmənin sədri daxil edildilər.

Mədəni inqilab ali şurasına şəxsən ayətulla Xomeyni rəhbərlik edirdi.

Mədəni inqilab ali şurası «təhsilin islamlaşdırılması» haqqında konsepsiya qəbul etdi. Bu konsepsiyaya əsasən tədris prosesinin forması və təhsilin məzmununda dəyişikliklər həyata keçirildi. Bu konsepsiyaya görə təlimin əxlaqi-etik cəhətləri təlimin elmi-informatk cəhətlərinə nisbətən üstünlük təşkil edir.

Bütün universitetlərin tədris proqramlarına islamşünaslıq fənni daxill edildi. Universitetlərdə islam mədəni inqilabını həyata keçirən orqan – universitet cihadı (cehade daneşqahi) yaradıldı və bunlara Ayətulla Xomeyninin xüsusi nümayəndələri rəhbərlik edirdilər.

Orta təhsil sahəsində islahatlar mədəni inqilab üzrə ali şuranın tabeliyində olan xüsusi komitələr tərəfindən həyata kesirilməyə başladı. Məktəblərdə və digər orta təhsil müəssisələrində «İslam cəmiyyətləri» (əncomənhaye eslami) yaradıldı. Orta təhsil sahəsində aparılan struktur dəyişiklikləri çərçivəsində 1980-1985-ci illərdə orta və ali təhil sahəsində mövcud olan dərslik və dərs vəsaitlərinin məzmununda əsaslı dəyişikliklər edildi. Tədris proqramlarına yeni fənnlərin daxil edilməsi ilə ibtidai məktəblər, orta məktəb və ali məktblər üçün islam dini, islam maarifi və islamşünaslığa dair müvafiq dərsliklər və dərs vəsaitləri hazırlanmağa başlandı. Hümanitar və ideoloji yönümlü fənlərə aid dərsliklərin məzmunlarında köklü dəyişikliklər edil-

məsinə baxmayaraq, təbiət və texniki fənlərə aid tədris materiallarının məzmununda cuzi dəyişikliklər edildi.

İslam inqilabından əvvəl ölkədə savadsızlığın aradan götürülməsi sahəsində müəyyən işlər görülməsinə baxmayaraq, bu problem islam inqilabının qələbəsinə qədər həll olunmamış qalmışdı. Hakimiyyətə gəlmiş İslam hökuməti savadsızlığın ləğv edilməsini özünün ən birinci vəzifələrindən biri elan etdi. İslam inqilabının qələbəsinin ilk ilində İranın dini-siyasi rəhbəri Ayətulla Xomeyni «Savadsızlıqla mübarizə etmək üçün ümumi səfərbərlik» haqqında 1979-cu il dekabrın 29-da xüsusi fərman verdi. Bu fərmana əsasən «savad öyrənmə hərəkatı təşkilatı» (sazmane conbeşe səvadamuzi) yaradıldı. Bu təşkilat savadsızlığı aradan götürmək üçün böyük əksəriyyəti kənd yerlərində olmaqla ölkənin şəhər və kəndlərində məktəblər və siniflər açmığa başladı.

«Savad öyrənmə hərəkatı təşkilatı» öz işini təkcə mülki əhali arasında deyil, orduda, islam inqilabı mühafizələri korpusunda, jandarmeriya və polis işçiləri arasında da təşkil etmişdi. Hərəkatın ordu və polis qüvvələri ilə bağladığı müqaviləyə əsasən hərbi hissələrə xidmətə çağırılan əsgərlər xidmətlərinin ilk üç ayı ərzində ibtidai hərbi hazırlıq kurslarında savadsızlığın ləğvi siniflərində təhsil almalı idilər. «Savadöyrətmə hərəkatı təşkilatı» həmçinin müxtəlif nazirlik və təşkilatlarla da belə müqavilələr bağlamışdı. Müqaviləyə görə nazirlik və təşkilatların tabeliyində olan bütün müəssisələrdə savad öyrətmə sinifləri yaradılmalı idi. Savadöyətmə siniflərinə daha çox savadsız cəlb etmək üçün müxtəlif mənəvi və maddi rəğbətləndirmə üsullarından istifadə edilirdi. Məsələn, bu sinifləri əla qiymətlə qurtaranları müqəddəs yerlərə ziyarətə göndərir, əsgərlərə məzuniyyət verilir, müəssisələrdə çalışanlara isə pul mükafatı verilirdi.

1987-ci ildən başlayaraq əhalinin savadlandırılmasında orduya çağırılmış orta məktəb məzunlarından istifadə olunmağa başlandı. Belə əsgərlər ölkənin ən ucqar yerlərinə, müharibə zonasına düşmüş rayonlara göndərilirdilər və onlar əsgəri xidmət müddətlərində savad öyrətmə siniflərində dərs deyirdilər. Həyata keçirilmiş təbdirlər nəticəsində 10 milyon nəfərə qədər adam bu illər ərzində savad öyrənmə kurslarını başa vurdu. Hal-hazırda İran İslam Respublikasında savadlıların sayı təxminən əhalinin ümumi sayının 78-80%-ni təşkil edir.

İran İslam Respublikasının orta ümumi təhsil məktəbləri üç mərhələlidir: I mərhələ – ibtidai məktəb (1-5-ci siniflər), II mərhələ – orientasiya (rahnomayi) mərhələsi (6-8-ci siniflər), III mərhələ – orta təhsil (9-11 siniflər). Tədris ili İran təqvimi ilə mehr ayının 1-də (22 sentyabr) başlayır və Xordad ayının sonunda (21 iyun) qurtarır.

Statistik məlumatlara əsasən İranın orta məktəblərində 2002-2003 cü illərdə 18,9 milyon nəfər şagird təhsil alırdı. Bunların 9,9 mln. nəfəri oğlan, 9,0 mln. nəfəri isə qızdır. Orta təhsil sahəsində işləyən  işçilərinin sayı isə 700 min nəfərə qədərdir. Statistik məlumatlarda məktəblərin sayı göstərilməsə də  bildirilir ki , orta məktəblərdəki sinif otaqlarının sayı 556 mindir və hər otaqda 30 nəfərə qədər şagird təhsil alır.

İran İslam Respublikasının təhsil sistemində texniki-peşə kadrlarının hazırlığı mühüm yer tutur. Buna görə də 1979-cu il islam inqilabından sonra həm texniki - peşə məktəblərinin, həm də bu məktəblərdə təhsil alan şagirdlərin sayı əhəmiyyətli dərəcədə çoxalmışdır. İran İslam Respublikasının texniki-peşə məktəblərində kadr hazırlığı üç istiqamətdə aparılır: sənaye üçün fəhlə və texniki kadr hazırlığı, kənd təsərrüfatı üçün kadr hazırlığı və xidmət sahələri üçün kadr hazırlığı 2002-ci ilin məlu-

matına əsasən İranda 538-dən çox texniki - peşə məktəbi fəaliyyət göstərir. Bu məktəblərdə 425477 şagird təhsil alır.

1979-cu il islam inqilabından sonra ən çox dəyişikliyə uğrayan sahələrdən biri İranın ali təhsil sistemidir. Belə ki, inqilabın qələbəsindən sonrakı ilk 3 il ərzində bütün ali məktəblər bağlandı və ali məktəblərin tələbə-müəllim, professor heyəti arasında «mədəni inqilab» çərçivəsində «əsaslı təmizlik» həyata keçirildi. Universitetlər yalnız 1982-ci ildən başlayaraq mərhələli şəkildə açılmağa başladılar.

İran İslam Respublikasında üç pilləli ali təhsil sistemi fəaliyyət göstərir. 1-ci pillə-bakalavr (kardani-yaxud lisans) 3,5 – 4 il davam edir, 2-ci pillə – magistratura pilləsi (karşenasi, yaxud fouğol-lisans) 2 –2,5 il davam edir. 3-cü pillə doktorantura (doktora) mərhələsidir və təxminən 4-4,5 il davam edir. Ali təhsilin birinci mərhələsini başa vurmuş məzunlar magistratura mərhələsində təhsil almaq üçün ixtisaslarına uyğun olaraq iki il iş stajina malik olmalıdırlar. Abituriyenlər ali məktəblərə daxil olmaq üçün test üsulu ilə ixtisas fənlərindən əlavə fars və ərəb dilləri, islam maarifi, xarici dil (Avropa dillərindən biri) fənlərindən imtahan verməli və ictimai-siyasi məsələlərlə bağlı müsahibədən keçməlidirlər.

İran İslam Respublikasının böyük şəhərlərinin demək olar ki, hamısında universitet, tibb universiteti və özəl azad universitet fəaliyyət göstərir. Bu ali məktəblərdə 2006-cı ilin məlumatlarına əsasən 1 mln.300 min tələbə təhsil alır. Ölkə əhalisinin hər 45 nəfərdən biri ali təhsil ilə əhatə olunmuşdur. Hər il İran ali məktəblərindən 160 min nəfərdən çox tələbə məzun olur. İran İslam Respublikasında fəaliyyət göstərən ali məktəblərin 50-si ali təhsil, elm və texnologiya nazirliyinin, 33-ü səhiyyə nazirliynin və 53-ü isə digər nazirliklərin tabeliyindədir.

1983-cü ildən başlayaraq ölkədə Azad İslam Universiteti fəaliyyət göstərməyə başlamışdır. Bu universitetdə təhsil pulludur və təhsil azad davamiyyət prinsipləri əsasında həyata keçirilir. Azad İslam Universitetinin İranın əksər şəhərlərində filialları fəaliyyət göstərir və onların sayı hazırda 115 –dir. Hazırda azad islam universitetinin 1 milyondan çox tələbəsi vardır

1988-ci ildə İranda «Pəyame nur» universiteti təsis edildi. Bu universitetdə də təhsil ödənişlidir və əyani-qiyabi prinsip əsasında həyata keçirilir. İranın ucqar yerlərində yaşayan hər bir vətəndaş televiziya və radio vasitəsi ilə (son zamanlar internet) «Pəyame nur» universitetində təhsil ala bilər. Hal-hazırda bu universitetin ölkə üzrə 130 filialı fəaliyyət göstərir və bu filiallarda 200 mindən çox tələbə təhsil alır.

Əlavə olaraq onu qeyd etmək lazımdır ki, İran konstitusiyasının 15-ci maddəsində milli azlıqların öz ana dillərində təhsil almaq hüququ nəzərdə tutulsa da, bu maddə islam inqilabından 32 il keçməsinə baxmayaraq yerinə yetirilməmişdir və milli azlıqların dilində heç bir rəsmi təhsil müəssisəsi yoxdur. İran İslam Respublikasında tədris dili fars dilidir və tədrisin xarici dillərdə aparılmasına qadağan qoyulmuşdur.

## SƏHİYYƏ

İran əhalisinin normal tibbi xidmətilə təmin olunmasının səviyyəsi uzun illər çox aşağı səviyyədə olmuşdur. Əhalinin sağlamlığının sistemli şəkildə qorunmasının təşkil edilməsinə İranda ötən əsrin 30-cu illərində başlanmışdır. Kənd yerlərində təmiz su mənbələri olmadığına görə ölkəni yoluxucu xətəliklər, o cümlədən vəba, malyariya və digər xəstəliklər bürümüşdü. Uşaq ölümünün səviyyəsi çox yüksək idi.

XX əsrin 60-cı illərindən başlayaraq İran hökuməti əhaliyə səhiyyə xidmətlərini yaxşılaşdırmaq məqsədi ilə tədbirlər həyata keçirməyə başladı. Bu məqsədlə yarım hərbi «səhiyyə korpusları (sepahe behdaşt) yaradıldı. Bu korpuslarda xidmət etməyə çağırılmış hərbiçilər 14 aylıq hazırlıqdan sonra səhiyyə xidmətini təşkil etmək üçün kənd yerlərinə göndərilirdilər.

Lakin həyata keçirilmiş bütün tədbirlərə baxmayaraq, əhaliyə səhiyyə xidmətlərinin səviyyəsi aşağı idi və islam inqilabından sonra hakimiyyətə gəlmiş yeni hökumət səhiyyə sahəsində köklü dəyişikliklər aparmaq üçün ciddi addımlar atmalı oldu. İraq ilə aparılan 8 illik müharibə səhiyyə sahəsinə kifayət qədər vəsait ayrılmasına mane oldu. Döyüşlər gedən ərazilərdə çoxlu sayda xəstəxana və digər səhiyyə müəssisələri dağıdıldı.

Müharibə başa çatdıqdan sonra səhiyyənin inkişafı üçün tədbirlər həyata keçirilməyə başladı. Bu məqsədlə İran hökuməti səhiyyə nazirliyinin təqdimatı ilə 1995-1996-cı illərdə xüsusi proqram qəbul etdi. Bu proqramın həyata keçirilməsi çərçivəsində ölkədə 1067 səhiyyə mərkəzi, 181 şəhər və kənd tibb məntəqəsi, 25 doğum evi, sənaye müəssisələrinin fəhlələri üçün 200 səhiyyə evi təsis edildi. Kənd yerlərində işləmək üçün 1000 nəfər mama və 2000 nəfər feldşer hazırlandı. Yeni doğulmuş uşaqların təxminən 85%-i ana südü, paltar və peyvəndlərlə təmin edildi. Həyata keçirilmiş tədbirlər nəticəsində uşaq ölümünün səviyyəsi aşağı düşdü. Bu göstərici 1979-ci ildə 1000 yeni doğulmuş uşağa 120 uşaq idisə, 1998-ci ildə bu rəqəm 26 uşaq olmuşdur.

1994-cü ildən başlayaraq üşaq poliomilliti ilə mübarizə aylıqları keçirilməyə başladı. Bu tədbir nəticəsində 5 yaşına qədər olan milyonlarla uşağa peyvəndlər edildi.

Yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq məqsədi ilə əhalinin, xüsusən kənd əhalisinin keyfiyyətli içməli su ilə təchiz edilməsinə dövlət tərəfindəndən diqqət artırıldı. Hazırda ölkə əhalisinin 91%-i təmiz içməli su ilə təchiz olunmuşdur. 2002-ci ilin statistik məlumatlara əsasən ölkədə 7345 müalicə müəssisəsi fəaliyyət göstərir. Bunların 4957-si şəhərlərdə, 2388-i isə kənd yerlərində fəaliyyət göstərirlər. Bu müalicə müəssisələrinin 5823-ü səhiyyə nazirliyinin tabeliyində olan müəssisələrdir. 546 müalicə müəssisəsi özəl müəssisələrdir. Qalan 976 müalicə müəssisəsi isə müxtəlif qeyri-dövlət təşkilatlarının, yəni ictimai-təminat orqanlarının, xeyriyyə cəmiyyətlərinin, şəhidlər fondunun və s. təsis etdikləri tibb müəssisələridir. Bu müəssisələrdə çarpayıların sayı 100 minə çatdırılmışdır. Kənd yerlərində əhaliyə səhiyyə xidmətləri göstərmək üçün 16022 tibb-feldşer mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlər 20 milyona yaxın əhaliyə xidmət göstərirlər.

Ölkədə tibb avadanlığının və dərmanların istehsalı üçün müəssisələr yaradılmışdır. Ölkədə fəaliyyət göstərən 60-a yaxın zavodda yerli və idxal olunan xammal istifadə olunmaqla, ölkəyə lazım olan dərmanların 95%-i istehsal edilir. Ölkədə əhalinin ümumi tibbi sığortalanması həyata keçirilməyə başlanmışdır.

2002-ci ilin statistik məlumatına əsasən ölkədə səhiyyə nazirliyinin qeydiyyatında olan 21496 ali təhsilli həkim fəaliyyət göstərir. Əhalisinin sayı 73 milyona çatmış bir ölkə üçün bu çox kiçik göstəricidir. Belə ki, əhalinin 3350 nəfərinə bir həkim düşür.

Ölkənin tibbi kadrlara ehtiyacını aradan qaldırmaq üçün İranın bütün iri şəhərlərində və ostan mərkəzlərində tibb univer-

sitetləri təsis edilmişdir. Hazırda ölkədə 50-yə yaxın tibb universiteti və ya institutu fəaliyyət göstərir.

Bütün bunlara baxmayaraq səhiyyə sahəsində problemlər qalmaqda davam edir. Səhiyyə xidmətlərinin pullu olması əhalinin böyük hissəsinin tibbi xidmətlərdən faydalanmasını məhdudlaşdırır. Kənd yerlərində yaşayan əhalinin 25-30 %-dən çoxu müntəzəm tibb xidməti ala bilmir. Tibb xidmətlərinin qiymətlərinin yüksək olmasına görə aşağı gəlirli əhalinin əksəriyyəti ixtisaslaşdırılmış müalicə ala bilmir. Sosial sığorta sisteminə aid olan pulsuz xəstəxanaların sayı isə ölkədə azdır.

## MUZEYLƏR

İran İslam Respublikası qədim tarixə malik ölkədir. Bu ölkədə çoxlu tarixi, mədəni, ədəbi abidələr və ziyarətgahlar vardır. Bu səbəbdən ölkəyə turist axını həmişə çox olmuşdur. İran hökuməti turizmin inkişafına xüsusi diqqət yetirir. Hesablamalara görə hər il İrana iki milyona yaxın turist gəlir. Statistik məlumatlara əsasən 2002-ci ildə İrana gəlmiş xarici turistlərin sayı 1584922 nəfər olmuşdur. Bu rəqəm 1994-cü il ilə müqayisədə 1 milyon nəfər çoxdur. Ölkəyə gələn turistlər İranın məşhur muzeyləri olan «Gülüstan» sarayı muzeyini (Tehran), etnoqrafiya muzeyini (Tehran), milli incəsənət muzeyini (Tehran), arxeologiya muzeyini (Tehran), tətbiqi-incəsənət muzeyini (Tehran), xalça muzeyini (Tehran) və onların eksponatlarını görməyə gəlirlər. Bunlardan başqa İranın başqa şəhərlərində də çoxlu maraqlı muzey və abidələr vardır. Bunların arasında Ərdəbildə şeyx Səfiəddin türbəsini, Məşhəddə «Neqarestan» muzeyini, «Nadir şah» türbəsini, Tusda Firdovsi məqbərəsini, Şirazda «Təxte Cəmşid (Perspolis), Sədinin və Hafizin məqbərələrni, Nişapurda Xəyya-

man məqbərəsini, Təbriz şəhər muzeyini və məşrutə inqilabı muzeyini, İsfahanda «Çehel sütun» muzeyini və s. göstərmək olar.

Məşhəddə şiələrin səkkizinci imamı İmam Rza(ə.s.) ziyarətgahı yerləşir. Hər il minlərlə zəvvar dünyanın bir çox yerindən buraya ziyarətə gəlirlər.

## MƏTBUAT

İranda islam inqilabından əvvəl çoxlu qəzet və jurnal çap edilirdi. Təkcə gündəlik çıxan qəzetlərin sayı 35 ədəd idi. 1978-1979-cu illərdəki inqilabi proseslər zamanı kütləvi informasiya vasitələri cəmiyyəti maraqlandıran bütün məsələlərin əks edilməsində tam azadlıq əldə etdilər. İnqilabi proseslərin kulminasiya ili olan 1979-cu ildə İranda təxminən 450 adda qəzet və jurnal nəşr edilirdi. Bu qəzet və jurnallar müxtəlif partiya, siyasi təşkilat və ya qrupların orqanları idilər. İslam inqilabı qalib gəldikdən sonra İslam inqilab şurası 1979-cu ilin avqust ayında ölkədəki mətbuat və informasiya vasitələrinin fəaliyyətlərini öz nəzarəti altına almağı qərara aldı. Bu məqsədlə 1979-cu il avqustun 6-da mətbuat haqqında qanun qəbul edildi.

Bu qanun mətbuatın leqal xarakterini müəyyənləşdirirdi. Bu qanunla nəşriyyat fəaliyyətlərində qeydiyyat-lisenziya rejimi tətbiq edilirdi. Qanuna əsasən iki növ çap məhsuluna icazə verilirdi. Birincisi – maarif informasiya xarakterli çap məhsulları, ikincisi – iqtisadiyyat və peşə xarakterli çap məhsulları. Qanuna əsasən hökumətin fəaliyyətinin tənqid olunmasına icazə verilsə də, İslam dininə qarşı, ruhani rəhbərlərin və dövlət siyasətinin əleyhinə olan yazıların çap edilməsi qadağan edilirdi. Qanun qüvvəyə mindikdən sonra bir çox qəzetlərin çapı qadağan edil-

di. Ölkədə daxili siyasi vəziyyətin kəskinləşməsi səbəbinə 1981-ci ildə 175 adda qəzet və jurnalın çapı dayandırıldı.

1984-cü ildə mətbuat haqqında yeni qanun qəbul edildi. Bu qanuna görə söz azadlığının idarə olunması və mətbuata nəzarət səlahiyyətləri islam irşadi (inkişafı) və mədəniyyət nazirliyinə həvalə edildi. Mətbuatla bağlı meydana çıxan məsələləri həll etmək üçün xüsusi şura yaradıldı. Mədəniyyət naziri, (və ya onun nümayəndəsi), qanunvericilik və məhkəmə hakimiyyətinin nümayəndələri, bir nəfər universitet professoru və qəzet redaktorları birliyinin bir nəfər nümayəndəsi bu şuraya daxildirlər. Mətbuat orqanlarının qeydə alınması və uçotu, ərizələrə baxılması və yeni lisenziyaların verilməsi adı çəkilən şuranın səlahiyyətlərinə daxildir.

Elan olunmuş rəsmi statistik məlumatlara əsasən 2002-ci ildə İran İslam Respublikasında 1801 adda qəzet və jurnal çap edilmişdir. Bunların 1350 –si Tehranda, 451-i isə İranın başqa şəhərlərində nəşr edilib. Nəşr edilən mətbuatın 125-i gündəlik, 231-i isə həftəlik nəşrlərdir. Nəşr edilən mətbuatın içində ayda bir və ya iki dəfə, yaxud hər üç aydan bir dəfə çap olunan nəşrlər də vardır. İran İslam Respublikasında çap olunan qəzetlərin arasında ən məşhurları «Keyhan», ingiliscə çıxan «Keyhan internasional», «Ettelaat», «Resalət», «Əbrar», «Comhuriye eslami», «İran», «Came cəm» və s. qəzetlərdir. Eyni zamanda «Keyhane əndişe», «Zəne ruz», «Keyhane vərzeşi», «Keyhane bəççeha», kimi həftəlik qəzetlər də çap olunur.

Çap edilən jurnallar arasında isə «Danestəniha», «Keyhane vərzesi», «Donyaye vərzeş», «Film», «Sənəte həmlo-nəğl», «Adinə», «Donyaye soxən», «Ərməğan», «Ayənde», «Daneşmənd», «Nure elm» kimi jurnalların adlarını çəkmək olar.

Eyni zamanda qeyd etmək lazımdır ki, İranda söz azadlığı sahəsində ciddi problemlər mövcuddur. Belə ki, 2000-2004-cü illərdə xeyli miqdarda qəzet və jurnalın nəşri dayandırılmış, bir çox jurnalist həbs edilmişdir.

## RADİO VƏ TELEVİZİYA

İran milli radiosunun yaranma tarixi 1940-cı il 21 aprel hesab edilir. Həmin ildə Şimranda radiostansiyanın tikintisi başa çatdı. İlk dövrlərdə İran radiosunun verilişləri cəmi 5 saat yayılırdı. 1960-cı illərin əvvəllərində isə artıq Tehrandan başqa İranın bir çox böyük şəhərlərində də yerli radio şəbəkələri fəaliyyət göstərirdi. 1961-ci ildən başlayaraq İran radiosu xarici dillərdə, o cümlədən ingilis, rus, ərəb və türk dillərində verilişlər yaymağa başladı. 1958-ci ildə isə İranda televiziya verilişləri yayılmağa başladı.

İslam inqilabı ərəfəsində 10 televiziya mərkəzi fəaliyyət göstərirdi. İran televiziyasının malik olduğu dörd kanal vasitəsi ilə informasiya proqramları, bədii və sənədli filmlər, gənclər, qadınlar, uşaqlar, və əhalinin digər təbəqələri üçün xüsust verilişlər göstərilirdi.

İran televiziyalarından əlavə İranda Amerika silahlı qüvvələrinin xüsusi televiziya mərkəzi işləyirdi.

1979-cu ilin fevral ayında İranda islam inqilabı qalib gəldikdən sonra radio və televiziya proqramlarında kəskin dəyişikliklər baş verdi. Verilişlərdə inqilabi və dini mövzular əsas leytmotivə çevrildi. İslam İnqilabının ilk aylarında milli radio və televiziya əməkdaşları arasında «kadr təmizliyi» aparıldı. Xeyli adam işdən kənarlaşdırıldı.

1980-ci ildə ölkədə mədəni inqilab elan edildikdən sonra radio və televiziya İran rəhbərliyinin bu ad altında həyata keçirdiyi siyasətin əsas vasitəsinə çevrildilər. 1982-ci ilə qədər cümə namazları, ruhani alimlərin çıxışları, islam və şəriət dərsləri İran radio və televiziyasının əsas verilişləri idilər. 1982-ci ilin sonlarından başlayaraq radio və televiziyanın verilişlərində dəyişikliklər baş verməyə başladı. Həftədə bir neçə dəfə xarici ölkələrdə istehsal edilmiş inqilabi və hərbi mövzulu filmlər göstərilməyə başladı.

Ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq İran İslam Respublikası radio və televiziyasında ölkədə baş verən yeniləşməyə uyğun olaraq islam və şəriət qaydaları çərçivəsində müasir dövr ilə səsləşən verilişlər yayılmağa başladı.

Hal-hazırda İran İslam Respublikasının dövlət radiosunun birinci proqramı il ərzində 167088 saat müxtəlif mövzulu verilişlər yayır. Yayılan verilişlərin 30,03%-i ictimai xarakterli, 22,98 %-i islam maarifinə aid, 12,74%-i mədəniyyət və ədəbiyyata aid, 4,12 %-i elm və texnologiyaya aid, 7,39 %-i idman və sağlamlığa aid, 9,46 % -i ümumi xəbərlərə aid, 4,86 %-i iqtisadiyyat xəbərləri və 8,41 % digər sahələrə aid verilişlər olur.

Ayrıca fəaliyyət göstərən «Quran» radiosundan isə ildə 4000 saat veriliş yayılır.

Hazırda İran İslam Respublikasında həmçinin «Radio Pəyam», «Radio Fərhəng», «Radio Cəvan» «Radio Tehran» və «Maarif» (mədəniyyət) kimi müstəqil radio şəbəkələri və ostanların yerli radio mərkəzləri fəaliyyət göstərirlər. Təkcə Tehran radiosu hal-hazırda ölkə xaricinə 34841 saat veriliş yayır.

İran İslam Respublikasının radiosu hazırda ərəb, ingilis, ispan, rus, fransız, türk, benqal, bosniya, puştu, urdu, italyan, alman, çin, yapon, qazax, alban, Azərbaycan, gürcü, kürd və erməni dillərində verilişlər yayır. Həmçinin yerli Təbriz və Urmiya

radioları Azərbaycan dilində, Xorasan radiosu özbək, tacik və dəri dillərində, Sistan və Bəlucistan radiosu puştu və urdu dillərində, Gülüstan radiosu isə türkmən dilində verilişlər yayırlar.

İran İslam Respublikasının televiziyası öz verilişlərini 4 kanalda və həmçinin «Quran», Xəbərlər» və «Təhsil» kanallarında yayır. Bunlardan əlavə Tehran kanalı və ostan mərkəzlərinin televiziya kanalları da fəaliyyət göstərirlər. 2002-ci ildə İran telekanalları vasitəsilə yayılan verilişlərin miqdarı 42581 saat olmuşdur. Bu verilişlərin 21,04%-i islam maarifinə, 16,10%-i mədəniyyətə, 12,32%-i ictimai verilişlərə, 11,74%-i ümumi xəbərlərə, 18,80%-i idman və sağlamlığa, 21,01%-i isə başqa mövzulara aid olmuşdur.

Tehran televiziyası xarici ölkələrə də verilişlər yayır. Bu verilişlər urdu, ingilis, bosniya, Azərbaycan türkcəsi, Türkiyə türkcəsi, rus, ərəb, fars, fransız və kürd dillərində yayılırlar. Saatların miqdarına görə verilişlər ən çox fars dilində olur. Bu baxımdan ikinci yeri isə Azərbaycan türkcəsi tutur-1793 saat. Bu Azərbaycan tamaşaçısına yönəlik təbliğata İran tərəfindən xüsusi əhəmiyyət verildiyinin göstəricisidir.

## KİNO VƏ TEATR

İran kinematoqrafiyasının tarixi ötən əsrin 20-ci illərindən başlayır. Həmin illərdə İranın ilk səssiz filmi çəkilmiş, 1945-ci ildə İranda «Mitra film» adında ilk kinostudiya yaradılmışdır. Bu studiyada İranın tam metrajlı ilk bədii filmi çəkilmişdir.

XX əsrin 60-70-ci illərində İranda həyata keçirilmiş, «ağ inqilab» siyasəti çərçivəsində milli kino sənayesinin inkişaf etdirilməsinə diqqət çoxaldılmış və bu məqsədlə dövlət tərəfindən müəyyən tədbirlər həyata keçirilmişdir. Nəticədə həmin dövrdə

70-dən çox özəl kino şirkəti və studiya yaradılmış, çoxlu kino-teatrlar tikilmişdi.

Bu studiyalarda istehsal edilən filmlərin çoxu kommersiya xarakterli idi və əksər hallarda Qərbi Avropa, Hindistan, Amerika döyüş və vestern filmlərini gah təkrar, gah da təqlid edirdi. Lakin bunlarla yanaşı, İran kino xadimləri həmin dövrlərdə intellektual xarakterli uğurlu bədii və sənədli filmlər yarada bilmişdilər. İran kinematoqrafçılarının istehsal etdikləri bir neçə sənədli film Kann, Venetsiya, Karlovı Varıda keçirilmiş kinofestivallarda mükafatlar qazanmışdılar.

1978-1979-cu illərdə İranda baş vermiş inqilabi hadisələrə qədər İran kinosunda aparıcı mövzular Qərb həyat tərzini təbliğ etməkdən ibarət idi. Ölkə kino-teatrlarında isə əsasən ABŞ-da istehsal edilmiş filmlər göstərildi.

İranda 1979-cu il islam inqilabından sonra islam hökuməti kino sənətini və İran kinematoqrafiyasını nəzarət altına aldı. İran kinematoqrafiyası Ayətulla Xomeyninin elan etdiyi «Kino insana və onun tərbiyə edilməsinə xidmət etməlidir» sözlərini özünün əsas şüarına çevirdi.

İran islam inqilabının elan etdiyi tələb və prinsiplərə cavab verməyən filmlər məhv edildi.

1980-cı ildə ölkədə elan edilmiş mədəni inqilabdan sonra İran filmlərinin əsas mövzusu islam mövzusu oldu. Kino sənayesində bir sıra struktur dəyişiklikləri həyata keçirildi. Kinomatoqrafiya sahəsində ixtisaslaşdırılmış təşkilat və fondlar yaradıldı. «Sima film», «Farabi» adlı yeni kino təşkilatları yaradıldı. 1983-cü ildən başlayaraq isə İranda beynəlxalq «Fəcr» kinofestivalı keçirilməyə başladı.

İstehsal edilmiş filmlərin sayı da artmağa başladı. Belə ki, əgər 1982-ci ildə İran İslam Respublikasında cəmi 6 film çəkil-

mişdisə, 1984-cü ildə artıq 18 film istehsal olunmuşdu. Hal-hazırda İran İslam Respublikasında ildə 75-80 film istehsal edilir.

İslam inqilabının qələbəsindən sonra ötmüş illər ərzində İranda istehsal edilmiş filmlər beynəlxalq kino festivallarında geniş nümayiş etdirilməyə başlamışdır. İran filmləri Yeni Dehli, Zaqreb, Leypsiq, Monte-Karlo, Dəməşq, Bilbao, Tampere, Kann, Moskva beynəlxalq kino festivallarının daimi iştirakçılarıdırlar.

Təkcə 1998-ci ildə dünyanın 55 ölkəsində İran filmləri 583 dəfə nümayiş etdirilmişdir. Elə həmin ildə İran filmləri beynəlxalq festivallarda 60 mükafat almış, İran rejissoru Məcidinin «Səma uşaqları» filmi isə «Oskar» mükafatına nominant olmuşdur.

2012-cl ildə isə rejissor Fərhadinin çəkdiyi film "Oskar" mükafatanı ala bilmşidir.

Qeyd etmək lazımdır ki İranda iki növ film çəkilir; biri xaricdə göstərilmək üçün (bu filmlər İranda nümayiş etdirilmir), ikincisi isə İranda göstərilmək üçün.

İranda Avropa tipli teatrların yaranması XIX əsrin ikinci yarısına təsadüf edir. «Fərhəng» (mədəniyyət) adlı birinci milli teatr qrupu 1906-1911 ci illər Məşrutə inqilabı illərində Təbrizdə təşkil olunmuşdu. Bu teatrı azərbaycanlılar yaratmışdılar və bu teatrda tamaşalar azərbaycan dilində idi. Ondan sonra «Teatre milli» (milli teatr) teatr kollektivi yarandı. İlk dövrlərdə İran teatrlarında Azərbaycan müəlliflərinin: M.F.Axundov, N.B.Vəzirov, Ə.Haqvediyev, N.Nərimanov və başqalarının yazdıqları dram əsərləri göstərilirdi. XX əsrin 20-ci illərində «Kermanşahı» adlı teatr studiyası öz fırlanan səhnəsi ilə fəaliyyətə başladı.

Ötən əsrin 30-cu illərindən başlayaraq İran teatrlarının repertuarında Molyerin, Şekspirin, Lermontovun əsərləri də oynanılmağa başladı.

XX əsrin 40-cı illərində İranda demokratik hərəkatın fəallaşdığı illərdə teatr sənəti özünün yüksəliş dövrünü yaşadı. Görkəmli İran dramaturqu, rejissoru və aktyoru Əbdülhüseyn Nuşinin təşkil etdiyi «Firdovsi» və «Fərhəng» teatrlarında Şekspirin «Venesiya taciri», Molyerin «Tartüf», M.Qorkinin «Həyatın dibində» əsərləri tamaşaya qoyuldu. 50-ci llərdə «Səda» teatrının tamaşaları rəğbətlə qarşılanırdı.

1960-1970-ci illərdə dövlət tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində teatr sənətində yüksəliş baş verdi. Mədəniyyət nazirliyi və onun nəzdində teatr idarəsi yaradıldı. Ölkədə teatr festivalları keçirilməyə başladı. 1967-ci ildə isə Tehranda Rudəki adına Opera və Balet teatrı fəaliyyətə başladı. İranda ilk opera teatrı isə Cənubi Azərbaycanda 1941-1946-cı illər demokratik hərəkatı zamanı Təbrizdə yaradılmışdı. «Mitra», «Nəsr», «Kəsra», «Sepahan», «Anahita» kimi teatr kollektivləri 60-70-cı illərdə fəaliyyət göstərən teatrlar arasında ən məşhurları idilər. Teatrların repertuarlarında yerli dramaturqların əsərləri ilə yanaşı xarici ölkə dramaturqlarının da əsərləri geniş yer alırdı.

1978-1979-cu illərin inqilabı hadisələri İran teatrının da həyatında əks olunmağa başladı. İnqilab ərəfəsində müstəqil və mütərəqqi teatr kollektivləri dövlət tərəfindən himayədən məhrum edilir, inqilabi hadisələrə rəğbət bəsləyən sənətkarlar təqiblərə məruz qalırdılar. Teatr səhnələrində göstərilən tamaşalar əsasən Qərb yönümlü əsərlərdən ibarət idi və geniş xalq kütlələri tərəfindən bəyənilmirdi.

1979-cu il 11 fevral inqilabı İranın teatr sənətində nəzərə çarpan dəyişikliklər etdi. İslam inqilabının ilk dövründə çoxlu sayda peşəkar və həvəskar teatr kollektivləri yarandı.

1980-ci ildə inqilabı teatrların ilk festivalı keçirildi. 1983-cü ildən başlayaraq «Fəcr» incəsənət festivalı çərçivəsində ənənəvi olaraq teatr festivalı keçirilməyə başladı. 1980-ci illərin əvvəllərində İranda həyata keçirilməyə başlamış «mədəni inqilab» tamaşaya qoyulan əsərlərin məzmununda və xarakterində ciddi dəyişikliklər etsə də, 1990-cı illərin ortalarından başlayaraq İran teatrları yenidən müasir dramaturji proseslərə qoşuldular, İran milli teatrının ən yaxşı ənənələrinə söykənərək, çağdaş İran və xarici ölkə dramaturqlarının əsərlərini İran səhnəsində canlandırmağa başladılar.

İran İslam Respublikasının teatr ustaları xarici ölkələrdə keçirilən teatr festivallarında iştirak edir və mükafatlar əldə edirlər. Belə ki, Venesuelanın paytaxtı Karakasda keçirilmiş VI beynəlxalq dramaturgiya festivalında İran dramaturqu Hüseyn Fərroxinin «Qürub gələcək» pyesi birinci mükafata layiq görülmüşdür.

İranda hər iki ildən bir kukla teatrlarının beynəlxalq festivalı keçirilir. Azərbaycan Respublikasının kukla teatları da bu festivalın daimi iştirakçılarıdırlar.

## MUSİQİ VƏ İNCƏSƏNƏT

Bəşər sivilizasiyanın qədim mərkəzlərindən biri hesab edilən İranın müsiqi sənəti və musiqi mədəniyyəti öz kökləri ilə ən qədim dövrlərə bağlıdır. İran ərazisində yaşayan müxtəlif xalqların musiqi sənətindən qidalanan bu musiqi əsrlərdən bəri nəsillərdən nəsillərə ötürülərək bu günkü günə çatmışdır.

1978-1979-cu il islam inqilabı ərəfəsində İranın zəngin milli müsiqisi milli incəsənətin başqa növləri kimi pop musiqisi və Amerika caz musiqisi vasitəsi ilə sıxışdırılaraq, aradan çıxarılmaqda idi. Radio, televiziya və inqilab ərəfəsində güclü inkişaf etmiş musiqi sənayesi  milli musiqini dəyişdirməkdə idi.

1979-cu il fevral inqilabı musiqi incəsənətinə də təsir etdi. İnqilabdan sonra İran musiqisində inqilabı mahnı, himn və marşlar kimi yeni formalar yarandı.

Tələbələrdən ibarət olan həvəskar qruplar inqilabi mahnı janrının yayılmasında xüsusi rol oynayırdılar.

Eyni zamanda ənənəvi İran milli musiqisi yenidən oyanış dövrünü yaşamağa başladı. Radio və televiziyadan yenidən xalq musiqisi alətlərinin melodiyalarının səsi eşidildi. Lakin 1980-ci ilin aprelindən başlamış «mədəni inqilab» musiqi sənətindən də yan ötmədi. Avropa tipli klassik musiqinin səsləndirilməsi və simfonik orkestrlərin fəaliyyəti dayandırıldı. Tez bir zamanda milli  musiqi dini-mistik rənglərə boyandı.

İran musiqisi və incəsənətinin bir çox görkəmli xadimləri ölkəni tərk etdilər.

Lakin 1990-cı illərin ortalarında ölkənin ictimai-siyasi həyatında başlamış dəyişikliklərlə yanaşı mədəniyyətdə, o cümlədən musiqi sənətində də yeniliklər baş verdi. Simfonik orkestrlərin yaradılmasına yenidən icazə verildi. Gənc və tanınmış ifaçıların konsertləri keçirilməyə başladı. Gənc nəslin tələblərinə cavab verə bilən xalq musiqisi və musiqi stillərinin inkişafına qoyulmuş maneələr aradan götürülməyə başladı.

İran musiqiçilərinin xarici ölkə ifaçıları ilə ilişgiləri artmağa başladı. Hətta «Arif» adlı musiqi ansamblı Londonda keçirilmiş beynəlxalq musiqi müsabiqəsinin qalibi oldu. «Fəcr» incəsənət festivalı çərçivəsində dünya xalqlarının musiqi festivalı

keçirilməyə başladı. Bu festivalda hər il Asiyanın, Afrikanın, Avropa və Amerikanın bir çox musiqi kollektivləri iştirak edir.

Musiqi sənayesi yenidən inkişaf etməyə başladı. Hazırda İranda 100-dən çox musiqi yazan firma fəaliyyət göstərir ki, bunların 95%-i özəl sektora məxsusdur.

## TƏSVİRİ İNCƏSƏNƏT

İranın təsviri-incəsənəti qədim ənənələrə malik bir sənətdir. Onun əsasları islamdan əvvəlki «Təxti-cəmşid» (Persepolis) təsvirlərinə, islam dövründəki məscid yazılarına və bəzəklərinə, Təbriz miniatür məktəbinin başçılıq etdiyi miniatür təsviri sənət abidələrinə söykənir.

İnqilabdan əvvəl İranda rəssamlıq heykəltəraşlıq, miniatür, mozaika işləri öyrədən bədii təsvir mərkəzləri və məktəbləri fəaliyyət göstərirdilər.

1960-cı ildə Tehran Universitetində nəcib sənətlər fakultəsi açılmış, Şirazda, İsfahanda, Təbrizdə və başqa böyük şəhərlərdə milli incəsənət məktəbləri fəaliyyət göstərirdi.

Təsviri incəsənətdə inqilabdan əvvəl peysaj və portret rəssamlığı aparıcı istiqamət idi. İnqilab ərəfəsində modernizm və digər Qərb cərəyanları İran təsviri incəsənətində hakim cərəyanlara çevrilməyə başlamışdı.

1979-cu ilin 11 fevral inqilabı təsviri-incəsənətin bütün janrlarına təsir göstərdi. İnqilabın qələbəsindən sonra həm peşəkar, həm də həvəskar rəssamlar inqilabı hadisələri əks etdirə bilən yeni forma, mövzu və obrazlar axtarmaq məqsədi ilə yaradıcılıq qrupları və təşkilatlarında birləşməyə başladılar. Plakat rəssamlığı və qrafika sənəti geniş şöhrət qazandı. İslam İnqilabının qələbəsinin birinci ili bayram edilən zaman Tehranda müa-

sir incəsənət muzeyində həm peşəkar, həm də həvəskar rəssamların əsərlərindən ibarət sərgi təşkil edildi.

Lakin 1980-cı ilin aprel ayından həyata keçirilməyə başlamış «mədəni inqilab» təsviri incəsənətin bütün janrlarında, xüsusən rəssamlıq sənətində böyük dəyişikliklərə səbəb oldu. Mədəniyyət və İslam İrşadı Nazirliyi yaradıldıqdan sonra nazirlik və «mədəni inqilab qərargahı» rəssamlığın müxtəlif janrları üçün mövzular müəyyənləşdirməyə başladılar. İslam simvolikası təsviri incəsənətdə böyük əhəmiyyət kəsb etməyə başladı. Plakat sənətində daha çox inqilab rəhbərləri və islam müqəddəsləri təsvir olunmağa başladılar. İslam ideologiyasının tələblərini qəbul edə bilməyən İranın bir çox məşhur rəssamları ölkəni tərk edərək xarici ölkələrdə fəaliyyət göstərməyə başladılar.

Lakin ötən əsrin 90-cı illərinin ortalarından başlamış bir çox islahatlar və islam ideologiyasındakı «yumşaltmalar» təsviri incəsənətə də, öz təsirini göstərməyə başladı. İran rəssamları başqa mövzularda da işləməyə başladılar. Son dövrlərdə həm İranda, həm də İrandan kənarda təşkil edilən İran rəssamlarının əsərlərinin sərgiləri qeyd olunanları sübut edir.

## İDMAN

Müasir idmanın müxtəlif növləri hələ qədim zamanlardan İranda mövcud olmuşdur. İran tarixinə dair sənədlərdə, İranın görkəmli klassik şairlərinin əsərlərində bu ölkədə atçapma (cıdır), çövkan, güləş və s. idman növləri üzrə yarışlar keçirilməsi haqqında məlumatlar vardır.

İdmanın müasir növləri İranda ötən əsrin 20-ci illərindən sonra inkişaf etməyə başlamışdır. 1925-ci ildə İranda ilk futbol komandası yaradılmışdı. 1934-cü ildə bədən tərbiyəsi və idman

üzrə milli təşkilatın yaradılması ilə idman sahəsinə mərkəzləşdirilmiş rəhbərlik həyata keçirilməyə başladı. XX əsrin 30-cu illərindən başlayaraq İranda futbol, ağır atletika, sərbəst güləş üzrə milli çempionatlar keçirilir. İran 1946-cı ildən ağır atletika üzrə beynəlxalq federasiyanın üzvüdür. 1948-ci ildə isə FİFA-ya üzv qəbul edilmişdir. İran 1948-ci ildən başlayaraq ümumdünya olimpiadalarında iştirak edir.

Hal-hazırda idman hərəkatı İran İslam Respublikasında bədən tərbiyəsi təşkilatının rəhbərliyi altında inkişaf edir. Bu təşkilatın rəhbəri İran hökumətinin üzvüdür. Adı çəkilən təşkilat hazırda 30-a yaxın idman federasiyasına nəzarət edir. Bu təşkilatın sərəncamında 200-ə qədər üzgüçülük hovuzu və qaçış meydanları, 200-ə qədər futbol meydançası, çoxlu sayda voleybol və basketbol meydaçaları vardır. Lakin mövcud idman təsisatları ehtiyacları ödəmədiyi üçün İran İslam Respublikası hökuməti hər il ölkədə idmanın inkişafı üçün xeyli miqdarda vəsait ayırır.

İran İslam Respublikasında idmanın inkişafı ilə bağlı problemlər də yox deyildir. Bunlar hər şeydən əvvəl bəzi idman növlərinin islam əxlaqi və normalarına cavab verib-verməmələri ilə bağlıdır. Qadınların idman ilə məşğul olmaları üçün xüsusi zallar və idman təsisatlarının ayrılmasına baxmayaraq, qadın idmanı xeyli ləng inkişaf edir.

İran İslam Respublikasının idmançıları həm regional, həm ümumasiya, həm də ümumdünya miqyaslarında keçirilən müsabiqə və yarışlarının daimi iştirakçılarıdırlar. Bu yarışlarda İran idmançıları yüksək nəticələr və dünya rekordları əldə edirlər.

## İRAN TƏQVİMLƏRİ

Müasir İranda üç təqvim sistemi mövcuddur. Bunlar şəmsi təqvimi, hicri təqvimi və miladi təqvimdir.

İran İslam Respublikası dövlətinin rəsmi təqvimi şəmsi (günəş) təqvimdir. Bu təqvim İran məclisinin qərarı ilə 1925-ci il mart ayının 21-də tətbiq olunmağa başlamışdır. Bu təqvimə görə il 365 və ya 366 gündən ibarətdir. İl on iki aydan ibarətdir. İlin birinci 6 ayı 31 gün, 5 ayı, 30 gün, axırıncı ayı isə 29 gündür. (İl yüksək olanda 30 gün). İranda yeni il baharın gəlməsinin ilk gününə (martın 20 və ya 21-i) təsadüf edir.

İran İslam Respublikasının müasir şəmsi təqviminin ayları aşağıdakılardır:

1) Fərvərdin – 31 gün (21.03-20.04)
2) Ordibehişt – 31 gün (21.04-21.05)
3) Xordad – 31 gün (22.05-21.06)
4) Tir – 31 gün (22.06-22.07)
5) Mordad – 31 gün (23.07-22.08)
6) Şəhrivər –31 gün (23.08-22.09)
7) Mehr – 30 gün (23.09-22.10)
8) Aban – 30 gün (23.10-21.11)
9) Azər- 30 gün (22.11-21.12)
10) Dey – 30 gün (22.12-20.01)
11) Bəhmən-30 gün (21.01-19.02)
12) İsfənd – 29(30) gün (20.02-20.03)

İranın müasir şəmsi təqviminin ayları 7 günlük həftələrə ayrılır. Həftə günlərinin adları aşağıda kimidir.

Şənbe- (həftənin ilk günü)

Yekşənbe – bazar

Doşənbe – bazar ertəsi
Seşənbe – çərşənbə axşamı
Çaharşənbe – çərşənbə
Pəncşənnbe – cümə axşamı
Come – cümə

İran İslam Respublikasında istirahət günü cümə günüdür.

Şəmsi tarixini miladi (qriqorian) tarixə çevirmək üçün həmin tarixi göstərən rəqəmə 621 rəqəmi əlavə edilir. Məsələn, hazırda İranda 1391-cı ildir. Bu rəqəmə 621 əlavə etdikdə 2012-ci il alınır (və əksinə)

Şəmsi tarixi kimi hicri (ay) tarixi də İranda rəsmi tarix hesab edilir. İran İslam Respublikasının bütün rəsmi sənədlərində şəmsi tarixi ilə yanaşı hicri tarixi də qeyd edilir.

Hicri tarixində isə bir il 355 gündən ibarətdir. Hicri ili hər biri 30 və 29 olmaqla 12 aydır. Hicri ilinin ayları aşağıdakılardır:

- məhərrəm
- səfər
- rəbiələvvəl,
- rəbiəlaxir,
- cəmadiyələvvəl,
- cəmadiyəlaxır,
- rəcəb,
- şəban,
- ramazan,
- şəvval,
- zülqədə
- zülhiccə

33 hicri ili 32 şəmsi və ya miladi ilinə bərabərdir. Buna görə də, hicri ilini miladi ilinə çevirmək üçün xüsusi riyazi

düsturdan istifadə edirlər. Bu düstür belədir. Hicri ilini miladi ilə çevirmək üçün:

Hicri ili – (hicri ili bölünsün 33-ə ) + 622 = miladi ili.

Miladi ilini hicri ilinə çevirmək üçün:

Miladi il – 622 + (miladi il -622 bölünsün 32) = Hicri il.

Bu düstürlardan istifadə edərkən hicri ilinin axırıncı ayının növbəti ilə keçməsinin mümkün olması nəzərə alınmalıdır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. C.A.Məmmədov, H.B.Soltanova. İran və Əfqanıstanın coğrafiyası. Bakı – 1989-cu il. Azərnəşr.
2. Azərbaycan tarixi. Ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər. Bakı – Elm nəşriyyatı – 1993-cü il.
3. Иран и Афганистан. История и современность . Институт Востоковедение АН СССР. Баку – Эльм – 1990 г.
4. В.Бартольд. Иран. Исторический обзор. Ташкент – 1926 г.
5. Гуламхусейн Гуламхусейнзаде. Ирановедение. (Культурный центр Посольства Исламской Республики Ирана в Туркменистане. – Ашхабад – 2003 г.
6. Успехи исламской революции в Иране за 20 лет. Аналитический взгляд на достижения Исламской республики Ирана в политической, культурной и социально-экономических сферах. Сеид Али Миджани. Иран. Тегеран – 2002 г.
7. История Ирана с древнейщих времен до конца XV111 века. Издательство Ленинградского Университета.-1957
8. Новая история Ирана. Хрестоматие. Москва. Наука – 1988 г.
9. Современный Иран. Справочник. Москва. Наука – 1975 г.
10. Современный Иран. Справочник. Москва. Наука – 1993 г.
11. İran İslam Respublikasının Konstitusiyası. (1979-cu ildə qəbul edilmişdir). Azərbaycan bilik cəmiyyəti. Bakı-1993.
12. 1370-1381 (2001-2002) ci illər üçün İran İslam Respublikasının statistik məlumatları (fars dilində).
13. «İran»- qəzeti (fars dilində)
14. «Came cəm»-qəzeti (fars dilində)
15. Iran/ru/.Krugosvet.Ru və s. saytları

# MÜNDƏRİCAT

Ön söz ........................................................................ 3
İran İslam Respublikasının coğrafiyası ................................... 4
Faydalı qazıntılar ........................................................ 7
İqlimi .......................................................................... 9
İranın hidroqrafiyası ...................................................11
Torpaq, bitki və heyvanlar aləmi ...........................................13
İranın tarixi .................................................................16
Əhalisi ........................................................................91
İqtisadiyyatı ...............................................................144
Kənd təsərrüfatı...........................................................148
Sənaye .......................................................................153
Neft sənayesi ...............................................................154
Dağ – mədən sənayesi...................................................156
Emal sənayesi ..............................................................158
Elektroenergetika .........................................................160
Nəqliyyat və rabitə .......................................................161
Rabitə..........................................................................165
İran İslam Respublikasının maliyyə sistemi...........................166
Dövlət büdcəsi ..............................................................170
İran İslam Respublikasının xarici iqtisadi əlaqələri ...............171
Təhsil ......................................................................... 174

Səhiyyə ....................................................................................181
Muzeylər...................................................................................183
Mətbuat....................................................................................184
Radio və televiziya......................................................................186
Kino və teatr..............................................................................189
Musiqi və incəsənət.....................................................................193
Təsviri incəsənət ........................................................................194
İdman.......................................................................................196
İran təqvimləri............................................................................197
İstifadə edilmiş ədəbiyyat ..............................................................200

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
Z.M.BÜNYADOV ADINA ŞƏRŞÜNASLIQ İNSTİTUTU

# İRAN İSLAM RESPUBLİKASI

(MƏLUMAT  KİTABI)

Çapa imzalanmışdır: 01.12.2010
Formatı: 60x84 1/16
Ç.v.: 12,5
Sifariş: 09
Tiraj: 500

“Bakı Çap Evi”ndə çap olunmuşdur.
Ünvan: Bakı ş., H.Abbasov 128a.
Tel.: (+994 12) 418 34 88